**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU PHŞ**

**NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTUNDA**
**2025-Cİ İLDƏ İCRA EDİLMİŞ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN YEKUNLARI ÜZRƏ**

# ELMİ-PRAKTİK KONFRANSIN MATERİALLARI

**(TEZİSLƏR TOPLUSU)**

**Naxçıvan, 02 dekabr 2025**

## ELMİ-PRAKTİK KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

### SƏDR

- Elşən Məmmədov, Naxçıvan Müəllimlər İnstitutunun rektoru v.i.e.

### SƏDR MÜAVİNİ

- Qurban Qurbanlı, Naxçıvan Müəllimlər İnstitutunun Elm və innovasiya məsələləri üzrə prorektoru

### MƏSUL KATİB

- Gülnar Hüseynova, Naxçıvan Müəllimlər İnstitutunun Elmi fəaliyyətin təşkili və təhlili üzrə baş metodisti

### ÜZVLƏR

- Xəyal Camalov, Ümumi işlər üzrə prorektor;
- Samirə Həsənova, Pedaqoji fakültənin dekanı;
- Rövşən Vəliyev, Təbiət və incəsənət fakültəsinin dekanı;
- Yaqub Məmmədov, Riyaziyyat və informatika kafedrasının müdiri;
- Həsənəli Eyvazov, Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri;
- Sevinc Vəliyeva, Pedaqogika və psixologiya kafedrasının müdiri;
- Həbibə Allahverdiyeva, İncəsənət kafedrasının müdiri
- Aytəkin Qəhrəmanova, Humanitar və ictimai fənlər kafedrasının müdiri;
- Nurlanə Novruzi, Ümumi fənlər kafedasının müdiri;
- Bəyim Tarverdiyeva, Xarici dillər və tədrisi metodikası kafedrasının müdiri;
- Rasim Babayev, Təsərrüfat və xidmət şöbəsinin müdiri;
- Ənnağı Əsgərov, “Məktəb” nəşriyyatının direktoru.


### Konfrans materiallarının nəşri haqqında

*Toplu Naxçıvan şəhərində 02 dekabr 2025-ci il tarixdə keçirilmiş Naxçıvan Müəllimlər İnstitutunun “2025-ci ildə icra edilmiş elmi-tədqiqat işlərinin yekunları” üzrə elmi-praktik konfransının materialları əsasında hazırlanmış və Naxçıvan Müəllimlər İnstitutu Elmi Şurasının 11 dekabr 2025-ci il tarixli (pr. №07) qərarı ilə nəşrə tövsiyə edilmişdir. Topluya daxil edilən materiallar Strikeantiplagiarism proqramından keçirilmişdir.*

***Buraxılışına məsul***

***Qurban Qurbanlı,*** *Naxçıvan Müəllimlər İnstitutunun Elm və innovasiya məsələləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent*

***Gülnar Hüseynova,*** *Naxçıvan Müəllimlər İnstitutunun Elmi fəaliyyətinin təşkili və təhlili üzrə baş metodisti, fəlsəfə doktoru hazırlığı üzrə doktorant*


***Qeyd: Elmi məlumatların səhihliyinə görə məsuliyyət müəlliflərin üzərinə düşür***


Elmi-praktik konfrans
25 il
Naxçıvan Müəllimlər İnstitutunda
2025-ci ildə icra edilmiş
PLANLI ELMİ-TƏDQİQAT İŞLƏRİNİN YEKUNLARI ÜZRƏ
02.12.2025
Naxçıvan
NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU
2000


Elmi-praktik konfrans
NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU
2000









# MÜNDƏRİCAT

**Yaqub Məmmədov.** İbtidai siniflərdə kompüter texnologiyasının təlim prosesinə tətbiqinin xüsusiyyətləri....................10

**Rövşən Həsənov.** Ümumiləşdirmə təfəkkür fəaliyyəti priyomu və onun cəbr kursunda tədqiqi.......12

**Rövşən Vəliyev.** VIII sinifdə riyaziyyatdan ayrı-ayrı məzmun xətləri üzrə mövzuların tədrisi prosesində fənndaxili və fənlərarası əlaqələrin yaradılması məsələləri ..........15

**Azad Novruzov.** Ümumtəhsil məktəblərində riyazi analiz anlayışlarının öyrədilməsinin pedaqoji-psixoloji məsələləri..........17

**Nazilə Muradova.** Ümumi təhsil məktəb riyaziyyat kursunda paralel köçürmənin təlimi xüsusiyyətləri və onun məsələ həllinə tətbiqi ..........19

**Südabə Məmmədova.** İbtidai sinif dərsliklərindəki çətinliklər, anlaşılmazlıqlar, dil problemləri ...21

**Arzu Səfərova.** İbtidai sinif riyaziyyat kursunda analiz və sintez üsulunun tətbiqi ..........24

**Gülnar Hüseynova.** İbtidai təhsil səviyyəsində kurikulum çərçivəsində informatika və riyaziyyat fənninin inteqrativ tədrisi..........25

**Zinyət Əliyeva.** Montessori təlim metodunun məktəbəqədər müəssisələrdə tətbiqinin önəmi..........27

**Şəhla Bağırova.** Ümumitəhsil məktəblərinin riyaziyyat kurikulumunda istifadə olunan İKT avadanlıqları ..........29

**Sahib Əliyev.** Ortonormal Lejandr çoxhədlilər sisteminin texnologiyası ..........31

**Elşad Ağayev.** Dəyişənlərinə ayırma üsulunun tətbiqi ilə hiperbolik tipli tənliklər üçün qoyulmuş sərhəd məsələlərinin həllərinin qurulması..........33

**Ələsgər İmanov.** İnformatika fənninin məqsəd və vəzifələrinin tədrisinin xüsusiyyətləri..........35

**Aygün Sultanova.** Frontal laboratoriya işləri ..........37

**Kəmalə İbrahimova.** Rekursiv obyektlər: ağacların təsviri ..........38

**Aygün Məmmədova.** Riyazi analiz kursunun təliminin metodik sisteminin qurulması..........40

**Gülən İmamquliyeva.** Ümumi təhsil məktəb riyaziyyatı kursunda informatika fənninin təlimi xüsusiyyətləri .......... 42

**Həsənəli Eyvazov.** M.Rzaquluzadənin uşaq yaradıcılığında vətəndaşlıq mövqeyi və onun tədrisdə yeri ......44

**Yusif Səfərov.** Şagirdlərin şifahi düşüncə tərzinin inkişafında tapmaca və onun şəkli xüsusiyyətləri tədrisinin metedoloji əsasları..........46

**Nəzakət İsmayılova.** Müstəqillik dövrü uşaq ədəbiyyatında yeniliklər və onların tədrisdə yeri.......48

**Ramiz Qasımov.** Poeziyada milli və bəşəri ideallarının təcəssümü (Həsənəli Eyvazlının bədii yaradıcılığı əsasında)..........50

**Aytən Cəfərova.** Atalar sözləri, məsəllərin tədrisi əhəmiyyəti və problemləri..........52

**Şərəbanı Məmmədova.** M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında fondun təşkili prinsiplərinin araşdırılması ..........54

**Təranə Qəbulova.** Müasir dövrdə mütaliə və bədii ədəbiyyatın söz sənəti kimi qavranılması, oxucu marağının inkişaf etdirilməsi problemi..........57

**Samirə Həsənova.** Orta məktəblərdə cümlə və ona məxsus sintaktik çalarların müasir təlim metodları əsasında tədrisi zamanı qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları ..........59

**Sədaqət Həsənova.** Azərbaycan dili morfologiyasının tədrisi problemləri (köməkçi nitq hissələri üzrə) ........ 62

**Nuray Əliyeva.** Azərbaycan dilinin dialekt fonetikasının tədrisdə yeri və metodoloji əsasları ........ 65

**Fəxriyyə Cəfərova.** İbtidai siniflərdə morfoloji qaydaların tədrisinin didaktik əsasları ........ 68

**Şəhla Fətəliyeva.** Morfologiyanın tədrisində şagirdlərin nitqini inkişaf etdirməyin metodik əsasları ........ 71

**Əhruz Mahmudova.** Orta məktəblərdə Azərbaycan dili fənninin tədrisində ayrı-ayrı təhsil səviyyələri arasında əlaqələrin yaradılmasının imkan və yolları ........ 72

**Günay Şirəliyeva.** Nitq inkişafının linqvistik əsasları ........ 74

**Şəbnəm Əliyeva.** Oxu materiallarının dildə obrazlılığı üzərində işin təşkili metodikası ........ 77

**Səbinə Dünyamalıyeva.** Ali məktəblərdə Azərbaycan ədəbiyyatında avropa ədəbi-fəlsəfi nümunələrin elmi – metodiki təhlili ........ 79

**Sevinc Vəliyeva.** Ali təhsil müəssisələrində ekoloji təhsilin cari vəziyyəti ........ 83

**Kamal Camalov.** İbtidai siniflərdə təlim işinin təşkili ........ 85

**Tahirə Hüseynova, Aysen Məmmədova.** Kiçik məktəbyaşlı uşaqlarda əmək tərbiyəsinin formalaşmasında xalq pedaqogikasının rolu ........ 87

**Ruhəngiz Əliyeva.** Məktəblilərin özünütərbiyə prosesinin təşkili: metodlar və vasitələr ........ 90

**Ülviyyə Nağıyeva.** Pedaqoji təcrübənin subyekti olan gələcək müəllimlərin şəxsi və fərdi keyfiyyətlərinin inkişaf etdirilməsi ........ 92

**Kifayət Əhmədova.** Ailədə uşaqların əmək tərbiyəsinə alışdırılmasının əhəmiyyəti və vəzifələri .. 94

**Gülmira Hacıyeva.** Səfərəli bəy Vəlibəyovun pedaqoji düşüncələri və pedaqoji fəaliyyəti ........ 97

**Qızıltac Şahbazova.** Kiçik məktəbyaşlı şagirdlərin mənəvi tərbiyəsində ailənin rolu ........ 99

**Nəzakət Yusifova.** Şəxsiyyətin öyrənilməsi pedaqogikanın aktual problemi kimi ........ 100

**Şəhla Süleymanova.** İbtidai sinifdə “Azərbaycan dili” və “Texnologiya” fənninin tədrisi prosesində istedadlı uşaqların aşakara çıxarılması metodikası ........ 102

**Tamara Baxşəliyeva.** Məktəbdaxili qiymətləndirmənin reallaşdırılması zamanı qarşıya çıxan problemlər ........ 104

**Fatma İslamlı.** Kiçik məktəb yaşı dövründə idraki proseslərin inkişafına təsir edən əsas amillər . 107

**Günay Babayeva.** Məktəbəqədər təhsildə və ibtidai sinifdə tədris prosesində pedaqoji texnologiyalardan istifadənin müasir yolları ........ 109

**Salatın Hacıyeva.** Döyüş şəraitinin hərbi xidmətçilərin psixikasına təsiri ........ 112

**Sevinc Orucova.** Ali təhsil müəssisələrində təlim-tərbiyə işinin sosial-psixoloji əsasları ........ 115

**Zeynab Mehdiyeva.** Məktəbəqədər yaşlı uşaqların psixoloji inkişaf vasitəsi kimi ........ 118

didaktik oyunlardan istifadə ........ 118

**Nüşabə Məmmədova.** Praktik psixoloqun müəllimlərlə, valideynlərlə və şagirdlərlə həyata keçirdiyi psixoprofilaktik işlər ........ 120

**Ülviyyə Fətəliyeva.** Müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının qiymətləndirilməsi və inkişaf yolları ........ 122

**Ayxan Hüseynli.** Analoji tədqiqat psixoloji biliyin əqli nəticəsi kimi ....126

**Bəyim Tarverdiyeva.** Lüğətin tədrisinə verilən proqram tələbləri və tədrisində istifadə olunnan üsullar ....128

**Qurban Qurbanlı.** Müasir təhsil texnologiyalarının təsnifatı və rus dilinin xarici dil kimi öyrədilməsində tətbiqi məsələləri ....131

**Ayşən İmanlı.** Xarici dilin tədrisində ənənəvi metodlardan istifadənin üstün və mənfi cəhətləri ...133

**Şəfəq Muradova.** Xarici dilin tədrisində istifadə olunan tərcümə metodları ....135

**Şəhla Piriyeva.** Xarici dilin tədrisində ənənəvi və müasir metodların müqayisəli təhlili ....137

**Aytəkin Əliyeva.** Xarici dilin tədrisi prosesində istifadə ediləcək materialların seçilməsinin psixoloji əsasları ....138

**Əli Qasımov.** İngilis dilində afirmativliyin çatdırılması ....140

**Gülmirə Əliyeva.** İngilis dili qlobal dil kimi ....142

**Aysun Hacıyeva.** Tarix və İSM müəllimliyi ixtisaslarında xarici dil (ingilis dili) fənninin tədrisinin aktual məsələləri ....144

**Aynur İsayeva.** Kulturoloji amillərin ingilis dilinin leksik sisteminin zənginləşməsində rolu....147

**Aytəkin Qəhrəmanova.** Tarixin təlim metodları və onların təsnifatı ....150

**Zeynəb Quliyeva.** Debat, müzakirə metodlarından istifadə üsullarının tarixi mövzuların mənimsənilməsinə təsiri....152

**Sara Hacıyeva.** Orta əsrlər dövrü türk xalqları tarixinin öyrənilməsində milli və dini dəyərlərin rolu ....154

**Aslan İbrahimov.** Tələbələrdə tarixi materialları analtik təhlil və sintez etmək bacarıqlarının formalaşdırılması və inkişafının metodikası ....156

**Günay Əlizadə.** "Azərbaycan tarixi" fənnindən mühazirə, seminar və auditoriyadankənar saatların təşkilinə dair ....157

**Qorxmaz Hacızadə.** Azərbaycan tarixində və dünya tarixində quldarlıq quruluşunun müqayisəli təhlil metodikası....159

**Altay Cəfərli.** 1993-2003-ci illərdə (sabitliyin bərpası və dövlət quruculuğu dövrü) Naxçıvan tarixçilərinin elmi fəaliyyəti ....161

**Nurlanə Novruzi.** "Uşaq anatomiyası, fiziologiyası və gigiyenasının əsasları" fənnindən mühazirə və seminar dərslərinin təşkilinə dair....165

**Nizami Quliyev.** Azərbaycan təhsil müəssisələrində problemli təlim texnologiyalarının təhsil prosesində tətbiqi ....167

**Oktay Rzayev.** "Kimyəvi şəraitin aşkar olunması və qiymətləndirilməsinin qanunauyğunluqları" mövzusunun tədrisi xüsusiyyətləri ....168

**Təranə Əliyeva.** Məktəbəqədər yaşlı uşaqların oyun və əmək fəaliyyətinin təşkili qaydaları....170

**Coşqun Qurbanov.** Peşəyönümü üzrə şagirdlərin praktik fəaliyyəti peşəseçmənin başlıca vəzifələrindən biri kimi ....172

**Xatın Ağayeva.** Voleybol oyununun tədrisi metodikasında müasir tələblər ....174

**Gülnarə Səfərova.** VIII sinifdə "Biologiya" fənninin tədrisində interaktiv təlim metodlarının tətbiqi məsələləri ........ 176

**Arzu Qurbanova.** "Elektrik enerjisinin mahiyyəti, alınması, ölçülməsi və istifadəsi yolları" mövzusunun tədrisinin xüsusiyyətlətinə dair ........ 178

**Həbibə Allahverdiyeva.**Rəsm (xətlər) rəngkarlığın təməli kimi ........ 179

**Nizami Alıyev.** Naxçıvan teatr rəssamlarının yaradıcılığının tədrisinin aktual məsələləri (1991-2025) ....... 181

**Həbib Allahverdiyev.** Batal janrının metodiki xüsusiyyətləri ........ 183

**Rübabə İmanlı.** Dekorativ-tətbiqi sənətlərin bədii üslub xüsusiyyətləri ........ 185

## Bölmə 1. Riyaziyyatın tədrisi metodikası

## Kafedra: Riyaziyyat və informatika

**Yaqub Məmmədov**
*Riyaziyyat üzrə elmlər doktoru, dosent*
*Kafedra müdiri, kafedranın professoru*
*YagubMammadov@nmi.edu.az*

# İbtidai siniflərdə kompüter texnologiyasının təlim prosesinə tətbiqinin xüsusiyyətləri

**Tədqiqatın məqsədi.** İbtidai siniflərdə kompüter texnologiyasının təlim prosesinə tətbiqinin xüsusiyyətlərini araşdırmaqdır.

**Mövzunun aktuallığı.** Öyrənilməsi lazım olan informasiyaların dayanmadan artdığı müasir cəmiyyətdə təlim zamanı kompüter texnologiyalarından istifadə edilməsi ən səmərəli yollardan biridir. Aydındır ki, həmin texnologiyaları məqsədəuyğun şəkildə ibtidai sinif şagirdlərinin təlim fəaliyyətinə yönləndirdikdə mənimsəmənin səmərəliliyinə olduqca müsbət təsir göstərir. Tədris prosesində kompüterin qrafik, mətn, səs, video, şəkil və digər informasiya resurslarını eyni zaman müddətində çatdırmaq imkanları bilik, bacarıq və vərdişlərin aşılanması üçün ibtidai sinif şagirdlərinin əsas hiss üzvlərinə kompleks şəkildə təsir göstərməyə şərait yaradır. Təlimdə informasiya və kommunikasiya texnologiyalarından istifadə şagirdlərə çatdırılacaq informasiyaların həcmini artırmağa, onların idrak fəaliyyətini fəallaşdırmağa, materialı çatdırma formasını dəyişdirməyə və s. imkan yaradır. Hal-hazırda elm və texnikanın sürətlə inkaşafı dövründə və respublikamızda kompüterləşmə həyatımıza fəal şəkildə daxil olduğu halda təlim-tədris prosesində kəskin dəyişikliklər baş verir, müxtəlif yeni forma və metodlar tətbiq edilir. Hələ ibtidai siniflərdə şagirdlərin ilk dərslərdə kompüterlə tanışlığı deyilən imkanları artırır. Xüsusilə, ilk vaxtlarda onların yaş xüsusiyyətlərini və meylini nəzərə alaraq adi oyun, şəkil, diaqram nümayişlərindən istifadə etmək zəruridir. Şagird və müəllim bu mürəkkəb, eyni zamanda maraqlı texnikadan daim məlumatlar alır.

Müasir dövrdə təlim prosesində audiovizual vasitələrdən istifadənin rolu daha çox genişlənmişdir. Belə vasitələrdən istifadə edilməsi fənlərin tədrisində müəllimin məlumatvermə funksiyasını həyata keçirmə imkanını artırır.

İbtidai siniflətdə kompüter tüxnologiyasının tətbiqi zamanı proqramlaşdırılmış təlimdən, xüsusilə, proqramlaşdırılmış təlim avadanlıqlarından istifadəyə müəyyən yer verilir. Şagirdlərə belə bir təlimlə bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesini idarə etmək yolu ilə öyrətmək, təlim vermək nəzərdə tutulur.

Tədris prosesində informasiya texnologiyalarından, xüsusən kompüter texnologiyalarından istifadə yüksək nəticələr əldə etmək üçün zəmin yaradır.

Təlim prosesində yeni təlim texnologiyalarından istifadə edildikdə informasiyalar şagirdlərə ya auditiv, ya da vizual yolla çatdırılır. Lakin bu iş üçün kompüterin qrafik, mətn, səs, video, şəkil və başqa informasiyaları eyni zamanda çatdırmaq imkanları mövcuddur. Bu isə şagirdlərə bilik, bacarıq və vərdişlərin aşılanması üçün onların əsas hiss üzvlərinə kompleks təsir etməyə şərait yaradır. Bütün bunlar tədris prosesində şagirdlərə zəruri informasiyaları qavramağa, özlərinin bilik, bacarıq və vərdişlərini təkmilləşdirməklə yanaşı, maraq dairələrini genişləndirməyə, imkan verir, tədris prosesini isə daha da rəngarəng və cəlbedici olmasına kömək edir. Bu isə mövzunun aktuallığına dəlalət edir.

**Tədqiqatın metod və üsulları.** Tədqiqat işində müşahidə, müsahibə, anket sorğusu, müəllimin şərhi, induksiya, deduksiya təlim üsullarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində aşağıdakı elmi yeniliklər alınmışdır:

- təlimdə kompüter texnologiyalarının tətbiqi müəllim ilə şagirdlərin fəal ünsiyyətini təmin edir;
- yeni texnologiyalar müəllimə tədris prosesini daha səmərəli təşkil etmək üçün geniş imkanlar yaradır;
- multimedia texnologiyalarının tədrisdə tətbiq edilməsinə imkan yaradır;
- təhsil alanların biliyinin qiymətləndirilməsi üçün yeni üsul və vasitələrdən istifadə ediiməsini təmin edir;
- qısa müddətdə şagirdlərə daha çox bilik, bacarıq və vərdişlər aşılamağa, başqa sözlə, müəllimi təlimin səmərəsini yüksəltməyə sövq edir;
- şagirdlərin müstəqil olaraq bilik, bacarıq və vərdişlər əldə etmələrinə şərait yaradır;
- müəllimlərə professional hazırlıqlarını artırmaq üçün internetin informasiya resurslarindan istifadə edilməsinə köməklik göstərir;
- təlimdə şagirdlərə yeni informasiya texnologiyalarının bütün imkanlarından həmçinin, informasiya bolluğu şəraitində onların bu informasiyalardan səmərəli istifadə etməsinə, özlərinin bilik, bacarıq və vərdişlərə yiyələnmə səviyyəsini müəyyən etməyə geniş imkanlar açır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqat işi ibtidai siniflərdə riyaziyyat və informatika fənlərinin inteqrasiyalı şəkildə tədrisində böyük əhəmiyyətə malikdir və tədqiqat işindən orta məktəb ibtidai sinif müəllimləri, İSM ixtisası tələbələri, magistr və doktorantlar istifadə edə bilərlər.

Elmi-tədqiqat işində aşağıdakı nəticələr alınmışdır.

Biliklərin yeni formalarda təqdim olunması və informasiyaya müraciət edilməsi, təlim və öyrənmənin açıq təhsil arxitekturası əsasında təşkili təhsil alma prosesinin təkmilləşdirilməsi üçün yeni imkanlar yaradır. Bununla belə İKT vasitələrinin kütləvi təhsildə tətbiqi tədqiqatçı və praktiklər qarşısında bir sıra problemlər yaradır. Bu problemlərə təhsilin məqsədlərinin və məzmununun təlim olunana şəraitə uyğun müəyyən edilməsi, təhsil alma prosesinin təşkili, idarə olunması və sair daxildir. Müasir informasiya texnologiyalarının tətbiqi ilə əlaqədar tədris prosesinin idarə olunması üçün ümumi tələblərə cavab verən tədris müəssisəsi, onun müəllim, valideyn və şagird kontigenti olmalıdır. İKT-nin fənlərin tədrisində tətbiqi yeni metodiki addımdır. Müəllim psixoloji və texniki cəhətdən yeni metodikaya adaptasiya olunmalıdır. Bütün çətinlikləri aradan qaldırmaq üçün pedaqoji kollektiv vaxtaşırı treyninqlərdə olmalı və müasir informasiya texnologiyalarının tətbiqi ilə tədris prosesinin səmərəliliyini və asanlaşmanı özləri hiss etməlidirlər.

İbtidai siniflərdə kompüter texnologiyasının təlim prosesinə tətbiqi şagirdlərə zəruri informasiyaları qavramağa, özlərinin bilik, bacarıq və vərdişlərini təkmilləşdirməklə yanaşı, maraq dairələrini genişləndirməyə, imkan verir, tədris prosesinin isə daha da rəngarəng və cəlbedici olmasına kömək edir.

## Bölmə 1. Riyaziyyatın tədrisi metodikası

## Kafedra: Riyaziyyat və informatika

**Rövşən Həsənov**
*Pedaqogika üzrə elmlər doktoru, dosent*
*RovshanHasanov@nmi.edu.az*

# Ümumiləşdirmə təfəkkür fəaliyyəti priyomu və onun cəbr kursunda tədqiqi

***Tədqiqatın məqsədi.*** Aparılan tədqiqatın məqsədi Cəbr kursunda "ümumiləşdirmə" təfəkkür fəaliyyəti priyomunun psixoloji-pedaqoji mahiyyətini araşdırmaq, onun tədrisdə tətbiq oluna biləcək metodik formalarını əsaslandırmaq və bu priyom vasitəsilə şagird və tələbələrin riyazi-mücərrəd təfəkkürünün inkişafına təsir mexanizmlərini müəyyən etməkdir. Bununla yanaşı, ümumiləşdirmə, mücərrədləşdirmə və konkretləşdirmə kimi idrak priyomlarının cəbr materialında praktik tətbiq imkanları təhlil edilir.

***Aktuallığı.*** Müasir riyaziyyat təlimində şagird və tələbələrin analitik və mücərrəd təfəkkür bacarıqlarının formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Riyazi biliklərin mənimsənilməsi prosesində ümumiləşdirmə priyomu əsas idrak mexanizmlərindən biri kimi çıxış edir və tədris materialının sistemlə qavranılmasını təmin edir.

Təfəkkürün inkişafına dair aparılan psixoloji-pedaqoji araşdırmalar (Rubinşteyn, Stepanova, Slepkan və b.) göstərir ki, riyazi fəaliyyət bilavasitə məntiqi əməliyyatların – ümumiləşdirmə, mücərrədləşdirmə və konkretləşdirmənin intensiv tətbiqini tələb edir. Bu baxımdan, ümumiləşdirmə priyomunun Cəbr kursunda elmi-metodik cəhətdən əsaslandırılması, həm də ali məktəb tələbələrinin riyazi fikirləşmə mədəniyyətinin formalaşdırılması baxımından zəruridir.

Bundan başqa, inklüziv təhsil fəlsəfəsinin tələbləri nəzərə alınmaqla riyazi materialın fərqli təlim ehtiyaclarına uyğunlaşdırılması, tədris prosesinin fərdiləşdirilməsi və əyaniləşdirilməsi hazırkı dövrün mühüm tələblərindəndir.

***Tədqiqatın metod və üsulları.*** Tədqiqatın aparılmasında riyazi təlimin psixoloji-pedaqoji əsaslarını, ümumiləşdirmə priyomunun idrak prosesində rolunu və Cəbr kursunun strukturu ilə əlaqəsini hərtərəfli araşdırmaq məqsədilə müxtəlif nəzəri və metodik yanaşmalar kompleks şəkildə tətbiq edilmişdir. İdrak əməliyyatlarının riyazi biliklərin qavranılmasına təsirini müəyyənləşdirmək, həmçinin ümumiləşdirmə priyomunun tədrisdə tətbiq mexanizmlərini aşkarlamaq üçün analitik yanaşma, məntiqi ümumiləşdirmə, müqayisə və modelləşdirmə kimi metodoloji yanaşmalar təhlilin əsas istiqamətlərini təşkil etmişdir.

Tədqiqat zamanı nəzəri-metodoloji analiz yolu ilə ümumiləşdirmə, mücərrədləşdirmə və digər təfəkkür əməliyyatlarının mahiyyəti araşdırılmış, analitik–müqayisəli metod vasitəsilə cəbri anlayışların müxtəlif formaları təhlil edilmişdir. Metodik-modeləşdirmə priyomu əsasında ümumiləşdirmə priyomunun Cəbr kursuna inteqrasiya yolları müəyyənləşdirilmiş, əyaniləşdirmə və sxemləşdirmə üsulları ilə tətbiq nümunələri qurulmuşdur. Pedaqoji müşahidə metodu vasitəsilə tələbələrin mövzuları qavrama səviyyəsi öyrənilmiş, inklüziv yanaşmanın effektivliyi qiymətləndirilmişdir. Bu metodların kompleks tətbiqi tədqiqatın elmi əsaslı nəticələr almasına imkan vermişdir.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi.*** Tədqiqatın orijinallığı ondan ibarətdir ki, ümumiləşdirmə təfəkkür fəaliyyəti priyomu Cəbr kursunun müxtəlif bölmələri ilə əlaqələndirilərək ilk dəfə olaraq sistemli, ardıcıl və metodik baxımdan tam şəkildə şərh edilmişdir. Ədədi və həndəsi

silsilələrin ümumiləşdirilməsi, riyazi induksiya metodunun ümumiləşdirmə priyomu kimi interpretasiyası, determinantların ayrılışı zamanı sadə formalardan mürəkkəb formalara keçidin nümayiş etdirilməsi kimi metodik yanaşmalar yeni struktur çərçivəsində tədqiq edilmişdir. Bu baxımdan, tədqiqat riyazi təlimdə ümumiləşdirmənin həm idrak, həm də metodik funksiyasını eyni kontekstdə ilk dəfə geniş şəkildə əsaslandırır.

Elmi yenilik ondadır ki, ümumiləşdirmə priyomunun tətbiqi inklüziv təhsil fəlsəfəsi ilə əlaqələndirilmiş, müxtəlif hazırlıq səviyyəsinə malik tələbələr üçün riyazi materialın fərdiləşdirilmiş izah modeli təklif edilmişdir. Əyaniləşdirmə priyomlarının – sxemləşdirmə, alqoritmləşdirmə və cədvəlləşdirmənin – Cəbr kursunun məzmununa inteqrasiya olunması nəticəsində riyazi anlayışların daha dərindən mənimsənilməsi üçün yeni metodik baza formalaşdırılmışdır. Bundan əlavə, mücərrədləşdirmə–ümumiləşdirmə–konkretləşdirmə ardıcıllığının riyazi təfəkkürün inkişafında vahid model kimi tətbiqi tədqiqatın elmi yeniliyini təşkil edir və riyazi təlim metodikasında yeni yanaşma kimi qiymətləndirilə bilər.

**Tədqiqatın praktik əhəmiyyəti.** Aparılan tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, ümumiləşdirmə təfəkkür fəaliyyəti priyomu Cəbr kursunun məzmunu ilə əlaqələndirilərək psixoloji-pedaqoji əsasları ilə birgə sistemli şəkildə izah edilmiş, həmçinin ümumiləşdirmə, mücərrədləşdirmə və konkretləşdirmə kimi idrak priyomlarının riyazi təlimdə qarşılıqlı təsir mexanizmi elmi baxımdan əsaslandırılmışdır. Bu tədqiqat riyaziyyat tədrisi metodikasına yeni nəzəri yanaşmalar gətirməklə riyazi biliklərin mənimsənilməsində idrak əməliyyatlarının rolunu genişləndirir və ali məktəb riyaziyyatının tədrisində istifadə olunan metodiki prinsipləri daha da təkmilləşdirir.

Tədqiqatın praktiki əhəmiyyəti isə ondan ibarətdir ki, ümumiləşdirmə priyomunun tətbiqinə dair təklif edilən metodik modellər, əyaniləşdirmə üsulları, sxem və alqoritmlər ali və orta təhsil müəssisələrində riyaziyyatın tədrisində effektiv şəkildə istifadə oluna bilər. Sadədən mürəkkəbə doğru ardıcıllıqla qurulan izahlar, inklüziv təhsil mühitinə uyğunlaşdırılmış yanaşmalar və riyazi materialın strukturlaşdırılmış təqdimatı müəllim və tələbələr üçün tədris prosesini daha əlçatan edir, dərsin qavranılmasını asanlaşdırır və mücərrəd təfəkkürün inkişafına şərait yaradır. Tədqiqat nəticələri həm pedaqoji fakültələrdə müəllim hazırlığı prosesində, həm də riyaziyyat fənninin tədrisində metodik vəsait kimi tətbiq oluna biləcək praktik dəyərə malikdir.

***Nəticə.*** Aparılan tədqiqatın nəticələri ümumiləşdirmə təfəkkür fəaliyyəti priyomunun Cəbr kursunun tədrisində mühüm metodoloji və didaktik əhəmiyyətə malik olduğunu göstərir. Tədqiqat müddətində ümumiləşdirmənin psixoloji-pedaqoji mahiyyəti, onun riyazi anlayışların mənimsənilməsində oynadığı rol və əyaniləşdirmə priyomları ilə qarşılıqlı əlaqəsi hərtərəfli araşdırılmışdır. Əldə olunan nəticələr həm riyazi təlim prosesinin quruluşuna yeni baxış gətirir, həm də tələbələrdə riyazi-məntiqi təfəkkürün inkişafını təmin edən metodik yanaşmaların zəruriliyini bir daha təsdiq edir.

Tədqiqat işində əldə olunan nəticələri ümumiləşdirərək a.ağıdakı şəkildə ifadə etmək olar:
Ümumiləşdirmə təfəkkür fəaliyyəti priyomu. Ümumiləşdirmə metodu ali pedaqiji məktəblərdə cəbr kursunun tədrisində müxtəlif tətbiqlərə malikdir. Ümumiləşdirmə təfəkkür fəaliyyəti priyomunun tətbiqi şagird və tələblərin mücərrəd və yardıcı təfəkkürünün formalaşmasına ciddi təsir edir. Əyaniləşdirmə priyomu ali pedaqoji məktəblərin cəbr kursunun tədrisində öyrənilən materialın mənimsənilməsi, dərk edilməsi və yadda saxlanılmasında effektiv təsirə malikdir. Əyaniləşdirmə

priyomu ali məktəb və ümumi təhsil məktəblərində tələbə və şagirdlərin riyaziyyata maraqlarına artırmaqla bərabər, onların mücərrəd təfəkkürünün formalaşmasına əhəmiyyətli dərəcədə təir edir.

Aparılan tədqiqat bir daha təsdiq edir ki, ümumiləşdirmə təfəkkür fəaliyyəti priyomu riyazi idrak prosesinin mərkəzi həlqəsidir və onun Cəbr kursunda sistemli şəkildə tətbiqi həm nəzəri, həm də metodik baxımdan yüksək səmərə verir. Bu priyomun düzgün tətbiqi şagird və tələbələrdə riyazi düşünmənin formalaşmasını sürətləndirir, məzmunun strukturlaşdırılmış şəkildə mənimsənilməsini təmin edir və riyazi təlimin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır.

Cəbr kursunun tədrisində ümumiləşdirmə priyomunun tətbiqini genişləndirmək məqsədilə dərs prosesində **sxemlərdən, cədvəllərdən, alqoritimlərdən və sadə modelləşdirilmiş izahlardan** daha geniş istifadə olunması tövsiyə edilir. Bu priyomlar, xüsusilə inklüziv təhsil mühitində, müxtəlif hazırlıq səviyyəsinə malik tələbələr üçün həm qavrayışı asanlaşdıracaq, həm də riyazi anlayışların məntiqi mahiyyətinin dərk edilməsinə şərait yaradacaq.

## Bölmə 1. Riyaziyyatın tədrisi metodikası

## Kafedra: Riyaziyyat və informatika

**Rövşən Vəliyev**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
RovshanValiyev@nmi.edu.az

# VIII sinifdə riyaziyyatdan ayrı-ayrı məzmun xətləri üzrə mövzuların tədrisi prosesində fənndaxili və fənlərarası əlaqələrin yaradılması məsələləri

**Aktuallığı:** Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənn kurrikulumunun VIII sinifdə tədrisi zamanı fənndaxili və fənlərarası əlaqələrin yaradılması xüsusi əhəmiyyət kəsb edir.

**Məqsəd:**VIII sinifdə riyaziyyatdan məzmun xətləri üzrə materialların şagirdlərə öyrədilməsi zamanı fənndaxili və fənlərarası əlaqələrdən istifadə etməklə mövzuların şagirdlərə öyrədilməsinin səmərəli yollarını müəyyənləşdirmək.

**Gözlənilən nəticə:** VIII sinifdə riyaziyyatdan ayrı-ayrı məzmun xətləri üzrə mövzuların tədrisi prosesində fənndaxili və fənlərarası əlaqələrdən istifadə etməklə şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsinə nail olmaq.

Elmi tədqiqat işi işləmək Naxçıvan şəhər 5N-li məktəbin VIII$^{a}$ sinifində müşahidələr aparılmış, riyaziyyat dərsləri dinlənilmiş, "Riyaziyyat-8" dərslik, "Riyaziyyat-8" metodik vəsaitlər tədris olunmuş araşdırmalar aparılmışdır.

İşin elmi yeniliyi ondan ibarətdir ki, VIII sinifdə riyaziyyatdan müxtəlif məzmun xətləri üzrə mövzuların tədrisi zamanı fənndaxili və fənlərarası əlaqələrin tədris prosesinə tətbiqi xüsusiyyətləri araşdırılmışdır.

VIII sinifdə dərs aparan hər bir riyaziyyat müəllimin müəyyənləşdirilmiş üsul və vasitələrdən istifadə edə bilər.

"VIII sinifdə riyaziyyatdan ayrı-ayrı məzmun xətləri üzrə mövzuların tədrisi prosesində fənndaxili və fənlərarası əlaqələrin yaradılması məsələləri" mövzusunda elmi təqdiqat işində riyaziyyat fənni üzrə VIII sinifə aid tədris proqramı və onun xarakterik xüsusiyyətləri, riyaziyyatın tədrisi prosesində VIII sinifdə standart və alt standartları tədrisdə rolu araşdırılmış və tədqiq olunmuşdur.

VIII sinif "Riyaziyyat-8" dərsliyinin (müəllifləri Nayma Qəhrəmanova ,Məhəmməd Kərimov, İlham Hüseynovdur) və müəllimlərə kömək üçün yazılmış "Riyaziyyat-8" metodik vəsaitinin (müəllifləri Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, İlham Hüseynovdur) xarakterik xüsusiyyətləri, məsələ və misalların pedaqoji prinsiplər gözlənilməklə tətbiqi məsələləri araşdırılmışdır.

Elmi tədqiqat işində mövzunun aktuallığı, elmiliyi və tətbiq sahələri tədqiq olunmuşdur.

VIII sinifdə riyaziyyatdan məzmun xətləri üzrə əsas və alt standartların tətbiqi məsələləri, VIII sinifdə riyaziyyatdan proqram materialının bölünməsi və planlaşdırılmasının metodik xüsusiyyətləri tədqiq olunmuşdur.

VIII sinif riyaziyyat kursunda məzmun xətləri üzrə mövzuların dərsliyinin fəslində qarışıq şəkildə verilməsi tədqiq olunmuş, fənndaxili və fənnlərarası inteqrasiya məsələlərinə geniş yer verildiyi aydınlaşdırılmışdır.

VIII sinif riyaziyyat dərsliyinin struktur quruluşu tətbiq olunmuş, proqramda mövzuların tədris prosesində mövzular arasında fənndaxili eyni zamanda fənlərarası əlaqələrin verilməsi,

riyaziyyatın tədrisinin İnformatika, Azərbaycan dili və digər fənnlərlə əlaqəli şəkildə verilməsi tədqiq olunmuşdur.

Qeyd olunmalıdır ki, VIII sinifdə riyaziyyatın tədrisi prosesində məzmun xətləri üzrə materialların şagirdlərə öyrədilməsi zamanı fənndaxili və fənlərarası əlaqədən istifadə etməklə, şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsinə nail olmaq üçün səmərəli yollar müəyyənləşdirilməlidir.

Elmi tədqiqat işinin sonunda tətqiqatdan alınan nəticə və təkliflər veirilmiş, istifadə olunan ədəbiyyat siyahısı göstərilmişdir.

Elmi tədqiqat işinin icrası zamanı VIII sinfin riyaziyyat dərsliyinin və metodik vəsaitin strukturu və quruluşu tədqiq olunmuş, riyaziyyatda proqram materiallarının bölünməsi və planlaşdırılmasının metodik xüsusiyyətləri araşdırılmışdır.

## Bölmə 1. Riyaziyyatın tədrisi metodikası

## Kafedra: Riyaziyyat və informatika

**Azad Novruzov**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
AzadNovruzov@nmi.edu.az

# Ümumtəhsil məktəblərində riyazi analiz anlayışlarının öyrədilməsinin pedaqoji-psixoloji məsələləri

**Tədqiqatın məqsədi:** Ümumi təhsil məktəblərində "Cəbr və funksiyalar" məzmun xətti üzrə riyazi analiz anlayışlarının (funksiya, limit, törəmə, inteqral, və s.) öyrədilməsinin pedaqoji və psixoloji əsaslarını araşdırmaq, bu prosesin səmərəliliyini artırmaq üçün metodik tövsiyələr və tədris strategiyaları işləyib hazırlamaqdır.

**Mövzunun aktuallığı:** Ümumi təhsil məktəblərində riyaziyyatın tədris məqsədlərindən biri şagirdlərdə məntiqi təfəkkür, analitik düşünmə və problem həll etmə bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Bu baxımdan riyaziyyat fənninin "Cəbr və funksiyalar" məzmun xətti şagirdlərin riyazi düşüncə tərzinin inkişafında əsas istiqamətlərdən biri sayılır.

Azərbaycan Respublikasında ümumi təhsil pilləsi üçün təsdiq edilmiş Riyaziyyat fənni kurikulumu "Cəbr və funksiyalar" məzmun xətti üzrə aşağıdakı məqsədləri müəyyənləşdirir:
–dəyişən kəmiyyətlər arasındaki asılılıqların təhlili;
–funksional münasibətlərin öyrənilməsi;
–riyazi modelləşdirmə və tətbiqlərin qurulması;
– mühakimə və nəticə çıxarma bacarığının formalaşdırılması.

"Cəbr və funksiyalar" məzmun xətti faktiki olaraq riyazi analiz anlayışlarının məktəb səviyyəsində öyrədilməsinin başlanğıc mərhələsini təşkil edir. Bu anlayışlar abstrakt və məntiqi düşüncəyə əsaslandığı üçün onların tədrisi pedaqoji-psixoloji baxımdan xüsusi diqqət tələb edir.

Mövzunu aktual edən məsələlərdən biri də ondan ibarətdir ki, müasir kurikulum islahatları yalnız biliklərin verilməsinə deyil, şagirdin fəal öyrənməsinə, yaradıcı təfəkkürün inkişafına yönəlib. Bu isə müəllimdən həm düzgün metodik yanaşma, həm də şagirdlərin yaş xüsusiyyətlərini nəzərə alan psixoloji hazırlıq tələb edir.

**Tədqiqatın obyekti:** Tədqiqatın məqsədi- Ümumi təhsil məktəblərində "Cəbr və funksiyalar" məzmun xətti üzrə riyazi analiz anlayışlarının (funksiya, limit, törəmə, inteqral, və s.) öyrədilməsinin pedaqoji və psixoloji əsaslarını araşdırmaq, bu prosesin səmərəliliyini artırmaq üçün metodik tövsiyələr və tədris strategiyaları işləyib hazırlamaqdır. Ümumi təhsil məktəblərində (V–XI siniflərdə) riyaziyyat fənninin "Cəbr və funksiyalar" məzmun xətti üzrə tədris prosesidir.

Tədqiqatın fərziyəsi ondan ibarətdir ki, əgər "Cəbr və funksiyalar" məzmun xətti üzrə riyazi analiz anlayışlarının tədrisi şagirdlərin yaş xüsusiyyətlərinə, psixoloji idrak səviyyəsinə və müasir pedaqoji prinsiplərə uyğun təşkil edilərsə, onda:

- şagirdlərin riyazi düşünmə bacarığı yüksələr;
- funksional asılılıqların mənimsənilməsi asanlaşar;
- riyazi modelləşdirmə və analitik təfəkkür formalaşar.

**Tədqiqatın metod və üsulları.** Tədqiqat işində dərslik və metodik ədəbiyyatın təhlili, müsahibə, anket sorğusu üsullarından istifadə edilmişdir.

Riyazi anlayışların mənimsənilməsi şagirdin yaş və idrak səviyyəsindən birbaşa asılıdır. VII–VIII sinif şagirdlərində abstrakt düşüncə yeni formalaşdığı üçün funksional münasibətlərin izahında konkret vizual modellərdən istifadə vacibdir. Psixoloqlar göstərir ki, şagirdlər riyazi anlayışları

əyanilikdən abstraksiyaya keçid yolu ilə mənimsəyirlər. Bu baxımdan müəllimlər izahatda psixoloji mərhələləri nəzərə almalıdırlar: müşahidə → təhlil → ümumiləşdirmə → tətbiq.

Azərbaycan ümumitəhsil məktəbləri üçün hazırlanmış dərsliklərdə "Cəbr və funksiyalar" mövzuları mərhələli şəkildə təqdim olunur. VII sinifdə funksiyanın ilkin anlayışı, VIII sinifdə x və y dəyişənləri arasında əlaqə, IX sinifdə funksiyaların növləri və qrafikləri öyrədilir. Lakin dərsliklərin bir çoxunda anlayışların mahiyyətinin dərkindən çox alqoritmik bacarıqlara üstünlük verildiyi müşahidə olunur. Bu isə şagirdin funksional düşüncəsini tam formalaşdırmağa imkan vermir.

Mövcud problemlərin pedaqoji təhlili aşağıdaki amillər özünü göstərir:

- Anlayışların abstrakt təqdimatı: bəzi mövzular konkret həyat nümunələri ilə əlaqələndirilmir;
- Tapşırıqların monotonluğu**:** tədqiqat xarakterli və tətbiqi tapşırıqların azlığı;
- Qrafik təqdimatın məhdudluğu: əyanilik və rəqəmsal texnologiyalardan az istifadə;
- Müəllim hazırlığı: funksional asılılıqların psixoloji çətinliklərini nəzərə alan metodik hazırlığın çatışmazlığı.

Şagirdlər riyazi analiz anlayışlarını mənimsəyərkən aşağıdakı psixoloji çətinliklərlə rastlaşırlar:

- Abstrakt simvolların mənasının aydın olmaması;
- Funksiya və qrafik arasındakı əlaqənin zehində canlandırılmasında çətinlik;
- Riyazi simvolların çoxluğu səbəbindən motivasiyanın azalması. Bu problemlərin aradan qaldırılması üçün motivləşdirici təlim üsulları**,** vizual modellər**,** qrup işləri və interaktiv müzakirələrdən istifadə səmərəli nəticə verir.

Riyazi analiz anlayışlarının tədrisində aşağıdakı müasir metodlardan istifadə tövsiyə olunur:

- Problemlə öyrənmə: şagird problemi həll etməklə anlayışı kəşf edir;
- Layihə metodu**:** real həyatda funksional asılılıqların modelləşdirilməsi
- Diferensial təlim**:** fərqli hazırlıq səviyyəsinə malik şagirdlər üçün müxtəlif tapşırıqlar;
- İKT-nin tətbiqi

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, riyaziyyatın tədrisində analitik təfəkkürün formalaşdırılması məsələlərinin elmi əsaslandırılmasına töhfə verir.

**Tədqiqatın praktik əhəmiyyəti**, riyaziyyat müəllimləri üçün tədris-metodik tövsiyələr və praktik təlim modelləri təqdim edir;

**Tədqiqatın nəticələri** ondan ibarətdir ki, "Cəbr və funksiyalar" məzmun xətti üzrə riyazi analiz anlayışlarının tədrisində pedaqoji və psixoloji amillərin uzlaşdırılması mühüm əhəmiyyət daşıyır. Əgər təlim şagirdin yaş xüsusiyyətlərinə, idrak səviyyəsinə və müasir metodlara əsaslanarsa, onda:

- şagirdlərdə funksional düşüncə tərzi formalaşır;
- riyazi anlayışların mənası dərindən mənimsənilir;
- analitik və tənqidi təfəkkür inkişaf edir.

## Bölmə 1. Riyaziyyatın tədrisi metodikası

## Kafedra: Riyaziyyat və informatika

**Nazilə Muradova**
*Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
*NazilaMuradova@nmi.edu.az*

# Ümumi təhsil məktəb riyaziyyat kursunda paralel köçürmənin təlimi xüsusiyyətləri və onun məsələ həllinə tətbiqi

**Tədqiqatın məqsədi.** Ümumi təhsil məktəb riyaziyyatı kursunda həndəsə məzmun xəttində tədris olunan həndəsi çevirmələrin növü olan paralel köçürmədən bəzək işlərində, xüsusilə ornamentlərdə istifadə olunur ki, bu da şagirdlərdə praktik bacarıqların formalaşmasına imkan yaradır. Digər tərəfdən bəzi həyati məsələlərin həllində də paralel köçürmə üzrə hərəkətin mahiyyətini nümunələr üzərində göstərməklə şagirdlərdə müəyyən bacarıqların formalaşmasına təkan vermək olar.

Aparılmış tədqiqatın məqsədi məktəb riyaziyyat kursunda həndəsi biliklərin qazanılmasında həndəsi çevirmələrin növü olan paralel köçürmənin rolunu müəyyənləşdirmək və onun qurma məsələlərinin həllinə tətbiqi bacarıqlarını formalaşdırmaqdır.

**Aktuallığının əsaslandırılması**. Həndəsi çevirmələr və onların tətbiqləri məktəb riyaziyyatı kursunda xüsusi rola malikdir. Digər tərəfdən qurma məsələlərinin həllində də müstəvinin müxtəlif həndəsi çevirmələrindən istifadə olunur. Məsələnin həllinə tətbiq ediləcək həndəsi çevirmənin seçilməsi şagirdlər üçün çətinlik yaratdığından elmi-tədqiqat işində paralel köçürmə və onun xassələri şərh edilmiş, qurma məsələlərinin həllində paralel köçürmə metodunun tətbiqinin səmərəliliyi göstərilmişdir. Bu baxımdan yazılmış elmi-tədqiqat işi aktualdır.

**Tədqiqatın metod və üsulları**. Tədqiqat üzrə aparılan araşdırmalar zamanı ümumi təhsil məktəblərinin riyaziyyat dərslikləri təhlil olunmuş, abstraktlaşdırma, analiz və sintez metodlarından istifadə olunmuşdur. Həmçinin həndəsi çevirmələrin növü olan paralel köçürmənin qurma məsələlərinin həllinə tətbiqindən, yəni paralel köçürmə metodundan da istifadə olunmuşdur. 2024-2025-ci tədris ilində ümumtəhsil məktəblərində riyaziyyat dərsləri dinlənilmiş, tədqiq olunan mövzu ilə bağlı olaraq müzakirələr aparılmış, tədqiqat baxımından təhlil olunaraq müəyyən nəticələrə gəlinmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** Ümumi təhsil məktəb riyaziyyatı kursunda təlimin keyfiyyətinin yüksəldilməsi üçün fəndaxili inteqrasiya vasitəsi ilə həndəsi cevirmələrin növü olan paralel köçürmə araşdırılmış, paralel köçürmə metodunun həndəsə məsələlərinin həllinə tətbiqinin səmərəliliyi göstərilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatın praktik əhəmiyyəti şagirdlər həndəsi çevirmələrin növü olan paralel köçürmə ilə bağlı biliklərini elmi-nəzəri cəhətdən təkmilləşdirib, qurma məsələlərin həllinə uğurlu şəkildə tətbiq etmək bacarığını formalaşdırmaqdır.

Qeyd edək ki, əldə olunmuş nəticələri tövsiyyə xarakterli olaraq məktəb dərsliklərinin müzakirəsində təkliflər şəklində də vermək olar. Bu isə məktəb riyaziyyatı kursunda həndəsə məzmun xəttində həndəsi çevirmələrin növü olan paralel köçürmənin səmərəli tədrisinə və qurma məsələlərinin həllinə tətbiqi bacarıqlarının formalaşmasına imkan yaradacaqdır.

**Nəticə.** Apardığımız tədqiqatlar onu göstərir ki, ümumi təhsil məktəb riyaziyyat kursunda həndəsi çevirmələr və onların tətbiqləri xüsusi rola malikdir. 2024-cü ildə apardığımız tədqiqatlardan aydın olur ki, şagirdlər V sinifdə həndəsi çevirmələr ilə sadə şəkildə tanış olurlar. Belə ki, şagirdlər IV sinif tədris proqramında düz xətlərin perpendikulyarlığını öyrəndikləri üçün V sinifdə ox

simmetriyası və onun tələb etdiyi sadə qurmaları öyrənirlər. VI siniflərdə düz xətlərin paralelliyi mövzusunun öyrənilməsi isə yuxarı siniflərdə paralel köçürmənin tədrisinə zəmin yaradır. IX siniflərdə isə vektorlar mövzusu tədris edildikdən sonra paralel köçürmənin tədrisinə keçilir və daha da təkmilləşdirilir. Çünki paralel köçürmədə fiqurun bütün nöqtələrinin yerdəyişməsi bir vektor üzrə yerinə yetirilir. Paralel köçürmənin vektorla ifadəsi isə yazılışları daha da sadələşdirir. IX siniflərdə paralel köçürmənin tədrisi nəticəsində şagirdlərdə aşağıdakı bacarıqlar formalaşdırılır: - paralel köçürmənin xassələrini başa düşdüyünü təsvirlər üzərində və təsviri çəkməklə nümayiş etdirir; paralel köçürmə nəticəsində fiqurun özü ilə konqruyent fiqura çevrildiyini məsələlər üzərində nümayiş etdirir; paralel köçürmənin bütünlükdə müəyyən vektorla icra olunduğunu başa düşür.

Beləliklə, elmi-tədqiqat işi üzrə əldə edilən əsas nəticələr aşağıdakılardır:

1.Məktəb riyaziyyat kursunda həndəsə məzmun xəttində paralel köçürməyə aid nəzəri biliklərin sistemli şəkildə tədrisi şagirdlərdə şüurlu mənimsəmənin formalaşmasına və qurma məsələlərinin həllində tətbiqinə imkan yaradır.

2.Həndəsi çevirmələrin növü olan paralel köçürmə şagirdlərin məntiqi və fəza təfəkkürlərinin inkişafına müsbət təsir göstərir.

3.Paralel köçürmə metodunun həndəsə məsələlərinin həllinə tətbiqinin səmərəli olması üçün onun xassələrini yaxşı bilmək, məsələnin şərtini düzgün təhlil etməyi bacarmaq lazımdır.

4.Qısa məsafəyə aid məsələlərdə, çoxbucaqlıların qurulmasında paralel köçürmədən istifadənin səmərəliliyinin diqqətə çatdırılmasını, ümumiyyətlə paralel köçürməyə aid məsələlərdə qarşıya çıxan çətinlikləri aradan qaldırmaq üçün köçürmə vektorunun düzgün seçilməsini tövsiyyə etmək lazımdır.

5.Həndəsi çevirmələrin şagirdlərin məntiqi təfəkkürlərinin və fəza təsəvvürlərinin inkişafında rolunu nəzərə alaraq dərsliklərin tədqiqi zamanı qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün müəyyən tövsiyələr verilmişdir.

## Bölmə 1. Riyaziyyatın tədrisi metodikası

## Kafedra: Riyaziyyat və informatika

**Südabə Məmmədova**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
SudabaMammadova@nmi.edu.az

# İbtidai sinif dərsliklərindəki çətinliklər, anlaşılmazlıqlar, dil problemləri

**Tədqiqatın məqsədi:** İbtidai sinif riyaziyyat dərsliklərində rast gəlinən dil, məzmun və təqdimatla bağlı çətinlikləri müəyyənləşdirmək, onların pedaqoji və psixoloji səbəblərini araşdırmaq və bu problemlərin aradan qaldırılması yollarını təklif etməkdir.

**Aktuallığının əsaslandırılması:** "İbtidai sinif dərsliklərindəki çətinliklər, anlaşılmazlıqlar, dil problemləri" mövzusunun aktuallığının əsaslandırılması elmi-tədqiqat işində belə ifadə oluna bilər:

Müasir təhsil sistemində ibtidai siniflər şagirdin şəxsiyyət və təməl biliklərinin formalaşdığı əsas mərhələdir. Bu mərhələdə istifadə olunan dərsliklər şagirdin dünyagörüşünə, nitqinə, təfəkkürünə və öyrənmə motivasiyasına birbaşa təsir edir.

Lakin aparılan müşahidələr və tədqiqatlar göstərir ki:

- İbtidai sinif dərsliklərinin bəzilərində dil qüsurları,
- Uşaqların yaş səviyyəsinə uyğun olmayan mürəkkəb ifadələr,
- Anlaşılması çətin tapşırıqlar və mətnlər,
- Həmçinin dərsliklərin kurikulum məqsədləri ilə uyğunluğunda qeyri-dəqiqliklər mövcuddur.

Bu cür problemlər:

- Şagirdlərin dərsi mənimsəməsində çətinliklər yaradır;
- Müəllimlərin və valideynlərin izah prosesini ləngidir;
- Nitq, yazı və məntiq bacarıqlarının formalaşmasına mənfi təsir göstərir.

Xüsusilə valideynlərin və ibtidai sinif müəllimlərinin bu dərsliklərdən istifadə zamanı tez-tez əlavə izaha ehtiyac duyması göstərir ki, problem müasir təhsillə uzlaşır və tədqiqata cəlb edilməsi ciddi şəkildə aktualdır. Bu səbəbdən, mövcud dərsliklərin təhlili, problemlərin üzə çıxarılması və onların aradan qaldırılması üçün resursların hazırlanması bu sahədə təhsilin keyfiyyətinin yüksəldilməsi baxımından zəruridir.

**Tədqiqatın predmeti**: İbtidai sinif riyaziyyat dərsliklərindəki dil, termin, tapşırıq və izahların şagirdlər tərəfindən qavranılması.

**Tədqiqatın metod və üsulları:** Problemin uzun müddətli pedaqoji təcrübə və müşahidə əsasında həlli yolları araşdırılmışdır. Problemin həllində İnteraktiv və evristik metodlardan istifadə etmək tövsiyyə olunur:

- Təhlil və müqayisə metodu;
- Müşahidə və sorğu;
- Sənəd və dərslik analizi;
- Müəllim və şagirdlərlə müsahibə metodu.

Ümumtəhsil sistemi inkişaf tendensiyasına nəzər salarkən, bunun interaktiv metodlar əsasında novator müəllimlərin və nümunəvi məktəblərin iş üsullarına aid toplanmış təcrübələr, pedaqoji və psixoloji tədqiqatların nəticəsinin faydalı şəkildə sistemləşdirilməsi, ümumiləşdirilməsi və təlim-tərbiyənin məzmununun yeniləşdirilməsini tələb etdiyini görərik. Bu cür problemlərin həlli zamanı pedaqoji prosesə interaktiv metodların elmi əsaslandırılmaqla gətirilməsi vacib problem kimi

qarşımıza qoyulur və bütövlükdə təhsil sferasına texnoloji yöndən yanaşmanın tətbiqini aktuallaşdırır.

## Bölmə 1. Riyaziyyatın tədrisi metodikası

## Kafedra: Riyaziyyat və informatika

**Tədqiqatın orijinallığı və elmi yeniliyi**: İbtidai riyaziyyat dərsliklərinin elmi tədqiqi, qarşıya çıxan nöqsan və çətinliklərin aradan qaldırılması məsələlərinin tədqiqata cəlb edilməsidir.

Bu işdə ibtidai sinif riyaziyyat dərsliklərində mövcud olan dil və məzmun problemləri sistemləşdirilmiş, onların pedaqoji və psixoloji səbəbləri müəyyənləşdirilmiş, həmçinin dərsliklərin təkmilləşdirilməsi üçün konkret təkliflər hazırlanmışdır.

Tədqiqat işinin nəticələri ibtidai riyaziyyat dərsliklərinin hazırlanması zamanı və gənc ibtidai sinif müəllimlərinin təlim fəaliyyəti dönəmində istifadə edilməsinə fayda verə bilər. Bu tədqiqat əsasən öyrənənlərin problem həll etmə bacarıqlarını inkişaf etdirməyə yönəlib, onların marağını stimullaşdırmaq, təfəkkür və praktiki əməliyyatları istiqamətləndirmək yolu ilə şagirdləri riyaziyyat fənninin müxtəlif problemləri ilə daha yaxşı məşğul olmağa həvəsləndirməkdən ibarət olmuşdur.

**Tədqiqatın praktiki əhəmiyyəti (tətbiq sahəsi qeyd edilməklə):** Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın nəticələri ibtidai sinif müəllimləri, dərslik müəllifləri və təhsil tədqiqatçıları üçün faydalı ola bilər. Buradakı təkliflər dərslik mətnlərinin dilinin sadələşdirilməsi, terminlərin izahlı şəkildə təqdim olunması və tapşırıqların uşaqların düşüncə səviyyəsinə uyğunlaşdırılması baxımından praktik əhəmiyyət daşıyır.

Riyaziyyat ibtidai təhsildə tədris olunan ən mühüm və vacib fənlərdən sayılır. İbtidai sinif riyaziyyat dərsliklərində mövcud olan dil və məzmun problemlərini bilmək üçün, eləcə də kommunikasiyanın riyazi dilindən və vasitələrindən istifadə etmə bacarığı həm elmi-pedaqoji, həm də praktik əhəmiyyətli bir tədqiqat mövzusudur.

Bu istiqamət müəllimlər, dərslik tərtibçiləri və təlim siyasətçiləri üçün çox aktualdır.

Elmi-tədqiqat işindən Ümumtəhsil məktəblərinin ibtidai siniflərinin riyaziyyat təlimində "İbtidai sinif müəllimliyi" ixtisasının bakalavriant və magistrantları, eyni zamanda doktorant və dissertantlar da istifadə edə bilərlər.

Tədqiqat aşağıdakı nəticələrə gəlməyə əsas vermişdir:

İbtidai sinif riyaziyyat dərsliklərində n əsasən bu sahələrdə çətinliklərə və problemlərə rast gəlmək olur:

- Mətnin dili – yaş səviyyəsinə uyğun olmayan terminlər və mürəkkəb cümlələrə rast gəlmək olur;
- Tapşırıqların izahı – bəzi tapşırıqların yöndəmsiz və qeyri-müəyyən verilməsi;
- Vizual materialların yetersizliyi – dərsliyin sxem, şəkil və modellərlə dəstəklənməməsi;
- Məzmun sıxlığı – çoxlu mövzu və tapşırığın sıx şəkildə verilməsi;
- Uyğunsuz metodik yanaşma – standartlaşdırılmış və yaradıcı düşüncəyə az yer verilməsi.

Təkliflər və çıxış yolları:

- Sadə dildə izahların verilməsi
- Mətnlərin və məsələlərin vizual dəstəklərlə təqdim olunması
- Yeni dərsliklərə dil redaktorlarının cəlb olunması
- Müəllim üçün metodik vəsaitlərin daha əlçatan olması

Nəticə etibarilə, ibtidai sinif riyaziyyat dərsliklərinin nəzəri-metodoloji bazası, kurikulumun tələblərinə uyğun şəkildə elmi və pedaqoji əsaslarla formalaşmalıdır. Dərsliklər aydın, ardıcıl, yaş səviyyəsinə uyğun, vizual baxımdan zəngin və təlim məqsədlərinə xidmət edən şəkildə tərtib olunmalıdır.

## Bölmə 1. Riyaziyyatın tədrisi metodikası

## Kafedra: Riyaziyyat və informatika

**Arzu Səfərova**
*Riyaziyyat üzrə fəlsəfə doktoru*
*Baş müəllim*
*ArzuSafarova@nmi.edu.az*

# İbtidai sinif riyaziyyat kursunda analiz və sintez üsulunun tətbiqi

**Tədqiqatın məqsədi.** Tədqiqatın əsas məqsədi ibtidai sinif riyaziyyat kursunda analiz və sintez üsullarının metodik xüsusiyyətlərini araşdırmaq, onların təlim prosesində tətbiq imkanlarını müəyyənləşdirmək və bu üsulların şagirdlərin idrak fəaliyyətinin inkişafına təsirini əsaslandırmaqdan ibarətdir. Eyni zamanda məqsəd analiz və sintez üsullarının riyazi məsələlərin həllində rolunu göstərmək, onların qarşılıqlı əlaqəsini izah etmək və təlimin səmərəliliyinin artırılmasına xidmət edən metodik nəticələr əldə etməkdir.

**Aktuallığının əsaslandırılması**. Müasir təhsil sistemində şagirdlərin məntiqi təfəkkürünün, analitik düşünmə və mühakimə yürütmə bacarıqlarının inkişaf etdirilməsi prioritet istiqamətlərdən biridir. Bu baxımdan ibtidai sinif riyaziyyat kursu yalnız elementar hesab bacarıqlarının formalaşdırılması ilə məhdudlaşmır, eyni zamanda şagirdlərin idrak fəaliyyətinin sistemli təşkili baxımından mühüm əhəmiyyət kəsb edir. Analiz və sintez üsulları riyazi idrakın əsas mexanizmləri olmaqla şagirdlərdə məntiqi ardıcıllıq, ümumiləşdirmə, müqayisə və nəticəçıxarma bacarıqlarının formalaşmasına xidmət edir. Xüsusilə ibtidai sinif mərhələsində bu üsulların məqsədyönlü tətbiqi materialın şüurlu mənimsənilməsini təmin edir və gələcək riyazi təfəkkürün əsasını qoyur.

**Tədqiqatın metod və üsulları**. Tədqiqat prosesində nəzəri təhlil, pedaqoji müşahidə, müqayisəli təhlil və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Analiz üsulu vasitəsilə riyazi məsələlərin strukturunun tərkib hissələrə ayrılması, verilən və axtarılanların müəyyənləşdirilməsi, sintez üsulu vasitəsilə isə əldə edilən məlumatların birləşdirilərək bütöv nəticəyə gəlinməsi mexanizmi araşdırılmışdır. Mətnli məsələlərin həllində analiz və sintez mərhələlərinin planlı şəkildə tətbiqi öyrənilmiş, bu üsulların ibtidai sinif şagirdlərinin yaş xüsusiyyətlərinə uyğunluğu nəzərdən keçirilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** Tədqiqatın orijinallığı analiz və sintez üsullarının ibtidai sinif riyaziyyat kursunda sistemli və qarşılıqlı əlaqədə tətbiq mexanizminin metodik baxımdan əsaslandırılmasındadır. İşdə bu üsullar yalnız ümumi didaktik yanaşma kimi deyil, şagirdlərin məntiqi təfəkkürünü formalaşdıran idraki model kimi təqdim edilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr ibtidai sinif müəllimləri üçün riyaziyyat dərslərinin daha səmərəli təşkili baxımından metodik istiqamətverici rol oynaya bilər. Analiz və sintez üsullarının sistemli tətbiqi şagirdlərdə müstəqil düşünmə, problem həll etmə, məntiqi mühakimə və ümumiləşdirmə bacarıqlarının inkişafına şərait yaradır. Bu yanaşma həmçinin şagirdlərin riyazi bilikləri praktik situasiyalarda tətbiq etmə qabiliyyətinin formalaşmasına xidmət edir.

**Nəticə.** Aparılan tədqiqat göstərir ki, ibtidai sinif riyaziyyat kursunda analiz və sintez üsullarının məqsədyönlü və sistemli tətbiqi şagirdlərin məntiqi təfəkkürünün, mühakimə yürütmə və problem həll etmə bacarıqlarının inkişafında mühüm rol oynayır. Bu üsullar riyazi biliklərin şüurlu mənimsənilməsini təmin etməklə yanaşı, şagirdlərin idraki fəaliyyətini fəallaşdırır və müstəqil düşünmə vərdişlərini formalaşdırır. Analiz və sintez proseslərinin qarşılıqlı əlaqədə tətbiqi tədris prosesinin keyfiyyətini yüksəldir və riyaziyyatın praktik əhəmiyyətinin dərk olunmasına şərait yaradır.

## Bölmə 1. Riyaziyyatın tədrisi metodikası

## Kafedra: Riyaziyyat və informatika

**Gülnar Hüseynova**
*Fəlsəfə doktoru hazırlığı üzrə doktorant*
*Müəllim*
*Gulnarhuseynova@nmi.edu.az*

# İbtidai təhsil səviyyəsində kurikulum çərçivəsində informatika və riyaziyyat fənninin inteqrativ tədrisi

**Tədqiqatın məqsədi.** Bu tədqiqatın məqsədi ibtidai siniflərdə **informatika və riyaziyyat fənlərinin inteqrativ təlim modelinin tətbiqini araşdırmaq**, müəllimlərin rəqəmsal texnologiyalardan istifadəsini və şagirdlərin bilik, bacarıq və rəqəmsal səriştələrinin inkişafını qiymətləndirməkdən ibarətdir. Tədqiqat həmçinin inteqrativ təlim modelinin **fənlərarası əlaqələri gücləndirmək və tədrisin keyfiyyətini artırmaq** potensialını müəyyən etməyə yönəlmişdir.

**Aktuallığının əsaslandırılması.** Azərbaycan Respublikasının ümumi təhsilin dövlət standartlarında təhsilin nəticəyönümlü təşkili, əsas kompetensiyaların formalaşdırılması və fənlərarası əlaqələrin təmin olunması xüsusi vurğulanır. Ümumi təhsilin ilkin mərhələsi olan ibtidai təhsil səviyyəsində şagirdlərin idrak fəaliyyətinin, məntiqi düşünmə qabiliyyətinin və ilkin rəqəmsal savadlılığının formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan informatika və riyaziyyat fənlərinin inteqrativ təlim modeli ibtidai siniflərdə təlimin keyfiyyətinin yüksəldilməsinə, şagirdlərin bilik və bacarıqlarının sistemli şəkildə inkişafına xidmət edən aktual pedaqoji yanaşma kimi dəyərləndirilə bilər. Lakin bu sahədə müəllimlərin təcrübəsi, rəqəmsal texnologiyalardan istifadəsi və tədris prosesində inteqrasiya səviyyəsi hələ geniş tədqiq edilməmişdir.

**Tədqiqatın metod və üsulları**. Araşdırmada Azərbaycan Respublikasının ümumi təhsil üzrə dövlət standartları, kurikulum sənədləri və təhsilin rəqəmsallaşdırılması ilə bağlı strateji istiqamətləri əsas nəzəri baza kimi götürülmüşdür. Empirik araşdırma Naxçıvan şəhərində yerləşən 7, 12 və 17 nömrəli tam orta məktəblərin II siniflərində aparılmışdır. Tədqiqatda ümumilikdə 95 şagird və 9 müəllim iştirak etmişdir. Məlumatların toplanması üçün müşahidə, anket sorğusu, müsahibə və statistik təhlil metodlarından istifadə olunmuşdur. Dərslərin müşahidəsi zamanı "Toplama və çıxmanın əlaqəsi" mövzusu əsasında hazırlanmış inteqrativ dərs modeli tətbiq edilmiş və şagirdlərin fəaliyyət göstəriciləri müqayisəli şəkildə təhlil olunmuşdur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** Tədqiqatın orijinallığı ibtidai təhsil səviyyəsində riyaziyyat və informatika fənlərinin inteqrasiyasının empirik materiallar əsasında sistemli şəkildə araşdırılmasındadır. İşdə inteqrativ təlim modeli konkret dərs müşahidələri və statistik təhlillərlə əsaslandırılmış, onun şagirdlərin riyazi məntiqi və alqoritmik təfəkkürünün inkişafına təsiri müəyyən edilmişdir. Elmi yenilik riyaziyyat və informatikanın inteqrasiyasının strukturlaşdırılmış pedaqoji model kimi təqdim olunması və onun effektivliyinin praktik göstəricilərlə sübut edilməsidir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatın praktik əhəmiyyəti ibtidai sinif müəllimləri üçün inteqrativ dərs modelinin və metodik tövsiyələrin təqdim edilməsindədir. Əldə olunan nəticələr göstərir ki, bu yanaşma şagirdlərin fəallığını, motivasiyasını və riyazi anlayışları mənimsəmə səviyyəsini artırır. Tədqiqat nəticələrindən müəllim hazırlığında, metodik vəsaitlərin hazırlanmasında və tədris prosesinin təkmilləşdirilməsində istifadə oluna bilər.

**Nəticə.** Aparılmış tədqiqat ibtidai təhsil səviyyəsində riyaziyyat və informatika fənlərinin inteqrasiyasının tədris prosesində mühüm pedaqoji əhəmiyyətə malik olduğunu göstərdi. Dərs müşahidələri və sorğu nəticələri sübut etdi ki, bu iki fənnin inteqrativ şəkildə tətbiqi şagirdlərin yalnız

riyazi biliklərini deyil, həm də alqoritmik düşünmə, problem həll etmə və rəqəmsal bacarıqlarını inkişaf etdirir.

Müşahidə olunan "Toplama və çıxmanın əlaqəsi" mövzusu riyaziyyat və informatikanın məzmun baxımından uzlaşdığını nümayiş etdirdi. Mövzunun inteqrativ tədrisi zamanı şagirdlər əməliyyatlar arasındakı əlaqəni daha dərindən anladı, riyazi düşünmə bacarıqları gücləndi və onların dərsə marağı artdı.

Sorğu nəticələri göstərdi ki, müəllimlərin bir qismi rəqəmsal vasitələrdən istifadə etsə də, ümumi səviyyədə bu imkanlardan istifadə hələ kifayət qədər geniş yayılmamışdır. Texniki resursların məhdudluğu və müəllimlərin rəqəmsal kompetensiyalarının yetərli olmaması inteqrativ təlim modelinin tətbiqində əsas çətinliklər kimi müəyyən edildi.

Bununla belə, tədqiqatın ümumi nəticəsi ondan ibarətdir ki, riyaziyyat və informatikanın inteqrasiyası ibtidai siniflərdə şagirdlərin idrak fəaliyyətinin gücləndirilməsi, məntiqi təfəkkürünün inkişafı və rəqəmsal savadlılığının formalaşdırılması üçün səmərəli bir yanaşmadır. Bu modelin geniş tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsinə və müasir təlim tələblərinə uyğun mütəxəssis hazırlığına xidmət edə bilər.

**Təkliflər.** Aparılmış tədqiqatın nəticələri göstərir ki, ibtidai siniflərdə informatika və riyaziyyat fənlərinin inteqrasiyası şagirdlərin məntiqi və alqoritmik düşünmə, problem həll etmə və rəqəmsal bacarıqlarının inkişafına mühüm təsir göstərir. Bunun əsasında aşağıdakı ümumi təkliflər irəli sürülür:

1. **Müəllimlərin peşəkar inkişafının gücləndirilməsi:** Müəllimlərin pedaqoji rəqəmsal səriştələrinin artırılması məqsədilə müntəzəm təlim, seminar və praktik modulların təşkil olunması vacibdir. Bu, müəllimlərin rəqəmsal texnologiyaları dərslərə inteqrasiya etmə bacarıqlarını və şagird mərkəzli təlim strategiyalarını inkişaf etdirəcək.
2. **Texniki və infrastruktur təminatının təkmilləşdirilməsi:** Məktəblərdə kompüter, planşet, interaktiv lövhə və internet resurslarının yetərli təminatı, texniki xidmətin və avadanlıqların müntəzəm yenilənməsi tədqiqatda müəyyən olunmuş çətinliklərin aradan qaldırılmasına xidmət edəcək.
3. **İnteqrativ təlim modellərinin sistemləşdirilməsi:** Fənlərarası inteqrasiyanın səmərəliliyini artırmaq üçün dərs planlarının, metodik tövsiyələrin və nümunəvi fəaliyyət modellərinin hazırlanması və tətbiqi tövsiyə olunur. Bu, şagirdlərin bilik və bacarıqlarının ardıcıl və sistemli şəkildə inkişafını təmin edəcək.
4. **Şagirdlərin rəqəmsal və idrak bacarıqlarının inkişafı:** Şagirdlərin hesablama düşüncəsi, kodlaşdırma, alqoritmik və problem həll etmə bacarıqlarının erkən yaşdan inkişaf etdirilməsi məqsədilə layihə əsaslı və interaktiv fəaliyyətlərdən istifadə edilməlidir.
5. **Rəqəmsal vasitələrin məqsədli və pedaqoji inteqrasiyası:** Rəqəmsal texnologiyalar yalnız məzmun çatdırmaq üçün deyil, həm də öyrənmə prosesini fəallaşdırmaq, yaradıcılığı və motivasiyanı artırmaq üçün istifadə edilməlidir. Müxtəlif interaktiv platformalar və vizual alətlər dərslərdə konseptual anlayışların mənimsənilməsini dəstəkləməlidir.
6. **Qiymətləndirmə və təhlil mexanizmlərinin inkişafı:** İnteqrativ təlimin effektivliyini qiymətləndirmək üçün şagirdlərin fəaliyyətinə dair nəticəyönümlü qiymətləndirmə və statistik təhlil sistemlərinin tətbiqi zəruridir.
7. **Davamlı mentorluq və tədqiqat əsaslı inkişaf:** Müəllimlər arasında təcrübə mübadiləsi, mentorluq proqramları və praktik tədqiqatların nəticələrinin dərslərə inteqrasiyası inteqrativ təlimin davamlılığını təmin edəcək.

## Bölmə 1. Riyaziyyatın tədrisi metodikası

## Kafedra: Riyaziyyat və informatika

**Zinyət Əliyeva**
*Fəlsəfə doktoru hazırlığı üzrə dissertant*
*Baş müəllim*
*ZinyatAliyeva@nmi.edu.az*

# Montessori təlim metodunun məktəbəqədər müəssisələrdə tətbiqinin önəmi

**Tədqiqatın məqsədi-** Montessori təlim metodunun məktəbəqədər müəssisələrdə tətbiqinin nəzəri-metodik əsaslarını araşdırmaq, bu metodun uşaqların idrak, sosial, emosional və yaradıcılıq bacarıqlarının inkişafına təsirini müəyyənləşdirməkdir. Məqsəd həmçinin hazırlanmış mühitin, sensor materialların və fərdiləşdirilmiş təlimin uşağın erkən yaş dövründə təbii inkişafını necə dəstəklədiyini elmi əsaslarla göstərməkdən ibarətdir.

**Aktuallığının əsaslandırılması-** Müasir məktəbəqədər təhsil sistemində fərdiləşdirilmiş öyrənmə, uşağın inkişaf ritminə uyğun yanaşma və yaradıcı potensialın üzə çıxarılması əsas prioritetlərdəndir. Ənənəvi təlim modellərində uşağın marağı, sensor təcrübəsi və müstəqil fəaliyyət imkanları məhdudlaşdığı halda, Montessori metodu uşağı təlimin mərkəzinə gətirir. Azərbaycan məktəbəqədər müəssisələrində son illər uşaqların fərdi inkişafını nəzərə alan metodlara tələbat artmış, sosial-emotional bacarıqlar, yaradıcılıq, problem həll etmə kimi XXI əsr bacarıqlarının formalaşdırılması vacib hesab olunmuşdur.
Mövzunun aktuallığını şərtləndirən ziddiyyətlər:

- ənənəvi təlimin standartlaşdırılmış yanaşması ilə uşağın fərdi inkişaf ritmi arasında ziddiyyət;
- müəllim yönümlü təlimlə uşaq yönümlü təlim modelləri arasında uyğunsuzluq;
- məktəbəqədər müəssisələrdə müasir pedaqoji metodlara ehtiyac və mövcud metodik bazanın məhdudluğu;
- uşaqlarda sərbəst fəaliyyət ehtiyacı ilə təlim prosesində həddindən artıq müdaxilə arasındakı ziddiyyət.

Bu ziddiyyətlərin həlli Montessori fəlsəfəsinin tətbiqini nəzəri və praktik baxımdan aktuallaşdırır.

**Tədqiqatın metod və üsulları-** Tədqiqat aşağıdakı ümumelmi və xüsusi elmi metodlar əsasında aparılmışdır:
*Ümumelmi empirik metodlar:* müşahidəetmə; müqayisə; eksperiment
*Ümumelmi nəzəri metodlar:* analiz və sintez, abstraktlaşdırma; modelləşdirmə; deduksiya və induksiya

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir: Montessori metodunun Azərbaycan məktəbəqədər təhsil sistemi kontekstində elmi-pedaqoji təhlili aparılmışdır. Uşaqların fərdi inkişaf ritmi, sensor təcrübə və müstəqil fəaliyyət bacarıqlarına metodun real təsiri müşahidələr və praktik fəaliyyət əsasında müəyyən edilmişdir. Azərbaycan bağçalarında Montessori tətbiqinin üstünlükləri və çətinlikləri sistemləşdirilmişdir. Montessori mühitinin uşağın sosial-emosional inkişafına təsiri konkret nümunələrlə qiymətləndirilmişdir. Tədqiqat nəticələri əsasında Montessori metodunun yerli təhsil mühitinə uyğunlaşdırılması üçün yeni yanaşmalar təklif edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti-**Tədqiqat nəticələri məktəbəqədər tədris prosesində Montessori metodunun tətbiqi üçün praktik baza yaradır və aşağıdakı sahələrdə istifadə oluna bilər:
məktəbəqədər müəssisələrdə Montessori otaqlarının təşkili;
müəllimlərin metodik hazırlığı və ixtisasartırma proqramlarının tərtibi;
sensor, riyazi, dil və praktiki həyat materiallarının istifadəsinə dair metodik tövsiyələrin hazırlanması;

valideynlərin maarifləndirilməsi və məktəbəqədər təhsil müəssisələrində uşağa yönəlik yanaşmanın gücləndirilməsi.

**Nəticələr -** tədqiqatın əsas nəticələri məktəbəqədər müəssisə müşahidələrində və metodik dərslərdə tətbiq edilmiş, pedaqoji müzakirələrdə təqdim olunmuşdur.

Montessori təlim metodu uşağın təbii inkişaf ritmini nəzərə alaraq, fərdiləşdirilmiş öyrənmə mühitinin formalaşmasına imkan verir.

Hazırlanmış Montessori mühiti uşağın diqqətini, sensor qabiliyyətlərini, müşahidəetmə bacarığını və özünə nəzarət fəaliyyətlərini gücləndirir.

Sensor materiallarla təlim uşaqların idrak proseslərini — təsnifat, müqayisə, ardıcıllıq və nəticə çıxarma bacarıqlarını inkişaf etdirir.

Montessori metodunda sosial bacarıqların formalaşması – əməkdaşlıq, paylaşma, qarşılıqlı hörmət və sülh yolu ilə ünsiyyət – yaşa görə qarışıq qruplar vasitəsilə daha effektiv reallaşır.

Uşaqların məsuliyyət hissi, müstəqillik və özünütəşkil bacarığı “azadlıq və sərhəd” prinsipi əsasında daha güclü formalaşır.

Metodun tətbiqi nəticəsində uşaqlarda təbii marağa əsaslanan daxili motivasiya artır, öyrənmə prosesi məcburiyyət deyil, kəşf etmə fəaliyyətinə çevrilir.

Azərbaycan məktəbəqədər müəssisələrində Montessori metodundan istifadə uşaqların sosial adaptasiya və emosional tənzimləmə səviyyələrinin yüksəlməsinə müsbət təsir göstərir.

Tədris prosesində müəllimin müşahidəçi və bələdçi funksiyası uşaq yönümlü yanaşmanı gücləndirir və uşağın fərdi potensialının açılmasına şərait yaradır.

Tədqiqat göstərir ki, Montessori metodu məktəbəqədər təhsil müəssisələrində yaradıcı düşüncə, problem həll etmə və qərarvermə bacarıqlarının inkişafında effektiv nəticə verir. Tətbiq imkanlarının genişləndirilməsi üçün müəllim hazırlığı, materialların yerli istehsalı və valideyn maarifləndirilməsi əsas prioritet istiqamətlər kimi müəyyən edilmişdir.

## Bölmə 1. Riyaziyyatın tədrisi metodikası

## Kafedra: Riyaziyyat və informatika

**Şəhla Bağırova**
*Müəllim*
Shahlabagirova@nmi.edu.az

# Ümumitəhsil məktəblərinin riyaziyyat kurikulumunda istifadə olunan İKT avadanlıqları

***Tədqiqatın məqsədi və vəzifələri.*** Bu tədqiqatın məqsədi riyaziyyatın tədrisində İKT-dən istifadə imkanlarını müəyyənləşdirmək, texnologiyaların öyrənmə prosesinə təsirini təhlil etmək və tətbiq zamanı rast gəlinən çətinliklərə dair praktik həll yolları təklif etməkdir. Tədqiqatın vəzifələri isə riyaziyyat tədrisində istifadə olunan mövcud İKT vasitələrini araşdırmaq, müəllim və şagirdlərin rəqəmsal bacarıqlarının səviyyəsini qiymətləndirmək, İKT tətbiqinin dərsin keyfiyyətinə təsirini müəyyənləşdirmək, riyaziyyat dərslərində texnologiyadan səmərəli istifadəyə dair təkliflər hazırlamaqdan ibarətdir.

***Tədqiqatın aktuallığı.*** Riyaziyyat dərslərində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi müasir təhsilin əsas tələblərindəndir. Rəqəmsal alətlər şagirdlərə abstrakt riyazi anlayışları daha anlaşılan təqdim etməyə şərait yaradır. Lakin məktəblərdə texniki imkanların məhdudluğu, müəllimlərin İKT bacarıqlarının kifayət qədər formalaşmaması və rəqəmsal resurs çatışmazlığı bu məsələnin araşdırılmasını zəruri edir. Buna görə mövzu həm pedaqoji yeniliklər, həm də təhsil sisteminin inkişaf ehtiyacları baxımından aktualdır.

***Tədqiqatda istifadə olunan metodlar***. Tədqiqatın aparılmasında bir neçə elmi yanaşmadan istifadə olunmuşdur. **Analitik metod** vasitəsilə riyaziyyat dərslərində İKT-dən istifadəyə dair mövcud mənbələr və pedaqoji təcrübələr təhlil edilərək ümumi nəticələr formalaşdırılmışdır. **Sorğu metodu** müəllim və şagirdlərin texnologiyadan istifadə vərdişlərini və münasibətlərini öyrənmək üçün tətbiq edilmişdir. **Müşahidə metodu** dərs prosesində İKT-nin real tətbiqinin izlənməsi və fəaliyyətin obyektiv qiymətləndirilməsi üçün istifadə olunmuşdur. **Müqayisəli təhlil metodu** isə müxtəlif tədris mühitlərində İKT-nin tətbiq səviyyəsini və nəticələrini müqayisə etməyə imkan vermişdir.

***Tədqiqatın elmi yeniliyi.*** Bu tədqiqatın elmi yeniliyi riyaziyyat dərslərində tətbiq olunan İKT vasitələrinin ilk dəfə sistemli şəkildə təsnif edilməsi, onların pedaqoji və metodik imkanlarının qiymətləndirilməsi və kurikulumun tələbləri ilə real tədris praktikası arasındakı uyğunluğun metodik əsaslarda müəyyənləşdirilməsi ilə bağlıdır.

***Tədqiqatın aprobasiyası.*** Naxçıvan Müəllimlər İnstitutunun elmi əsərlər jurnalında məqalə formasında çap olunub.

İKT-nin riyaziyyat dərslərinə tətbiqi bir neçə əsas sahə üzrə həyata keçirilir. Bunlara dərs məzmununun elektron formata salınması, interaktiv lövhələrin imkanlarından istifadə, GeoGebra, Desmos və Khan Academy kimi rəqəmsal platformaların təlimdə tətbiqi, həmçinin qiymətləndirmə və testlərin avtomatlaşdırılması daxildir. Məsələn, "funksiyalar" mövzusunun izahı zamanı GeoGebra proqramı şagirdlərə müxtəlif funksiyaların qrafiklərini dəyişənlərə uyğun olaraq real vaxtda qurmağa şərait yaradır. Şagirdlər funksiyaların davranışını müşahidə etdikcə əlaqələri daha asan qavrayır və öz nəticələrini formalaşdırırlar. Bu yanaşma mövzunun mexaniki əzbərdən daha çox anlayaraq öyrənilməsini təmin edir.

Riyaziyyat tədrisində İKT müxtəlif avadanlıqlar və proqramlarla təlim prosesini daha dinamik edir. İnteraktiv lövhələr müəllimə qrafik və diaqramları aydın şəkildə təqdim etməyə və şagirdlərin

tapşırıqları birbaşa lövhə üzərində yerinə yetirməsinə imkan verir. Kompüter və noutbuklardan GeoGebra, Desmos və Excel kimi proqramlarda modelləşdirmə aparmaq, funksiyaların davranışını vizual izləmək mümkündür. Proyektorlar vasitəsilə dərs materialları bütün sinfə eyni anda nümayiş olunur və abstrakt məzmunun anlaşılması asanlaşır. Elmi və qrafik kalkulyatorlar isə xüsusilə yuxarı siniflərdə mürəkkəb hesablamaların sürətlə aparılmasını təmin edir. Planşet və telefonlar mobil tətbiqlər vasitəsilə şagirdə həm dərsdə, həm də evdə əlavə izah və tapşırıq dəstəyi verir. Elektron platformalar isə resurslara asan çıxış yaradaraq öyrənməni fərdiləşdirir.

*İKT-dən istifadənin üstünlükləri.*

Riyaziyyat dərslərində texnologiya şagirdlərin marağını artırır, mövzuların vizual qavranmasını asanlaşdırır və dərsə fəal iştirak mühiti yaradır. Fərdi öyrənmə tempinə uyğun tapşırıqlar, elektron qiymətləndirmə və tez geribildirim, həmçinin resursların davamlı yenilənməsi tədrisi daha səmərəli edir.

*Mövcud çətinliklər və həll yolları.*

Bəzi məktəblərdə texniki təminatın zəifliyi, müəllimlərin İKT bacarıqlarının tam formalaşmaması və internet bağlantısının qeyri-sabitliyi təlim prosesini məhdudlaşdıra bilir. Bu problemlərin aradan qaldırılması üçün müəllimlərin mütəmadi təlimlərə cəlb olunması, məktəblərin müasir avadanlıqlarla təchiz edilməsi, milli rəqəmsal resursların hazırlanması və infrastrukturun yaxşılaşdırılması vacibdir.

*Nəticə və gələcək perspektivlər.*

İKT-nin riyaziyyat təliminə inteqrasiyası şagirdlərdə analitik düşünmə, problem həll etmə və tənqidi yanaşma kimi XXI əsr bacarıqlarının inkişafına xidmət edir. Gələcəkdə süni intellekt, virtual reallıq və adaptiv öyrənmə sistemlərinin tətbiqi riyaziyyat dərslərini daha fərdiləşmiş və interaktiv edəcək. Texnologiyanın geniş istifadəsi həm müəllimin işini yüngülləşdirəcək, həm də təlim prosesinin keyfiyyətini yüksəldəcək.

## Bölmə 2. Ali riyaziyyat və informatika

## Kafedra: Riyaziyyat və informatika

**Sahib Əliyev**
*Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
*SahibAliyev@nmi.edu.az*

# Ortonormal Lejandr çoxhədlilər sisteminin texnologiyası

**Tədqiqatın məqsədi.** Bu tədqiqatın əsas məqsədi lejandr çoxhədliləri , bu çoxhədlilərin ortoqonal və ortonormal olduğunun bir neçə həddi göstərilmiş, mövcudluq və yeganəlilik teoremindən istifadə edərək müəyyənləşdirilmişdir.

**Mövzunun aktuallığı.** Klassik ortoqonal çoxhədliləri riyazi aparat kimi tez-tez istifadə olunur, yəni Çebişev, Lejandr, Çebişev- Hermet Çebişev-Lager və ümumi Yakobi çoxhədlilərinə baxılıb. Bu çoxhədlilər riyaziyyatçıların nəzəri tədqiqatlarında, riyazi fizikada, hesablama riyaziyyatında və kvant mexanikasında istifadə olunur. Son dövrlərdə klassik ortoqonal çoxhədlərdən daha çox istifadə olunan sıralar nəzəriyyəsinin müxtəlif məsələlərindən istifadə olunur. Biz klassik ortoqonal çoxhədlilərdən biri olan ümumiləşdirilmiş Lejandr çoxhədlisinə baxırıq. Əvvəlcə bu çoxhədlilərin ortoqonal olduğu göstərilir, bir neçə həddi müəyyənləşir. Nəticədə bu Lejandr çoxhədlisi üçün rekurent düsturu tapılır. Sonda diferensial tənliyi Lejandr çoxhədlisi üçün istifadə olunur.

**Tədqiqatın metod və üsulları.** Əsas klassik ortoqonallardan biri olan lejandr çoxhədlilərini araşdırmaq üçün onun ortoqonallığını isbat etməli, norma təyin müəyyənləşdirilmiş və ortonormal olduğu göstərilmişdir.

**Tədqiqatın elmi yenilikləri.** Tədqiqatda əsasən lejandr çoxhədliləri və bu çoxhədlilərin ortonormal şərtindən istifadə edilmişdir. $[-1,1]$ parçasında h(x)=1 çəki funksiyasına nəzərən mövcudluq kriteriyasından istifadə edərək ortonormal Lejandr çoxhədlisinin bir neçə ilk həddini qurulmuş, uyğunluq qanunundan istifadə etməklə standartlaşmış Lejandr çoxhədlisinin aşağıdakı ümümi formulunu alınmışdır:

$$P_n(x)=\frac{1}{n!2^n}\left[\left(x^2-1\right)^n\right]^{(n)}$$

Asanlıqla göstərmək olar ki, Lejandr çoxhədlisi $[-1,1]$-da h(x)=1 çəki funksiyasına nəzərən ortoqonaldır. Göstərmək olar ki bu ortoqonal çoxhədlisini həmişə ortonormal çoxhədlisinə gətirmək olar. Bunun üçün norma təyin olunur və göstərilir ki ,

$$\int_{-1}^{1}P_n^2(x)dx=\frac{2}{2n+1}$$

Aşkardır ki, ortonormal Lejandr çoxhədlisi aşağıdakı şəkildə olar.

$$\overline{P}_n(x)=\sqrt{\frac{2n+1}{2}}P_n(x)$$

Cəbrin xasssələrindən biri olan üçhədli rekurent düsturu araşdırılmış və nəticədə aşağıdakı Lejandr rekurent düsturu alınmışdır.

$$(n+1)P_{n+1}(x)=(2n+1)xP_n(x)-nP_{n-1}(x)$$

Bu isə Lejandr çoxhədlisi üçün rekurent düsturudur.

Nəticədə göstərmək olar ki, $h(x) = 1$ çəki funksiyası [-1;1] parçasında Lejandr çoxhədlin diferensial tənliyini ödəyir, ümumi Pirson tənliyindən istifadə olunur.

$$\frac{h'(x)}{h(x)} = \frac{P_0 + P_2(x)}{q_0 + q_1 x + q_2 x^2} = \frac{A(x)}{B(x)}$$

Xüsusi halda,

$$h(x) = 1 \Rightarrow h'(x) = 0$$

Deməli,

$$\frac{P_0 + P_2(x)}{q_0 + q_1 x + q_2 x^2} = \frac{A(x)}{B(x)} = 0 \; A(x) = 0 \; B(x) \neq 0$$

Burada ortoqonal Lejandr çoxhədlisinin [-1;1] parçasının nöqtələrindəki münasibət aşağıdakı kimi alınır:

$$B(-1) = B(1)$$

Nəticədə Beləliklə Lejandr çoxhədlisi üçün diferensial tənliyinin həlli tapılır.

Yəni

$$(x^2 - 1)y'' + 2xy' - n(n + 1)y = 0$$

Xüsusi halda mpvcudluq teoremindən və Pirson tənliyindən istifadə edərək bu çoxhədlilər həll edilmişdir.Gələcəkdə bəzi texnoloji proseslərdə bunlardan istifadə etmək lazım gəlir.

**Tədqiqaqtın praktik əhəmiyyəti.** Klassik ortoqonal çoxhədlilərinin ortonormal olduğunun müəyyənləşdirilmişdir. Xüsusi halda Lejandr çoxhədlisinin yeganəlilik və mövcudluq teoremindən istifadə edərək bu üsulların köməyilə bir neçə həddinin təyin edilmişdir. Həmin üsuldan istifadə edərək yeni üsulun köməyilə uyğun bu klassik ortoqonal diferensial tənliklərin araşdırılmasıdır.

**Elmi tədqiqat işində aşağıdakı nəticələr alınmışdır:**

- Lejandr çoxhədlisi ortoqonal olduğu göstərilmiş, norma təyini müəyyənləşdirilmiş, ortonormal olduğutəyin edilmişdir.
- Mövcudluq və yeganəlik teoremlərindən istifadə edərək Lejandr çoxhədlisinin bir neçə həddi müəyyənləşdirilmişdir.
- Cəbrin xassələrindən biri olan Lejandr düsturundan istifadə edərək bu çoxhədlinin rekurent düsturu araşdırılmalıdır.
- Pirson tənliyindən istifadə edərək Lejandr çoxhədlisinin diferensial tənliyi
- müəyyənləşdirilmişdir.

## Bölmə 2. Ali riyaziyyat və informatika

## Kafedra: Riyaziyyat və informatika

**Elşad Ağayev**
*Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
ElshadAgayev@nmi.edu.az

# Dəyişənlərinə ayırma üsulunun tətbiqi ilə hiperbolik tipli tənliklər üçün qoyulmuş sərhəd məsələlərinin həllərinin qurulması

**Tədqiqatın məqsədi**: Bu tədqiqatın əsas məqsədi Dəyişənləri ayırma üsulunun tətbiqi ilə hiperbolik tipli bircins simin rəqs tənliyi üçün verilmiş başlanğıc və sərhəd məsələnin həllinin analitik ifadəsini tapmaq və alınmış düsturun fiziki şərhini verməklə həllin dayanıqlığını təhlil və tədqiq etməkdir.

**Mövzunun aktuallığı.**Yazılmış tədqiqat işi ali məktəblərdə “Riyazi fizika tənlikləri” fənninin tədrisində metodiki baxımdan aktual olan problemlərdən birinə,Dəyişənləri ayırma üsulu və onun riyaziyyat təlimində yeri və fiziki məsələlərin həllinə tətbiqinə həsr olunmuşdur.Dəyişənləri ayırma üsulunun tətbiqi ilə hiperbolik tipli tənliklər üçün qoyulmuş başlanğıc və sərhəd məsələsinin həllinin tapılması praktik olaraq misallar üzərində izah olunmuşdur.

İşin tədqiqində sonda qeyd olunmuş müəlliflərə aid olan (1)- (3) ədəbiyyatlarına istinad edilmişdir .

Qeyd edək ki,hər bir fiziki hadisədə müəyyən olan proses, onu təyin edən başlanğıc şərtlərdən kəsilməz asılı olan funksiyalarla xarakterizə olunmalıdır. Bu kəsilməz asılılıq olmasa idi, onda bir-birindən əhəmiyyətli surətdə fərqli olan iki müxtəlif prosesə praktiki olaraq eyni olan başlanğıc şərtlər sisteminə uyğun ola bilərdi. Belə prosesləri bu başlanğıc şərtləri ilə təyin olunmuş hesab etmək olmaz. Buradan aşkar olur ki, simin rəqsləri prosesi nəinki riyazi, hətta fiziki olaraq başlanğıc şərtlər vasitəsi ilə təyin olunur. Məsələlərin həlli başlanğıc şərtlərdən kəsilməz asılı olarsa, çox zaman sərhəd məsələsinin həlli dayanıqlıdır, yaxud sərhəd məsələsi korrekt qoyulmuşdur, deyirlər. Riyazi fizikada əsasən korrekt qoyulmuş məsələlərə baxılır.Qoyulmuş məsələnin həllinin korrektliyi əyani olaraq misal üzərində izah olunur.Bu nöqteyi nəzərdən tədqiq olunan iş aktualdır

**Tədqiqatın metod və üsulları.**Tədqiqatın metodunu müqayisəli təhlil,ümumiləşdirmə və nəticəçıxarma yolları təşkil edir. İşin tədqiqində riyazi-fizika üsullarından biri olan dəyişənləri ayırma üsulundan köməkçi riyazi aparat kimi istifadə edilmişdir. Bu üsul xüsusi törəməli diferensial tənlikləri həll etmək üçün ən geniş və effektli üsullardan biridir.

**Tədqiqatın elmi yenilikləri.** Tədqiqatda qoyulmuş qarışıq məsələni həll etmək üçün dəyişənlərinə ayırma üsulundan istifadə edilmişdir və nəticədə qoyulmuş qarışıq məsələnin həlli üçün teoremin hökmü isbat edilmişdir. $[0,l]$ parçasında hər iki ucundan bağlı olan simin başlanğıc və sərhəd şərtləri verilərkən rəqsi məsələsini dəyişənlərinə ayırma üsulu ilə həll edək. Məsələnin riyazi qoyuluşu belədir:

$D_T = \{(x,t): 0 < x < l, 0 < t < T\}$ oblastında birölçülü

$$u_{tt} - a^2 u_{xx} = 0 \quad (1)$$

dalğa tənliyinin

$$\left. \begin{aligned} u(x,0) &= \varphi(x) \\ u_t(x,0) &= \psi(x) \end{aligned} \right\} \quad (2)$$

başlanğıc və

## Bölmə 2. Ali riyaziyyat və informatika

## Kafedra: Riyaziyyat və informatika

$u(0,t)=0$, $u(l,t)=0$ (3)

sərhəd şərtləri daxilində klassik həlli tələb olunur. Burada,□$(x)$ və □$(x)$ verilmiş funksiyalar, $u(x, t)$ isə axtarılan funksiyadır, belə ki, 0 □ $T$ □ □ .

**Tərif .** $D_T$ □ □$(x,t)$: 0 □ $x$ □ l,0 □ $t$ □ $T$□ oblastında (1) tənliyini,[0,l] parçasında (2) - şərtini, [0,T] parçasında

(3)-şərtini ödəyən $u(x, t)$□$C^2(D_T)\cap C^1(D_T)$ funksiyasına (1)-(2)-(3) məsələsinin **klassik həlli** deyilir İşdə. $X''(x)+\lambda X(x)=0$ tənliyi üçün $[0,l]$ parçasında Spektral məsələ (və ya Şturm-Liuvil məsələsi) adlanan məsələ həll edilmişdir.

Tədqiqatda qoyulmiş məsələnin həlli aşağıdakı sıra şəklində alınmışdır:

$$u(x,t)=\sum_{k=1}^{\infty}\left(a_k\cos\frac{k\pi a}{l}t+b_k\sin\frac{k\pi a}{l}t\right)\sin\frac{k\pi x}{l}$$

Burada,Dəyişənlərinə ayırma üsulunun riyazi əsaslandırılması **Ortoqonal baza prinsipi**nə əsaslanır.

Bu, riyazi olaraq Furye teoreminin yaxınlaşma və ortoqonallıq xassələri ilə təmin edilir.

**Tədqiqatın praktiki əhəmiyyəti.**Tədqiq olunan iş nəzəri xarakter daşıyır. Ali məktəblərin riyaziyyat ixtisasında, magistrant,dissertant və doktorantların diferensial tənliklər və riyazi fizika ixtisasları üzrə tədqiqat aparanlar üçün əhəmiyyətlidir**.**

**Elmi tədqiqat işində aşağıdakı nəticələr alınmışdır:**

**-**Dəyişənlərinə ayırma üsulunun tətbiqi ilə bircins simin sərbəst rəqs tənlikləri üçün qoyulmuş qarışıq məsələnin həllinin analitik ifadələri tapılmışdır;

- $[0,l]$ parçasında Spektral məsələ (və ya Şturm-Liuvil məsələsi) adlanan məsələ həll edilmişdir ;

-Alınmış düsturun fiziki şərhi dəqiq riyazi mühakimələrə istinad olunmaqla təhlil və tədqiq edilmişdir;

-Bircins simin rəqs tənliyinin Dəyişənlərinə ayırma metodu ilə həlli göstərir ki,mürəkkəb dalğa prosesi müxtəlif texniki harmonik dalğaların superpozisiyasıdır.Bu üsul həm analitik cəhətdən sadə,həm də fiziki mənası aydın olan bir metod olub dalğa proseslərinin əsas təbiətini ifadə edir.

## Bölmə 2. Ali riyaziyyat və informatika

## Kafedra: Riyaziyyat və informatika

**Ələsgər İmanov**
*Pedaqogika üzrə fəlsəfə doktoru*
*Baş müəllim*
*AlasgarImanov@nmi.edu.az*

# İnformatika fənninin məqsəd və vəzifələrinin tədrisinin xüsusiyyətləri

**Tədqiqatın məqsədi:** İnformatikanın tədris fənni kimi orta məktəbdə təliminin məqsədlərini öyrənməkdir.

**Mövzunun aktuallığı:** Müasir elektron texnikası informasiya və kommunikasiya texnologiyaları informatikanın əsas nüvəsini və maddi bazasını təşkil edir. XX əsrin 70-ci illərində fransızlar "informasiya " və "avtomatika" sözlərini birləşdirirək "informatika" terminini işlətməyə başladılar. İnformatika orta məktəbdə tədris fənni kimi öz məzmununu müəyyən edərkən aşağıdakı xüsusiyyətləri nəzərə alır:

- Orta məktəb şagirdlərinin yaş və bilik səviyyələri ;
- Ümumtəhsil funksiyaları ilə əlaqədar elmin mahiyyətini açan ümumi və əsas anlayışlar, məlumatlar ;
- Şagirdlərin gələcək həyata, praktik fəaliyyətə, digər elmlərin əsaslarını öyrənmək üçün müasir informatik cəmiyyət üçün zəruri olan bilik, bacarıq və vərdişlərlə silahlandırılması;

Başqa elmlərdən fərqli olaraq , informatika elmi sürətlə inkişaf edir və yeni anlayışlar meydana gəlir. İnformatikanın müstəqil tədris fənni kimi orta məktəb daxil edilməsi elmi faktlarla əsaslandırılmışdır. İnformatika fənninin məktəbdə müstəqil fənn kimi fəaliyyət göstərməsi mübahisələr doğurmuşdur. Bu fənn hansı məqsədləri daşımalıdır? sualı mübahisə obyekti olsa da, son illər bu suala konkret cavab verilib və nəzəri-elmi, praktik əsasda tədqiqatlar davam edir.

**Tədqiqatın metod və üsulları:** Tədqiqatın işində kompüterdə işləmək, öyrənmək, müşahidə, müsahibə, anket sorğusu, müəllimin şərhi, induksiya, dedeuksiya və fəal təlim metodlarından istifadə edilmişdir.

İnformatikanın bir elm kimi formalaşması və inkişafı XX əsrin ikinci yarısından başlamışdır. İnformatikanın məzmununa:

- İnformasiyanın strukturu və ümumi xassələri;
- İnformasiyanın axtarılması, toplanması, saxlanılması, emalı, ötürülməsi;
- İnformatikanın insan fəaliyyətinin müxtəlif sahələrində tətbiq edilməsi daxildir.

Müasir elektron texnikası, informasiya və kommunikasiya texnologiyaları-informatikanın əsas nüvəsini və maddi bazasını təşkil edir.

"İnformatika" termini mahiyyət etibarı ilə hələ indiyə qədər öz dəqi şərhini və ya tərifini yazmışdır.

Kibernetika- müxtəlif təbiətli sistemlərdə (süni, bioloji, sosial) idarəetmə və əlaqələr haqqında elmdir.

Kibernetikanın yaranması amerika riyaziyyatçısı Norbert Vinerin adı ilə bağlıdır. Elektron hesablama texnikasının inkişafı ilə əlaqədar kibernetika informasiya çevrilməsi haqqında ümumi elmə çevrilmişdir. "Kibernetika" anlayışı yaranandan sonra xarici ölkələrdən ABŞ-da, Kanadada və Latın Amerikası ölkələrində "komputer elmi" anlayışı yarandı ki, bu da informatika terminini əvəz edir. XX əsrin 70-ci illərində fransızlar "informasiya" və "avtomatika" sözlərini birləşdirərək "informatika" terminini işlətməyə başladılar və bu termin o dövrdəki SSRİ və Şərqi Avropa

ölkələrində də qəbul edildi.

Akademik A.P.Yerşov "informatika" termininin konkret mənasını "informasiyanın ötürülməsi və emalı prosesləri haqqında elmdir" kimi ifadə etmişdir.

İnformatika – məktəbdə tədris fənni kimi öz məzmununu müəyyən edərkən aşağıdakı xüsusiyyətləri nəzərə alır:

- Orta məktəb şagirdlərinin yaş və bilik səviyyələri;
- Ümumtəhsil funksiyaları ilə əlaqədar elmin mahiyyətini açan ümumi və əsas anlayışlar, məlumatlar;
- Şagirdlərin gələcək həyata, praktik fəaliyyətə, digər elmlərin əsaslarını öyrənmək üçün müasir informatik cəmiyyət üçün zəruri olan bilik, bacarıq və vərdişlərlə silahlandırılması;

Məlumdur ki, ümumtəhsilin məzmununu formalaşdırmaq üçün müasir didaktikanın tətbiq etdiyi prinsiplərdən biri- vahidlik və qarşılıqlı əks prinsipdir ki, elm əsasında fənni müəyyən edərkən tətbiq olunur. Bunu daha konkret belə ifadə edirlər: " elmin məntiqi ilə tədris fənni məntiqinin vahidliyi və qarşılıqlı əks olması prinsipi" .

## Bölmə 2. Ali riyaziyyat və informatika

## Kafedra: Riyaziyyat və informatika

**Aygün Sultanova**
*fizika üzrə fəlsəfə doktoru, dosent*
AygunSultanova@nmi.edu.az

# Frontal laboratoriya işləri

***Tədqiqatın məqsədi*** məktəb fizika laboratoriyalarının ən geniş sahəsi təcrübə nümayişlərini araşdırmaqdan ibarətdir.Təcrübə nümayişlərindən məqsəd fiziki hadisələr haqqında təsəvvür yaratmaq olduğu halda, digər təcrübə nümayişləri qarşısında cisimlərin fiziki xassələrini müəyyən etmək,ayrı-ayrı fizika qanunlarını yoxlamaq, onların texnikada tətbiqini göstərmək vəzifələri durur. Fizikanın tədrisinin əsas məqsədi nəzəri bilikləri praktiki bacarıqlarla möhkəmləndirməkdir. Bu məqsədə çatmaq üçün müxtəlif laboratoriya işləri tətbiq edilir.

***Aktuallığının əsaslandırılması:*** Məktəb fizika eksperimentinin bütün növləri şagirdlərin fizika qanunularının dərindən öyrənilməsinə, həmçinin fizika eksperimentinə dair praktiki vərdişlər əldə etmələrinə kömək edir, onlarda fizika elminə maraq yaradır.

***Tədqiqatın metod və üsulları:*** Ən başlıca metodika tələbələrdən biri hər bir nümayişin şərh edilən tədris materialı ilə bir başa əlaqəli olmasından ibarətdir. Təcrübələrin müvəffəqiyyətlə aparılması üçün onların məqsədi şagirdlərə əvvəlcədən izah edilməlidir. Hər bir təcrübə nümayişlərinin zəruliliyi əsaslandırılmalıdır ki, şagird yerinə yetirdiyi işin mahiyyətini dərk etsin.Metodistlər təcrübədən əvvəl onun nəticəsi haqqında şagirdlərə fikir mübadiləsi aparılmasını daha məqsədəuyğun hesab edilər.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Fizika müəllimi tədrisin səviyyəsini daim yüksəltməli,şagirdlərin dünyagörüşünün formalaşmasına diqqət artırmalıdır. Fizikanın həm orta məktəbdə, həmdə ali məktəbdə tədrisində laboratoriya işlərinin rolu əvəzsizdir.Laboratoriya işləri fiziki hadisənin müşahidə edilməsinə, ,alınan nəticələrin müqayisəli təhlilinə şərait yaradır.

***Tədqiqatın praktiki əhəmiyyəti :*** Laboratoriya işləri fizika kursunun daha dərin öyrənilməsinə kömək edir.Laboratoriya məşğələləri şagirdlərə fizika cihazları ilə rəftar etmək və müxtəlif fiziki kəmiyyətləri ölçməyə aid praktik bacarıq və vərdişlər qazanmağa imkan verir,şagirdlərdə təbiət hadisələrinə marağı artırır və müşahidə qabiliyyətini inkişaf etdirir.Fizikada laboratoriya işləri şagirdlərin praktiki bacarıq və vərdişlərini genişləndirir və dərinləşdirir.

**Tədqiqat işində əldə olunan nəticələri ümumiləşdirərək aşağıdakı şəkildə ifadə etmək olar:**

1. Frontal laboratoriya işləri fizikanın tədrisində əvəzolunmazdır. Bu üsul şagirdlərdə nəzəri bilikləri praktik vərdişlərlə birləşdirərək dərin elmi düşüncə formalaşdırır. Təcrübələrin düzgün təşkili həm də şagirdlərin araşdırma bacarıqlarını və elmə marağını artırır.
2. Frontal laboratoriya işləri fizika dərslərində nəzəriyyənin praktikaya tətbiqi üçün mühüm vasitədir. Onlar şagirdlərdə müşahidəçilik, dəqiqlik, təhlil və nəticə çıxarma bacarıqlarını inkişaf etdirir. Digər laboratoriya işləri ilə (fərdi və qrup) birlikdə tətbiq edildikdə isə fənnin mənimsənilməsini daha da gücləndirir .
3. Frontal laboratoriya işi fizikanın tədrisinin mühüm tərkib hissələrindən biridir. Bu işlər vasitəsilə tələbələr nəzəri biliklərini təcrübə ilə birləşdirir, müşahidə, təhlil və nəticə çıxarma bacarıqlarını inkişaf etdirirlər.
4. Fizika laboratoriya işləri şagirdləri həyatda istifadə olunanan ölçmə metodlarş ilə tanış edir. Frontal laboratoriya işlərinin üstün cəhətlərindən biri də şagirdlər arasında əmək bölgüsünün düzgün aparılması ilə bağlıdır, başqa sözlə desək, mürəkkəb əməkdaşlıqla bağlıdır. Buradan aydın olur ki, laboratoriya işləri şagirdlərdə əməkdaşlıq etmək, ümumi işi həyata keçirmək üçün bölgü əsasında işləmək kimi yüksək ideallıq tərbiyəsini aşılayır.

## Bölmə 2. Ali riyaziyyat və informatika

## Kafedra: Riyaziyyat və informatika

**Kəmalə İbrahimova**
*Baş müəllim*
KamalaIbrahimova@nmi.edu.az

# Rekursiv obyektlər: ağacların təsviri

**Tədqiqatın məqsədi.** Müasir informatika və riyaziyyatda rekursiv obyektlər xüsusi əhəmiyyət kəsb edir. Rekursiya anlayışı obyektin və ya funksiyanın özünə istinad etməsi ilə xarakterizə olunur. Riyaziyyatda faktorial, Fibonacci ardıcıllığı və fraktal fiqurlar bunun klassik nümunələridir. Kompüter elmlərində isə rekursiv obyektlər məlumat strukturlarının və alqoritmlərin təsvirində geniş tətbiq olunur.

**Aktuallığının əsaslandırılması**. Rekursiv obyektlərin, xüsusilə də ağacların öyrənilməsi müasir informatikanın əsas istiqamətlərindən biridir. Ağacların rekursiv təsviri həm nəzəri baxımdan universal bir modeldir, həm də praktikada geniş tətbiq olunur. Bu səbəbdən rekursiv obyektlərin və ağac strukturlarının tədrisi və tətbiqi gələcəkdə daha da aktuallaşacaqdır. Bu baxımdan yazılmış iş aktualdır.

**Tədqiqatın metod və üsulları**. ETİ-də Ağac strukturları və onların rekursiv təsviri bölməsində göstərilir ki, Ağac (tree) kompüter elmlərində və diskret riyaziyyatda ən çox istifadə olunan rekursiv məlumat strukturlarından biridir. Ağac rekursiv qaydada belə tərif olunur:

- Boş çoxluq ağacdır;
- Bir kök (root) elementi və ona bağlı alt-ağaclar da ağac təşkil edir.

Bu tərifdən görünür ki, hər bir alt-ağac özü də bütöv bir ağacdır və bu, rekursiv obyekt anlayışını tam ifadə edir. Məsələn, binary tree strukturu hər bir qovşaqda iki alt-ağacdan ibarət olur. Bu cür rekursiv təsvirlər alqoritmlərin yazılmasını da asanlaşdırır. Məsələn, ağac üzərində axtarış (DFS, BFS), sıralama və ya balanslaşdırma alqoritmləri rekursiv funksiyalar vasitəsilə təmiz və yığcam formada həyata keçirilir.

Tədqiqat göstərir ki, ağacların rekursiv təsviri bir çox praktiki sahədə istifadə olunur:

- Məlumat bazaları və fayl sistemləri (qovluq və fayl strukturu);
- Proqramlaşdırma dillərinin kompilasiyası (sintaksis ağacları);
- Süni intellekt və oyun nəzəriyyəsi (axtarış ağacları);
- Qrafika və fraktalların qurulması.

Tədqiq olunan mövzu ilə bağlı olaraq müzakirələr aparılmış, tədqiqat baxımından təhlil olunaraq müəyyən nəticələrə gəlinmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** Rekursiya həm nəzəri (hesablama nəzəriyyəsi, riyazi ardıcıllıqlar), həm də praktiki (algoritmlər, məlumat strukturları, qrafika) baxımdan ən fundamental anlayışlardan biridir. Onu öyrənmək proqramlaşdırma və alqoritmik təfəkkür üçün əsas şərtlərdəndir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Rekursiv obyektlərin, xüsusilə də ağacların öyrənilməsi müasir informatikanın əsas istiqamətlərindən biridir. Ağacların rekursiv təsviri həm nəzəri baxımdan universal bir modeldir, həm də praktikada geniş tətbiq olunur. Bu səbəbdən rekursiv obyektlərin və ağac strukturlarının tədrisi və tətbiqi praktik əhəmiyyət kəsb edir.

**Nəticə.**

- Riyazi və alqoritmlər nəzəriyyəsinə əsasən, Rekursiya, sadə halda özünə istinad prinsipidir. Rekursiya mürəkkəb məsələləri daha sadə alt-məsələlərə bölərək həll etməyə imkan verir. Bir çox effektiv alqoritmlər (Quicksort, Mergesort, DFS) rekursiya üzərində qurulub.

- Proqramlaşdırma dillərində : Rekursiya həm *imperativ dillərdə* (C, Java, Python), həm də *funksional dillərdə* (Haskell, Lisp) əsas anlayışlardan biridir. Funksional dillərdə rekursiya dövrlərin (for, while) alternativi kimi istifadə olunur.
- *Riyazi məntiq və hesablama nəzəriyyəsində* **:** Rekursiv funksiyalar *hesablama nəzəriyyəsinin* (computability theory) əsas sütunlarından biri olmaqla Turing maşınları ilə ekvivalent gücə malikdirlər.
- Rekursiyanın *praktiki tətbiqləri aşağıdakılardan ibarətdir:*

1) Qovluq strukturlarının idarəsi; 2) Qraflar üzərində axtarış; 3) Fraktal şəkillərin qurulması
4) Dinamik proqramlaşdırmada rekursiyanın optimallaşdırılmış formaları

- Rekursiya haqqında yazılmış son ədəbiyyatlarda : 1. ***Cormen və Sedgewick*** → rekursiyanın alqoritmik tətbiqləri izah edilir; 2. **Sipser və Kleene nəzəriyyəsində** → rekursiv funksiyaların riyazi əsasları şərh olunur; 3. ***Knuth*** → rekursiyanı həm nəzəri, həm də praktiki tərəfdən ən klassik formada təqdim edir. 4. ***Python və digər müasir dillərin dərslikləri*** → rekursiyanı real proqramlaşdırmada necə yazmaq lazım olduğunu göstərir.

Aldığımız son nəticələr belədir ki:

- Bu anlayış həm riyaziyyat, həm də kompüter elmlərinin qovşağında dayanır.
- Rekursiya yalnız nəzəri konsepsiya deyil, həm də gündəlik proqramlaşdırmanın əsas alətlərindən biridir.
- Son tədqiqatlar və dərsliklər rekursiyanın *tədris metodologiyasına* diqqət yetirir: tələbələr üçün rekursiyanın vizual izahı (fraktallar, qraf strukturları) daha effect hesab olunur.
- Praktikada rekursiya çox vaxt *iterativ üsullarla* müqayisə olunur. Kiçik məsələlərdə rekursiya daha "təmiz", böyük məsələlərdə isə optimallaşdırılmış iterativ üsullar üstün ola bilər.

Rekursiya həm nəzəri (hesablama nəzəriyyəsi, riyazi ardıcıllıqlar), həm də praktiki (alqoritmlər, məlumat strukturları, qrafika) baxımdan ən fundamental anlayışlardan biridir. Onu öyrənmək proqramlaşdırma və alqoritmik təfəkkür üçün əsas şərtlərdəndir.

Rekursiv obyektlərin, xüsusilə də ağacların öyrənilməsi müasir informatikanın əsas istiqamətlərindən biridir. Ağacların rekursiv təsviri həm nəzəri baxımdan universal bir modeldir, həm də praktikada geniş tətbiq olunur.

## Bölmə 2. Ali riyaziyyat və informatika

## Kafedra: Riyaziyyat və informatika

**Aygün Məmmədova**
*Baş müəllim*
Aygunmemmedova@nmi.edu.az

# Riyazi analiz kursunun təliminin metodik sisteminin qurulması

**Tədqiqatın məqsədi** – Ali məktəblərin riyaziyyat fakültəsində riyazi analizin tədrisi prosesi elə qurulmalıdır ki, gənclər bilik almaqdan daha çox alınmış bilikləri müstəqil tətbiq etməyi bacarsı və biliklərə yiyələnməsidir.

Riyazi analiz kursunun məqsədi orta təhsil müəssisəsində riyaziyyatından əldə edilmiş bilikləri elmi cəhətdən əsaslandırmalı və get-gedə dərinləşdirməkdən tələbələrin elmi fəaliyyətinin gücləndirilməsinə kömək etməkdən ibarətdir.

**Aktuallığın əsaslandırılması -** Riyazi analizin tədrisində əldə edilmiş riyazi təkliflərin sistemləşdirilməsi, onların qarşılıqlı əlaqəsinin aydınlaşdırılması, onların nəzəriyyədə ümumiləşmiş cərəyanların köməyi ilə birləşdirilməsi, öz xüsusi qanunları ilə bu nəzəriyyənin təkmilləşdirilməsi və inkişaf etdirilməsidir.

Riyazi analizin tədrisi metodikasının həlli məsələləri zamanın funksiyası kimi ali məktəbin tədrisi prosesində həmişə aktual olaraq qalmaqdadır.

**Tədqiqatın metod və üsulları** – tədqiqat üzrə aparılan müşahidə metoduna əsasən Riyazi analizin elementləri arasında əlaqənin yaradılması və onlar arasında əhəmiyyətli olanın seçilməsidir. Modelləşdirmə metoduna əsasən bu fənnə aid sxemlərin qurulması və düzgün modellərin hazırlanmasıdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – tələbələrin riyaziyyata, riyazi fənlərə marağının inkişaf etdirilməsi. Həmçinin tələbələrin məntiqi təfəkkürün inkişaf etdirilməsi, riyazi analiz üsulları ilə tətbiqi məsələlərin həll edilərək başa düşülməsidir.

**Tədqiqatın praktiki əhəmiyyəti** – Riyazi analiz kursu təliminin tam quruluşunu, funksiyalarını, onun tamlığını təmin edən faktorların olmasıdır. Tələbələrə bu fənnin tədrisi zamanı mövzuların şərhinin məzmunlu, ardıcıl, ciddi və məntiqli olmasını böyük əhəmiyyət daşıyır.

Mövzunu tədqiq edərkən aşağıdakı **nəticələri** əldə etmək olar.

Tələbələr riyazi analiz tədrisi prosesində uyğunlaşma prinsipinin atributlarının məzmunundan görünür ki, bu kursun şərji digər fənlərarası əlaqələri nəzərə alınmaqla aparılmalıdır. Deməli, uyğunlaşma prinsipinə istinad olunduqda təlimin üsulları dominanat rolu oynayır. Riyazi analizin təlimi prosesində bəzi anlayışların interpretasiyası, tipik məsələlərin modelləşdirilməsi və s. bütün bunlar təlimin üsullarına əsaslanmalıdır.

Fundamentallıq və uyğunlaşma prinsipləri əsasən bu fənni kənar təsirlərdən qoruyur, riyazi analiz kursuna qapalı və izolə edilmiş kimi qalmaq imkanı vermir.

Bu deyilənləri nəzərə alaraq aşağıdakı kimi bölgü apara bilərik:

Fundamentallıq prinsipi-təlimin məzmunu

Uyğunlaşma prinsipi-təlimin üsulları

Riyazi analizin təlimində nəzəriyyənin praktika ilə əlaqəsi prinsipinə istinad edildikdə tələbə yalnız biliklər deyil, eyni zamanda bacarıq və vərdişlər qazanır.

Ali məktəblərin birinci kursuna daxil olan tələbələrin tədris materiallarını mənimsəməsi prosesində xeyli maneələr yaranır. Tələbələr suala cavab verərkən, təklif edilən məsələni həll edərkən nədən başlamağı bilmirlər. Ən başlıcası isə odur ki, tələbələr təkliflərin, hökmlərin dərk edilməsində böyük çətinliklərlə qarşılaşırlar.

Gələcək riyaziyyat müəllimlərinin peşə ustalığının əsalarının formalaşdırılmasını və riyazi analizin təlimi prosesinin effektliliyini təmin edən əlamətə aparıcı ideyalar prinsipi deyilir. Tədris materialları bu prinsipə istinad edilərək şərh olunduqda dərketmə prosesi müvəfəqiyyətlə həyata keçir, tələbələr keçirilən materialı yaxşı mənimsəyir və yadda saxlayırlar.

Riyazi analiz üsullarının bu və ya digər təbii proseslərə nüfuz etməsi nəticəsində məhz bu proseslərə məxsus olan yeni anlayışlar yarana bilər. Məsələn, iqtisadiyyatın bir sıra məsələlərində sərbəst dəyişənin artım faizinə uyğun asılı dəyişənin artımı faizinin hesablanması əlverişlidir. Burada x satılan malın miqdarı, y isə gəlirin miqdarı olsun.

$$F_X(y) = \frac{x}{y} \cdot y^1$$

kəmiyyəti satılan malın miqdarı 1% dəyişdikdə gəlirin neçə faiz dəyişdiyini göstərir. Funksiyanın elastikliyi adlanan bu anlayışın bir sıra xassələri də var. Bu anlayışa və onun xassələrinə aid riyazi analizdən praktik məşğələlərdə məsələlər həll etməklə tələbələrdə iqtisadi tərbiyə formalaşdırmaq olar.

Uyğunlaşma prinsipinin əhəmiyyətli atributlarından biri də tipik məsələlərin modelləşdirilməsidir. Hazırda təbiətşünaslığın ən aktual məsələlərindən biri təbii proseslərin riyazi modelləşdirilməsidir. Riyazi analizdə bu məsələyə sadə məsələlər nümunəsindən baxılır və məqsəd aşağıdakından ibarətdir: tələbələrə tətbiqi məsələlərun qoyuluşunu və təhlilini öyrətmək.

Öyrənilən materialların genişləndirilməsi və dərinləşdirilməsi ilə aparıcı ideyaları reallaşdırmaq mümkündür. Bu zaman alınmış nəticələr anoloji vəziyyətə köçürülür.

Alınmış nəticələrin ümumiləşdirilməsi də aparıcı ideyalara çıxışın mümkün yollarından biridir. Bu isə ayrı-ayrı hallar üçün məlum anlayışları vahid riyazi obyekt halına gətirməyə imkan verir.

Riyazi analizin tədrisi metodikası sistemində varislik prinsipinin aşağıdakı atributları vardır:

-inkişafı riyazi analiz proqramında nəzərdə tutulmayan riyazi obyektlər haqqında məlumatların verilməsi;

-riyazi analiz aktual problemlərinə aid yuxarı kurs tələbələri üçün məsləhətlər təşkil olunması;

-riyazi analizin xüsusi kurslarının oxunması;

Varislik və uyğunlaşma prinsipləri arasında ikitərəfli əlaqə vardır. Uyğunlşama prinsipinə istinad olunaraq riyazi analizin elə obyektləri öyrənilir ki, bunlarsız digər riyazi kursları qurmaq mümkün deyil. Varislik prinsipinin atributlarına görə digər riyazi kursların öyrənilməsi üçün hazırlanmış vəsaitlərdə riyazi analizin tətbiqləri nəzərdə tutulur.

**Bölmə 2. Ali riyaziyyat və informatika**

**Kafedra: Riyaziyyat və informatika**

**Gülən İmamquliyeva**
*Müəllim*
*GulenImamguliyeva@nmi.edu.az*

# Ümumi təhsil məktəb riyaziyyatı kursunda informatika fənninin təlimi xüsusiyyətləri

**Tədqiqatın məqsədi.** Məlumdur ki, müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətlə inkişaf etməsi məktəb təhsilində informatika fənninin rolunu xeyli artırmışdır. Ümumi təhsil məktəblərində informatika kursunun əsas məqsədlərindən biri şagirdlərdə informasiya prosesləri haqqında təsəvvür yaratmaq, onların alqoritmik və məntiqi düşünmə bacarıqlarını inkişaf etdirmək, həmçinin rəqəmsal savadlılığı formalaşdırmaqdan ibarətdir.

Tədqiqatın məqsədi informatika fənninin təliminə xas olan xüsusiyyətləri müəyyənləşdirmək, fənnin məzmununun şagirdlərin düşünmə tərzinə, yaradıcılığına və praktik fəaliyyətinə təsirini araşdırmaq, eləcə də müasir texnologiyalardan istifadə etməklə tədrisin səmərəliliyini artırmaqdır.

**Aktuallığının əsaslandırılması**. Müasir dövr informasiya cəmiyyətinin formalaşdığı, rəqəmsal texnologiyaların həyatın bütün sahələrinə nüfuz etdiyi bir mərhələdir. Bu şəraitdə məktəblərdə informatika fənninin tədrisi təkcə kompüter bacarıqlarının öyrədilməsi deyil, həm də şagirdlərin analitik düşünmə, problem həll etmə, alqoritmik yanaşma və informasiya təhlükəsizliyi kimi əsas XXI əsr kompetensiyalarının inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

İKT-nin təhsildə geniş tətbiqi, elektron resurslardan istifadə, distant tədrisin aktuallaşması, rəqəmsal savadlılığın cəmiyyətin hər üzvü üçün zəruri bacarığa çevrilməsi informatika fənninin məktəb kursunda rolunu daha da artırır. İnformatikanın təlim xüsusiyyətlərinin araşdırılması və tədris prosesinin müasir tələblərə uyğun qurulması təhsil sisteminin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir. Bu səbəbdən mövzunun araşdırılması həm elmi, həm də praktik cəhətdən xüsusi aktuallıq daşıyır.

**Tədqiqatın metod və üsulları**. Tədqiqat üzrə aparılan araşdırmalar zamanı ümumtəhsil məktəblərinin V-VI sinif informatika dərslikləri təhlil olunmuşdur. Tədqiqat zamanı ümumi təhsil məktəblərinin informatika dərslikləri təhlil edilmiş, müqayisə və müşahidə metodlarından istifadə olunmuşdur. Müasir tədris yanaşmalarının, İKT vasitələrinin və interaktiv metodların informatika fənninin təliminə təsiri öyrənilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** İnformatika fənninin təliminə xas olan əsas xüsusiyyətlər sistemləşdirilmiş, rəqəmsal resursların və proqramlaşdırma tapşırıqlarının şagirdlərin təlim fəallığına təsiri göstərilmişdir. Tədqiqat nəticəsində müasir informatika təlimi üçün metodik tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqatın praktik əhəmiyyəti**. Aparılan tədqiqatın nəticələri ümumi təhsil məktəblərində informatika fənninin daha səmərəli şəkildə tədrisinə praktik töhfə verir. İnformatika fənninin təlim xüsusiyyətlərinin müəyyənləşdirilməsi müəllimlərin dərs planlaşdırmasında, müasir İKT vasitələrinin seçilməsində və şagirdlərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsində real tətbiq imkanları yaradır.

Tədqiqatın nəticələri informatika dərslərində alqoritmik düşünmənin, proqramlaşdırma tapşırıqlarının, interaktiv metodların və rəqəmsal resursların istifadəsinin tədris keyfiyyətini artırdığını göstərir. Müəllimlər üçün metodik tövsiyələr təqdim etməklə dərs prosesinin daha effektiv təşkili təmin olunur.

Beləliklə, tədqiqat məktəb informatika təliminin yenilənməsi, şagirdlərin müasir əmək bazarına uyğun rəqəmsal kompetensiyalar qazanması və tədris mühitinin təkmilləşdirilməsi baxımından praktik əhəmiyyət kəsb edir.

**Nəticə.** Apardığımız tədqiqatlar onu göstərir ki, ümumi təhsil məktəblərində informatika fənninin tədrisi şagirdlərin rəqəmsal bacarıqlarının formalaşmasında, alqoritmik və məntiqi təfəkkürlərinin inkişafında xüsusi rol oynayır. İnformatika fənninin məzmun xətti şagirdlərə informasiya prosesləri, kompüter qurğuları, alqoritmlər, proqramlaşdırma və informasiya təhlükəsizliyi kimi anlayışları sistemli şəkildə mənimsəməyə imkan verir.

Lakin müşahidələr göstərir ki, informatika fənninin tədrisi zamanı şagirdlər bəzən alqoritmlərin tətbiqində, proqramlaşdırma tapşırıqlarının yerinə yetirilməsində və rəqəmsal alətlərlə işləməkdə çətinliklər yaşayırlar. Buna görə də tədris prosesində interaktiv metodların, vizual proqramlaşdırma mühitlərinin və müasir İKT resurslarının tətbiqi böyük əhəmiyyət kəsb edir.

Ümumiləşdirilmiş nəticələrə əsasən demək olar ki, informatika fənninin məzmun xüsusiyyətlərinin düzgün təqdim olunması şagirdlərin məntiqi düşünmə, problem həll etmə və yaradıcılıq bacarıqlarının inkişafına müsbət təsir göstərir. Bu baxımdan aşağıdakı əsas nəticələr müəyyən edilmişdir:

1. Ümumi təhsil məktəblərində informatika fənninin məzmun xəttinin sistemli və ardıcıl qurulması şagirdlərdə rəqəmsal savadlılığın formalaşmasını təmin edir.
2. Alqoritmik düşünmənin, proqramlaşdırmanın və informasiya təhlükəsizliyinin tədrisdə prioritetləşdirilməsi şagirdlərin məntiqi təfəkkürünü və problem həll etmə bacarığını gücləndirir.
3. İnformatika dərslərində İKT vasitələrindən, vizual proqramlaşdırma platformalarından və interaktiv metodlardan istifadə təlimin səmərəliliyini artırır.
4. Şagirdlərin qarşılaşdığı çətinliklərin aradan qaldırılması üçün praktik tapşırıqların, nümunələrin və elektron resursların tətbiqi məqsədəuyğundur.

Beləliklə, aparılan tədqiqat informatika fənninin təlim xüsusiyyətlərinin elmi-metodik cəhətdən əsaslandırılmasına və bu fənnin tədris keyfiyyətinin yüksəldilməsi məqsədilə tətbiq edilə biləcək tövsiyələrin hazırlanmasına imkan yaratmışdır.

**Bölmə 3. Ədəbiyyat və kitabxanaçılıq: fənlərin tədrisi məsələləri**

**Kafedra: Azərbaycan dili və ədəbiyyat**

**Həsənəli Eyvazov**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Kafedra müdiri*
*HasanaliEyvazov@nmi.edu.az*

# M.Rzaquluzadənin uşaq yaradıcılığında vətəndaşlıq mövqeyi və onun tədrisdə yeri

***Tədqiqatın məqsədi:*** Bədii nümunələrdəki ədəbi qəhrəmanların elmi və metodik istiqamətdən təhlili tədqiqatın ana xəttini təşkil edir. Bu mənada Mikayıl Rzaquluzadənin ümumi yaradıcılığındakı vətəndaşlıq mövqeyi və ideyaya bağlılığı, eyni zamanda müxtəlif xarakterik xüsusiyyətli təhlili yollarının araşdırılması məqsəd kimi qarşıya qoyulmuşdur.

***Aktuallığın əsaslandırılması:*** Stalin rejiminin süqutundan sonra -50-ci illər təkcə Azərbaycanda deyil, SSRİ adlandırılan qapalı bir məkanda keşməkeşli hadisələr baş verirdi. 1937-ci ildən başlayan repressiya və deportasiya siyasətinin sovet rejimi altında yaşayan xalqlara vurduğu mənəvi və maddi ziyan sayagəlməz səviyyədə idi. Belə bir vaxtda, yəni 1953-cü ildə Stalinin ölümü ilə dıgər təbəqələrlə yanaşı şair və yazıçıların da qəlbində sabaha görə bir ümid işıgı yandı. soyqırım və deportasiya qorxusuna son verilməsi insanların qəlbində sabaha bir ümid və inam yaratmışdı. Yazıçı və sairlərin əsərlərində vətən və vətəndaşlıq mövqeyi həllini tapmağa başladı. Bu mənada Mikayıl Rzaquluzadənin 1959-cu ildə qələmə aldığı “Yuva davas” “İki quş” “Mənim planm” və s. əsərlərində erməni xislətinin mahiyyətini verməyi bacarmışdır. Bu fikirlər özünü 90-cı illərdə açıq şəkildə büruzə vermişdir. Bunlar illər keçcə də mövzunun aktuallığını qoruyub saxlamışdır.

***Tədqiqatın metod və üsulları:*** Tədqiqatda müasir ədəbiyyatşünaslıqda mövcud olan və geniş yayılan elmi-müqayisəli, elmi-nəzəri metodlar və problematik təhlil üsullarına istinad edilmişdir. Ədəbi-nəzəri cəhətdən bədii təhlilə istinad etməklə ümumiləşdirmələr aparmağa üstünlük verilmişdir. Eyni zamanda nəzərdə tutulan mövzular üzrə müqayisəli təhlillərin aparılması və ümumiləşdirilməsi zamanı obrazların bədii inikasına müəllif münasibətinin səciyyəvi cəhətləri təhlil mərkəzinə çəkilmişdir.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Tədqiqatın elmi yeniliyini şərtləndirən əsas amil Mikayıl Rzaquluzadənin müxtəlif məzmunlu yaradıcılığına aid bədii əsərlərin müasir tələblər baxımından təhlilinə tarixi, milli mövqe məsələləri kontekstindən yanaşılır. Tədris prosesində startegiyaların düzgün seçilməsi, təlim nəticələrinin düzgün reallaşmasında qarşıya çıxan problemlər araşdırılmış, indiyə kimi ədəbiyyat fənninin tədrisi məsələləri araşdırılsa da bu tədqiqat işində araşdırılmağa ehtiyacı olan mövzular göstərilmişdir.

***Tədqiqatın praktiki əhəmiyyəti:*** Elmi-tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat işi ümüm orta təhsil pilləsində ali müəllim hazırılığı üçün, həmçinin ali məktəb tələbələri üçün faydalı mənbə ola bilər. Eyni zamanda bu sahədə tədqiqat aparanlar da istifadə edə bilər.

***Tədqiqatın aprobasiyası:*** Tədqiqatın əsas müddəaları elmi–tədqiqat işinin məzmununu özündə əks etdirən “M.Rzaquluzadənin uşaq yaradıcılığında vətəndaşlıq mövqeyi və onun tədrisdə yeri” mövzusunda araşdırmada əksini tapmış və onun əsasında hazırlanan tezis çap olunmaq üçün göndərilmişdir.

***Nəticə:*** Elmi-tədqiqat işi göstərilən məqəsdlərə uyğun hazırlanmışdır. Giriş hissəsində işin ümümi məqsədi göstərilmiş, digər bölmlərdə araşdırılan mövzular haqqında məlumat verilmişdir. Tədqiqat işinin əsas hissəsində məntiqi ardıcılllığa əsasən fənn haqqında- tətbiqi problemlərinə dair

məsəslələr araşdırılmışdır. Belə ki, M.Rzaquluzadənin 1958-ci ildə qələmə aldığı "Yuva davası" şeiri, dünənimiz və bu günümüz üçün ibrətamiz bir şeirdir. Sərçənin qaranquşlara qarşı nankorluğu bir zamanlar torpaqlarımıza gələrək məskunlaşan və bizə düşmən kəsilən ermənilərin nankorluğuna mənzəyir. Sanki şair 90-cı illərdə torpaqlarımızı zorla zəbt edən ermənilərin mənfur xislətini hələ 1958-ci ildə duymuş və Moskvanın hökmranlıq etdiyi bir dövrdə bu məsələyə açıq münasibətdən çəkinərək, şeirdəki məzmunla xalqımızı ayıq olmağa çalışmşdır. Qaranquşların yığılaraq birlikdə sərçəni yuvadan qovmaları, bəlkə də şairin "Güc birlikdədir" atalar sözünü yada salmaq üçün ədəbi priomu idi:

Qaranquşlar yuvaya,
Qayıtdılar yenidən.
Balalayıb, çoxalıb,
Yaşadılar orda şən...

Ata –babalarımızın torpaq verib, yurd- yuva sahibi olmalarına şərait yaratdıqları ermənilərin nankorluğunu canki şair 1958-ci ildə duymuş, öz duyğu və düşüncələrini yuxarıdakı şeirdə vermişdir.

Mikayıl Rzaquluzadənin yaradıcılıq simasını səciyyələndirərkən deyə bilərik ki, onun istər uşaqlar, istərsə də yaşlılar üçün yazdığı bütün əsərlərində biz təkcə istedadlı şair ruhunu deyil, həm də Vətən torpağının qeyrətini çəkən bir vətəndaşın qəlp çırpıntılarını duyuruq. Sonda tədqiqat işininin araşdırılmasına dair ədəbiyyat siyahısı göstərilmişdir.

**Bölmə 3. Ədəbiyyat və kitabxanaçılıq: fənlərin tədrisi məsələləri**

**Kafedra: Azərbaycan dili və ədəbiyyat**

**Yusif Səfərov**
*Filologiya üzrə elmlər doktoru, professor*
*YusifSafarov@nmi.edu.az*

## Şagirdlərin şifahi düşüncə tərzinin inkişafında tapmaca və onun şəkli xüsusiyyətləri tədrisinin metedoloji əsasları

**Tədqiqatın məqsədi:** Tədqiqatın məqsədi tədris prosesində şifahi xalq ədəbiyyatının epik janrlarından tapmaca və onun şəkli xüsusiyyətləri tədrisinin metodoloji əsaslarını şagirdlərə anlatmaqdır.Digər bir məqsəd də bu folklor örnəklərinin şagirdlərin şifahi düşüncə tərzinin inkişafında oynadığı rolu və əhəmiyyətini öyrətməkdir.

**Tədqiqatın aktuallığı**:Tapmaca və onun şəkli xüsusiyyətlərinin tədrisi üsullarından səmərəli istifadə etməklə şagirdlərin nitq və əqli inkişafına nail olmaq mümkündür. Şagirdlərin şüurlu surətdə əqli və psixoloji cəhətdən milli, vətənpərvər ruhda böyüdülməsi hər zaman ailə, cəmiyyət və dövlət üçün aktuallıq kəsb edən bir məsələ olmuşdur**.**

**Tədqiqatın metod və üsulları:** Elmi-tədqiqat işinin yerinə yetirilməsində əsasən aşağıdakı metod və üsullardan istifadə olunmuşdur**:**

1. Mövzuya elmi və praktiki cəhətdən yanaşma üsulu:

-mövzu ilə tanışlıq, onun ideya və məzmun baxımından səciyyələndirilməsi:

Təlimin izah və şərh üsulu ilə tapmaca janrının səciyyəvi xüsusiyyətlərinin mənimsədilməsinə, bu örnəklərin şagirdlərin nitq və əqli inkişafında əhəmiyyətinin əsaslandırılmasında səmərəli vasitələrə üstünlüyün verilməsinə, tədrisin tələbəyönümlü və nəticəyönümlü olmasına nail olunmuşdur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:**Mövzunun orijinallığı və elmi yeniliyi ondadır ki, tapmacalar uşaq aləmi və təxəyyülü ilə yaxından bağlıdı, hər dövrdə olduğu kimi, müasir dövrdə də öz dəyərini və əhəmiyyətini saxlamasındadır. Bu baxından tapmacaların balacayaşlıların əqli və psixoloji keyfiyyətlərin inkişafında oynadığı rolun əhəmiyyətini şagirdlər dərk etməlidir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Elmi-tədqiqat işinin praktikaya tətbiq olunması mövzunun əsas tələbləri və məqsədilə bağlıdır. Ümumi tətbiqi metodoloji əsas göstərir ki, bir çox uşaq folkloru örnəkləri kimi, tapmaca və onun bir çox forma və şəkilləri həm də uşaq poetik yaradıcılığının dəyərli inciləridir. Bu keyfiyyətlərin lazımi dərəcədə tədris prosesində aşılanması şagirdlərin praktik cəhətdən də həyat təcrübəsi və yaradıcı qabiliyyətini artırır.

**Tədqiqatın aprobasiyası:** Aparılan elmi-metodiki **t**ədqiqat məqalə formasında hazırlanıb çap olunmaq üçün Naxçıvan Müəllimlər İnstitutunun “Elmi əsərlər” jurnalının 2025-ci il, 4 saylı nömrəsinə təqdim olunmuşdur. Tədqiqatın müddəa və nəticələri də 02 dekabr 2025-ci il tarixdə bu ilin elmi-tədqiqat işlərinin yekuna həsr olunan konfransın toplu şəkildə çap olunacaq tezis materialları sırasına daxil edilmişdir.

**Nəticə.**Araşdırma göstərir ki, şagirdlərin şifahi düşüncə tərzinin, nitqinin, əqli tərbiyəsinin inkişafında tapmaca və onun bir çox şəkli xüsusiyyətlərinin müstəsna əhəmiyyəti vardır. Bu mənada tapmacaları səciyyələndirən əsas keyfiyyətlərin tədris prosesində şagirdlərə mənimsədilməsi başlıca məsələ olmalıdır. Bu məqsədlə də interaktiv təlim metodlarından istifadə daha səmərəli üsullardandır.

**Aparılmış elmi-metodiki tədqiqatda ortaya çıxarıllan əsas müddəa və nəticələr aşağıdakı şəkildə təqdim oluna bilər:**

-Tapmacalar uşaq düşüncəsini, nitqini erkən inkişaf etdirir, onların ətraf aləm, təbiət, bitkilər və heyvanlar haqqında biliklərini artırır;

-Tapmacalarda cəmiyyət, təbiət gözəllikləri elə şəkildə təsvir edilir ki, bu uşaqların estetik mədəniyyətinin inkişafına güclü təsir edir;
-Tapmacaların uşaqların tək əqli tərbiyəsində deyil, estetik və əmək tərbiyəsinin inkişafında da əhəmiyyəti böyükdür;
- Tapmacaların heç də hamısı metafora şəklində qurulmur, çoxu sadəcə sual şəklində söylənir. Tapmacalar ritm və ahənglərinə görə, geniş imkanlıdır. Onlarda qafiyə, vəzn dəqiqliyi axtarmaq əsas məsələ deyil:
-Aşıq bağlamaları güclü şeiriyyətə malikdir. Bunların bir qismi dəyişərək nəticədə tapmacalara çevrilir:
-Tapmacalar şagirdlərin məntiqi təfəkkürünün inkişafına qüvvətli təsir göstərir. Müəllim təlim prosesində şagirdlərin yaş və bilik səviyyəsinə uyğun tapmaca növlərindən istifadə eməyə çalışmalıdır:
-Müəllim təlimdə tapmacalardan səmərəli istifadə etməklə şagirdlər üçün müasir dövrümüzdə daha vacib olan yaradıcılıq və tədqiqatçılıq qabiliyyətini, obrazlı təfəkkürü inkişaf etdirə bilər.

**Bölmə 3. Ədəbiyyat və kitabxanaçılıq: fənlərin tədrisi məsələləri**

**Kafedra: Azərbaycan dili və ədəbiyyat**

**Nəzakət İsmayılova**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Nazakatismayilova@nmi.edu.az*

## Müstəqillik dövrü uşaq ədəbiyyatında yeniliklər və onların tədrisdə yeri

***Tədqiqatın məqsədi:*** Azərbaycan uşaq ədəbiyyatında bədii əsərlərin və sənətkarların öyrənilməsində və məzmununun mənimsənilməsində bu fənnin böyük əhəmiyyəti vardır. Bu mərhələdə əsas məqsəd tələbələrin bədii əsəri qavraması üçün zəmin yaratmaq, öyrənilən mövzuya, problemə, sənətkarın şəxsiyyətinə, yaradıcılığına maraq oyatmaqdır. Müasir dövrdə mütaliə və bədii ədəbiyyatın söz sənəti kimi qavranılması, oxucu marağının inkişaf etdirilməsi probleminin yollarını araşdırmaq.

***Aktuallığın əsaslandırılması:*** Azərbaycan uşaq ədəbiyyatı orta məktəbdə tədrisinə xüsusi yer verilən fənlərdəndir. Ədəbiyyat müəllimi daim öz üzərində çalışmalı, verilən pedaqoji tələblərə uyğun dərsini qurmalıdır. Bu baxımdan elmi-tədqiqat işində aktual olaraq fənninin müasir vəziyyəti araşdırılmış, metodiki problemlər göstərilmişdir. Müasir mərhələdə müasir oxucu, mütaliə və bədii ədəbiyyatın söz sənəti kimi qavranılması, oxucu müstəqilliyinin inkişaf etdirilməsi problemi, məktəbdə bədii əsərin öyrənilməsi üzrə işlər bir neçə mərhələdə həyata keçirilir: Bədii əsərin öyrənilməsi ilə bağlı giriş məşğələləri, Əsərin oxusu, Plan üzrə tərtibi, Mətnin məzmunu üzrə sorğu (nağıletmə, əzbərləmə), Əsərin təhlili, Sərbəst işlər, Sinifdənxaric işlər haqqında məlumat verilir.

***Tədqiqatın metod və üsulları:*** Elmi-tədqiqat işində ümumelmi nəzəri tədqiqat metodlarından-analiz, induksiya, deduksiya, nəzəri modelləşdirmə, pedaqoji axtarışlar prosesində isə müşahidə, təcrübənin öyrənilməsi, ümumilədirmə kimi metodlardan istifadə edilmişdir.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Tədqiqat işi müasir dövr üçün əhəmiyyətli olan fənlərin düzgün tədrisi yollarının araşdırılmasına, bu sahədə görüləcək işlərin həlli yollarının tapılmasına həsr olunub. Tədris prosesində startegiyaların düzgün seçilməsi, təlim nəticələrinin düzgün reallaşmasında qarşıya çıxan problemlər araşdırılmış, indiyə kimi uşaq ədəbiyyatı fənninin tədrisi məsələləri araşdırılsa da bu tədqiqat işində araşdırılmağa ehtiyacı olan mövzular göstərilmişdir.

***Tədqiqatın praktiki əhəmiyyəti:*** Elmi-tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat işi ümüm orta təhsil pilləsində ali müəllim hazırılığı üçün, həmçinin ali məkətb tələbələri üçün faydalı mənbə ola bilər. Eyni zamanda bu sahədə tədqiqat aparanlar da istifadə edə bilər.

***Tədqiqatın aprobasiyası:*** Tədqiqatın əsas müddəaları Naxçıvan Müəllimlər İnstitutu və digər ali təhsl müəssisələrinin təşkilatçılığı ilə birgə keçirilən “Ali pedaqoji təhsil sistemində elm: reallıqlar və perspektivlər” mövzusunda Beynəlxalq Elmi konfarsa “Müasir dövrdə mütaliə və bədii ədəbiyyatın söz sənəti kimi qavranılması, oxucu marağının inkişaf etdirilməsi problemi “ möbzusunda tezis çapa göndərilib.

***Nəticə:*** Elmi-tədqiqat işi göstərilən məqsədlərə uyğun hazırlanmışdır. Giriş hissəsində işin ümümi məqsədi göstərilmiş, digər bölmlərdə araşdırılan mövzular haqqında məlumat verilmişdir. Tədqiqat işinin əsas hissəsində məntiqi ardıcılllığa əsasən fənn haqqında- tətbiqi problemlərinə dair məsəslələr araşdırılmış, müasir dövrdə fənlərin tədrisinə verilən- pedaqoji-prosesin tamlığı, sagirdyönümlülük, şəxsiyyətyönümlülük, kimi tələblər haqqında məlumat verilərək, ədəbiyyat dərslərində bu tələblərin nəzərə alınması məsələsi ümumiləşdirilmişdir. Sonda tədqiqat işininin araşdırılmasına dair ədəbiyyat siyahısı göstərilmişdir.

**Bölmə 3. Ədəbiyyat və kitabxanaçılıq: fənlərin tədrisi məsələləri**

**Kafedra: Azərbaycan dili və ədəbiyyat**

Elmi- tədqiqat işi giriş, iki bölmə, nəticə və ədədbiyyat siyahısından ibarətdir. Giriş hissədə tədqiqat isinin mövzusu haqqında qısa məlumat verilir. Birinci bölmədə müstəqillik illəri uşaq ədəbiyyatı və yeni müstəvidə oyrənilməsı, oxucu marağının inkişaf etdirilməsi problemləri və perspektivlərindən danışılır. Pedaqoji prosesin əsasını təşkil edən və onun bütün sahələrini özündə birləşdirən dərs prosesi daim təkmilləşmədə və inkişafdadır.

Azərbaycan uşaq ədəbiyyatı fənnininin ictimai əhəmiyyəti söz sənətinin böyük tərbiyəvi, idraki, bədii-emosional təsiri ilə şərtlənir. Söz sənəti gənc nəslə vətənpərvərlik, humanizm, demokratik baxışlar,öz xalqının ədəbiyyatına, mədəniyyətinə bağlılıq, digər xalqların ədəbiyyatına, mədəniyyətinə ehtiram hissi aşılanmasında mühümrol oynayır. Ədəbiyyat təliminin səmərəliliyinin artırılması mürəkkəb, çoxşaxəli problemdir. Bu problemin uğurlu həllində təlim metodlarının düzgün seçilməsi, qarşılıqlı əlaqələndirilməsi əsas amillərdəndir.

Azərbaycan uşaq ədəbiyyatı fənninin tədrisi metodikasında təlim metodları probleminin tədqiqi başlıca vəzifələrdən biri kimi qarşıya qoyulur. Müasir mərhələdə müəllimdən ədəbiyyat dərslərində təlimin fəal metodları, forma və üsullarından, yeni təlim texnologiyalarından, interaktiv metodlardan, informasiya-kommunikasiya vasitələrindən istifadə olunması, fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi üzrə işin sistemini bilmək, praktikada tətbiq etmək bacarığı tələb olunur. Ədəbiyyatın tədrisi metodikası gələcək müəllimlərin şagirdlərin ədəbi inkişafı, təlim metodları və üsulları, pedaqoji fəaliyyətin əsas sahələri haqqında bilik və bacarıqlara yiyələnməsini, yaradıcı pedaqoji fəaliyyətə hazırlığını təmin edir. Təlimin şəxsiyyətyönümlü, nəticəyönümlü səciyyəsi, müəllim - şagird əməkdaşlığıilə bağlı məsələlərin dərindən mənimsənilməsi bu baxımdan çox əhəmiyyətlidir. Məktəbdə ədəbiyyat tədrisi metodikasının təkmilləşdirilməsi həm də bədii əsərin şagird - oxucuya mənəvi, estetik-emosional təsirinin gücləndirilməsini, şagirdlərdə yaradıcı müstəqilliyintərbiyə olunması, oxucu qavraması, mütaliəyə, ədəbiyyatın öyrənilməsinə marağın, təxəyyülün inkişaf etdirilməsini tələb edir.

Azərbaycan uşaq ədəbiyyatı fənni elmi-nəzəri məsələlər üzrə sisitemli biliklər verir, yeni dərs modelinin, müasir texnologiyaların təcrübədə tətbiqi üzrə zəruri bacarıqlar formalaşdıırır, məktəbdə söz sənəti nümunələrini kutikulum-məzmun xətlərinin tələblərinə uyğun olaraq mənimsədilməsi yollarını, metodikasını öyrədir. Ədəbiyyatın tədrisi metodikasının metodiki problemləri ixtisas üzrə orta ümumi təhsil məktəblərində ədəbiyyat fənninin öyrədilməsi yollarına, müasir tələblərə uyğun tədrisinin təşkilinə dair tələblərə əsaslı nəzəri bilik, metodik istiqamət və praktik bacarıqlar təhlil olunur. Tədqiqat işində hər bir fənn müəlliminin istər bilik, istərsə də bacarıq olaraq yiyələndiyi nəticələr də öz əksini tapmışdır.

**Bölmə 3. Ədəbiyyat və kitabxanaçılıq: fənlərin tədrisi məsələləri**

**Kafedra: Azərbaycan dili və ədəbiyyat**

**Ramiz Qasımov**
*filologiya üzrə elmlər doktoru, dosent*
*RamizGasimov@nmi.edu.az*

## Poeziyada milli və bəşəri ideallarin təcəssümü
## (Həsənəli Eyvazlının bədii yaradıcılığı əsasında)

**Tədqiqatın məqsədi.** Aparılan tədqiqatda məqsəd Naxçıvan ədəbi mühitinin tanınmış nümayəndəsi şair-dramaturq Həsənəli Eyvazlının bədii yaradıcılığını obyekt seçməklə burada başlıca predmet olan: 1. Milli dəyərləri; 2. Tarixi yaddaşı; 3. Vətən və el məhəbbəti motivlərini; 4. Vətənpərvərlik duyğularını; 5. Bəşəri dəyərləri və idealları; 6. Humanizmi, multikulturalizmi və tolerantlığı və s. müəyyənləşdirməkdir. Eyni zamanda ədəbiyyatı sevən və onu öyrənənlərin şəxsiyyətində vətənpərvər, millətpərvər, humanist, mərhəmətli, sülhpərvər, tolerantlıq keyfiyyətlərini, bəşəri dəyərlərə sahib insanlar kimi formalaşmalarına tədris yolu ilə nail olmaq, onun metodiki əsaslarını öyrənməkdən ibarətdir.

**Mövzunun aktuallığının əsaslandırılması.** Xalqın milli yaddaşı, tarixi və dəyərləri onun ədəbiyyatında qorunub saxlanır. Həm Azərbaycan xalqının şifahi söz sənətində, həm də yazılı ədəbiyyat nümunələrində onun milli xarakteri, taleyi və xalq olaraq yaşamasına imkan verən vacib keyfiyyətləri əks etdirilmişdir. Azərbaycan xalqının yaşadığı yeni – dünya xalqları və mədəniyyətlərinə inteqrativ şəraitdə ədəbi örnəklər vasitəsilə yaddaşda qorunub saxlanılan milli dəyər və keyfiyyətlərin, ümummilli ideallarin öyrənilməsi və tədrisi milli dövlətçilik yolu ilə inkişaf edən ölkəmiz üçün olduqca aktuallıq təşkil edir. Çünki dünya mədəniyyətinə yaxınlaşma milli keyfiyyət və dəəyərlərin, ümumilli ideallarin inkişafına maneçilik etməməlidir. Buna görə də orta və ali təhsil müəssisələrində milli və ümumbəşəri məsələlərin tədris edilməsi öyrənənlərin xarakterində doğruluq, halalıq, zəhmətkeşlik, vətənpərvərlik, mərhəmət, ədalət kimi şəxsi keyfiyyətlərin formalaşmasına stimul verir. Ədəbiyyatda milli və bəşəri dəyərlərin elmi-tədqiqat işi kimi tədris və metodik cəhətdən öyrənilməsi tədqiqat işinin aktuallığını və elmi-praktik əhəmiyyətini müəyyənləşdirir.

**Tədqiqatın metod və üsulları**. Tədqiqatın elmi-metodoloji aspektlərini strukturalist təhlil, poetik semantika, koqnitiv metafor nəzəriyyəsi, kulturoloji yanaşma, diskurs təhlili kimi məsələrlər təşkil etmişdir. Tədqiqat zamanı struktur təhlil, təsviretmə, poetik semantika, müqayisəli ədəbi təhlil, deduktiv və induktiv, sinxron, tənqidi realist və başqa metod və üsullardan istifadə edilmişdir.,

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** Ədəbiyyatşünaslıqda bu movzuya dair müəyyən əsərlər yazılsa da, məhz Həsənəli Eyvazlının bədii yaradıcılığının əsasında bu tədqiqat işi ilk dəfə həyata keçirilir. H.Eyvazlı yaradıcılığı əhatəsində də bəzi tədqiqat əsərlərində müəyyən fikirlər səsləndirilməsinə baxmayaraq, milli və bəşəri ideallarin konkret faktlara söykənən, ciddi elmi təhlil və təfərrüatlı tədqiqat işi məhz bu əsərdə həyata keçirilmişdir. Bu cəhətdən mövzu və problemin həlli istiqamətində seçilən faktlar və nümunələr, aparılan təhlillər, əsasən, ilk dəfə bu tədqiqat işində yerinə yetirilmişdir. Eləcə də bu tədqiqat əsərində irəli sürülən mülahizə, gəlinən qənaət və nəticələr yeniliyi, dürüstlüyü və orijinallığı ilə nəzər-diqqəti cəlb edir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Aparılan bu tədqiqat işi bir sıra praktik əhəmiyyət kəsb edir. Bu tədqiqatda irəli sürülən mülahizə və gəlinən nəticələrdən ələlxüsus Azərbaycan ədəbiyyatına dair icmal xarakterli mövzuların, Naxçıvan ədəbi mühitinə dair dərslərin və müxtəlif tədqiqat əsərlərinin tərkibində istifadə etmək, yararlanmaq olar.

**Tədqiqatın aprobasiyası**. Tədqiqat işi Naxçıvan Müəllimlər İnstitutunun "Azərbaycan dili və ədəbiyyat" kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəalarının yer aldığı "Poeziyada milli və bəşəri dəyərlərin elmi-metodiki əsasları (H.Eyvazlının bədii yaradıcılığı əsasında)" adlı məqalə çap edilmək üçün "Azərbaycan dili və ədəbiyyat tədrisi metodikası" jurnalına göndərilmişdir.

**Nəticə.** Elmi tədqiqat işi göstərilən tələblərə uyğun hazırlanmışdır. İşin giriş hissəsində tədqiqatın əsas məqsədi göstərilmiş, digər bölmələrdə araşdırmaya cəlb edilən mövzu başlıqlarıistiqamətində başlıca məlumatlar verilmişdir. Tədqiqat işinin əsas hissəsində məntiqi ardıcıllığa əsasən mövzunun tətbiq sahələrinə aid məsələlər göstərilmiş, qoyulan problemlər istiqamətində konkret faktlar və nümunələr təhlillərə cəlb edilməklə dürüst, dəqiq və əhəmiyyətli elmi mülahizə və fikirlər yürüdülmüş, qənaət və nəticələr ortaya qoyulmuşdur.Sonda tədqiqat işinin elmi-nəzəri mənbələrinə dair ədəbiyyat siyahısı təqdim edilmişdir.

Həsənəli Eyvazlının bədii yaradıcılığında, habelə şairin qələmindən çıxan "Görüşünə gəlmişəm", "Qalıbdır", "Ata ocağına qonaq gəlmişəm", "Əlincə qalasında düşüncələr", "Bu köç hara gedir?", "Unudulubdu", "Qəhrəman Naxçıvanım", "Naxçıvan", "Naxçıvanım", "Naxçıvana gəl" kimi poeziya nümunələrində Azərbaycan xalqının milli xarakter və keyfiyyətlərini müəyyənləşdirən Vətənə məhəbbət və vətənpərvərlik, el-obaya bağlılıq, doğma yurda sevgi və onu müdafiə qeyrəti, ictimai birlik və el üçün yaşamaq və s. keyfiyyətlər öz əksini tapmışdır.

Şairin "Səcdə qıllam", "Son döyüşə hazırlaşın" kimi şeir nümunələrində Vətəni sevməklə bərabər vətənin qorunması, müdafiə edilməsi kimi vətəndaşlıq vəzifələri təlqin edilmişdir. Hbelə onun "Araz sahilində doğan günəş", "Türkmənçay qətli", "Qurtuluşa gedən yol" kimi dram əsərlərində xalqımızın ərazi bütövlüyü, birliyi və dövlətçiliyinə qarşı xain planlar, bu xain planlara qarşı görkəmli şəxsiyyətlərin timsalında xalqın apardığı mücadilə örnək olaraq göstərilmiş və yeni nəsillərə təlqin edilmişdir.

"O günləri unutmayaq", "Qəriblik dağların qəddini əyib" kimi şeirlərdə məhz işğal altında olan, ermənilərin yaşadıqları doğma, əzəli yurd yerlərinin əhvalı və Qərbi Azərbaycana qayıdış idealları təsvir və təqdim olunub. Həsənəli Eyvazlı torpaqlarımızın işğalına dözümsüzlük göstərərək mübarizə motivlərini dilə gətirmişdir.

Onun bütövlük və vətənpərvərlik idealları "Yolum düşdü Batabata", "Əlincə qalasında düşüncələr", "Naxçıvan", "Naxçıvanım", "Naxçıvana gəl" şeirlərində də yer almış, Vətənin bu gözəl guşəsinə özünün sevgi və bağlılıq duyğuları poetik vüsətlə ifadə edilmişdir.

Həsənəli Eyvazlının yaradıcılığında ümummilli ideal olan Vətənin birliyi və bütövlüyü məsələsi başlıca yer tutmuşdur. Şair "Özümlə söhbət", "İki əsrin həsrəti", "Xan Araz" kimi şeirlərində Cənub həsrəti və birlik, bütövlük idealını dilə gətirmiş, yanıqlı, həsrət dolu duyğularla ifadə etmişdir. Bu əsərlərdə faciənin tarixi, səbəbləri, gətirdiyi yaralar, problemlər, faciənin miqyası və s. öz əksini tapmışdır.

"Ətoğrol Cavid və ya bir ailənin dramı" "Ruhların görüşü" "Bərdə necə gözəl, necə qəşəngdir" "Nadan xoruz" və b. dram əsərlərində milli ideallarla bərabər, bəşəri duyğular, düny\vi hisslər əks etdirilmişdir. Şairin yaradıcılığında insansevərlik, başqa mədəniyyətlərə hörmət və dözümlülük yer almış, humanist duyğu və düşüncələrini əks etdirmişdir. Şair Vətənini sevdiyi, ikiyə paralanmış Vətəninin birliyini arzuladığı, xalqına sülh, əmin-amanlıq dilədiyi kimi, bütün bəşəriyyətə də xoşbəxtlik, dostluq və qardaşlıq arzu etmişdir.

Ümumiyyətlə, elinə, obasına bağlılıq, insansevərlik, humanizm şair Həsənəli Eyvazlının bədii yaradıcılığının ortaya qoyduğu başlıca mənəvi keyfiyyətlər, təlqin etdiyi səciyyəvi mənəvi keyfiyyətlərdir.

**Bölmə 3. Ədəbiyyat və kitabxanaçılıq: fənlərin tədrisi məsələləri**

**Kafedra: Azərbaycan dili və ədəbiyyat**

**Aytən Cəfərova**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AytenCeferov@nmi.edu.az*

## Atalar sözləri, məsəllərin tədrisi əhəmiyyəti və problemləri

***Tədqiqatın məqsədi:*** Atalar sözləri və məsəllər xalqın uzun bir zaman ərzində sınaqdan çıxardığı həyati müşahidələrdən doğan fəlsəfi və rəmzi-məcazi ümumiləşdirmələri özündə əks etdirən paremioloji vahidlərdir. Tədqiqat işində əsas məqsəd yığcam formal əlamətlərə və zəngin məzmun əhatəsinə malik olan bu örnəklərin janr spesifikası çoxcəhətli olmağını, eləcə də nitq prosesində onlardan istifadənin vacibliyini öyrənənlərə aşılamaqdır. Atalar sözləri və məsəllərin təbliği, tədqiqi və tədrisi məsələləri olduqca vacibdir. Və bu örnəklərin dildə istifadəsinin nitqin kamilləşməsinə xidmət etdiyini şagirdlərə anlatmaq əsas məqsəddir.

***Aktuallığın əsaslandırılması:*** Nitqin tam ifadəli təşkil olunması və dilin zənginləşməsində atalar sözləri və məsəllərin xüsusi rolu və mövqeyi vardır. Hər bir atalar sözü və məsəl qədim tarixi keçmişin məhsulu olaraq milli dəyər daşıyıcısıdır. Hazırda da dilimizdə atalar sözləri və məsəllərin işlənməsi olduqca fəaldır. Və onların orta məktəbdə tədris olunması məsələsi olduqca aktualdır. Atalar sözləri və məsəllərin janr-forma xüsusiyyətləri haqqında olduqca dəyərli tədqiqat əsərləri mövcuddur. Lakin bu paremioloji vahidlərin tədris prosesində öyrədilməsi məsələsi bir problem olaraq ortalığa qoyulmadığından bu iş, öz növbəsində yeni və aktualdır.

***Tədqiqatın metod və üsulları:*** Elmi-tədqiqat işində ümumelmi nəzəri tədqiqat metodlarından - analiz, induksiya, deduksiya, nəzəri modelləşdirmə, pedaqoji axtarışlar prosesində isə müşahidə, ümumiləşdirmə kimi metodlardan istifadə edilmişdir.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Hər bir folklor nümunəsi milli dəyərlərin təbliğinə yönəlikdir. Çox hallarda nümunələrin daxilində milli etnik kimliyi ifadə edən sözlərlə də qarşılaşmaq mümkündür. Atalar sözləri və məsəllərin tədrisi, təbliği, tədqiqi məsələləri şagirdlərin nitqlə bağlı biliklərinin də kamilləşməsinə xidmət edəcəyi gözlənilən nəticədir.

***Tədqiqatın praktiki əhəmiyyəti:*** Elmi-tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat işi ümümorta təhsil pilləsində ali müəllim hazırılığı üçün, həmçinin ali məkətb tələbələri üçün faydalı mənbə ola bilər. Eyni zamanda, bu sahədə tədqiqat aparanlar da istifadə edə bilər.

***Tədqiqatın aprobasiyası:*** Tədqiqatın əsas müddəaları AMEA Naxçıvan Bölməsində nəşr olunan "Axtarışlar" jurnalına "Atalar sözləri və məsəllərin tədrisi əhəmiyyəti" başlığı ilə və "Tədris prosesində milli düşüncənin formalaşdırılması: vətəndaşlıq və vətənpərvərlik mədəniyyəti" başlığı ilə "Filologiya məsələləri" adlı elmi jurnallara çapa göndərilib.

***Nəticə:*** Elmi-tədqiqat işi göstərilən məqsədlərə uyğun hazırlanmışdır. Giriş hissəsində işin ümümi məqsədi göstərilmiş, digər bölmlərdə araşdırılan mövzular haqqında məlumat verilmişdir. Tədqiqat işinin əsas hissəsində atalar sözləri, məsəllər, eləcə də deyimlərin dilin inkişafına xidmət edən dəyərli örnəklər olduğu haqqında məlumat verilir. Eləcə də bu dil faktlarının nitqin inkişafındakı özəllikləri sadalanaır.

Elmi-tədqiqat işi giriş, üç bölmə, nəticə və ədədbiyyat siyahısından ibarətdir. Giriş hissədə tədqiqat isinin mövzusu haqqında qısa məlumat verilir. Qeyd edilir ki, atalar sözləri və məsəllər insanın kamilləşməsinə, nitqinin mükəmmələşməsinə xidmət edən ən aktiv dil faktlarındandır. Bu örnəklər insanın nitqinin bədiiləşməsinə xidmət etməklə yanaşı, onun milli etnik təfəkkürlə əlaqəsinin də formalaşmasına xidmət edir. Tədris prosesində atalar sözləri və məsəllərdən istifadə etməklə dərsi

təşkil etmək şagirdlərin canlı xalq dilinə qırılmaz tellərlə bağlanmasına, doğma dilimizin imkanları, eləcə də xalq həyatının bütün sahələri ilə yaxından tanış olmalarına şərait yaradır. Hazır həyat düsturları olan atalar sözlərinin şagirdlərə öyrədilməsi həm də etnik milli təfəkkürdən qaynaqlanan ədəb-ərkana dəvətdir. Atalar sözləri və məsəllər şifahi sözlü ədəbiyyatın epik növünün ən təbii və dildə bütün dövrlərdə aktiv işlənən janrıdır. Bu örnəklərdə xalq tarixinin ən aydın təzühürünü müşahidə etmək mümkündür. Eləcə də xalqın milli təfəkkürlə bağlı olan qədim mədəniyyət faktları atalar sözləri və məsəllərin daxilində qorunur.

Təhsil prosesində atalar sözlərinə həm də əxlaq kodeksi kimi yanaşılır. Bu nümunələr yeni nəslin təfəkkür və davranışlarının formalaşmasında, milli ruhda tərbiyələnməsində əvəzsiz mənbədir. Dilçilik baxımından da xalq ədəbiyyatı nümunələri, xüsusən atalar sözləri böyük dəyərə malikdir. Bu nümunələr vasitəsi ilə şagirdlər sözün bədii imkanları, ana dilimizin zənginlikləri ilə yaxından tanış olurlar. Nəticədə şagirdlər hələ kiçik yaşlarından az sözlə çox fikir, böyük məna ifadə etməyi öyrənirlər. Ümumiyyətlə, folklorla təmas uşaqların canlı xalq dilinə qırılmaz tellərlə bağlanmasına, doğma dilinin imkanları, həmçinin xalq həyatının bütün sahələri ilə yaxından tanışlığına şərait yaradır. Şagirdlərə xalqının kimliyini anlatmaq üçün folklor nümunələri mükəmməl bir mənbədir.

Folklor janrlarının tədrisi və təbliği milli kimliyin möhkəmlənməsi sahəsində mütləq şəkildə öz nəticəsini göstərir. Yəqinliklə deyə bilərik ki, müxtəlif folklor nümunələrin elmi-tədqiqat işi kimi işlənməsi, problemlərin təhlili və metodik cəhətdən müqayisəli yanaşması da nəzərdə tutulan müsbət nəticəni verəcəkdir, o cümlədən, atalar sözləri və məsəllərin tədrisi, təbliği, tədqiqi məsələləri şagirdlərin nitqlə bağlı biliklərinin də kamilləşməsinə xidmət edəcəyi gözlənilən əsas nəticədir.

## Bölmə 3. Ədəbiyyat və kitabxanaçılıq: fənlərin tədrisi məsələləri

## Kafedra: Azərbaycan dili və ədəbiyyat

**Şərəbanı Məmmədova**
*Filologiya üzrə fəlsəfə doktoru*
*Baş müəllim*
*SharabaniMemmedov@nmi.edu.az*

# M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında fondun təşkili prinsiplərinin araşdırılması

***Tədqiqatın məqsədi.*** Tədqiqat işinin məqsədi kitabxanaların informasiya fəaliyyətinin təşkili və idarə edilməsində MKS-lərin metodiki rəhbərliyinin rolu və yerinin qiymətləndirilməsi və onun təkmilləşdirilməsinə aid təkliflərin hazırlanmasıdır. Mövzunun tədqiqi zamanı aşağıdakı vəzifələri müəyyənləşdirilmişdir: 1.Elmi tədqiqatın mərhələlərinin təsviri və təhlili; 2.Ayrı-ayrı əməliyyat və metodların tətbiq ediləcəyi sahənin müəyyənləşdirilməsi; 3.Tədqiqat prinsiplərinə yanaşma konsepsiyasının təhlili M.S. Ordubadi adına Naxçıvan MR Kitabxanasının fondunun səmərəli idarə olunması prinsiplərini öyrənmək, kitabxana fondunun komplektləşdirilməsi, qorunması, rəqəmsallaşdırılması və istifadəyə təqdim olunması mexanizmlərini təhlil etmək, oxucuların müxtəlif tələbatlarına cavab verən çoxşaxəli və zəngin fond siyasətini inkişaf etdirməkdir. Yerli və milli mədəni irs nümunələrinin fond vasitəsilə qorunmasını və gələcək nəsillərə ötürülməsini təmin etmək üçün müasir İKT və innovativ texnologiyalar əsasında kitabxana fondunun idarə olunmasına dair təkliflər hazırlamaq əsas məqsəd kimi nəzərdə tutulmuşdur.

***Aktuallığın əsaslandırılması:*** M .S. Ordubadi adına Naxçıvan MR Kitabxanası bölgənin aparıcı elmi-mədəni mərkəzlərindən biri olaraq, oxucu tələbatına uyğun müasir fond siyasətinə ehtiyac duyur. Qloballaşma və texnoloji inkişaf şəraitində kitabxana fondunun yenilənməsi və müasir informasiya texnologiyaları ilə idarə olunması zəruridir. Regional və milli mədəni irsin qorunması üçün kitabxana fondunun sistemli şəkildə formalaşdırılması və saxlanması vacibdir. Fondun düzgün təşkili istifadəçilərin informasiya savadlılığını artırır və təhsil, elm və mədəniyyət sahələrinə töhfə verir.

***Tədqiqatın metod və üsulları:*** Mövzunun tədqiqində analiz, sintez, müqayisə və müşahidə metodlarından istifadə edilmşdir.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Tədqiqat işinin elmi yeniliyinə aşağıdakılar aiddir:

M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası fəaliyyətinə nəzər salınmış, onların innovasiyası sahəsində fonduntəşkili məsələsinin real mənzərəsi təsir olunmuşdur. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının xidmətləri təhlil olunmuşdur. Tədqiqatın elmi-nəzəri əsasını kitabxanaçı alimlərin mütəxəssislərin elmi-nəzəri tədqiqatları və bu sahəyə aid normativ-hüquqi aktlar, həmçinin kitabxanaçılığın inkişafına dair dövlət proqramları təşkil edir.

Fondun düzgün təşkili informasiya kitabxana istifadəçilərinin resurslardan effektiv yararlanmasına imkan verən yolları üzə çıxarır, tələbə və tədqiqatçılara lazımi materialları tez bir zamanda tapmağa kömək edir. Mədəni irsin bir hissəsini təşkil edən və onun düzgün idarə olunması mədəniyyətin qorunmasına töhfə verir. Yeni texnologiyaların tətbiqi ilə fondun rəqəmsallaşdırılması prosesi asanlaşır və bu, kitabxana xidmətlərinin daha geniş auditoriyaya çatmasına imkan yaradır. Bu səbəblərdən, kitabxana fondlarının təşkili prinsiplərinin araşdırılması, kitabxananın funksionallığını artırmaq və istifadəçilərə daha yaxşı xidmət göstərmək üçün vacibdir.

***Tədqiqatın aprobasiyası:*** Tədqiqatın əsas müddəaları Naxçıvan Müəllimlər İnstitu və digər ali

təhsl müəssisələrinin təşkilatçılığı ilə birgə keçirilən “Ali pedaqoji təhsil sistemində elm: reallıqlar və perspektivlər” mövzusunda Beynəlxalq Elmi konfarsa “M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında fondun təşkili prinsiplərinin araşdırılması“ mövzusunda tezis çapa göndərilib.

***Nəticə:*** Fondun düzgün təşkili kitabxananın fəaliyyətinin səmərəliliyini artırır, oxucuların məmnuniyyətini təmin edir və kitabxananı regionda mühüm informasiya mərkəzinə çevirir. Nəticə etibarı ilə qeyd etmək olar ki, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında fondların düzgün təşkili cəmiyyətdə kitabxana işinə və mütaliə mədəniyyətinin formalaşmasına səmərəli təsir göstərən bir fəaliyyət sahəsi kimi öz əhəmiyyətini həmişə saxlamışdır. Heç şübhə yoxdur ki, informasiyalaşdırma əsri adlandıran XXI əsrdə də insanların informasiyaya və biliklərə artan tələbatı ilə əlaqədar kitabxanaların sosial funksiyalarının mürəkkəbləşməsi metodik təminatın əhəmiyyətini daha da artıracaq, məzmununu və təhsil dairəsini isə xeyli genişləndirəcəkdir.

Tədqiqat işi giriş, 2 fəsil və nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işinin girişində mövzunun aktuallığı əaslandırılır, onun predmeti və obyekti verilir, elmi-nəzəri əsasları izah edilir və elmi yenilikləri verilir. Tədqiqat işinin I fəslində M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası tarixinəqısa nəzər salınmış, fondun tərkibi haqqında məlumat verilmişdir. Fondun düzgün təşkilinin müəssisələrin fəaliyyətinin əsas konsepsiyası olduğu əsaslandırılır. Kitabxanaların fəaliyyətində fondların yeri və rolu, funksiya və prinsipləri izah edilir, onların təşkili prinsipləri ətraflı şərh edilir. Tədqiqat işinin ikinci fəslində M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası fondundan istifadə etməklə idarəetmə sahəsində qazanılmış təcrübədən danışılır, kitabxanaların günün tələbləri səviyyəsində qurulmasında aparılan məqsədyönlü idarəetmədən bəhs olunur. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının fəaliyyətindən və yeni texnologiya təminatı sahəsində aparlan dövlət siyasətindən və statistik məlumatlardan çıxış edərək fondun quruluşu haqqında real mənzərəsi yaradılır.

Kitabxana fondu anlayışı və onun öyrənilməsi ən mühüm məsələlərdən biri hesab olunur. Kitabxana fondunun yaradılması və inkişafı elmin, informasiyanın, mədəniyyətin, təhsilin, tərbiyənin formalaşmasının mühüm sahələrindən biri kimi yüksək qymətləndirilir. Məhz buna görə də fondun öyrənilməsi mühüm məsələlərdən biri kimi qarşıda durur. Məqsədimiz Naxçıvanda fəaliyyət göstərən əsas kitabxananın fəaliyyətinin nəzəri və praktiki problemlərini müəyyən etməkdir. Tədqiqat işində kitabxananın bilik bazasının vaxtaşırı planlı şəkildə zənginləşdirilməsi, bu məqsədlə elmi və köməkçi tematik kartotekaların vaxtaşırı yenilənməsi istiqamətində layihələr araşdırılır. M.S. Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası Naxçıvan regionunun ən mühüm mədəniyyət müəssisələrindən biri olaraq kitabxana fondunun təşkili, qorunması və inkişafı sahəsində mühüm rol oynayır. Kitabxana fondunun təşkili prinsipləri ümumi kitabxanaşünaslıq qaydalarına, oxucu tələbatına və müasir informasiya texnologiyalarının tətbiqinə əsaslanır. M.S.Ordubadi adına kitabxana Naxçıvan Muxtar Respublikasının elmi-kütləvi kitabxanasıdır və əsas kitabxana hesab olunur. Hər yaşdan və peşədən olan insanlar ondan istifadə edir. Kitabxananın fondu da buna uyğun yaradılmışdır və oxucuların bütün növ müraciətlərinə cavab verir. Kitabxana fonduna Azərbaycan və xarici dillərdə kitablar, jurnallar, qəzetlər, musiqilər, audiovizual materiallar, elektron daşıyıcılar, disklər və digər materiallar daxildir. Hazırda kitabxana fondunda 189 766 çap məhsulu, o cümlədən 165 677 kitab, 13 977 dövri nəşr, 9 389 avtoreferat, 723 audiovizual material saxlanılır. Kitabxananın fondu ilan kimi soldan sağa düzülüb. Kitabxana kolleksiyası sistematik bir təşkilatdan istifadə edir. Bu sistemli təşkilat ədəbiyyatı elmi sahələrə uyğun təşkil edir. Hər bölmə və bölmə daxilində bir sahə üzrə kitablar müəllifin soyadı və ya kitabın adı ilə qruplaşdırılır. Bu təşkilat müvafiq kitabxanada istifadə olunan təsnifat cədvəlinə əsaslanır. Rəflər hər bölmə, fəsil, yarımbölmə və qiymətləndirmə

meyarları üçün daxili əlifbaya uyğun gəlir. Hər bölmənin, fəslin və ya yarımbölmənin əvvəlində əlfəcin qoyulur. Rəflərdə bədii ədəbiyyat əsərlərini təşkil etmək üçün əlifba sırası ilə kataloqdan istifadə edilir. Burada hər hərfdən sonra növbəti hərf üçün mötərizə qoyulur. Uşaq ədəbiyyatı bədii əsərlərdən sonra tərtib edilir. Xarici ədəbiyyat tərtib edilərkən hər bir ölkə öz qitəsinə görə toplanır. Kolleksiyadakı qəzet və jurnal materialları əlifba və xronoloji ardıcıllıqla düzülüb. Kitabxana fondunun daha səmərəli təşkili və nadir hallarda tələb olunan ədəbiyyatın lazımi qaydada saxlanmasını və istifadəsini təmin etmək üçün kitabxana fondu daxilində Saxlama Fondu fəaliyyət göstərir. Fondun təşkili və dəftərlərin maliyyə dayanıqlılığı yalnız dəftərlərdən istifadə və daşınma zamanı onlarla ehtiyatlı davranmaqla təmin edilə bilər. Kolleksiya daxilində temperatur və rütubət saxlanılmalı, təmizlik və zərərvericilərə qarşı mütəmadi olaraq mübarizə aparılmalıdır. Kitabxana fondu cəmiyyətin ehtiyaclarına və kitabxananın missiyasına uyğun olaraq sistemli şəkildə inkişaf etdirilir, inkişaf etdirilir və elmi əsaslarla təşkil edilir. O, oxucularının ehtiyaclarını ödəmək üçün daim yenilənməlidir və dinamik olmalıdır. Çap əsərlərindən və digər sənədlərdən ibarət kitabxana fondu kitabxananın növünə, strukturuna və vəzifəsinə uyğun olaraq yaradılır. Fond universal, sektoral, multidissiplinar və ya ixtisaslaşmış ola bilər. Fonda kitablar, jurnallar, qəzetlər, digər çap əsərləri, audiovizual və texniki vasitələrlə oxunan materiallar, əlyazmalar və digər informasiya mənbələri daxildir. Kitabxana fondları bu günün tələblərini ödəmək, gələcəyə müraciət etmək, cəmiyyət üçün gələcək yaddaş kimi xidmət etmək üçün yaradılmalıdır. Ona görə də fond yaradılarkən elm, texnika, iqtisadiyyat, mədəniyyət, incəsənət, bədii yaradıcılıq sahəsində ən son nailiyyətlər nəzərə alınmalı, bəşəriyyətin əldə etdiyi praktiki bilik və təcrübənin toplanması təmin edilməlidir. Fondun təşkilində aşagıdakı prinsiplərə əməl edilr.

Uyğunluq prinsipi: Fondun oxucuların tələbatına cavab verməsi. Formallıq prinsipi: Fondun sistemli və kateqoriyalar üzrə qruplaşdırılması. Dil prinsipi: Fonda müxtəlif dillərdə olan ədəbiyyatın daxil edilməsi və dil üzrə sistemləşdirilməsi. Tamlıq prinsipi: Kitabxananın profili üzrə əsas sahələrdə ədəbiyyatın tam şəkildə təqdim olunması. Mühafizə prinsipi: Fondun uzunömürlü və təhlükəsiz saxlanması üçün müvafiq şəraitin yaradılması.

Müasir kitabxanalarda iki növ təşkilatçılıqdan istifadə olunur. Bunlar kitabın məzmunu və formatı ilə formalaşır. Birincisi sistemli, mövzu və mövzuya əsaslanan, ikincisi isə əlifba sırası, xronoloji, linqvistik və format əsaslıdır. Sistemli düzülüşdə ədəbiyyat elm sahələrinə görə düzülür ki, hər bölmə və fəsil daxilində bilik sahəsindəki kitablar müəllifin soyadına və ya kitabın adına görə qruplaşdırılır. Bu tənzimləmə müvafiq kitabxanada istifadə olunan təsnifat cədvəlinə əsaslanır. Əlifba sırası ilə bütün kitablar məzmununa görə müəllifin soyadına görə, müəllifsiz kitablar isə əlifba sırası ilə adlarına görə sıralanır.

Tədqiqatda fondun idarə edilməsində müasir texnologiyaların tətbiqi kitabxana fəaliyyətinin operativliyini və səmərəliliyini artıracaq yollar müəyyənləşdirilmiş, mədəni irsinin qorunması və təbliği istiqamətində fondun rolu və əhəmiyyəti müəyyən edilmiş, tədqiqat əsasında əldə edilmiş nəticələr və verilmiş təkliflər öz əksini tapmışdır

**Bölmə 3. Ədəbiyyat və kitabxanaçılıq: fənlərin tədrisi məsələləri**

**Kafedra: Azərbaycan dili və ədəbiyyat**

**Təranə Qəbulova**
*Baş müəllim*
*TaranaGabulova@nmi.edu.az*

# Müasir dövrdə mütaliə və bədii ədəbiyyatın söz sənəti kimi qavranılması, oxucu marağının inkişaf etdirilməsi problemi

***Tədqiqatın məqsədi:*** Bədii əsərin məzmununun mənimsənilmə-sinin böyük əhəmiyyəti vardır. Bu mərhələdə əsas məqsəd şagirdlərin bədii əsəri qavraması üçün zəmin yaratmaq, öyrənilən mövzuya, problemə, sənətkarın şəxsiyyətinə, yaradıcılığına maraq oyatmaqdır. Müasir dövrdə mütaliə və bədii ədəbiyyatın söz sənəti kimi qavranılması, oxucu marağının inkişaf etdirilməsi probleminin yollarını araşdırmaq.

***Aktuallığın əsaslandırılması:*** Ədəbiyyatın tədrisi metodikası orta məktəbdə tədrisinə xüsusi yer verilən fənlərdəndir. Ədəbiyyat müəllimi daim öz üzərində çalışmalı, verilən pedaqoji tələblərə uyğun dərsini qurmalıdır. Bu baxımdan elmi-tədqiqat işində aktual olaraq fənninin müasir vəziyyəti araşdırılmış, metodiki problemlər göstərilmişdir. Müasir mərhələdə müasir oxucu, mütaliə və bədii ədəbiyyatın söz sənəti kimi qavranılması, oxucu müstəqilliyinin inkişaf etdirilməsi problemi, Məktəbdə bədii əsərin öyrənilməsi üzrə işlər bir neçə mərhələdə həyata keçirilir: Bədii əsərin öyrənilməsi ilə bağlı giriş məşğələləri, Əsərin oxusu, Lüğət üzrə iş, Plan tərtibi, Mətnin məzmunu üzrə sorğu (nağıletmə, əzbərləmə),Əsərin təhlili, Yazı işləri, Sinifdənxaric işlər haqqında məlumat verilir.

***Tədqiqatın metod və üsulları:*** Elmi-tədqiqat işində ümumelmi nəzəri tədqiqat metodlarından-analiz, induksiya, deduksiya, nəzəri modelləşdirmə, pedaqoji axtarışlar prosesində isə müşahidə, təcrübənin öyrənilməsi, ümumilədirmə kimi metodlardan istifadə edilmişdir.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Tədqiqat işi müasir dövr üçün əhəmiyyətli olan fənlərin düzgün tədrisi yollarının araşdırılmasına, bu sahədə görüləcək işlərin həlli yollarının tapılmasına həsr olunub. Tədris prosesində startegiyaların düzgün seçilməsi, təlim nəticələrinin düzgün reallaşmasında qarşıya çıxan problemlər araşdırılmış, indiyə kimi ədəbiyyat fənninin tədrisi məsələləri araşdırılsa da bu tədqiqat işində araşdırılmağa ehtiyacı olan mövzular göstərilmişdir.

***Tədqiqatın praktiki əhəmiyyəti:*** Elmi-tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat işi ümüm orta təhsil pilləsində ali müəllim hazırılığı üçün, həmçinin ali məkətb tələbələri üçün faydalı mənbə ola bilər. Eyni zamanda bu sahədə tədqiqat aparanlar da istifadə edə bilər.

***Tədqiqatın aprobasiyası:*** Tədqiqatın əsas müddəaları Naxçıvan Müəllimlər İnstitu və digər ali təhsl müəssisələrinin təşkilatçılığı ilə birgə keçirilən “Ali pedaqoji təhsil sistemində elm: reallıqlar və perspektivlər” mövzusunda Beynəlxalq Elmi konfarsa “Müasir dövrdə mütaliə və bədii ədəbiyyatın söz sənəti kimi qavranılması, oxucu marağının inkişaf etdirilməsi problemi “ möbzusunda tezis çapa göndərilib.

***Nəticə:*** Elmi-tədqiqat işi göstərilən məqsədlərə uyğun hazırlanmışdır. Giriş hissəsində işin ümümi məqsədi göstərilmiş, digər bölmlərdə araşdırılan mövzular haqqında məlumat verilmişdir. Tədqiqat işinin əsas hissəsində məntiqi ardıcılllığa əsasən fənn haqqında- tətbiqi problemlərinə dair məsəslələr araşdırılmış, müasir dövrdə fənlərin tədrisinə verilən- pedaqoji-prosesin tamlığı, sagirdyönümlülük, şəxsiyyətyönümlülük, kimi tələblər haqqında məlumat verilərək, ədəbiyyat dərslərində bu tələblərin nəzərə alınması məsələsi ümumiləşdirilmişdir. Sonda tədqiqat işininin araşdırılmasına dair ədəbiyyat siyahısı göstərilmişdir.

Elmi- tədqiqat işi giriş, üç bölmə, nəticə və ədədbiyyat siyahısından ibarətdir. Giriş hissədə tədqiqat isinin mövzusu haqqında qısa məlumat verilir. Birinci bölmə Müasir dövrdə mütailənin sosial-mənəvi əhəmiyyəti**,** bədii ədəbiyyatın söz sənəti kimi qavranılması, oxucu marağının inkişaf etdirilməsi problemləri və perspektivlərindən danışılır. Pedaqoji prosesin əsasını təşkil edən və onun bütün sahələrini özündə birləşdirən dərs prosesi daim təkmilləşmədə və inkişafdadır.

Ədəbiyyat tədrisi metodikasının ictimai əhəmiyyəti söz sənətinin böyük tərbiyəvi, idraki, bədii-emosional təsiri ilə şərtlənir. Söz sənəti gənc nəslə vətənpərvərlik, humanizm, demokratik baxışlar, öz xalqının ədəbiyyatına, mədəniyyətinə bağlılıq, digər xalqların ədəbiyyatına, mədəniyyətinə ehtiram hissi aşılanmasında mühümrol oynayır. Ədəbiyyat təliminin səmərəliliyinin artırılması mürəkkəb, çoxşaxəli problemdir. Bu problemin uğurlu həllində təlim metodlarının düzgün seçilməsi, qarşılıqlı əlaqələndirilməsi əsas amillərdəndir.

Pedaqogikada və fənlərin tədrisi metodikasında təlim metodları probleminin tədqiqi başlıca vəzifələrdən biri kimi qarşıya qoyulur. Müasir mərhələdə müəllimdən ədəbiyyat dərslərində təlimin fəal metodları, forma və üsullarından, yeni təlim texnologiyalarından, interaktiv metodlardan, informasiya-kommunikasiya vasitələrindən istifadə olunması, fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi üzrə işin sistemini bilmək, praktikada tətbiq etmək bacarığı tələb olunur. Ədəbiyyatın tədrisi metodikası gələcək müəllimlərin şagirdlərin ədəbi inkişafı, təlim metodları və üsulları, pedaqoji fəaliyyətin əsas sahələri haqqında bilik və bacarıqlara yiyələnməsini, yaradıcı pedaqoji fəaliyyətə hazırlığını təmin edir. Təlimin şəxsiyyətyönümlü, nəticəyönümlü səciyyəsi, müəllim - şagird əməkdaşlığıilə bağlı məsələlərin dərindən mənimsənilməsi bu baxımdan çox əhəmiyyətlidir. Məktəbdə ədəbiyyat tədrisi metodikasının təkmilləşdirilməsi həm də bədii əsərin şagird - oxucuya mənəvi, estetik-emosional təsirinin gücləndirilməsini, şagirdlərdə yaradıcı müstəqilliyin tərbiyə olunması, oxucu qavraması, mütaliəyə, ədəbiyyatın öyrənilməsinə marağın, təxəyyülün inkişaf etdirilməsini tələb edir.

Ədəbiyyatın tədrisi metodikası elmi-nəzəri məsələlər üzrə sisitemli biliklər verir, yeni dərs modelinin, müasir texnologiyaların təcrübədə tətbiqi üzrə zəruri bacarıqlar formalaşdıırır, məktəbdə söz sənəti nümunələrini kutikulum-məzmun xətlərinin tələblərinə uyğun olaraq mənimsədilməsi yollarını, metodikasını öyrədir. Ədəbiyyatın tədrisi metodikasının metodiki problemləri ixtisas üzrə orta ümumi təhsil məktəblərində ədəbiyyat fənninin öyrədilməsi yollarına, müasir tələblərə uyğun tədrisinin təşkilinə dair tələblərə əsaslı nəzəri bilik, metodik istiqamət və praktik bacarıqlar təhlil olunur. Tədqiqat işində hər bir fənn müəlliminin istər bilik, istərsə də bacarıq olaraq yiyələndiyi nəticələr də öz əksini tapmışdır.

## Bölmə 4. Dilçilik fənlərinin tədrisi məsələləri

## Kafedra: Azərbaycan dili və ədəbiyyat

**Samirə Həsənova**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*SamiraHasanova@nmi.edu.az*

# Orta məktəblərdə cümlə və ona məxsus sintaktik çalarların müasir təlim metodları əsasında tədrisi zamanı qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları

***Tədqiqatın məqsədi*** orta məktəblərdə cümlə və ona məxsus sintaktik çalarların tədrisində qarşıya çıxan çətinlikləri müəyyənləşdirmək, onların səbəblərini analiz etmək və müasir təlim metodlarının tətbiqi imkanlarından istifadə etməklə həmin problemlərin aradan qaldırılması üçün effektiv pedaqoji texnologiyalar, metod və üsullar təklif etmək, mövzunun nümunələr, testlər, bədii mətnlər üzərində öyrənilməsi işinin və fəal təlimin qarşıya qoyduğu standartların reallaşmasına nail olmaqdan ibarətdir;

- mövzunun tədrisində orta məktəblərdə tədris olunan dərsliklərdə və müxtəlif dilçilik ədəbiyyatlarında verilən qaydaları elmi-nəzəri, praktik cəhətdən təhlil etmək, onlara münasibət bildirmək və şagirdlərdə bu sahədə praktik bacarıqlar formalaşdırmaqdan ibarətdir;
- mövzunun tədrisində məzmun xəttinin bütün dərs boyu nəzarətdə saxlanılması, dərsin mərhələləri arasında məntiqi əlaqəni gözlənilməsi və prosesin nəticəyönümlülüyün təmin edilməsi vəziyyətini araşdırmaq, fəndaxili inteqrasiyanın imkanlarından istifadə etmək tədqiqatın əsas məqsədini təşkil edir.

***Aktuallığının əsaslandırılması:*** Müasir məktəbdə bütövlükdə təhsil sistemi dəyişdikcə, yeni konsepsiyalar irəli sürüldükcə, öyrənmənin əsas bazası olan dərsin xaraktei də dəyişməyə başlayır. Məzmunca yeniləşir, müasirləşir və demokratik xarakter alır. Bu zaman təhsil alan şagirdlər özlərinin potensial qüvvələrindən istifadə imkanları əldə edirlər.
Bundan əlavə dərsliklərin strukturunda olan dəyişikliklər, kompetensiyaya əsaslanan tədrisin tətbiqi, kommunikativ yanaşmanın aktuallaşması və müəllim-şagird münasibətlərində interaktivliyin artırılması cümlənin sintaktik xüsusiyyətlərinin yeni metodlarla öyrədilməsini zəruri edir. Buna görə də cümlə və onun sintaktik çalarlarının müasir təlim metodları ilə tədrisinin çətinliklərinin müəyyənləşdirilməsi və onların aradan qaldırılması yollarının işlənməsi pedaqoji baxımdan olduqca aktualdır.

Müasir dövrdə orta məktəblərdə ana dili tədrisinin əsas istiqamətlərindən biri şagirdlərin nitq bacarıqlarının və cümlə qurmaq vərdişlərinin inkişafı, cümlə quruluşunu, sintaktik münasibətləri və üslubi çalarları mənimsəməsidir. Mövzunun tədrisində müasir təlim metodlarının tətbiqi bu sahədəki pedaqoji, psixoloji, metodiki işin aktuallığını təmin edir, müəllim və tələbələrin imkanlarını genişləndirir.

Orta məktəblərdə cümlə və ona məxsus sintaktik çalarların tədris prosesində istifadə olunan müasir təlim metodları, bu metodların tətbiqi zamanı meydana çıxan çətinliklər və həmin çətinliklərin aradan qaldırılması yolları **tədqiqatın predmeti**ni təşkil edir.

**Tədqiqatın obyekti** orta məktəbin V–XI siniflərində Azərbaycan dili fənninin sintaksis bölməsinin tədrisi və bu prosesdə şagird-müəllim fəaliyyətinin təşkili formalarıdır.

***Tədqiqatın metod və üsulları:*** Tədqiqat üzrə aparılan araşdırmalar zamanı aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir:

- Azərbaycan Respublikasının təhsil sahəsində qəbul etdiyi konsepsiyalar və təhsil sənədləri öyrənilmiş, orta məktəblərdə tədris olunan Azərbaycan dili dərsliklərində və müvafiq elmi-metodiki ədəbiyyatlarda verilmiş nəzəri məlumatlar araşdırılmış və təhlili aparılmışdır;

- təhsil sistemində, o cümlədən orta məktəblərdə Azərbaycan dilinin tədrisində yeni elmi yanaşmaların və müasir texnologiyaların tətbiqi tədqiq edilmişdir.

- nəzəri metod, üsul, yol və vasitələr: təsviretmə, müqayisə, analiz-sintez, induksiya-deduksiya, dərslikərlə iş; tətbiq, yaxud yoxlayıcı metod və üsullar: **elmi-pedaqoji ədəbiyyatın təhlili,** linqvistik-sintaktik təhlil, cümlə və dil vahidləri sxemləri, testləşdirmə metodu; emprik və ya praktik metod və üsullar: müşahidə və tədqiqatçılıq, sorğu və müsahibə, təcrübə-sınaq, nitq səhvlərinin praktik təhlili, statistik və müqayisəli təhlil.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Orta məktəblərdə Azərbaycan dilinin fonetik, morfoloji, sintaktik qayda-qanunlarına aid bilik və bacarıqların formalaşması və qazanılması yolları, şagirdlər arasında dil bacarıqları üzrə yeni, müasir yanaşmaların tətbiqi ilə bağlıdır.

Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

1. Orta məktəblərdə cümlə və sintaktik çaların tədrisində mövcud problemlər, qarşıya çıxan çətinliklər sistemli şəkildə müəyyənləşdirilmişdir.
2. Azərbaycan dilində sintaktik konstruksiyaların, xüsusilə cümlə və ona məxsus sintaktik çaların tədrisində müasir təlim metodlarının tətbiqi və şagirdlərdə yeni bacarıqların formalaşmasının imkan və yolları araşdırılmışdır. Həmçinin bu sahədə ilkin anlayışlara aid bacarıqların şagirdlərdə formalaşdırılması, bu məzmunda tədrisin təşkili, tətbiqi, təlimin tipi və qiymətləndirilməsi tədqiq edilmişdir. Dərsliklər və dilçilik ədəbiyyatlarında verilən nəzəri materialların müqayisəli təhlili, testlər, tapşırıqlar üzərində tətbiqi, əldə olunan təlim nəticələri və dil bacarıqlarının formalaşmasında təqdim olunan yeni nəzəri modellər əsasında tədqiqat aparılmışdır.
3. Sintaksis tədrisinə müasir interaktiv və kommunikativ metodların tətbiqi üçün yeni metodik model hazırlanmışdır.
4. Cümlənin sintaktik xüsusiyyətlərinin, nəzəri məsələlərini şagirdin nitq fəaliyyətinə inteqrasiya olunması üçün funksional yanaşma əsasında praktik tapşırıqlar sistemi işlənmişdir.
5. Beynəlxalq təcrübəyə əsaslanaraq, yeni təlim metodlarını tətbiq etməklə şagirdlərdə dil bacarıqlarını inkişaf etdirməyin imkan və yolları elmi yenilik kimi şərh edilmiş, bu sahədə yeni pedaqoji strategiyalar, üsullar və müasir yanaşma formaları, tədris prosesində müxtəlif resusrslardan istifadə etmək imkanları təklif olunmuşdur.

***Tədqiqatın praktiki əhəmiyyəti (tətbiq sahəsi qeyd edilməklə):*** Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat işi ümumtəhsil müəssisələrində müəllim hazırlığı üçün faydalı mənbə ola bilər. Həmçinin orta və ali məktəblərdə pedaqoji kadrların təkmilləşdirilməsi və yenidən hazırlanmasında səmərəli bir mənbə kimi istifadə etmək, onların bu sahədəki metodiki imkanlarını genişləndirmək olar.

***Tədqiqat işində əldə olunan nəticələri ümumiləşdirərək aşağıdakı şəkildə ifadə etmək olar:***

1. Cümlə dilin əsas ünsiyyət vahidlərindən biri olmaqla, şagirdlərin nitq bacarığını formalaşdırmaqda, inkişaf etdirməkdə, məlumat dairəsini və söz ehtiyatını zənginləşdirməkdə mühüm rol oynayır. Cümlə və ona məxsus sintaktik çaların tədrisi zamanı qarşıya çıxan əsas çətinliklər ondan ibarətdir ki, şagirdlər cümlə və qeyri-cümlə vahidlərini ayırd edə bilmir, cümlənin quruluş və mənasına görə növlərini qarışdırır, həmçinin sintaktik təhlildə çətinlik çəkirlər. Bu çətinliklər, əsasən, metodik yanaşmanın yetərli və düzgün olmaması, abstrakt izahların çoxluğu və şagirdlərin nitq təcrübəsinin zəifliyi ilə əlaqədardır.
2. Cümlə anlayışı və ona məxsus çalarlar sistemli, ardıcıl, şagirdyönümlü, nəticəyönümlü və təcrübəyə əsaslanan tədris üsulları ilə mənimsədilməlidir. Müəllimlər bu sahədə metodik yanaşmalarını daim təkmilləşdirməli, tədris resurslarından düzgün istifadə etməli və şagirdlərin təfəkkür, nitq bacarıqlarının inkişafına yönəlmiş fəaliyyətlərinə üstünlük verməlidirlər.

Cümlə və ona məxsus sintaktik çalarların tədrisi üzrə işin səmərəli təşkili nəinki şagirdlərin nitq və təfəkkürünün inkişafına, həmçinin cümlə sintaksisinin, bütövlükdə dilin digər bölmələrinin də dərindən mənimsənilməsinə və dərsin məqsədinin reallaşdırılmasına gətirib çıxarır, həmçinin şagirdləri dərs boyu daim axtarışda olmağa, fikirlərini aydın şəkildə ifadə etməyə və mənəvi keyfiyyətlərin formalaşmasına yönəldilmiş situasiyaların həllinə nail olmağa sövq edir.

3. Cümlə quruluşunu və növlərini əyani şəkildə izah etmək, sxemlərdən və nümunələrdən - **vizual və praktik materiallardan** istifadə tədrisi asanlaşdırır. Müzakirələr, tapşırıq əsasında öyrənmə, cüt və qrup işləri və ümumiyyətlə, **fəal təlim metodlarına üstünlük verilməklə,** şagirdlərin fəallığı artırılmalı, dil bacarıqları inkişaf etdirilməlidir.

Ümumiyyətlə, elektron dərsliklər, interaktiv tapşırıqlar və oyunlaşdırma üsullar, bir sözlə **interaktiv texnologiyalardan istifadə** şagirdlərin motivasiyasını artırır.

4. Cümlələrin real kontekstdə necə qurulduğunu, cümlə daxilində söz və birləşmələrin hansı əlaqələr vasitəsilə bağlandığını analiz etmək, fikir bildirmək, o cümlədən mətn üzərində işləmək şagirdlərin tətbiqetmə bacarığını gücləndirir. Şagirdlərə fərdi yanaşma, onların səviyyəsinə, yaşına uyğun tapşırıqlar vermək öyrənməni səmərəli edir.

Dərsliklərdə düşündürücü, maraq doğuran tapşırıqların sayı çox olmalıdır ki, şagirdlər əldə etdikləri bilik və bacarıqları düzgün, məqsədyönlü tətbiq edə bilsinlər. Bu da şagirdlərin mövzunu daha dərindən qavramasına, yaddaşlarında möhkəmlənməsinə və onların müstəqil fəaliyyətlərinin təşkilinə, yaradıcı düşüncələrinin inkişafına səbəb olar.

5. Sintaksisin tədrisində linqvistik təhlil növlərinə aid hər bir bölmənin tədrisində şifahi və yazılı təhlillər aparmaqla, sonda sintaktik və durğu işarələri təlimi bölməsinin tədrisində istər sadə, istərsə də mürəkkəb cümlə növlərinin mənimsədilməsində istifadə etməklə fəal interaktiv təlimin qarşıya qoyduğu standartların, tələblərin reallaşmasına nail ola bilər.

***Tədqiqatın aprobasiyası.*** Tədqiqat işi Naxçıvan Müəllimlər İnstitutunun "Azərbaycan dili və ədəbiyyatı" kafedrasında yerinə yetirilmiş, araşdırmanın başlıca müddəaları və əsas nəticələri Naxçıvan Müəllimlər İnstitutunda təşkil olunan "Ümumi təhsilin aktual problemləri" mövzusunda IV Respublika elmi-praktik konfransının materiallarında (30 may 2025-ci il) çap olunan "Orta məktəblərdə cümlə və ona məxsus sintaktik çalarların tədrisində qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları" adlı tezisdə öz əksini tapmışdır.

Mövzunun tədrisinə aid təkliflər:

Əgər orta məktəblərdə cümlə və ona məxsus sintaktik çalarların tədrisində müasir təlim metodları – interaktiv yanaşma, kommunikativ təlim, problem əsaslı öyrənmə və diferensiallaşdırılmış tədris üsulları sistemli şəkildə tətbiq olunarsa, onda:

- şagirdlərin sintaktik quruluşları, cümlə və ona məxsus sintaktik çalarların nəzəri və praktik cəhətlərini anlama və tətbiqetmə bacarıqları əhəmiyyətli dərəcədə inkişaf edəcək;
- cümlənin sintaktik xüsusiyyətlərini və ona məxsus sintaktik çalarların nitq praktikasında istifadə etmə səviyyələri yüksələcək,
- sintaksis bölməsinin mənimsənilməsində müşahidə olunan çətinliklər minimuma enəcəkdir.

## Bölmə 4. Dilçilik fənlərinin tədrisi məsələləri

## Kafedra: Azərbaycan dili və ədəbiyyat

**Sədaqət Həsənova**
*Filologiya üzrə elmlər doktoru, professor*
*SadagatHasanova@nmi.edu.az*

# Azərbaycan dili morfologiyasının tədrisi problemləri (köməkçi nitq hissələri üzrə)

**Tədqiqatın əsas məqsədi** Azərbaycan dili morfologiyası kursunda köməkçi nitq hissələrinin tədrisində mövcud olan problemləri müəyyənləşdirmək, təhlil etmək və sistemləşdirmək, həmçinin öyrənənlərin qrammatik bacarıqlarını və müəllimlərin metodik fəaliyyətini yüksəltməyə yönəlmiş elmi-nəzəri və metodoloji cəhətdən əsaslandırılmış həll yolları təklif etməkdən ibarətdir. Məqsədin reallaşmasında müasir Azərbaycan dilində köməkçi nitq hissələrinin dilçilik mahiyyəti, morfoloji xüsusiyyətləri və funksional səciyyəsini araşdırmaq, onların tədris baxımından aktuallığını müəyyənləşdirmək, köməkçi nitq hissələrinin ümumtəhsil məktəblərinin proqramlarında, dərsliklərdə və qrammatika vəsaitlərində necə təqdim olunduğunu öyrənmək və nəzəri uyğunsuzluqları aşkara çıxarmaq, köməkçi nitq hissələrinin tədrisi zamanı müəllim və şagirdlərin qarşılaşdığı əsas metodik çətinlikləri üzə çıxarmaq. tətbiq olunan mövcud tədris strategiyalarının, tapşırıq və qiymətləndirmə üsullarının effektivliyini qiymətləndirmək, şagirdlərin köməkçi nitq hissələri ilə bağlı tipik səhvlərini aşkar etmək və s. vəzifələr nəzərdə tutulmuşdur.

**Elmi-tədqiqatın aktuallığı:**

Aşağıdakılar mövzunun aktuallığını şərtləndirir:

1. Tədris prosesində yenilənmə tələbi. Müasir təhsil sistemində ənənəvi izah üsulları ilə yanaşı şagirdlərin və tələbələrin aktiv iştirakını təmin edən fəal və kommunikativ təlim texnologiyalarının tətbiqi zəruridir.
2. Köməkçi nitq hissələrinin çətinliyi. Bu nitq hissələrinin mücərrəd təbiəti, leksik məna daşıması və çoxfunksiyalı olması onların öyrənilməsini mürəkkəbləşdirir. Yeni yanaşmaların ənənənə ilə vəhdəti bu çətinliyi aradan qaldırmağa kömək edə bilər.
3. Praktik bacarıqların formalaşdırılması. Dil biliklərinin real nitq fəaliyyətində tətbiqi, şagird və tələbələrin yazılı və şifahi nitqində köməkçi nitq hissələrindən məqsədyönlü istifadə bacarığının inkişafı müasir tədrisin əsas məqsədlərindəndir.
4. Yeni metodların tətbiqinə ehtiyac. Rəqəmsal resurslar, oyunlaşdırma, layihə əsaslı təlim və fəal yanaşmalar köməkçi nitq hissələrinin daha səmərəli mənimsənilməsinə şərait yaradır.

Bu elmi-tədqiqat işi həm dilçilik elmini nəzəri baxımdan zənginləşdirə və dilin tədris metodikasını təkmilləşdirə bilər.

**Tədqiqatın metod və üsulları:** Tədqiqatda Azərbaycan dili morfologiyasında köməkçi nitq hissələrinin tədrisi ilə bağlı problemlərin hərtərəfli araşdırılmasını təmin etmək üçün nəzəritədqiqat metodlarından - köməkçi nitq hissələrinin dilçilik xüsusiyyətləri, onların morfoloji kateqoriyaları, müasir Azərbaycan dilində funksional xüsusiyyətləri, məktəb dərsliklərində və qrammatika vəsaitlərində təqdim edilmə formaları ilə bağlı təsviri-analitik, şagirdlərin köməkçi nitq hissələrini mənimsəmə səviyyəsini aydınlaşdırmaq tipik səhvləri müəyyənləşdirmək, morfoloji hazırlıq səviyyəsindəki boşluqları aşkara çıxarmaq üçün empirik metodlardan istifadə edilmişdir. Tədqiqatın məqsədinə uyğun olaraq köməkçi nitq hissələrinin dil sistemindəki yeri, növləri, funksional xüsusiyyətləri, və qrammatikadakı rolunun təsvirində deskriptiv, mövcud dərsliklərdə, tədris

proqramlarında və elmi ədəbiyyatlarda köməkçi nitq hissələrinin təqdimat formaları və izah üsullarının müqayisəsində təhlil və müqayisə metodlarına müraciət edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:**

1. Köməkçi nitq hissələrinin tədrisindəki mövcud problemlər ilk dəfə sistemli şəkildə kompleks elmi-metodik təhlil obyektinə çevrilmişdir.
2. Azərbaycan dili morfologiyası üzrə dərslik və tədris proqramlarında köməkçi nitq hissələrinin təqdimat modeli müqayisəli və tənqidi şəkildə araşdırılmış, onların nəzəri və didaktik uyğunsuzluqları elmi əsaslarla müəyyənləşdirilmişdir.
3. İlk dəfə olaraq köməkçi nitq hissələrinin mənimsənilmə səviyyəsi üzrə nəticələr əldə edilmişdir.
4. Şagirdlərin köməkçi nitq hissələrinə dair tipik səhvləri və səhv növlərinin yaranma səbəbləri pedaqoji-psixolinqvistik baxımdan izah edilmişdir.
5. İlk dəfə olaraq Azərbaycan məktəblərində köməkçi nitq hissələrinin tədrisi üzrə real metodik çətinliklər, öyrənmə prosesindəki boşluqlar, metodik resurs çatışmazlıqları sistemli şəkildə müəyyənləşdirilmişdir.

Elmi tədqiqat Azərbaycan dili morfologiyasında köməkçi nitq hissələrinin tədrisi üzrə həm nəzəri, həm də praktik-metodik boşluqları doldurur və bu sahənin inkişafına yeni elmi istiqamət açır.

**Tədqiqatın praktik əhəmiyyəti:**

Tədqiqatın praktik əhəmiyyəti Azərbaycan dili morfologiyasının, xüsusilə köməkçi nitq hissələrinin, tədrisi və öyrənilməsi prosesinin elmi əsaslara söykənən və metodoloji baxımdan səmərəli yanaşmalarla təkmilləşdirilməsində özünü göstərir. Müəllimlər üçün köməkçi nitq hissələrinin tədrisi üçün elmi cəhətdən əsaslandırılmış metodik tövsiyələr təqdim edir, müəllimlərə effektiv strategiya və tapşırıqlar seçməyə imkan verir ki, bu da şagirdlərin morfoloji anlayışları daha yaxşı mənimsəməsinə və yadda saxlama qabiliyyətinin artmasına kömək edir. Şagirdlərin morfologiyadakı tipik səhvlərini müəyyənləşdirməyə və aradan qaldırmağa imkan verir, müəllimlərin tədris metodlarını uyğunlaşdırmasına şərait yaradır. Şagirdlərin köməkçi nitq hissələrini analiz etmək, düzgün istifadə etmək və anlamaq qabiliyyətini inkişaf etdirir. Şagirdlərin öz səhvlərini tanımasına və düzəltməsinə imkan yaradır. Tədqiqat tədris proqramları hazırlayanlar və dərslik müəllifləri üçün orijinal məlumatlar və metodik təhlillər təqdim edir ki, bu da kurikulum və dərsliklərin təkmilləşdirilməsində istifadə oluna bilər. Elmi və pedaqoji ictimaiyyət üçün köməkçi nitq hissələrinin tədrisi üzrə sistemli məlumatlar və metodik çətinliklərin təhlili ilə Azərbaycan dilçiliyi və dil tədrisi sahəsindəki boşluqların azalmasına kömək edir. Təklif olunan metodik tövsiyə və təkliflər digər morfoloji sahələrdə və ya Azərbaycan qrammatikasının digər bölmələrinin tədrisinə tətbiq oluna bilər.

**Əldə edilmiş əsas nəticələr**

Nəticə olaraq “Azərbaycan dili morfologiyasının köməkçi nitq hissələri üzrə
tədrisi problemlərinin aradan qaldırılması üçün aşağıdakı istiqamətlərdə iş aparılması zəruri sayılmışdır:

- **Dərslik və proqramların elmi-metodik ekspertizası** gücləndirilməli, sistemlilik və ardıcıllıq prinsipləri ciddi şəkildə tətbiq olunmalıdır.
- **Mövzuların məzmun xəritəsi** hazırlanmalı, anlayışlar arasında məntiqi və mərhələli əlaqələr qurulmalıdır.
- **Ardıcıllığını** və **əlaqələndirilmə** izah edən əsas prinsilər təmin edilməli, əvvəlki siniflərlə növbəti siniflər arasında bilik körpüləri yaradılmalıdır.
- **Təkrar və möhkəmləndirmə tapşırıqları** mövzuların sonunda sistematik şəkildə yer almalıdır.

- **Müəllimlər üçün metodik vəsaitlər** sistemli təqdimatın necə həyata keçirilməsini göstərən nümunələrlə təmin olunmalıdır.
- Köməkçi nitq hissələrinin tədrisi məsələlərinin həlli üçün ənənəvi və müasir yanaşmaların sintezi vacibdir. Praktik yönümlü, fəal və kommunikativ üsullar vasitəsilə bu nitq hissələrinin mənimsənilməsi daha səmərəli olur. Beləliklə, həm nəzəri biliklər möhkəmlənir, həm də şagird və tələbələrin nitq bacarıqları inkişaf edir.
- Leksik mənanın olmaması köməkçi nitq hissələrinin öyrənilməsində əsas çətinlik yaradan amillərdəndir. Bu çətinlik, əsasən, tələbələrin dil vahidlərini leksik mənaya əsaslanaraq tanıma vərdişindən irəli gəlir. Problemin həlli üçün ənənəvi nəzəri izahla yanaşı, kontekstual, müqayisəli və kommunikativ təlim üsullarının birgə tətbiqi vacibdir. Bu halda tələbələr köməkçi nitq hissələrinin funksiyalarını dərin qavraya və onları real nitqdə düzgün tətbiq edə bilərlər.
- Eyni formalı köməkçi nitq hissələrinin müxtəlif funksiyalarda işlənməsi Azərbaycan dilinin sintaktik və qrammatik çevikliyini nümayiş etdirən mühüm bir dildir hadisədir. Bu hadisənin öyrənilməsi yalnız nəzəri səviyyədə deyil, həm də praktik və metodik səviyyədə həyata keçirilməlidir. Kontekstual və müqayisəli yanaşmaların tətbiqi tələbələrdə bu sözlərin funksional fərqlərini daha aydın qavramağa və real nitqdə düzgün işlətməyə şərait yaradır.
- Dərslik və proqramlarda köməkçi nitq hissələri mövzusunun sistemli və ardıcıl şəkildə təqdim edilməməsi tədrisin keyfiyyətinə ciddi mənfi təsir göstərir. Bu problem şagirdlərin dilin qrammatik sistemini dərin və düzgün mənimsəməsinə mane olur, nitq fəaliyyətində səhvlərin artmasına gətirib çıxarır. Problemin həlli üçün dərslik və proqramların elmi-metodik əsaslarla yenidən qurulması, mövzunun mərhələli və məntiqi təqdimatına xüsusi diqqət yetirilməsi vacibdir.
- Köməkçi nitq hissələrinin tədrisi zamanı konkret nümunələrə çox yer verilməli, mövzu ilə bağlı çalışmalar yerinə yetirilməlidir. Bununla da öyrənəbnlərin konkret nümunələr üzərində düşünmələri təmin olunmalıdır. Köməkçi nitq hissələri qrammatik baxımdan həm nəzəri cəhətdən, həm də konkret mətb daxilində öyrədilməlidir. Öyrənənlərə köməkçi nitq hissələrinin iştirak etdiyi cümlələr qurmaq təklifi verilməlidir. Bu, mövzunun yaxşı mənimsəməsinə kömək edir. Köməkçi nitq hissələrinin sadə qaydalarla öyrtədilməsi çox əhəmiyyətlidir.
- Köməkçi nitq hissələrinin omonimliyi ilə bağlı qaydaların öyrədilməsi onların fərqini anlamaqda faydalıdır. Bu prosesdə təkrar metodundan da istifadə etmək olar. Belə ki, öyrənənlər hər bir köməkçi nitq hissəsini müxtəlif cümlə strukturlarında yenidən işlətmək yolu ilə biliklərini möhkəmləndirə bilir və nəticələri müqayisə etməyə imkan verir. Bu zaman öyrənmə prosesi müəllim tərəfindən izlənməli və qarşıya çıxan səhvlər düzəldilməlidir. Beləliklə, düzgün metodik yanaşmalar, konkret dil materialları ilə izahlar və təkrar prosesləri köməkçi nitq hissələrinin tədrisi zamanı qarşıya çıxan problemlərin həllinə kömək edir. Bu, bir tərəfdən də, dil bacarıqlarını inkişaf etdirir.

## Bölmə 4. Dilçilik fənlərinin tədrisi məsələləri

## Kafedra: Azərbaycan dili və ədəbiyyat

**Nuray Əliyeva**
*Filologiya elmləri doktoru, dosent*
*NurayAliyev@nmi.edu.az*

# Azərbaycan dilinin dialekt fonetikasının tədrisdə yeri və metodoloji əsasları

**Tədqiqatın məqsədi:** Dialekt fonetikasının özünəməxsusluqlarını aşkarlamaq və tədris prosesində onları tələbələrə mənimsətmək. Tarixən şivələrimizin fonetikasında baş vermiş dəyişiklikləri müəyyənləşdirmək.

**Mövzunun aktuallığı:** Azərbaycan dilinin dialekt və şivələrinin fonetik xüsusiyyətlərinin öyrənilməsi müasir dilçilik elminin əsas istiqamətlərindən biridir. Qloballaşma, dil ünsiyyətinin vahidləşməsi və ədəbi dilin normativ təsiri nəticəsində dialektlərin canlı şəkildə qorunması və tədqiqi mühüm aktuallıq kəsb edir. Dialekt fonetikası bu baxımdan həm dilin tarixi inkişafının öyrənilməsində, həm də ədəbi dilin formalaşma mənbələrinin müəyyənləşdirilməsində xüsusi əhəmiyyət daşıyır.

Mövzunun aktuallığı həm də ondadır ki, müasir dövrdə Azərbaycan dialektologiyasının fonetik istiqamətdə sistemləşdirilmiş tədqiqatlara ehtiyacı vardır. Dialekt fonetikası qədim fonetik xüsusiyyətlərin, səs dəyişmələrinin və ədəbi dilə keçid proseslərinin müəyyənləşdirilməsi baxımından dil tarixinin bərpası üçün vacib elmi baza rolunu oynayır.

Azərbaycan dili zəngin fonetik xüsusiyyətlərə malik olmaqla yanaşı, geniş dialekt və şivə sisteminə sahibdir. Azərbaycan dilinin dialektləri əsasən fonetik, leksik və qrammatik xüsusiyyətlərinə görə ədəbi dildən fərqli xüsusiyyətlərə malikdir. Xüsusilə fonetik aspektdə dialektlər arasında fərqlərin öyrənilməsi və tədrisi, dilin inkişaf dinamikasını anlamaq üçün mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, dialekt fonetikasının tədrisdə rolu artırılmalı və metodik əsasları daha sistemli şəkildə işlənilməlidir. Bu məqalənin məqsədi Azərbaycan dilinin dialekt fonetikasının tədrisdə yerini araşdırmaq, onun öyrədilməsinə dair metodik yanaşmaları təklif etmək və bu sahədəki problemləri müzakirə etməkdir.

Azərbaycan dilinin dialekt və şivələrinin fonetik xüsusiyyətlərinin tədrisi dilçilik elminin vacib sahələrindən biridir. Dialekt fonetikası tələbələrə regional səslənmə fərqlərini, fonetik dəyişmələri və dilin tarixi inkişafını başa düşmək imkanı verir. Müasir dövrdə qloballaşma, ədəbi dilin vahidliyi və regional dillərin azalması səbəbindən dialekt fonetikasının tədrisində aktual məsələlər meydana çıxır. Dialekt fonetikası yalnız nəzəri tədqiqat sahəsi deyil, həm də pedaqoji prosesin mühüm komponentidir. Tədris prosesində dialekt fonetikası tələbələrə fonetik analiz, tələffüz bacarıqları və regional dialektoloji düşüncəni inkişaf etdirmək imkanı verir. Bu baxımdan mövzu həm elmi, həm də praktiki cəhətdən aktuallıq kəsb edir.

**Tədqiqatın metod və üsulları:** Dialekt fonetikasının əsas səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirmək, şivələrdə müşahidə olunan fonetik hadisələri sistemləşdirmək üçün təsviri metoddan istifadə edilmişdir. Bu metod dialekt variantlarının struktur və funksional xüsusiyyətlərini izah etməyə imkan vermişdir. Burada həmçinin müqayisəli-tarixi metod Azərbaycan dilinin müxtəlif dialekt və şivələrindəki fonetik fərqlərin tarixi köklərini müəyyənləşdirmək, ümumi və fərdi xüsusiyyətləri müqayisə etmək üçün tətbiq olunmuşdur. Bu metod araşdırılan fonetik hadisələrin mənşəyini və inkişaf dinamikasını aydınlaşdırmağa xidmət etmişdir. Tədqiatada toplanmış dialekt materialları əvvəlcə təhlil edilmiş (analiz), daha sonra ümumiləşdirilərək sintez olunmuşdur. Bu metod dialekt fonetikasının tədrisdə tətbiq oluna biləcək vahid modelinin formalaşmasına kömək etmişdir. Eyni zamanda dialekt materiallarının fonetik strukturunun müəyyənləşdirilməsi, səslərin

variantlaşması və fonetik dəyişmələrin tədris üçün uyğunlaşdırılması məqsədilə mətnlər və şivə nümunələri linqvistik analizə cəlb edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** "Dialekt fonetikasının tədrisdə yeri və metodoloji əsasları" mövzusunun elmi yeniliyini müxtəlif formalarda əsaslandırmaq olar. Belə ki, bu mövzunun tədqiqi tədris prosesində dialekt fonetikasının inteqrasiyasına şərait yaradır. Bu tədqiqat dialekt fonetikasının yalnız elmi tədqiqat obyekti olmadığını, həm də Azərbaycan dili tədrisində praktik və pedaqoji əhəmiyyətinin olduğunu göstərir. Əvvəlki işlərdə əsasən dialektlər nəzəri fonetika kontekstində araşdırılmışdır; bu iş isə onların tədris prosesinə metodik daxil edilməsinin yollarını təqdim edir.

Həmçinin mövzu üzrə aparılan araşdırma metodoloji yanaşmanın inkişafına da təkan verir. Məqalə dialekt fonetikası üzrə tədris metodlarını elmi əsaslarla təhlil edir və onları dərs proqramına uyğun şəkildə sistemləşdirir. Burada müqayisəli, tarixi və praktiki metodlar təklif olunur ki, bu da fənnin öyrənilməsində innovativ metodoloji yanaşma sayılır.

Tədqiqat işi pedoqoji praktikaya töhfə hesab oluna bilər. Dialekt fonetikası üzrə elmi-tədqiqat nəticələrinin dərs vəsaitlərinə, laboratoriya məşğələlərinə və interaktiv tədris üsullarına inteqrasiyası tələbələrin fonetik biliklərinin zənginləşdirilməsinə, həm də dilin tarixi və regional xüsusiyyətlərinin dərk edilməsinə imkan yaradır. Ümumiyyətlə, dialekt fonetikasını nəzəri tədqiqatdan tədris praktikası ilə birləşdirməsi və metodoloji yanaşmaları sistemləşdirməsidir işin əsas elmi yeniliyi hesab oluna bilər.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Tədqiqat dialekt fonetikasının ali məktəb səviyyəsində necə və hansı ardıcıllıqla tədris olunmalı olduğunu müəyyənləşdirir. Hazırlanmış metodik çərçivə müəllimlərə dərs planı qurmaq, mövzunu sistemli şəkildə izah etmək və mövzuya uyğun tapşırıqlar seçmək üçün praktiki baza yaradır. Ali təhsil pillələrində regional dil xüsusiyyətlərinin sistemli şəkildə tədrisə daxil edilməsinə töhfə verir. Bu, həm milli-mədəni kimliyin tədrisdə qorunmasına xidmət edir, həm də dialekt materiallarının dərs prosesində istifadəsini asanlaşdırır.İşdə göstərilən metodoloji yanaşmalar dialekt fonetikasının öyrədilməsi üçün audio materiallardan, interaktiv xəritələrdən, rəqəmsal dil korpuslarından və multimodal resurslardan istifadə imkanlarını genişləndirir. Bu, tədrisin daha praktik, vizual və səmərəli təşkilini təmin edir.

Araşdırma dialekt fonetikasının tədrisinə dair konkret nümunələr, məşğələ modelləri və tapşırıq formaları təqdim etdiyinə görə gələcəkdə hazırlanacaq dərslik, proqram və metodik vəsaitlər üçün praktik material rolunu oynaya bilər.

Mövzu üzrə müəyyənləşdirilən prinsiplər dialekt fonetikasının gələcək elmi-tədqiqat istiqamətlərini müəyyənləşdirməyə kömək edir və yeni tədqiqatların aparılması üçün metodoloji baza yaradır.

**Nəticə və tövsiyələr:** Dialekt fonetikası dilin zənginliyini qoruyan və onun tarixi inkişafını anlamağa kömək edən vacib sahələrdən biridir. Onun tədris prosesində daha geniş yer alması, dilçi mütəxəssislərin bu sahəyə daha çox diqqət ayırması və metodik yanaşmaların təkmilləşdirilməsi vacibdir. Bu sahədə effektiv tədrisin təmin olunması üçün aşağıdakı tövsiyələr irəli sürülə bilər:

Orta və ali təhsildə dialekt fonetikası daha sistemli şəkildə tədris olunmalıdır;

Tədris proqramlarında dialektoloji fonetik analizlərə daha çox yer ayrılmalıdır;

Müasir texnologiyalar və interaktiv dərs metodlarından istifadə edərək tədrisin keyfiyyəti artırılmalıdır;

Azərbaycan dialekt fonetikasına dair elmi-tədqiqat işləri genişləndirilməlidir.

Nəticə olaraq, dialekt fonetikasının öyrənilməsi və tədrisi, dilin tarixi, sosial və mədəni kontekstinin daha yaxşı anlaşılmasına imkan yaradır. Bu istiqamətdə metodik yanaşmaların inkişaf

etdirilməsi və müasir tədris texnologiyalarından istifadə edilməsi Azərbaycan dilçiliyinin gələcək inkişafı üçün əhəmiyyətli addımlardan biri olacaqdır.

Müasir dünyada gedən proseslər şivə fərqlərinin də ədəbi dil qarşısında tədricən zəifləməsinə gətirib çıxarır. Ona görə də dialekt və şivələrin öyrənilməsi və tədrisi indi çox aktualdır. Tələbələrə dialekt xüsusiyyətlərini mənimsətmək onların mövzunu yaxşı mənimsəməsi üçün başlıca şərtdir.

Dialekt və şivələrin fonetikasında müşahidə olunan regional xüsusiyyətlər adətən tələbələr tərəfindən də olduqca maraqla qarşılanır. Çox vaxt onlar öz ərazilərinə aid və öz nitqlərində də özünü göstərən bu cür fonetik xüsusiyyətlərin əvvəlcədən fərqinə varmır və tədris prosesində onu müşahidə edərək öyrənir.

Azərbaycan dilində dialekt fonetikasının tədrisi dilin regional və tarixi səciyyələrini öyrənmək, tələbələrin fonetik bacarıqlarını inkişaf etdirmək və dialektoloji düşüncəni formalaşdırmaq baxımından vacibdir. Tədrisin metodoloji yanaşmaları və praktiki tətbiqi onun elmi, pedaqoji və praktik əhəmiyyətini artırır. Genişləndirilmiş tədris planı, interaktiv məşğələlər və müqayisəli təhlil metodları fənnin öyrənilməsini daha effektiv və nəticəyönümlü edir.

Mövzu həm də regional fonetik xüsusiyyətlərin qorunmasına, dilin tarixinin öyrənilməsinə və tələbələrin analitik bacarıqlarının inkişafına töhfə verir. Dialekt fonetikası elmi və pedaqoji sahədə mühüm yer tutur, Azərbaycan dili təhsili üçün vacib komponentdir.

## Bölmə 4. Dilçilik fənlərinin tədrisi məsələləri

## Kafedra: Azərbaycan dili və ədəbiyyat

**Fəxriyyə Cəfərova**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*FakhriyyaCafarova@nmi.edu.az*

# İbtidai siniflərdə morfoloji qaydaların tədrisinin didaktik əsasları

**Tədqiqatın məqsədi.** İbtidai siniflərdə morfoloji qaydaların mənimsənilməsi üzrə işin imkanlarını aşkara çıxarmaq, şagirdlərin nitq bacarıqlarının inkişafında morfoloji qaydaların öyrənilməsinin zəruriliyini sübut etmək, onun şagirdlərin nitq mədəniyyətinin inkişafında rolunu müəyyənləşdirmək, morfoloji qaydaların tədrisinin linqvo-didaktik əsaslarını işləmək və metodik sistemini hazırlamaqdan ibarətdir. Bu mənada, morfoloji qaydaların tədrisinin didaktik əsaslarını araşdırıb tədqiq etmək bir məqsəd kimi qarşıda durur.

**Aktuallığı**. İbtidai siniflərdə morfologiyanın tədrisi dilə aid biliklərin mədəni nitq bacarıq və vərdişlərinə çevrilməsi yolu ilə məntiqi düşünmək, təhlil-tərkib, ümumiləşdirmə, mücərrədləşdirmə aparmaq qabiliyyətini inkişaf etdirir. Odur ki, ibtidai siniflərdə ana dilindən linqvistik materialın, yəni dil qaydalarının müəyyənləşdirilməsində nitq bacarığı, nitq inkişafı, nitq mədəniyyəti amili əsas götürülür. Morfologiyaya aid normativ biliklərin seçilməsinə məhz bu parametrlə yanaşmaq lazımdır.

Morfoloji qaydaların öyrədilməsi birbaşa şagirdlərin dil bacarıq və vərdişlərinin yaranmasına, nitq inkişafına təkan verən bir prosesdir, çünki nitqimizi təşkil edən hər bir cümlədə sözlər şəkilçi morfemlərin iştirakı ilə bir-biri ilə əlaqələnir. Bu faktın özü təlimin ilkin pilləsində morfoloji qaydaların öyrənilməsinin zəruriliyini əsaslandırır. Morfologiya sözün ümumi qrammatik mənalarını və bu mənaların tam paradiqmalı ifadə formalarını öyrənir. Qrammatikanın şöbələrindən biri olan morfologiyanın ibtidai siniflərdən öyrənilməyə başlanması məhz söz formaları üzrə işin mənimsədilməsini nəzərdə tutur. Morfologiya geniş mənada söz və onun formalarını tədqiq edir.

İbtidai siniflərdə morfologiyanın öyrədilməsində məqsəd Azərbaycan dilinin morfoloji quruluşu barədə şagirdlərə ilkin anlayışlar vermək və bu zəmində onların nitq bacarıqlarını inkişaf etdirməkdir. İbtidai siniflərdə sözün və söz formalarının nitq praktikasında əhəmiyyətinin dərk edilməsi, sözlərin ayrı-ayrı nitq hissələri üzrə qruplaşması prinsiplərinin mənimsədilməsi, nitq hissələrinin ümumi və fərqli qrammatik əlamətləri haqqında ümumiləşmiş təsəvvürün yaradılması, ayrı-ayrı nitq hissələrinin sintaktik xüsusiyyətlərinin mənimsədilməsi məqsədəuyğundur.

Şagirdlər II sinifdən etibarən təcrübi şəkildə morfoloji anlayışlara yiyələnirlər. III sinifdə onlara əsas nitq hissələri (isim, sifət, say, feil, zərf, əvəzlik) ilə baglı ilkin nəzəri məlumatlar, IV sinifdə isə köməkçi nitq hissələri haqqında anlayış verilir. Köməkçi nitq hissələrinin qrammatik mənası, onun cümlədəki rolu mənimsədilir. İbtidai siniflərdə nitq hissələrinin tədrisi şagirdlərin hər bir nitq hissəsinə dair öyrəndikləri sözlərlə onların lüğətini zənginləşdirməli, morfoloji qaydalar dilin digər sahələri ilə (fonetika, orfoqrafiya, orfoepiya, leksika, sintaksis və s.), müqayisəli şəkildə öyrədilməli, bu zəmində nitq bacarıqlarının inkişafına təkan verməlidir.

Şagirdlərə ilkin qrammatik biliklərin veilməsindən bəhs edərkən V.Q. Belinskinin bir fikrini yada salmaq yerinə düşər. Belinski çox gözəl qeyd edirdi ki:"qrammatika olmadan da dili öyrənmək mümkündür, …lakin qrammatikanı bilmək dili öyrənməyi birə üç qat sürətləndirir".

Əlbəttə, qrammatik biliklərə yiyələnmək şagirdlərin dilə, nitqə elmi münasibət bəsləmələri və onların təfəkkürünün inkişafı üçün olduqca zəruridir. Qeyd etmək lazımdır ki, morfoloji qaydaların elmi əsasını bilmədən onun tədrisində müvəffəqiyyət qazanmaq qeyri-mümkündür. Deməк, morfoloji qaydalara yiyələnmək, şagirdlərin həm elmi biliklərə yiyələnməsi, həm də nitqinin inkişafı baxımından tədris zamanı elmin son nailiyyətlərinə əsaslanmaq olduqca vacibdir.

Bu mənada, İbtidai siniflərdə morfoloji qaydaların tədrisinin didaktik əsaslarının araşdırılıb tədqiq edilməsi zamanı aşağıdakı aktual problemlərin həllinin ön plana çəkilməsi zəruridir:

1. Morfoloji qaydaların tədrisində didaktikanın son nailiyyətlərinə əsaslanmaq .

2. Morfoloji qaydaların tədrisində düzgün yazı vərdişlərini aşılamaq sisteminin mükəmməl qurulması.

3. İbtidai siniflərdə morfoloji qaydaların tədrisinsdə interaktiv təlim metodlarının tətbiqi işinin təşkili.

4.Morfoloji qaydaların tədrisində çalışmaların düzgün seçilməsi.

5. İbtidai siniflərdə morfoloji qaydaların öyrənilməsinin optimal yolları və sisteminin düzgün müəyyənləşdirilməsi.

Bütün bu kimi məsələlərin həlli öz növbəsində mövzunun aktuallığını şərtləndirir və bu istiqamətdə tədqiqatların aparılmasını zəruri edir.

**Tədqiqatın metod və üsulları.** Tədqiqat zamanı aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir: -bu istiqamətdə yazılmış nəzəri və metodik ədəbiyyatların təhlili; məktəb təcrübəsinin öyrənilməsi, ümumiləşdirilməsi; müşahidə, müsahibə, anket sorğusu .

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat işi ibtidai siniflərdə morfologiyanın tədrisinin nəzəri və praktik əsaslarının tədqiqinə həsr olunmuşdur. İbtidai siniflərdə morfoloji qaydaların tədrisinin nəzəri və praktik məsələləri bir sistem şəklində araşdırılmış, morfoloji qaydaların tədrisində didaktikanın son nailiyyətlərinə əsaslanmağın imkan və yolları elmi cəhətdən əsaslandırılmışdır.

**Tədqiqatın praktik əhəmiyyəti** ondan ibarətdir ki, ilk öncə tədqiqat işindən ibtidai siniflərdə dərs deyən müəllimlər yararlana bilərlər. Eyni zamanda, bu sahədə tədqiqatların aparılmasında, ana dilinin tədrisinə dair məqalələrin yazılmasında əsas mənbə kimi də istifadə edilə bilər.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqatın əsas müddəaları Turkiyədə keçirilən "April Battles: The Road Leading Azerbaijan to Victory. sdlı konfrans məqaləsində də öz əksini tapmışdır.

**Nəticə.**

Tədqiqat işində əldə olunan nəticələri aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. İbtidai siniflərdə morfoloji qaydaların öyrədilməsi vahid sistemdə, dəqiq məzmun əsasında aparılmalıdır. Azərbaycan dili iltısaqi dillər qrupuna daxil olduğu üçün söz formaları üzrə iş daim diqqət mərkəzində olmaqla dilə kompleks yanaşmanı təmin etməlidir.

İbtidai siniflərdə morfoloji qaydaların optimal tədrisi Azərbaycan dili dərslərində onun məzmununun və sisteminin düzgün müəyyənləşdirilməsindən asılıdır.

Morfoloji qaydaların öyrədilməsinin elmi zəmində təşkili ibtidai siniflərdə şagirdlərin Azərbaycan dilini, digər fənləri səmərəli mənimsəmələrini təmin edir, onları yuxarı siniflərdə sistematik kursu daha yaxşı öyrənməyə hazırlayır.

2. Müasir dövrdə cəmiyyətin təhsilə artan ehtiyac və tələblərini, sagirdlərin meyl və maraqlarını nəzərə almaqla hazırlanan Azərbaycan dili kurikulumu əsasında həyata keçirilən nəticəyönümlü təhsil şagirdlərin idraki, informativ-kommunikativ və qeyri-iradi fəaliyyətlərinin əhatə olunmasını, düşünmə, emosional və psixomotor bacarıqlarının inkişafını nəzərdə tutur. Bir sözlə, öyrənilən biliklər həyati bacarıqlara əsaslanmalıdır. İbtidai siniflərdə morfoloji qaydaların öyrədilməsinə də bu tələb əsasında yanaşılmalıdır.

3. İbtidai siniflərdə morfoloji qaydaların tədrisində İnteraktiv təlim metodlarının tətbiqi tədris prosesini xeyli intensivləşdirir, hər bir şagird üçün daha maraqlı fəaliyyət sahəsinə çevirir, dərsdə fəallığın maksimum artmasına zəmin yaradır.

4. Morfoloji qaydaların dərindən mənimsənilməsi tədris materialının düzgün seçilməsindən çox asılıdır. Çalışmalar üzərində iş məqsədəuyğun və sistematik aparıldıqda morfoloji biliklər şagirdlər

tərəfindən şüurlu mənimsənilir. Çalışmalar üzərində iş, həmçinin qazanılan bilikləri möhkəmləndirir, bu prosesdə şagirdlərin əldə etdiyi biliklər məzmun və həcm etibarilə genişlənir və dəqiqləşir.

5. İbtidai siniflərdə morfologi qaydaların tədrisində məqsəd şagirdlərə morfoloji qaydalar üzrə zəruri nəzəri biliklər öyrətmək, bu biliklərin praktikaya tətbiqini təşkil etmək, bu zəmində onların nitq bacarıqlarını və nitq mədəniyyətini inkişaf etdirməkdir.

6. Morfolojiyanın tədrisində, yəni öyrətmə prosesində asandan çətinə doğru getmək, müstəqillik, inteqrasiya, materialın xarakterinə uyğun iş növünün seçilməsi, metod və priyomların müəyyənləşdirilməsi, təhsilverici, tərbiyələndirici, inkişafetdirici təlim mühitinin yaradılması, qiymətləndirmə və s. məsələlər diqqət mərkəzində olmalıdır.

Bir sözlə, İbtidai siniflərdə morfoloji qaydaların öyrədilməsində didaktikanın son nailiyyətlərinə əsaslanmaq olduqca vacibdir. Bütün bunlar şagirdlərin dil normalarına yiyələnmə və dil materiallarından daha şüurlu istifadəetmə bacarıqlarına gətirib çıxarır. Onlar nitqimizi təşkil edən sözlərin leksik və qrammatik təbiəti haqqında biliklərə yiyələnirlər. Həmçinin şagirdlərin nitqi mənimsənilmiş nitq hissələrini təşkil edən sözlər hesabına zənginləşir, həmin sözlərlə əməliyyat aparmaq bacarığı formalaşır.

## Bölmə 4. Dilçilik fənlərinin tədrisi məsələləri

## Kafedra: Azərbaycan dili və ədəbiyyat

**Şəhla Fətəliyeva**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*ShahlaFataliyeva@nmi.edu.az*

# Morfologiyanın tədrisində şagirdlərin nitqini inkişaf etdirməyin metodik əsasları

**Tədqiqatın məqsədi** - Morfologiyanın tədrisi prosesində şagirdlərin nitqinin inkişafına təsir edən orfoqrafiya, orfoepiya, ifadəli oxu, üslubi vərdişlərlə bağlı təmrinlər və ən əsası da rabitəli nitq, yəni ifadə və inşa xarakterli çalışmalar üzərində işlərin mahiyyətini şərh etmək.

**Aktuallığın əsaslandırılması -** Ana dilindən öyrədilən hər bir mövzu bu və ya digər şəkildə şagirdlərin nitqinin inkişafına təsir edir. Başqa sözlə desək, ana dilinin öyrədilməsi nəticə etibarı ilə şagirdin nitq vərdişlərinin formalaşmasında mühüm rol oynamalı və onun inkişafına xidmət etməlidir. Bu baxımdan mövzu aktualdır.

**Tədqiqatın metod və üsulları** – mövzulara dair məlumatlar toplanmış, pedaqoji müşahidələr aparmış və anket sorğuları keçirilmişdir. İbtidai siniflərdə şagirdlərin nitqini inkişaf etdirmək üçün ədəbi tələffüz vərdişlərinin formalaşdırılmasına nail olunmuşdur. Tədqiqatın müşahidə, təsviretmə, müqayisə və eksperiment metodlarından istifadə olunub.

- öyrədici və yoxlayıcı mərhələləri həyata keçirilmişdir. İmla və ifadələr vasitəsilə bacarıq və vərdişlərin kurikulum tələbləri səviyyəsində təkmilləşdirilməsinə ardıcıl şəkildə diqqət yetirilərsə bu, şagirdlərin rabitəli nitqinin inkişafına öz müsbət təsirini göstərmiş olar.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – İbtidai siniflərdə şagirdlərin nitqini inkişaf etdirməyin metodik əsasları olaraq şagirdlərin lüğət ehtiyatlarını zənginləşdirməyin yolları sistemli şəkildə tədqiq olunması tədqiqatın elmi yeniliyi kimi səciyyələndirilir. btidai siniflərdə Azərbaycan dili fənninin ideya və məzmununu yeniləşdirmək. İbtidai siniflərdə “Ana dili tədrisi” metodikası kursunun məzmununu təkmilləşdirilmək.

**Tədqiqatın praktiki əhəmiyyəti** - Tədqiqat nəticəsində ibtidai siniflərdə morfologiyanın tədrisi prosesində nitq inkişafı ilə bağlı irəli sürülmüş, əsaslandırılmış müddəalar nəinki Azərbaycan dilinin təlim metodikasının, eləcə də şagirdlərin nitqinin inkişaf etdirilməsi baxımından əhəmiyyət daşıyır.

Mövzunu tədqiq edərkən aşağıdakı nəticələri əldə etmək olar.

1. Morfologiyanın öyrədilməsi nəticə etibarı ilə şagirdin nitq vərdişlərinin formalaşmasında mühüm rol oynayacaq və onun nitqinin inkişafına xidmət etməyi.
2. Nitq hissələri olaraq isim, sifət, say və feillərə dair olan dil normalarının nitq praktikası zəminində şagirdlərə aşılanması, tədris edilməsi bacarıq və vərdişlərin canlı nitqə inteqrasiyası.
3. İbtidai siniflərdə Azərbaycan dilinin bölmələrinin əlaqəli tədrisinin gedişi prosesində, hər bir bölmə üzrə bilik və bacarıqların aşılanması.
4. İstər şifahi, istərsə də yazılı nitqin inkişafı üçün ibtidai sinif şagirdlərində morfologiyanın tədrisi diqqət mərkəzində saxlanılması.
5. Azərbaycan dilinin tədrisi prosesinə başlamaqla şagirdlərdə nitq inkişafının əsası qoyulur. Məlumdur ki, Azərbaycan dilinin bölmələrində olan morfologiya dilin qrammatik quruluşunu öyrənir.

Bundan sonra gənc nəsillərin daha da intellektual səviyyəyə çatması üçün ziyalılarımız öz fəaliyyətləri ilə gələcəyimizin ümid çırağı olacaqlar. Çünki həmişə yeniliklər sorağında çalışan ziyalısı olan xalq dəyərlidir.

## Bölmə 4. Dilçilik fənlərinin tədrisi məsələləri

## Kafedra: Azərbaycan dili və ədəbiyyat

**Əhruz Mahmudova**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AhruzMahmudova@nmi.edu.az*

# Orta məktəblərdə Azərbaycan dili fənninin tədrisində ayrı-ayrı təhsil səviyyələri arasında əlaqələrin yaradılmasının imkan və yolları

**Mövzunun aktuallığı.** Təhsilin keyfiyyəti artdıqca cəmiyyətin inkişafına yeni-yeni töhfələr verir, millətin, dövlətin tərəqqisinə geniş imkanlar yaranır. Günü-gündən qloballaşan, inkişaf edən dünyada hər bir kəs uğur qazanmaq üçün dövrün tələblərinə uyğun olaraq öz biliklərini, dünya görüşünü və eləcə də sahib olduqları bacarıqlarını daim inkişaf etdirməyə çalışır. Bu uğurun qazanılmasının təməli ümumitəhsil orta məktəblərində verilən keyfiyyətli təhsillə əlaqəlidir.

Elmi tədqiqat işində Azərbaycan dili fənninin tədrisində, təhsil səviyyələri arasında metodik, məzmun və bacarıq əsaslı əlaqənin gözlənilməsi, şagirdlərin qrammatik və üslubi biliyinin ardıcıl inkişaf etdirilməsi, yazı və nitq bacarıqlarının möhkəmləndirilməsi, fənn üzrə ümumi savadlılıq səviyyəsinin yüksəldilməsi məsələləri araşdırılmışdır. Şagirdlərin funksional savadlılığının artırılması, ayrı-ayrı siniflərdə öyrədilməsi ilə deyil, bütün təhsil səviyyələri üzrə vahid yanaşma, məzmun uyğunluğu və metodik əlaqə ilə daha effektiv olur. Bu işdə müəllimlərin də metodoloji hazırlığı aktuallıq kəsb edir. Dərslər planlaşdırılarkən səviyyələrarası əlaqəni nəzərə alaraq əvvəlki biliklərlə yeni bilikləri əlaqələndirilməsinə üstünlük verilməlidir.

Orta məktəblərdə Azərbaycan dili fənni tədris olunarkən ayrı-ayrı təhsil səviyyələri: ibtidai, ümumi orta və tam orta təhsil səviyyələri arasında əlaqənin yaradılması, siniflər, səviyyələr üzrə əldə olunacaq təlim nəticələrinin izlənməsini tələb edir.

**Tədqiqatın elmi yeniliyi.** Orta məktəblərdə Azərbaycan dili fənni tədris olunarkən ayrı-ayrı təhsil səviyyələri: ibtidai, natamam orta və tam orta təhsil səviyyələri arasında əlaqənin yaradılması, səviyyələr arasında məzmun, bacarıq və nəticələrin sistemli şəkildə öyrənilməsinə imkan yaradır.T əhsil səviyyələri arasında olan nöqsanların, müəyyən təkrarların yaranmasının aradan qaldırılmasını təmin etmək üçün yeni metodik tövsiyyələrin hazırlanması zərurətini yaradır. Səriştəyə əsaslanan təhsil səviyyələr arasında əlaqə yaradaraq şagirdlərin oxu, yazı, danışıq, dinləmə kimi bacarıqlarının inkişaf etdirilməsi yollarının ardıcıllığını təmin edir.

Təhsil səviyyələri arasında əlaqələrin öyrənilməsi Dövlət strategiyasının tələblərinə əsasən səriştə əsaslı təhsilin tətbiqində səriştələrin formalaşdırılmasını təmin edir. Elmi-tədqiqat işində Azərbaycan dili fənni üzrə səriştələrin ibtidai sinifdən tam orta səviyyəyədək necə inkişaf etdiyini göstərmək, məzmunun vertikal uyğunluğunu qurmaq

**Tədqiqatın məqsəd və vəzifələri.** Orta məktəblərdə Azərbaycan dili fənninin tədrisi zamanı təhsil səviyyələri arasında optimal və səmərəli nəticələr əldə etmək üçün Azərbaycan dili kurikulumunda, elmi-metodiki ədəbiyyatda dinləmə, anlama, oxu, yazıı və dil qaydalarının öyrədilməsi probleminin qoyuluşunu araşdırır. Dərsliklərdə verilmiş dil qaydalarının, bədii mətnlərin tədrisində istifadə edilən interaktiv təlim metodlarının didaktik imkanlarını üzə çıxarır. Azərbaycan dili dərslərində verilmiş məzmunun ayrı-ayrı siniflər üzrə əlaqəli şəkildə tədrisinin sistemini yaradır. Bütün bunlara nail olmaq üçün aşağıda göstərilən vəzifələrin yerinə yetirilməsi tədqiqat işində qarşıya qoyulmuşdur:

- problemi elmi-nəzəri cəhətdən araşdırmaq;
- problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşunu araşdırmaq;

- orta məktəblərdə Azərbaycan dili fənninin tədrisində ayrı-ayrı təhsil səviyyələri arasında əlaqələrin yaradılması zamanı istifadə edilən interaktiv təlim metodlarının didaktik imkanlarını üzə çıxarmaq;
- dil qydaları üzrə aparılan işlərin məzmun xüsusiyyətlərini müəyyənləşdirmək;
- oxu və yazı bacarıqlarını müəyyənləşdirmək;

tədrisinin imkan və yollarını - Azərbaycan dili dərslərində fənnin məzmununun mənimsədilməsinin sistemini yaratmaq;

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini ibtidai təhsilin I-IV siniflərində təlim prosesi təşkil edir. Tədqiqatın predmetini ibtidai təhsilin I-IV siniflərində ana dili dərslərinin mənimsədilməsi zamanı təhsil səviyyələri arasında əlaqələrin yaradılmasının üzrə işin sistemi təşkil edir.

**Tədqiqatın metodları.**Tədqiqat işində müqayisə, müşahidə, təhlil, anket, sorğu bə s. metodlardan istifadə olunmuşdur.

**Nəticə**

1.Azərbaycan dili fənninin tədrisində ayrı-ayrı təhsil səviyyələri arasında əlaqələrin möhkəmləndirilməsi, tədrisin bu istiqamətdə qurulması məsələləri fənnin tədrisini daha effektiv edir.

2.Orta məktəblərdə Azərbaycan dili fənni tədris olunarkən ayrı-ayrı təhsil səviyyələri: ibtidai, ümumi orta və tam orta təhsil səviyyələri arasında əlaqənin yaradılması, səviyyələr arasında məzmun, bacarıq və nəticələrin sistemli şəkildə öyrənilməsinə imkan yaradır.

Təhsil səviyyələri arasında olan nöqsanların, müəyyən təkrarların yaranmasının aradan qaldırılmasını təmin etmək üçün yeni metodik tövsiyyələrin hazırlanması zərurətini yaradır. Səriştəyə əsaslanan təhsil səviyyələri arasında əlaqə yaradaraq şagirdlərin oxu, yazı, danışıq, dinləmə kimi bacarıqlarının inkişaf etdirilməsi yollarının ardıcıllığını təmin edir.

3.Təhsilin müxtəlif: ibtidai, əsas və orta təhsil səviyyələrində tədris edilən fənlərin effektivliyində inteqrativlik başlıca prinsipdir.

4.Ana dilinin ümumtəhsil məktəblərində bu cür əlaqəli tədris olunması şagirdlərdə nitq mədəniyyətinin formalaşmasında da əhəmiyyətli rol oynayır. Şagirdlər bu fənnin vasitəsi ilə milli mədəniyyət nümünəsi kimi ana dilini öyrənir, onun səs sisteminə, lüğət ehtiyatına, üslubi-qrammatik xüsusiyyətlərinə yaxından bələd olur, elmi, bədii, publisistik və digər üslublarda yaradılmış ədəbiyyat nümunələri ilə tanış olmaq imkanı qazanırlar. Eyni zamanda bu dildən istifadə edərək öyrənəcəkləri digər fənlərin daha yaxşı mənimsənilmə potensialını genişləndirirlər.

5. Ayrı-ayrı təhsil səviyyələri arasında əlaqələrin yaradılması müxtəlif üslublarda yazılmış mətnlərin məzmun və struktur elementlərinin müstəqil qavranılması, ana dilinə, bu dildə yazılmış elmi-kütləvi və ədəbi-bədii nümunələrə marağın dərinləşdirilməsi məzmun xətlərinin reallaşdarılması üçün zəmin yaradır.

**Bölmə 4. Dilçilik fənlərinin tədrisi məsələləri**

**Kafedra: Azərbaycan dili və ədəbiyyat**

**Günay Şirəliyeva**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*GunayHajiyeva@nmi.edu.az*

## Nitq inkişafının linqvistik əsasları

**Tədqiqatın məqsədi.** Bizim tədqiqatın əsas məqsədi ibtidai siniflərdə Azərbaycan dili dərsinin tədrisində şagirdlərin nitqinin inkişaf etdirməyin səmərəli vasitə və yollarını müəyyənləşdirmək, nitq inkişafının əsaslarını müəyyən etməkdir.

**Aktuallığı.** Bildiyimiz kimi, dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsi hesab edilir. Dilin vəzifəsi heç də bununla yekunlaşmır. Ən əsası dil xalqın varlığı iləbağlı olub, onun milli sərvəti hesab edilir. Hər bir xalq öz dili ilə tanınır. Dilin saflığı, onun qorunması bu gün qarşıda duran əsas vəzifələrdən biri hesab edilir. Buna görə də dilin təmizliyi, onun inkişafı uğrunda mübarizə xalqın ümumi mədəniyyəti uğrunda mübarizəsi deməkdir.

İnsan hər şeyi öyrənməyə can atır. Bu işdə sözlərdən istifadə edilir ki, bu da öz ifadəsini dildə tapır. Uşağın şəxsiyyət kimi formalaşması onun ana dilinə necə yiyələnməsindən çox asılıdır.

Bildiyimiz kimi, 2008-2009-cu dərs ilindən etibarən ümumtəhsil məktəblərinin birinci sinfindən başlayaraq Kurikulum islahatı həyata keçirilir. Burada əsas məqsəd təhsilin məzmununun inkişafda olan cəmiyyətin tələblərinə uyğun yenilənməsi idi. Eyni zamanda, yetişməkdə olan nəslin müstəqil həyata hazırlanması, zamanla özlərində ən zəruri nəticəyönümlü bilik və bacarıqları əldə etmələri də bu proqramın əsas məqsədlərindən biri kimi qarşıda dururdu.

Bu baxımdan əsas fənlərdən biri kimi Azərbaycan dili fənninin qarşısında çox böyük və çoxcəhətli vəzifələr dayanır. Doğrudur, fənnin başlıca məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir(2).

Bu gün təhsilimizin əsas məqsədi hərtərəfli inkişaf etmiş gənclərin hazırlanmasıdır. Burda əsas yerdə isə onların nitqi dayanır. Ona görə də Azərbaycan dili dərslərində onların dilə yiyələnmələri məsələsi diqqətdə saxlanılmalı, nitq inkişafı üzrə iş düzgün təşkil edilməlidir.

Şagirdlərin nitqinin inkişafında ibtidai sinif mühüm bir mərhələ rolunu oynayır. Bu baxımdan, ibtidai siniflərdə şagirdlərin nitqinin inkişafı məsələsi həmişə aktual olmuş, dilçi alimlərimizi maraqlandırmış, tutarlı tədqiqatlar aparılmış, maraqlı elmi nəticələr əldə edilmişdir. A. Abdullayev, Y. Kərimov, A.Rəhimov, A. Həsənov, H. Balıyev, B. Əhmədov, Ə. Əfəndizadə, Ə. Qədimova, X.Səlimxanova, N. Cəfərova kimi alimlərin əsərlərində şagirdlərin nitqininn inkişafı məsələlərinə bu və ya digər formada toxunulmuş, nitq inkişafının yolları şərh edilmiş, mühüm elmi nəticələr əldə edilmişdir.

Demək ki, şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi, ən zəruri qrammatik qaydaların, ədəbi tələffüz normalarının öyrənilməsi, tətbiq edilməsi Azərbaycan dili fənninin əsas vəzifəsi hesab edilir. Nitqə yiyələnmənin yolu müxtəlif mərhələlərdən keçir.

Məhz bütün bunlar nəzərə alınmaqla, şagirdlərin nitqinin inkişafına diqqət daha da artırılmalı, onların düzgün, rabitəli nitqə yiyələnmələri təmin edilməlidir. Şagirdlər bədii, elmi, kütləvi, publisistik əsərlər oxumalı, fikir mübadiləsi aparmalı, bununla da nitqlərinin zənginləşməsinə nail olmalıdırlar. Oxuduqları hər bir mətin şagirdlərin lüğət ehtiyatını artıracaq, qeyri-fəal lüğət fəal lüğətə çevriləcəkdir.

Bütün bunları isə Azərbaycan dili fənninin koməyi ilə nail olmaq mümkündür. Buna görə də şagirdlərin nitqlərinin inkişafı ana dili dərslərində daha da inkişaf etməli, fikirlərinin ifadəsi üçün söz seçməkdə çətinkil çəkməməlidirlər.

Məhz buna görə də, ibtidai siniflərdə şagirdlərin nitqinin inkişafı məsələsinin araşdırılması öz aktuallığı ilə seçilir. Bütün bunlar isə aşağıdakı vəzifələrin həllini şərtləndirir:

1. I-V siniflər üzrə ana dilinin tədrisində şagirdlərin nitqinin inkişafı üzrə işin səmərəli yollarını müəyyən etmək, dil qaydalarının mənimsənilməsinin şagirdlərin nitq bacarıqlarının inkişafına təsirini təhlil etmək;

2Azərbaycan dili dərslərində nitq inkişafının linqvistik əsaslarını nəzəri baxımdan dəqiq müəyyənləşdirmək, şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinə, ən zəruri qrammatik qaydaların, ədəbi tələffüz formalarının öyrənilib tətbiq olunmasına, nitq bacarıqlarının, nitq mədəniyyətinin formalaşdırılmasına təsirini şərh etmək. Bütün bu kimi məsələlərin həlli öz növbəsində mövzunun aktuallığını şərtləndirir və bu istiqamətdə tədqiqatların aparılmasını zəruri edir.

**Tədqiqatın metod və üsulları.** Tədqiqat zamanı aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir: -bu istiqamətdə yazılmış nəzəri və metodik ədəbiyyatların təhlili; məktəb təcrübəsinin öyrənilməsi, ümumiləşdirilməsi; müşahidə, müsahibə, anket sorğusu .

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatda ibtidai siniflərdə Azərbaycan dili dərslərində şagirdlərin nitqinin inkişafı üzrə işin nəzəri və praktik məsələləri sistemli şəkildə araşdırılmış, dil qaydalarının şagirdlərin nitqinə təsiri elmi cəhətdən əsaslandırılmışdır. Eyni zamanda, nitq inkişafının linqvistik əsasları da tədqiq edilmiş, Azərbaycan dili dərslərində şagirdlərin nitqinin inkişaf etdirilməsi məsələləri elmi baxımdan öyrənilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti** ondan ibarətdir ki, ilk öncə tədqiqat işindən ibtidai siniflərdə dərs deyən müəllimlər yararlana bilərlər. Eyni zamanda, bu sahədə tədqiqatların aparılmasında, ana dilinin tədrisinə dair məqalələrin yazılmasında əsas mənbə kimi də istifadə edilə bilər.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqatın əsas müddəaları Naxçıvan Dövlət Universitetinin “Elmi əsərləri”ndə çap edilən məqalədə də öz əksini tapmışdır.

**Nəticə.** Tədqiqat göstərdi ki, Ana dilinin tədrisində son məqsəd məhz şagirdlərə əldə etdikləri bilikləri düzgün, rabitəli və məzmunlu ifadə etməyi öyrətməkdir. İbtidai siniflərdə ana dilinin tədrisinin başlıca prinsipi nitq inkişafı olduğundan, qrammatikanın tədrisi zamanı da şagirdlərin nitqinin və təfəkkürünün inkişafına geniş imkanlar açılır. Nitq və təfəkkür vəhdət təşkil etdiyindən şagirdlərin nitq və təfəkkürünün inkişafı istiqamətində mühüm işlər həyata keçirilir.

Qrammatik biliklər şagirdlərin nitqinin inkişafı üçün elmi bünövrə rolunu oynayır. Qrammatik biliklərə yiyələnmədən nitqin inkişafı mümükün deyildir. Deməli, nitqin inkişafı qrammatik biliklərə yiyələnməkdən asılıdır.

Bu baxımdan, nitqinin inkişafı üzrə işi düzgün təşkil etmək üçün ilk növbədə dilin qrammatikasını mükəmməl bilmək lazımdır.

Tədqiqat işində əldə olunan nəticələri aşağıdakı şəkildə ümumiləışdirmək olar:

- İbtidai siniflərdə Azərbaycan dili təliminin başlıca məqsədi şagirdlərin mədəni nitq vərdişlərinin formalaşdırılmasıdır. Mədəni nitq isə, ilk növbədə, zəngin söz ehtiyatı əsasında inkişaf edir. Şagirddə sözü duymaq, onun ifadə etdiyi mənaya bələd olmaq həvəsi yaratmadan lüğət ehtiyatının zənginləşməsinə nail olmaq mümkün deyil.

- Düzgün nitqə yiyələnmənin yolu dilə necə yiyələnməkdən asılıdır. Ona görə də Azərbaycan dilində zəngin lüğət ehtiyatına malik olmadan, qrammatik və semantik cəhətdən sözlərin təbiətinə bələd olmadan, sözləri cümlədə yeri yerində işlətməyi və rabitəli mətnə daxil etməyi bacarmadan fikrin olduğu kimi ifadəsi mümkün deyildir. Əgər ki, zəngin lüğət ehtiyatına malik deyilsənsə, sözlərin qrammatik və semantik cəhətdən təbiətinə bələd deyilsənsə, demək gözəl nitqə nmalik deyilsən.

- Şagirdlərin nitqinin inkişafı üzrə işi düzgün təşkil etmək üçün ilk növbədə müəllim dilin qrammatikasını mükəmməl bilməli, dilçilik elminin nailiyyətlərinə, ədəbi dil normalarına istinad etməlidir.
- Düzgün, gözəl nitqə yiyələnmənin yolu ədəbi dilin normalarına necə yiyələnməkdən də çox asılıdır. Ədəbi dilin normalarını bilmədən düzgün nitqə yiyələnmək qeyri mümkündür. Ona görə də ədəbi dilin normalarının mənimsənilməsindən o zaman danışmaq olar ki, şagirdlər bu normalardan düzgün istifadə edə bilsinlər.

Bir sözlə, Azərbaycan dili müəllimləri dərsdə sözün linqvistik vahid kimi öyrənilməsinə daha çox diqqət yetirirməli, şagirdlərin sözlə işləmək bacarığına xüsusi yer verilməlidir. Dərs vaxtı lüğət üzrə işlərin aparılması sözün məna çalarlarının mənimsənilməsinə xidmət etməlidir ki, söz şagirdin lüğətində şüurlu şəkildə möhkəmlənə bilsin. Bununla da şagirlərin nitqi inkişaf etmiş olacaqdır.

## Bölmə 4. Dilçilik fənlərinin tədrisi məsələləri

## Kafedra: Azərbaycan dili və ədəbiyyat

**Şəbnəm Əliyeva**
*Fəlsəfə doktoru hazırlığı üzrə dissertant*
*Baş müəllim*
*ShabnamAliyeva.215@s.nmi.edu.az*

# Oxu materiallarının dildə obrazlılığı üzərində işin təşkili metodikası

***Tədqiqatın məqsədi*** – Oxu materiallarında mövcud olan obrazlı dil vasitələrinin şagirdlər tərəfindən düzgün qavranılması, onların nitq inkişafında fəal şəkildə tətbiq olunması və bədii mətnlərin mənimsənilməsində obrazlılığın rolunun artırılması üçün **elmi-metodik əsaslar yaratmaq**, həmçinin obrazlı ifadələrin öyrədilməsində istifadə edilə biləcək **səmərəli tədris üsullarını, strategiyaları və didaktik materialları** müəyyənləşdirərək tədris prosesinə tətbiq olunma imkanlarını araşdırmaq elmi tədqiqat işində əsas məqsəddir.

***Aktuallığının əsaslandırılması:*** Müasir dövrdə Ana dili tədrisinin əsas məqsədlərindən biri şagirdlərdə təkcə texniki oxu bacarığını formalaşdırmaq deyil, həm də oxuduqlarını **dərin şəkildə dərk etmək,** mətnin emosional-estetik qatını hiss etmək və ifadəli nitq qurmaq bacarıqlarını inkişaf etdirməkdir. Bədii mətnlərin əsas xüsusiyyətlərindən biri isə onların **obrazlı dil vasitələri** ilə zəngin olmasıdır. Şagirdlərin metafora, təşbeh, mübaliğə və digər bədii təsvir vasitələrini anlaması həm mətnin məzmununun daha dolğun mənimsənilməsinə, həm də onların **yaradıcı və tənqidi təfəkkürünün inkişafına** mühüm təsir göstərir. Lakin təcrübə göstərir ki, bir çox şagird oxu mətnlərindəki obrazlı ifadələri **düzgün başa düşməkdə çətinlik çəkir,** nəticədə mətni tam qavrama problemi yaranır. Bu isə müəllimlər üçün obrazlılığın tədrisini daha sistemli, planlı və metodik yanaşma ilə aparmağı zəruri edir.

Beləliklə, tədqiqatın aktuallığı Ana dili tədrisində obrazlı dil vahidlərinin öyrədilməsinə olan tələbatın artması, bu sahədə vahid metodikanın olmaması və şagirdlərin bədii mətni zəngin şəkildə qavramasına dəstək verən **yenilənmiş, müasir metodik yanaşmalara ehtiyacın** olması ilə əsaslandırılır. Beləliklə, bu araşdırma həm nəzəri, həm də praktik baxımdan Azərbaycan dili təlimində yeni nailiyyətlər açır.

İbtidai siniflərdə Azərbaycan dilindən oxu təliminin metodikasının - “Oxu materiallarının dildə obrazlılığı üzərində işin təşkili metodikası” elmi - tədqiqat işinin metodik cəhətdən öyrənilməsi mövzunun aktuallığını zəruri edir.

***Tədqiqatın metod və üsulları:*** Tədqiqat üzrə aparılan araşdırmalar zamanı aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir:

- ✓ Oxuyub-anlama prosesinin bir pedaqoji, metodik problem kimi dünya kontekstində daha geniş miqyasda yayılması məsələsi araşdırılmışdır;
- ✓ Faktların yığılması, analizi və ümumiləşdirilməsi nəticəsində “əlaqələndirilmiş öyrənmə metodu” termini müəyyənləşdirilmişdir;
- ✓ Əldə olunan məlumatların sistemləşdirilməsi və biliklərin praktiki tətbiqinin istiqamətləndirilməsi məsələsi araşdırılmışdır;
- ✓ Semantik oxu vərdişlərinin formalaşmasının əsasları öyrənilmiş, nəzəri mülahizələr araşdırılmış və təhlili aparılmışdır;

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Bu tədqiqat oxu materiallarında obrazlı dil vahidlərinin öyrədilməsinə yeni, sistemləşdirilmiş və mərhələli metodik yanaşma təqdim etməsi ilə fərqlənir. İşdə fərqli sinif səviyyələrində obrazlılığın qavranılma çətinliyi müəyyən edilərək bunun əsasında pilləli tədris modeli hazırlanmışdır. Obrazlı ifadələrin şagirdlərin nitq inkişafına və mətn

qavramasına real təsiri ilk dəfə olaraq empirik məlumatlarla əsaslandırılır. Tədqiqat çərçivəsində müəllimlər üçün innovativ, fəaliyyətə əsaslanan didaktik materiallar və interaktiv tapşırıqlar işlənmişdir. Araşdırmada həmçinin obrazlı dil vahidlərinin qavranılmasının psixolinqvistik aspektləri təhlil edilərək mövcud metodik yanaşmaların elmi əsasları genişləndirilmişdir. Beləliklə, bu araşdırma həm nəzəri, həm də praktik baxımdan Azərbaycan dili təlimində yeni nailiyyətlər açır.

***Tədqiqatın praktiki əhəmiyyəti (tətbiq sahəsi qeyd edilməklə):*** Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat işi təhsil strategiyalarına və nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərmək potensialına malikdir və onu həm müəllimlər, həm də tədqiqatçılar üçün mühüm tədqiqat sahəsinə çevirir.

**ETİ üzrə çap olunmuş elmi əsər**

1. Əliyeva, Ş.Ə. Ümumtəhsil məktəblərində ibtidai sinif şagirdlərinin oxuyub – anlama bacarıqlarında yaranan bəzi çətinliklər və onların həlli yolları haqqında. International Scientific Symposium "Turkic world: International studies and innovative approaches". Malatya/ Türkiye. 31st of August 2024. s. 226 – 232.

Yekun olaraq belə nəticəyə gələ bilərik ki, semantik oxunun öyrənilməsi şagirdlərə problemi daha yaxşı həll etmə və qərar vermə bacarıqları qazandırır, fikirlərini aydın və effektiv şəkildə ifadə etməyə imkan verir. İfadəli oxu zamanı sözlərin mənasının açılması şagirdlərdə lüğət ehtiyatını zənginləşdirir, fikirlərini şifahi və yazılı şəkildə ifadə etmək bacarığının formalaşdırır. Eyni zamanda, oxuyub – anlama bacarıqları şagirdlərin ümumi biliklərin mənimsənilməsində əsas rol oynayır, həmçinin şagirdlərin yeni məlumatları əldə etmək və anlamaq qabiliyyətini inkişaf etdirir. Buna görə də strategiyalı oxu zamanı cümlələrin və ifadələrin mənasının açılması şagirdlərin konkret təsəvvür və anlayışlarını daha da genişləndirir.

**Bölmə 4. Dilçilik fənlərinin tədrisi məsələləri**

**Kafedra: Azərbaycan dili və ədəbiyyat**

**Səbinə Dünyamalıyeva**
*Fəlsəfə doktoru hazırlığı üzrə doktorant*
*Müəllim*
*SebineDunyamaliyeva@nmi.edu.az*

# Ali məktəblərdə Azərbaycan ədəbiyyatında avropa ədəbi-fəlsəfi nümunələrin elmi – metodiki təhlili

**Tədqiqatın məqsədi:** tələbələrə nihilizm anlayışı, onun tarixi və fəlsəfi inkişafını faktoloji biliklərə əsaslanaraq fəlsəfi “izm”in interpretasiyası vasitəsilə öyətməkdir. Bununla yanaşı, onlara Avropa və Azərbaycan ədəbiyyatında yazılan bədii əsərlər vasitəsilə nihilizm və nitsşeçiliyin mənfi tərəflərini izah etməkdir.

**Aktuallığın əsaslandırılması:** Müasir dövrdə ali məktəblərdə Azərbaycan ədəbiyyatının tədrisi təkcə milli ədəbi irsin öyrənilməsi ilə məhdudlaşmır, həm də ədəbiyyatın dünyəvi kontekstlə əlaqəsinin elmi əsaslarla araşdırılmasını tələb edir. Qloballaşma şəraitində Azərbaycan ədəbiyyatının inkişafını və ideya-estetik istiqamətlərini Avropa ədəbi-fəlsəfi düşüncəsindən ayrı şəkildə təhlil etmək mümkün deyil. XIX–XX əsrlərdən başlayaraq Azərbaycan maarifçiləri və yazıçıları Avropa fəlsəfəsi və ədəbiyyatından təsirlənərək milli düşüncə sisteminə yeni məzmunlar gətirmiş, ədəbiyyatımızda yeni janrların və ideyaların formalaşmasına səbəb olmuşlar. Avropa ədəbi-fəlsəfi cərəyanlarından biri olan nihilizmin Azərbaycan ədəbiyyatına təsiri həm ideya-bədii, həm də ictimai-fəlsəfi baxımdan mühüm mərhələ təşkil edir. Bu təsiri düzgün və elmi-metodiki əsaslarla ali məktəblərdə tədris etmək ədəbiyyatşünaslıqda yeni yanaşmaların tətbiqinə imkan verir.

**Tədqiqatın metod və üsulları:** “Ali məktəblərdə Azərbaycan ədəbiyyatında Avropa ədəbi-fəlsəfi nümunələrin elmi – metodiki təhlili” mövzusu aşağıdakı metodlar ilə tədqiqata cəlb edilmişdir:

**İnterdisiplinar metod**- tədqiqatda nihilizm yalnız fəlsəfi kateqoriya kimi deyil, həmçinin ədəbiyyat, tarix konteksində də araşdırılmışdır.

**Müqayisə metodu-** tədqiqatda fəlsəfi və sosial nihilizm bədii əsərlərdən gətirilən nümunələr ilə müqayisəli şəkildə təhlil edilmişdir.

**Abstraktlaşdırma-** bu metod ilə əvvəlcə nihilizmin əsas zəruri xüsusiyyətləri- Tanrı inancı, Güc istənci və Üstinsan konsepsiyası izah edilmiş və Hüseyn Cavid əsərlərinin alt qatında gizlənən nihilizmə tənqidi münasibət şairin yaradıcılığından gətirilən nümunələr vasitəsilə müəyyənləşdirilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Azərbaycan ədəbiyyatındakı bəzi əsərlərin nihilizm mövqeyindən araşdırılması həm fəlsəfi, həm ədəbi, həm də ictimai fikir tariximiz üçün mühüm elmi əhəmiyyət daşıyır. XIX əsrin sonu – XX əsrin əvvəllərində Avropa və Rusiya fəlsəfi mühitində formalaşan nihilizm ideyaları təkcə fəlsəfi sistem kimi deyil, həm də ictimai münasibətləri dəyişdirən ideoloji cərəyan kimi Azərbaycan ədəbiyyatına daxil olmuşdur. Bu ideyanın ədəbiyyatda tənqidi bədii formada ifadə olunması ədəbiyyatın fəlsəfi yükünü və ideya-estetik səviyyəsini yüksəltmişdir. Əvvəllər Azərbaycan ədəbiyyatında nihilizmin təsiri və tənqidi daha çox ideoloji və sosial aspektdə qiymətləndirilirdi. Müasir elmi yanaşma isə bu problemi yalnız ideya səviyyəsində deyil, həm də fəlsəfi-psixoloji, bədii struktur və poetika müstəvisində təhlil etməyi mümkün edir. Bu da ədəbiyyatşünaslıqda interdisiplinar tədqiqat metodlarının tətbiqinə şərait yaradır. Nihilizmin tənqidi Azərbaycan ədəbiyyatında dəyərlərin dağıdılmasına qarşı milli mənəviyyatın qorunması ideyasını önə çəkmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti:** "Ali məktəblərdə Azərbaycan ədəbiyyatında Avropa ədəbi-fəlsəfi nümunələrin elmi – metodiki təhlili" mövzusu həm fəlsəfə, həm də ədəbiyyatşünaslıq, dünya ədəbiyyatı fənlərinin tədrisində faydalı ola bilər. Tədqiqatın aparılma forması tələbələrdə bədii əsərləri təhlil edərkən fəlsəfə-tarix-ədəbi prosesin vəhdətinə əsaslanmaqda köməklik edəcək.

**Tədqiqatın aprobasiyası:** Elmi-tədqiqat işinin nəticələri əsasında "Nihilizm və onun ədəbi əsərlərdə izləri" adlı məqalə Türkiyədə "Dərgipark" jurnalında çap edilmiş, "Hüseyn Cavid yaradıcılığında nihilizm problemi" mövzusunda məqalə AMEA-nın "Elmi əsərlər" jurnalına təqdim edilmişdir.

**Nəticə:** Elmi-tədqiqat işi göstərilən məqsədlərə uyğun hazırlanmışr. Giriş hissədə işin ümumi məqsədi göstərilmiş, digər bölmlərdə araşdırılan mövzular haqqındaməlumat vrilmişdir.

Elmi-tədqiqat işi giriş,iki bölmə, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş hissədə mövzu haqqında məlumat verilmiş, onun aktuallığı, elmi yeniliyi əsaslandırılmışdır. Birinci bölmədə ali məktəblərdə ədəbiyyat və fəlsəfə fənlərində tədris edilən Avropa ədəbi-fəlsəfi cərəyanlarından biri ─ nihilizm anlayışı geniş şəkildə izah edilmişdir. Tələbələrin bu "izm" haqqında məhdud məlumata malik olduqları nəzərə alınaraq, tədqiqatda nihilizmin əsas xüsusiyyətləri, fəlsəfi və ideoloji mahiyyəti, həmçinin onun mənfi və dağıdıcı yönləri ətraflı şəkildə şərh edilmişdir. Elmi-tədqiqat işinin ikinci bölməsində Azərbaycan ədəbiyyatında bəzi bədii əsərlərin alt qatında özünü göstərən bu "izm"in tənqidi aspektləri araşdırılmışdır. Xüsusilə də Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Hüseyn Cavidin yaradıcılığında nihilizmin izləri elmi əsaslarla təhlil edilmişdir.

XIX əsr inteqrasiyalar dövrüdür. İstər elmlərin, istərsə də coğrafi dəyərlərin bir-biri ilə vəhdət təşkil etdiyi zaman dilimidir.Bu dövrdə elmi tərəqqinin, təbiətşünaslığın inkişafı və bu inkişafın fəlsəfə və ədəbiyyata nüfuzu ədəbiyyatda orta əsr dünyagörüşündə üstünlük təşkil edən yaradan, Allah mütləqliyini müəyyən qədər zəiflətdi və fəlsəfədə, ədəbiyyatda analitik təfəkkür, yəni usun, elmin gücünün təsirini gücləndirdi. Bu dövrdə yaranan fəlsəfi təlimlər, məsələn Kantın idrak fəlsəfəsi rasionalizm və irrasionalizmin vəhdətini, Feyerbax Fixte "məhəbbət dini", "Zəka-universal məhəbbətdir" ideyasını və ya Tanrı meyarının tamamən inkar edən─ nihilizm fəlsəfəsi yeni dövr fəlsəfəsinə yön verdilər.

Nihilistlər tarix boyu mövcud olan əxlaqi, siyasi dəyərlərin əhəmiyyətsizliyini göstərməyə çalışır, onlara şübhə ilə yanaşır, dini insan azadlığına qarşı bir ünsür kimi qiymətləndirirdilər. Bu nəzəriyyənin ən tanınmış nümayəndəsi isə polyak əsilli alman filosofu Fridrix Vilhelm Nitsşedir. "Zərdüşt belə deyirdi", "Dəccal", "İnsani həddindən artıq insani", "Güc həvəsi" əsərləri ilə həyati hadisələrə fərqli baxış bucağı ilə yanaşan alman alimi öz ruhi çöküşünü əsərlərində göstərirdi."Onun fəlsəfəsi iki əsrin qovuşuğunun törətdiyi mürəkkəb sosial proseslərin, nəzəri və ideoloji paradoksların, psixoloji və sosial konfliktlərin məhsuludur". Nitsşeni əsərlərində onu nihilizm ilə bağlayan bir neçə ana fikir var. 1. Güc iradəsi və ya güc fəlsəfəsi 2. Tanrının ölümü 3.Üst insan konsepsiyasının intrprtasiyası da diqqətə çatdırılmışdır. Filosofun ideyası səbəbə baxanda doğru, nəticəyə baxanda qüsurlu idi. Ziddiyyətli filosof insanı bir cisim kimi təqdim edərək onun hisslərinin-libidonun sıxışdırılmasını düzgün hesab etmirdi. Üstinsan konsepsiyasında freydizmin əsas hərəkətverici qüvvəsi olan libidoların hökmranlığının gücünü görürük. Həyat hadisələrinə yanaşma şəklində ziddiyyətlər olan Nitsşe həyatın anlamsız olduğunu düşünmürdü. Əksinə, axirətə inamsızlığını göstərərək bu həyatın önəmini vurğulayır və özündə mövcud olan dəyərləri anlamayıb, cənnət cəhənnəm qavramlarına inananları çoban adlandırırdı. Nitsşe tənqid edilərkən deyirdi ki, mən bu ağızlara görə deyiləm. Könül Bünyadzadə düzgün qeyd edirdi: "Nitsşe qurmağı, yaratmağı dağıtmaqdan, məhv etməkdən ibarətdir"

Dünya ədəbiyyatında nihilizmin ideoloji əsaslarının ifadə olunduğu ilk bədii nümunə ─ rus şairi İvan Sergeyeviç Turgenyevin 1862-ci ildə rus yazıçısı Vissarian Qriqoryeviç Belinskinin xatirəsinə ithaf olunmuş “Atalar və oğullar” povesti haqq ında məlumat verilmişdir.Qeyd edilmisdir ki, XIX əsrdən başlayaraq ədəbiyyatda yenilik və köhnəliyin mübarizəsi “atalar və oğullar” qarşılaşmasında öz əksini tapırdı. Turgenevin əsərində atalar və oğulların, yəni liberal və nihilistlərin konfliktləri timsalında nihilizmin əlamətləri diqqətə çatdırılırdı.

Bu əsər çərçivəsində Bazarov nihilizmi ilə Nitsşe nihilizmi arasındakı fərqlər müqayisəli şəkildə təhlil olunmuşdur. Bazarov əsər boyu güclü şəkildə nihilizm ideyalarını təbliğ etsə də, əsərin sonunda o, Anya Odintsova adında dul qadına aşıq olur. Ancaq sevgisini etiraf etməkdən çəkinir, qadın haqqında deyilən dedi-qodulara inanmaq istəyir. Romanın növbəti hissələrində sevgisini etiraf etsə də, sevgisinə qarşılıq ala bilmir. Bundan sonra Bazarov yolxucu xəstəliyə tutulur və bu hissə əsərin kulminasiya nöqtəsidir. Bazarovda nihilist ideyalar zəifləməyə başlayır və həyatın reallıqları ilə üz-üzə qalır. Sevgi və ölüm hissi onun ifrat rasionalizmdən və nihilizmin öldürücü soyuqluğundan uzaqlaşdırırƏsərin sonunda Bazarovun insani hissinə-sevgiyə yenilməsi və ölməsi Turgenyevin nihilizm ideyalarının Nitsşenin fəlsəfi nihilizmindən fərqli olaraq daha real Nihilizm Azərbaycan ədəbiyyatındakı mövqeyi ədəbiyyatşünaslıqda mühüm və eyni zamanda mübahisəli problemlərdən biridir. “Hüseyn Cavid və nihilizm” məsələsi də bu baxımdan xüsusi elmi diqqət mərkəzində dayanır.

Tədqiqatda Cavidin bəzi bədii əsərlərində nihilizmin təbliği kimi qiymətləndirilən nümunələrə elmi yanaşma verilmiş, Məmməd Qocayev və digər alimlərin bu mövzu ilə bağlı fikirləri diqqətə çatdırılmış, irəli sürülən bəzi iddiaların əsassızlığı arqumentlərlə sübut olunmuşdur. XX əsrin romantik filosof-ədibi Hüseyn Cavidin həm bədii yaradıcılığında, həm də məqalələrində Şərq və Qərbin müqayisəsi, iki fəlsəfi düşüncə mühitinə münasibət kimi məsələlərə geniş şəkildə rast gəlinir. Cavidin “Müharibə və ədəbiyyat” məqaləsində Nitsşe haqqında səsləndirdiyi fikirlər, eləcə də bədii əsərlərindəki bəzi obrazların davranış modelləri bir sıra tədqiqatlarda Cavid yaradıcılığında nihilizm və nitsşeçiliyin təbliği məsələsinin mövcudluğu ilə bağlı mübahisələr doğurmuşdur. Bu qarşılaşdırmaların yanıldıcı olduğunu göstərmək üçün Cavidin əsərlərində Tanrı, din, elm və mübarizə məfhumlarının hansı mənaları ifadə etdiyini aydınlaşdırılmışdır. Cavidin “Peyğəmbər”, “Şeyx Sənan” və digər əsərlərində onun dinə münasibəti bəzən açıq şəkildə, bəzən isə üstüörtülü formada oxucuya təqdim olunur. Cavid üçün Allah və din anlayışı ədalət və məhəbbət konsepsiyaları ilə sıx bağlıdır. Həmçinin, dramaturq nihilistlərdən fərqli olaraq yaradıcılığında dini və elmi bir-birindən ayırmırdı.

Elmi-tədqiqat işində vurğulanmışdır ki, Hüseyn Cavid nihilizmin tənqidində təkcə fəlsəfi ideyalara deyil, həm də milli-mənəvi dəyərlərə, humanist ideyalara əsaslanır. Bu baxımdan onun yaradıcılığı nihilizmin kor-koranə inkarçılıq mövqeyinə qarşı aydın, məqsədli və ideyalı bir mövqeyi ifadə edir. Beləliklə, Hüseyn Cavidin əsərlərində nihilizmin tənqidi həm dövrün ictimai-siyasi, həm də mənəvi problemlərini açmaqla yanaşı, gələcək nəsillərə mənəvi dayaq ola biləcək humanist və yaradıcı ideallların qorunmasının zəruriliyini vurğulayır. Bu da onun yaradıcılığını yalnız bədii deyil, həm də fəlsəfi-estetik baxımdan mühüm ədəbi hadisəyə çevirir.

# Bölmə 4. Dilçilik fənlərinin tədrisi məsələləri

## Kafedra: Azərbaycan dili və ədəbiyyat

## Bölmə 5. Pedaqogika- 01

## Kafedra: Pedaqogika və psixologiya

**Sevinc Vəliyeva**
*Pedaqogika üzrə fəlsəfə dokoru*
*Kafedra müdiri, baş müəllim*
*SevincValiyeva@nmi.edu.az*

# Ali təhsil müəssisələrində ekoloji təhsilin cari vəziyyəti

***Tədqiqatın məqsədi*** ekoloji böhranın aradan qaldırılması strategiyası kontekstində ali təhsil müəssisələrində ekoloji təhsilin elmi və pedaqoji əsaslarını inkişaf etdirmək işin ümumi şəkildə gözlənilən nəticələrinin əldə olunmasına tərəf yönəldilməsidir.

***Aktuallığının əsaslandırılması:*** İqlim dəyişikliyinin, su və havanın çirklənməsi kimi problemlər dünyada olduğu kimi Azərbaycanda da ciddi təhlükə yaradır. Bunun üçün ekoloji savadlılığın səviyyəsi artırılmalıdır. Ali təhsil müəssisələri cəmiyyətə mütəxəssis hazırlayan əsas təhsil ocaqlarıdır. Məhz burda ekoloji biliklərin zəif olması gələcək mütəxəssislərin işlərinə mənfi təsir göstərər. Ölkəmizdə ekoloji yaşıl enerji, təhlükəsizliklə bağlı dövlət proqramları qəbul edilib. Bu sənədlərin həyata keçirilməsi üçün ali təhsil müəssisələrində ekoloji hazırlığın gücləndirilməsi vacibdir. Hazırda ekoloji problemlərin həlli get-gedə daha da aktuallıq daşıyır. Cəmiyyətlə təbiət arasındakı əlaqə mürəkkəb və ziddiyyətlidir. Cəmiyyətin məhsuldar qüvvələrinin, müxtəlif istehsal texnologiyalarının, insanların bilik və bacarıqlarının inkişafı təbiətə təsirinin artmasına imkan vermişdir. Fəqət on illər, əsrlər ötdükcə bəşəriyyət təbii sərvətlərdən daha çox asılı vəziyyətə düşdü. Bütün bunlar da sənaye istehsalının artması və inkişafı ilə gücləndi. Bu, öz növbəsində, bir çox qlobal ekoloji problemlərə şərait yaratdı:

-ilkin məhsulların həddindən artıq istehlakı bəşəriyyətin ekoloji işindən kənara çıxmasına imkan verdi;

-təbiətdə olandan çox yüksək temperatur və təzyiqlərdən faydalanaraq materialların istehsalı parçalanmayan tullantıların nəhəng dağlarını meydana gətirmişdir;

-landşaftın parçalanması heyvanların və bitkilərin yaşayış yerlərini pozmuşdur;

-növlərin müxtəlifliyinin azalması isə ekosistemin (biosferin) dayanıqlığını azaldır.

Haqqında danışılan problemlər insanın təbii proseslərə müdaxiləsi səbəbindən meydana gəlir ki, bu isə texnoloji vasitələrdən istifadə etmədən qeyri-mümkündür.

Bu, cəmiyyətlə təbiətin dialektik baxımdan ziddiyyətli qarşılıqlı asılılığıdır: cəmiyyət təbiət üzərində öz gücünü tədricən artırmaqla, həm də adamların maddi tələbatlarının ödənilməsi mənbəyi kimi və istehsalın özü kimi ondan getdikcə daha çox asılı olur. Ancaq bəşəriyyətin təbiətə amansız müdaxiləsi ekoloji böhrana imkan verir.

Dövlət ekoloji təhsil siyasətin həyata keçirir. Bunun tələbələr tərəfindən dərk edilməsi və dəstəklənməsi vacibdir. Ekoloji böhranın aradan qaldırılmasında təhsil, o cümlədən ali təhsil son dərəcə əhəmiyyətli rola malikdir. Yaxşı təhsil tələbələrin dünyada öz yerlərini necə qavradıqlarını və hansı dəyərlərə uyğunlaşacaqlarını, həmçinin qlobal inkişafa uzunmüddətli baxışın formalaşmasını və ya bu günə diqqəti müəyyənləşdirir.

Dövlət, hökumət, elmi və ictimai təşkilatları cəmiyyətimizin davamlı inkişafı üçün ekoloji maarifləndirmə məsələlərinin həlli istiqamətində səylərin birləşdirilməsinin vacibliyini və zəruriliyini yaxşı anlayırlar.

Bütün bunlar ekoloji mədəniyyətin səviyyəsi, insanın təbiətə mənəvi münasibəti ilə müəyyən olunur.

***Tədqiqatın metod və üsulları*** müşahidəetmə, material modelləşdirmə, analiz, sintezə

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Tədqiqatın elmi yeniliyi ali təhsil müəssisələrində ekoloji təhsilə ekosentrizmə əsaslanan yeni yanaşmanın işlənib hazırlanmışdır. Bu yanaşmaya daxildir: universitet tələbələrində "ekoloji maarifləndirmə" anlayışı, onun strukturu, mərhələləri və inkişaf meyarları; tələbələrin ekoloji təhsili konsepsiyası; ekosentrik yanaşma əsasında tələbələrin ekoloji təhsili modeli; və onun həyata keçirilməsi üçün müasir üsul və vasitələrin müəyyən edilməsi.

***Tədqiqatın praktik əhəmiyyəti*** Universitet və institutlarda ekoloji təhsilin bərabər səviyyədə olmaması, vəziyyətin öyrənilməsi, fənn proqramlarının uyğunluğu, çatışmazlıqların aşkar edilməsi praktik baxımdan vacibdir. Tədqiqatın praktik əhəmiyyəti ali təhsil müəssisələrində ekoloji təhsilin cari vəziyyəti barədə təsəvvür yaradır. Tədqiqatın nəticələri tətbiq olunarsa, nəzərdən keçirilən məsələ ilə bağlı institut və universitetlərdə səmərəli göstəricilərə nail olunar.

***Nəticələr:*** 1. Tədqiqatdan görünür ki, ekoloji böhranın aradan qaldırılmasının fundamental komponenti kimi ali təhsil müəssisələrinin tələbələri üçün ekoloji təhsildə ekosentrik yanaşma həlledici əhəmiyyət daşıyır.

2. Ekoloji təhsilə həm obyektiv, həm də subyektiv amillərin təsiri vardır. Obyektiv amillərə insanlara və təbii mühitə artan texnogen və antropogen təzyiqlər daxildir. Obyektiv sosial amillərə risk nəzəriyyəsinin inkişafına, təbii və texnogen təhlükələrin tədqiqinə, insanlara və təbii mühitə mənfi təsirləri azaltmaq üçün metodların hazırlanmasına istiqamətlənmiş elm və texnologiyada dəyişikliklər daxildir. Subyektiv amillərə cəmiyyətin siyasəti və ideologiyası daxildir. XX əsrin son onilliyində inkişaf etmiş ölkələrin siyasətində və sosial ideologiyasında ekoloji təhlükəsizliyin, vətəndaşların şəxsi və kollektiv təhlükəsizliyinin təmin edilməsi məsələləri inkişaf məqsədləri kimi prioritet olmuşdur.

3. Özünü bütövlükdə biosferin bir hissəsi kimi anlamaq, insanların, o cümlədən tələbələrin və başqa varlıqların həyatda bərabər hüquqlarını tanımaq, dialoq və empatiya qurmaq bacarığı kimi şəxsi keyfiyyətlərin inkişafı biosferə dair fundamental elmi biliklər qədər əhəmiyyətlidir. Təhsil sistemi tələbələrdə mənəvi prinsiplər əsasında davranış bacarıqlarını inkişaf etdirməyə kömək göstərəcək və onlara peşəkar fəaliyyətlərinin insanlar və biosfer üçün nəticələrini qabaqcadan görməyə öyrətmək üçün qurulmalıdır.

4. Ekoloji təhsilin nəticəsi tələbələrin ekoloji mədəniyyətinin mühüm tərkib hissəsi kimi ekoloji şüurun inkişafı olmalıdır. Ekoloji mədəniyyət anlayışı aşağıdakıları özündə birləşdirir:

*təbiətin fundamental qanunlarını bilmək;

*bu qanunlara hörmət bəsləmək, fərdi və kollektiv fəaliyyətlərdə onlara əsaslanmaq ehtiyacının başa düşülməsi;

*şəxsi və sənaye mühitinin idarə edilməsində optimallığa sadiqlik;

*təbiətə, ətraf mühitə və insan sağlamlığına məsuliyyətli münasibətin inkişaf etdirilməsi.

5. Müasir pedaqoji elmin qarşısında duran mühüm vəzifələrdən biri ekoloji təhsilin məzmununun təkmilləşdirilməsidir.

6. Ekoloji təhsil ekosentrik şəxslərin ekoloji mədəniyyətinin əsas komponenti kimi ekoloji şüurun inkişaf etdirilməsi üçün dəyəryönlü, məqsədyönlü təşkil edilmiş, sistemli və sistemli şəkildə həyata keçirilən prosesdir. Ekoloji təhsilin başlıca prinsipləri fənlərarası, sistemli və ardıcıllıq, elmi, təcrübə yönümlü, dəyişkənlik, peşəkar və ekoloji biliklərin inteqrasiyası və ekosentrik əksetmədir.

7. Tələbələrdə ekosentrik şüurun formalaşmasına istiqamətlənmiş təhsil mühitinin yaradılması son dərəcə vacibdir.

8. Tədqiqat göstərdi ki, ekoloji maarifləndirmənin ekoloji böhranın aradan qaldırılması strategiyasının fundamental komponenti kimi həyata keçirilməsi tələbələrdə ekoloji şüurun formalaşması olmadan mümkün deyildir.

**Bölmə 5. Pedaqogika- 01**

**Kafedra: Pedaqogika və psixologiya**

**Kamal Camalov**
*Pedaqogika üzrə elmlər dokoru, dosent*
*Kafedranın professoru*
*KamalJamalov@nmi.edu.az*

## İbtidai siniflərdə təlim işinin təşkili

***Tədqiqatın məqsədi:*** Tədqiqatın əsas məqsədi ibtidai siniflərdə təlim işinin təşkili prosesində hafizənin rolunu müəyyənləşdirmək, məktəblilərin psixi inkişafında yadda saxlamanın və yadasalmanın əhəmiyyətini elmi-nəzəri baxımdan əsaslandırmaqdır. Eyni zamanda məqsəd fərdi hafizə xüsusiyyətlərini təhlil etmək, yadda saxlama prosesinin səmərəliliyini artıran pedaqoji şərt və vasitələri müəyyənləşdirməkdir.

***Aktuallığının əsaslandırılması:*** Şagirdin psixikasında diqqət və hafizənin formalaşdırılmasında müəllimin pedaqoji təcrübəsindən istifadə hazırkı dövr üçün aktual problemlərdəndir. Kiçik yaşlı məktəblilərin hafizə və qavrayışlarının qüvvətlənməsinə səbəb olan amilləri düzgün müəyyənləşdirmək hər bir müəllim üçün vacib və zəruridir. Ona görə də kiçik yaşlı məktəblilərin duyğu və qavrayışlarının qüvvətlənməsinə səbəb olan amillər haqqında elmi araşdırmalar aparılmasına və məqalələr yazılmasına ehtiyac duyulmaqdadır.

***Tədqiqatın metod və üsulları:*** Tədqiqat prosesində bir sıra nəzəri və empirik metodlardan istifadə edilmişdir. İlk növbədə, problemin elmi əsaslarının müəyyənləşdirilməsi məqsədilə pedaqoji və psixoloji ədəbiyyatın nəzəri təhlili və ümumiləşdirilməsi aparılmışdır. Hafizə, qavrayış və təlim prosesinin təşkili ilə bağlı mövcud elmi yanaşmalar müqayisəli şəkildə araşdırılmışdır.

Eyni zamanda pedaqoji müşahidə metodu vasitəsilə ibtidai sinif şagirdlərinin təlim fəaliyyətində hafizə proseslərinin təzahürü izlənilmiş, yadda saxlama və yadasalma xüsusiyyətləri təhlil edilmişdir. Müqayisəli təhlil yolu ilə fərdi hafizə tiplərinin (görmə, eşitmə, hərəkət) təlim nəticələrinə təsiri müəyyənləşdirilmişdir.

Bundan əlavə, təlim prosesində təkrarın təşkili, əyanilik prinsipinin tətbiqi və məşqlərin mərhələli quruluşu sistemli şəkildə təhlil edilərək ümumiləşdirmələr aparılmışdır. Əldə olunan nəticələr elmi-nəzəri baxımdan təhlil olunmuş və praktik tövsiyələr formalaşdırılmışdır.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Qeyd edək ki, məktəblilərin hafizə və yaddasaxlamanın qüvvətlənməsinə səbəb olan amillər; məktəblinin fərdi xüsusiyyətləri; müəllim tərəfindən verilən informasiyaların qısamüddətli hafizədən uzunmüddətli hafizə fonduna keçməsi kimi problemlər müəyyənləşdirilir. Həmçinin şagirdə verilən biliyin bir neçə dəfə necə təkrar edilməsi və müvafiq olaraq təlim başa çatana kimi uşağın yaddaşında nəqşləndirilməsi; əyani vasitələrlə aparılan dərslər zamanı yaddasaxlamanın, yadasalmanın bir-birini mütəmadi olaraq necə əvəz etməsi yolları üzə çıxarılaraq tədqiq-təhlil obyektinə çevrilir.

***Tədqiqatın praktik əhəmiyyəti:*** İrəli sürülən ideya və tövsiyələrdən, fikir və görüşlərdən ali və ümumtəhsil məktəb müəllimləri, tərbiyəçi-müəllimlər, pedaqogika və psixologiya sahəsində tədqiqat aparan doktorantlar, monoqrafiya, dərslik və dərs vəsaitləri hazırlayan müəllimlər faydalana bilərlər.

***Nəticələr:***

1. Hər bir müəllim məktəblilərin duyğu və qavrayışlarının qüvvətlənməsinə səbəb olan amilləri düzgün müəyyənləşdirməli və hər bir məktəblinin fərdi xüsusiyyətlərinə əsasən istifadə etməlidir;
2. Kiçik yaşlı məktəblilərin hafizə və qavrayışlarının qüvvətlənməsinə səbəb olan amilləri hər bir müəllim düzgün müəyyənləşdirməlidir;

3. Təlim zamanı müəllim tərəfindən verilən informasiyalar qısamüddətli hafizədən uzunmüddətli hafizə fonduna keçməli və burada həmin informasiyalar təhlil edilməlidir;
4. Təlim prosesində verilən bilik bir neçə dəfə təkrar edilməli və müvafiq olaraq təlim başa çatana kimi uşağın yaddaşında nəqşləndirilməlidir;
5. Əyani vasitələrlə aparılan dərslər zamanı yaddasaxlama, yadasalma bir-birini mütəmadi olaraq əvəz etməlidir. Belə olmazsa operativ əməliyyat və ya çəkilən zəhmət öz səmərəsini göstərməyəcəkdir;
6. Hər bir məktəb müəllimi uşaqda elmi biliyi məntiqi yolla öyrənməsinə kömək etməlidir;
7. Pedaqoq yadda saxlama işini asanlaşdırmağa və uşaqlar tərəfindən öyrənilmiş şeylərin hafizədə möhkəm qalması üçün öyrənmənin müəyyən şərait və qaydalarını nəzərə almalıdır.

## Bölmə 5. Pedaqogika- 01

## Kafedra: Pedaqogika və psixologiya

**Tahirə Həsənova**[1]
**Aysen Məmmədova**[2]
*Pedaqogika üzrə fəlsəfə doktoru*[1]
*Baş müəllim*[1]
*Müəllim*[2]
TahiraHuseynova@nmi.edu.az[1]
AysenMemmedova@nmi.edu.az[2]

# Kiçik məktəbyaşlı uşaqlarda əmək tərbiyəsinin formalaşmasında xalq pedaqogikasının rolu

**Tədqiqatın məqsədi.** Yetişən nəslin əmək tərbiyəsində etnopedaqoji materiallardan istifadə xüsusi əhəmiyyətə malikdir. Bu nümunələr arasında folklor nümunələri öz tərbiyəvi cəhətinə görə daha çox diqqət çəkir. Atalar sözləri, tapmacalar, əmək nəğmələri, nağıllar, dastanlar yetişən nəslin tərbiyəsinə təsir edir, onlarda vətənə, əməyə məhəbbət tərbiyə edir, onları gələcəyin bir şəxsiyyəti kimi yetişdirir. Bu mənada, məktəblilərin əmək tərbiyəsində etnopedaqoji materiallardan istifadə imkanlarını üzə çıxarmaq, onlardan istifadə etməyin formalarını, yol və vasitələrini müəyyənləşdirmək tədqiqat işinin əsas məqsədi kimi qarşıya qoyulmuşdur.

**Aktuallığı**. Bu gün insanın bir şəxsiyyət kimi yetişməsində, mənəvi insan kimi inkişafında tərbiyə mühüm amil kimi çıxış edir. Yüksək tərbiyə yetişən nəslin sosialmədəni meyarı, ölçüsü hesab edilir. Bu baxımdan, tərbiyə məsələsi həmişə öz aktuallığı ilə seçilmiş, şəxsiyyətin formalaşmasında birinci amil hesab edilmişdir. Hər bir xalqın özünəməxsus milli-mənəvi dəyərləri, adət-ənənləri, mənəvi-əxlaqi xəzinəsi var ki, bütün bunlar da tərbiyə prosesində mühüm əhəmiyyət kəsb edir.

Bu gün biz gələcəyin vətəndaşlarını-müəllim, həkim, mühəndis, ailə başçılarını yetişdiririk. Bunların gələcəkdə cəmiyyətdə özlərinə layiq yer tuta bilmələri təkcə aldıqları təhsillə ölçülə bilməz. Bu sahədə tərbiyəının də rolunu önə çəkməli, gələcək nəslin düzgün formalaşmasında tərbiyənin əhəmiyyəti şərh edilməlidir.

Yetişən gənc nəslin hərtərəfli inkişafı onun tərbiyəsindən asılıdır. Tərbiyə insanın kamilləşməsində, şəxsiyyət kimi yetişməsində başlıca amildir. Bu tərbiyə növlərindən biri də əmək tərbiyəsidir. Hərtərəfli inkişaf etmiş şəxsiyyətə verilən əsas və ən mühüm tələblərdən biri də məhz şəxsiyyətin əməyə qadir olması, istehsalın, xalq təsərrüfatının bu və ya digər sahəsində fəaliyyət göstərmək bacarığına malik olmasıdır. Əmək, bacarıq və vərdişləri uşaqlar əmək tərbiyəsi vasitəsilə dərk edir, bununla da onlar əməyə alışdırılmış olurlar.

İnkişaf etmiş demokratik cəmiyyət tələb edir ki, böyüyən nəsil əmək əsasında tərbiyə olunsun, kiçik yaşlardan yaradıcılıq fəaliyyətində iştirak edə bilsinlər. Əlbəttə ailədən sonra əmək tərbiyəsinin formalaşmasında təhsil müəssisələrinin rolu danılmazdır. Bu mənada “Kiçik məktəbyaşlı uşaqlarda əmək tərbiyəsinin formalaşmasında xalq pedaqogikasının rolu” mövzusun araşdırılması öz aktuallığı ilə seçilir.

Əmək tərbiyəsi bir insanın işə hazırlığının və əmək fəaliyyəti prosesinin iştirakçıları arasındakı münasibətlərin formalaşmasıdır. Əmək tərbiyəsi uşaqlarda işə qarşı müsbət emosional münasibət formalaşdırmağı hədəfləyir və təlim ilə vəhdətdə həyata keçirilir. Bu mənada, kiçik məktəbyaşlı uşaqlarda əmək tərbiyəsinin formalaşdırılması təlimin əsas vəzifəsi olmaqla, onlarda çalışqanlığın və digər əxlaqi keyfiyyətlərin formalaşdırılması, əməyin məqsədlərinə, prosesinə və nəticələrinə estetik münasibətdir. Məktəblilərin əmək tərbiyəsi həmişə diqqətdə saxlanılmalı, onlara

hər bir təlim prosesində bu kimi müsbət keyfiyyətlər aşınmalıdır. Bu mənada tədqiqat işi öz aktuallığı ilə seçilir.

Bu mənada, kiçik məktəbyaşlı uşaqlarda əmək tərbiyəsinin formalaşmasında xalq pedaqogikasının rolu məsələsinin araşdırılıb tədqiq edilməsi zamanı aşağıdakı aktual problemlərin həllinin ön plana çəkilməsi zəruridir:

1. Xalq pedaqogikasından istifadənin məktəblilərin əmək tərbiyəsinə təsirini aşkara çıxarmaq;
2. Xalq pedaqogikasının məktəblilərin əmək tərbiyəsində rolunu nəzərə alaraq fənlərin tədrisi prosesində bu nümunələrdən istifadənin reallaşdırılması yollarını müəyyənləşdirmək.

Bütün bu kimi məsələlərin həlli öz növbəsində mövzunun aktuallığını şərtləndirir və bu istiqamətdə tədqiqatların aparılmasını zəruri edir.

**Tədqiqatın metod və üsulları.** Tədqiqat zamanı yazılı və şifahi folklor nümunələri öyrənilmiş, elmi-nəzəri təhlili ararılmış, müşahidə, müashibə, sorğu, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat işi kiçik məktəbyaşlı uşaqlarda əmək tərbiyəsinin formalaşmasında xalq pedaqogikasının rolu məsələsinin tədqiqinə həsr olunmuşdur. Tədqiqat işi aşağıdakı elmi yeniliyi ilə səciyyələnir:

- Qarşıya qoyulan məqsədə uyğun olaraq xalq pedaqogikasının tərbiyəvi mahiyyəti, imkanları və yetişən nəslin hərtərəfli inkişafı üşün əhəmiyyəti açıqlanır;
- Xalq pedaqogikasının tərbiyəvi əhəmiyyəti təhlilə cəlb edilmiş, əmək tərbiyəsindəki rolu şərh edilmişdir.

Tədqiqat işiində, eyni zamanda, məktəblilərin əmək tərbiyəsində etnopedaqoji materiallardan istifadə imkanlarını üzə çıxarilmiş, onlardan istifadə etməyin forma, yol və vasitələr müəyyənləşdirilmiş, imkan və yolları elmi cəhətdən əsaslandırılmışdır.

**Tədqiqatın praktik əhəmiyyəti** ondan ibarətdir ki, ilk öncə tədqiqatdan alınan nəticələrdən müəllimlər, valideynlər bəhrələnməklə, etnopedaqoji mataeriallardan istifadə yolu ilə uşaqların əmək tərbiyəsinə, onların bir şəxsiyyət kimi formalaşmalarına təsir edə bilərlər. Eyni zamanda, bu sahədə tədqiqat aparanlar da bu tədqiqatdan yararlana bilərlər.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqatın əsas müddəaları 29 mart 2025-ci il tarixdə Turkiyənin malatya şəhərində keçirilən Görkəmli türk ideoloqu və pantürkizm nəzəriyyəçisi Hüseyn Nihal Atsızın anadan olmasının 120 illiyinə həsr olunmuş "XXI əsrdə Türk dünyası: İqtisadi, Mədəni və Siyasi Perspektivlər" adlı konfrans məqaləsində də öz əksini tapmışdır.

**Nəticə.** Bu gün tərbiyə işinin çox vacib komponenti şəxsiyyətin inkişafı, insan mənəviyyatının kamilləşdirilməsidir. İndiki halda şəxsiyyətin hərtərəfli inkişafı milli xüsusiyyətlər nəzərə alınaraq yeni məzmun keyfiyyətləri ilə zənginləşdirilməli, təkmilləşdirilməlidir. Bu işdə xalq pedaqogikasının rolu və əhəmiyyəti böyükdür. Etnopedaqogika həyatda, fəaliyyətdə, məişətdə, əməkdə çoxlu yeni təzahür formaları qazanır. Bu gün yetişən nəslin tərbiyəsi işində etnopedaqoji materiallardan istifadənin konseptual modelinin hazırlanması zəruriyyətə çevrilmişdir.

Bu baxımdan, apardığımız tədqiqat da sübut edir ki, məktəb təcrübəsində kiçikyaşlı məktəblilərin əmək tərbiyəsində etnopedaqoji materiallardan istifadə mühüm əhəmiyyət kəsb edir. Etnopedaqoji materialların əhatəliyi və zənginliyi baxımından ibtidai siniflərin dərslikləri xüsusi bir mərhələ təşkil edir.

Tədqiqat işində əldə olunan nəticələri aşağıdakı şəkildə ümumiləışdirmək olar:

1. Folklor nümunələri etnopedaqoji materiallar olmaqla Azərbaycan məktəb və pedaqoji fikir tarixini zənginləşdirir, eyni zamanda, yetişən nəslin əmək tərbiyəsində, onların əməyə cəlb edilməsində də mühüm rol oynayır.

2. Azərbaycan folklorunun hər bir nümunəsi, xüsusilə də laylalar, oxşamalar, atalar sözləri, məsəllər, holavarlar, sayaçı sözləri, bayatılar, miflər, əfsanələr, rəvayətlər, əmək nəğmələri, mövsüm və mərasim nəğmələri kimi kiçikhəcmli nümunələri tərbiyə mənməyi kimi Azərbaycan xalq pedaqogikası materialları sayılmaqla bərabər yetişən nəslin əmək tərbiyəsində də mühüm vasitəyə çevrilmişdir.

3. İbtidai siniflərin dərslikləri xalq yaradıcılığı nümunələri ilə zəngindir. Bu nümunələr şagirdlərin mənəvi cəhətdən yetkinləşməsinə, onların görüş dairəsinin genişlənməsinə xidmət etməli, bu nümunələrdən, eyni zamanda, əmək tərbiyəsi vasitəsi kimi də istifadə edilməlidir.

4.Tədris prosesində məktəblilərin təlim– tərbiyəsinin keyfiyyətini yüksəltmək məqsədilə baxımından ictimai – humanitar fənlərin imkanları daha genişdir. Səriştəli müəllimlər tədris etdikləri fənlərdə etnopedaqoji nümunələrə rast gəldikdə onları ancaq dərslikdə yazılan şəkildə təqdim etməklə kifayətlənməməli, həmin nümunələrin mahiyyətini, əsas ideyasını, əməyə olan münasibəti, əmək adamlarının fəaliyyəti və onların əməyinin əhəmiyyətini dərindən açmalı, bu işdə uşaqların özlərinin də fikirlərini açıq söyləmələrinə şərait yaratmalıdırlar.

5.Fənlərin tədrisində əməkdən bəhs edən mövzulardan tərbiyəvi işlərdə səmərəli istifadə olunarsa, bu zaman şagirdlərə müəyyən biliklər verməklə yanaşı, həm də təlim prosesinin maraqlı keçməsinə, onların əqli qabiliyyətlərinin inkişaf etməsinə və düzgün tərbiyə olunmasına şərait yaranır, eyni zamanda xalqımızın təlim–tərbiyə sahəsində yaratdıqları fikirlər barədə və keçmişimizin adət - ənənələri haqqında və ən əsası isə onlarda milli şüurun formalaşmasına köməklik etmiş olar.

Şagirdlər bunlar haqqında məlumat əldə edəndə əməyin insan həyatındakı rolunu daha da dərk edir, bu ruhda tərbiyə olunur. Cünki əmək tərbiyəsinin formalaşdırılmasının əsasında milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz dayanır. Biz nəyə nail olmuşuqsa əmək sərf etmiş, bunun sayəsində yüksəlmişik. Bütün bunlar da gənc nəslə aşılanmalı, onlar milli ruhda, əməyə məhəbbət ruhunda tərbiyə almalıdırlar.

## Bölmə 5. Pedaqogika- 01

## Kafedra: Pedaqogika və psixologiya

**Ruhəngiz Əliyeva**
*Pedaqogika üzrə fəlsəfə doktoru*
*Baş müəllim*
*RuhangizAliyeva@nmi.edu.az*

# Məktəblilərin özünütərbiyə prosesinin təşkili: metodlar və vasitələr

**Tədqiqatın məqsədi.** Məktəblilərdə özünütərbiyə prosesinin təşkilinin elmi-metodik əsaslarını, tətbiq olunan metod və vasitələri müəyyənləşdirmək və onların təhsil prosesindəki rolunu qiymətləndirməkdir.

**Aktuallığının əsaslandırılması**. Kiçik yaşlı məktəblilərin şəxsiyyət kimi formalaşdırılmasında ailə ilə məktəbin birgə işi müasir dövrdə pedaqogikanın aktual problemlərindən biridir. Məktəb–ailə münasibətlərinin əlaqələndirilməsi məqalədə əsas problemlərdən biri kimi təhlil olunur.

**Tədqiqatın metod və üsulları.** Özünütərbiyə işinin məzmunu, istiqamətləri gənc nəslin milli əxlaqi dəyərlərə yiyələnməsi şəklində deyil, daha çox cəmiyyətin ictimai-siyasi görüşlərinin onlara təqlin edilməsi şəklində hazırlanmışdı. Respublikamızın müstəqillik qazanması onun bir dövlət kimi ideologiyasının da yeni əsaslar üzrə formalaşmasına təkan verdi və bu, təhsil sistemində təlim-tərbiyə işinin də kökündən dəyişdirilməsini, islahatlar aparılmasını labüdləşdirdi. Yuxarı sinif şagirdlərinin özünütərbiyəsinin nəzəri və təcrübi məsələlərini, özünütərbiyə işinin sistemini yaratmaqdır. Özünütərbiyə problemi ilə əlaqədar tədqiqatda irəli sürülən əsaslandırılmış fikirlər pedaqogika nəzəriyyəsini yeni ideya və müddəalarla zənginləşdirəcəkdir. Təcrübəli müəllimlər özünütərbiyədə öz iradi və xarakterini, zəif cəhətlərini, nöqsanlarını öyrənməkdə və təhlil etməkdə, bu zəif çəhətləri aradan qaldırmaq üçün öz üzərində işləməkdə gündəliyin əhəmiyyətini yüksək qiymətləndirmişlər. İdeal o vaxt özünütərbiyədə müsbət təsir buraxa bilər ki, şagird idealın keyfiyyətlərini başa düşsün, qəhrəmanın hərəkətləri ilə onun daxili aləmini görsün. Təhsil sistemi qarşısında duran əsas vəzifələrdən biri şəxsiyyətin harmonik inkişafını təmin etməkdir. Bu istiqamətdə özünütərbiyə mühüm pedaqoji kateqoriya kimi çıxış edir. Özünütərbiyə insanın öz davranışını, hisslərini və məqsədlərini şüurlu şəkildə tənzimləməsini ifadə edir. Məktəbli dövrü isə bu prosesin formalaşması üçün ən əlverişli mərhələdir, çünki bu yaşda şəxsiyyətin mənəvi, əxlaqi və sosial keyfiyyətləri intensiv şəkildə formalaşır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi**. Yeni təhsil paradiqmalarından biri olan valideynlərin təhsili problemini təhsil prosesinin subyekti elan edib. Bu isə onların da öz övladlarının təhsil və tərbiyəsinin keyfiyyətinə görə məsuliyyət daşımaları mənasına gəlir və bu işə ibtidai siniflərdən başlamaq lazım gəldiyini təsdiq edir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** *Məqalədən orta ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimləri, bu sahə üzrə təhsil alan magistrlar, bakalavrlar, tədqiqatçılar bəhrələnə bilərlər.*

**Nəticələr.** Məktəblilərin özünütərbiyəsi şəxsiyyətin formalaşmasının mühüm şərtidir. Bu proses məqsədyönlü şəkildə təşkil olunduqda, şagirdlərdə özünüidarə, məsuliyyət, sosial adaptasiya və yaradıcılıq bacarıqları inkişaf edir. Özünütərbiyə metod və vasitələrinin sistemli tətbiqi həm təlimin keyfiyyətinə, həm də cəmiyyətin mənəvi inkişafına töhfə verir. Deyilənləri ümumiləşdirdikdən sonra belə nəticə hasil olur ki, cəmiyyətin sağlam şəkildə formalaşması və inkişaf etməsi ailədən başlayır. Uşağın inkişafında, şəxsiyyətinin formalaşmasında valideynin övladına olan münasibət müxtəlif ailə modellərində özünü göstərir. Bu baxımdan, ailə və məktəb, uşağın

maraqlarına uyğun olaraq, onun təhsili və inkişafı üçün məsuliyyəti bölüşməlidir. Məktəb-ailə münasibətlərinin əlaqələndirilməsi sahəsində aparılan işlər sırasında mühazirələr, "açıq qapı" günləri, disputlar və s. tədbirlər də mühüm rol oynayır. Valideynlər daim təlim-tərbiyə prosesində iştirak etməli, övladlarının parlaq gələcəyi naminə məktəblə müntəzəm əlaqə saxlamalıdırlar. Onlar məktəbin ictimai həyatında, onun idarəetmə işlərində iştirak etməklə problemlərlə yaxından tanış olur və bu problemlərin həllində maraqlı tərəf kimi iştirak etməyə çalışırlar. Məktəbə qəbul olunmuş şagird onu narahat edən bir sıra problemlərlə qarşılaşmalı olur. O, artıq məktəbəqədər dövrdə olduğu kimi davranmamalıdır. Şagirdlər üçün nəzərdə tutulmuş qaydalara əməl etməli, tənəffüslərdə həmişə sinfə vaxtında daxil olub, vaxtında çıxmalı, dərsdə sakit oturmalı, dərs zamanı sinifdən çıxanda və ya sinfə daxil olanda müəllimdən icazə almalı, müəllimlərin tələb və göstərişlərini yerinə yetirməlidir. Bu yaş dövründə uşağın ünsiyyət sahəsi genişlənir. O, müəllimləri və həmyaşıdları ilə ünsiyyətə girməli olur. Bu dövrdə müəllim şagirdin nüfuz obyektinə çevrilir. Müəllim də bilməlidir ki, onun sinifdə gördüyü iş valideynlərin fəal iştirakı olmadan yüksək nəticə verməyə bilər. Bu işə ibtidai siniflərdən başlamaq vacibdir, çünki uşağın məktəbdə təhsil aldığı ilk vaxtlardan valideynlərlə aktiv iş şəraitində sağlam və tam hüquqlu bir insan kimi formalaşması, inkişafı üçün yeni biliklər əldə etmək ehtiyacını dərk etməyə imkan verir. Bu gün təhsil sistemi o qədər sürətlə dəyişir ki, valideynlər çox vaxt bu dəyişikliklər haqqında kifayət qədər təsəvvürə malik olmurlar. Tədris fəaliyyətində əsas diqqəti müəllimin öz məktəb təcrübələrinə yönəldirlər ki, bu da əksər hallarda müasir tələblərdən geri qalır. Bu uyğunsuzluğu aradan qaldırmaq üçün müəllim təhsil prosesini valideynlər üçün mümkün qədər açıq, məlumatlı və əlçatan etməlidir. Məktəb təcrübəsi göstərir ki, valideynlərlə müəllim arasında qarşılıqlı anlaşma yaranarsa, valideynlər məktəblə və müəllimlə fəal əməkdaşlığa can atmağa başlayırlar. Ailədə uşaqların tərbiyəsini düzgün təşkil etmək üçün valideynlər məktəblə sıx əlaqə saxlamalı, pedaqoqlardan vaxtında lazımi məsləhətləri almalıdırlar.

## Bölmə 5. Pedaqogika- 01

## Kafedra: Pedaqogika və psixologiya

**Ülviyyə Nağıyeva**
*Pedaqogika üzrə fəlsəfə doktoru*
*Müəllim*
*UlviyyeNaghiyeva@nmi.edu.az*

# Pedaqoji təcrübənin subyekti olan gələcək müəllimlərin şəxsi və fərdi keyfiyyətlərinin inkişaf etdirilməsi

***Tədqiqatın məqsədi:*** **Pedaqoji təcrübə prosesində gələcək müəllimlərin şəxsi və fərdi keyfiyyətlərinin formalaşma və inkişaf mexanizmlərini müəyyənləşdirmək**, həmin keyfiyyətlərin inkişafına təsir edən pedaqoji amilləri və metodları araşdırmaqdır. Tədqiqatın əsas məqsədi həmçinin pedaqoji təcrübəni sadəcə tədris mərhələsi kimi deyil, **gələcək müəllim şəxsiyyətinin peşəkar və mənəvi formalaşma mərhələsi** kimi nəzərdən keçirmək, bu prosesdə tələbə-müəllimin aktiv subyekt kimi rolunu üzə çıxarmaqdır.

***Aktuallığının əsaslandırılması:*** Hazırkı təhsil islahatları şəraitində müəllimlik fəaliyyətinə olan tələblər dəyişir, **peşəkar kompetensiyaların və fərdi xüsusiyyətlərin vəhdəti** ön plana çıxır. Bu isə pedaqoji təcrübənin təkcə praktik məşğələ deyil, həm də **şəxsiyyətin formalaşma mərhələsi** kimi nəzərdən keçirilməsini zəruri edir.Buna görə də "Pedaqoji təcrübənin subyekti olan gələcək müəllimlərin şəxsi və fərdi keyfiyyətlərinin inkişaf etdirilməsi" mövzusu həm elmi-nəzəri baxımdan aktual, həm də təhsil sisteminin müasir tələblərinə cavab verən praktik əhəmiyyətə malikdir.
Müasir dövrdə təhsil sistemində əsas məqsəd yalnız bilik vermək deyil, eyni zamanda **şəxsiyyət yönümlü, yaradıcı düşüncəyə malik, müstəqil qərar verə bilən müəllimlər** yetişdirməkdir. Bu baxımdan ali pedaqoji təhsilin ən mühüm mərhələlərindən biri olan **pedaqoji təcrübə**, gələcək müəllimlərin şəxsi və fərdi keyfiyyətlərinin formalaşmasında xüsusi rol oynayır. Pedaqoji təcrübə prosesində tələbə-müəllim yalnız nəzəri biliklərini tətbiq etmir, həm də **məsuliyyətlilik, empatiya, ünsiyyət mədəniyyəti, təşkilatçılıq, təşəbbüskarlıq, pedaqoji takt və etik davranış** kimi mühüm şəxsi keyfiyyətləri inkişaf etdirir. Bu keyfiyyətlər gələcəkdə onun pedaqoji fəaliyyətinin səmərəliliyini müəyyən edən əsas amillərdəndir.

***Tədqiqatın metod və üsulları:*** Bu araşdırmada müşahidə, müsahibə, təhlil və ümumiləşdirmə metodu, qabaqcıl təcrübənin öyrənilməsi və pedaqoji eksperiment metodlarından istifadə olunmuşdur.

**Müşahidə –** Dərs və ya tərbiyə prosesində real vəziyyəti öz gözünlə görmək üçün istifadə olunan metoddur. Bu metod ona görə seçilir ki, şagirdlərin davranışı, müəllimin iş üsulu, dərsin gedişi haqqında **obyektiv, canlı məlumat** əldə edilir.

**Müsahibə** – İnsanların fikirlərini, duyğularını, münasibətlərini daha dərindən anlamaq üçün istifadə olunan metoddur. Müsahibə tədqiqatçıya müəllim, şagird və valideynlərin baxışlarını **şifahi şəkildə eşitmək**, onların düşüncələrini birbaşa öyrənmək imkanı verir.

**Təhlil və ümumiləşdirmə** – Toplanmış məlumatları işləyib nəticəyə gəlmək üçün istifadə olunan metoddur. Müşahidə və müsahibədən gələn bütün məlumatlar analiz edilir, müqayisə olunur və nəticə çıxarılır. Bu metod tədqiqatın **elmiliyi və nəticələrinin düzgün formalaşdırılması** üçün vacibdir.

**Qabaqcıl təcrübənin öyrənilməsi –** Uğurlu müəllimlərin iş üsullarını öyrənmək və onlardan nümunə götürmək üçün istifadə olunan metoddur. Bu metod yeni metodikanın yaradılmasına,

mövcud problemlərin həllinə və təcrübədə təsdiqlənmiş yolların tapılmasına kömək edir. Yəni məqsəd — **ən yaxşı nümunəni görüb istifadə etməkdir.**

**Pedaqoji eksperiment** – Yeni metodun, yanaşmanın və ya proqramın təsirini yoxlamaq metodudur. Eksperimentdə yeni metod sınaqdan keçirilir və ənənəvi metodla müqayisə olunur. Bu metod nəticədə **"bu metod işlədi, ya yox?"** sualına cavab vermək üçündür.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Araşdırmada sinif müəllimlərinin peşə hazırlığının və pedaqoji təcrübəsinin standartlaşdırılmasının, müəllim hazırlığına təsiri müəyyənləşdirilmiş, pedaqoji təcrübə prosesində gələcək müəllimlərin pedaqoji səriştəsinin formalaşdırılmasının didaktik şərtləri, funksiyaları, meyarları və səviyyələri aşkar edilmiş, eksperimental yolla səmərəliliyi təsdiq edilmişdir.

***Tədqiqatın praktiki əhəmiyyəti:*** Gələcək müəllimlərin pedaqoji səriştəsinin inkişaf etdirilməsində pedaqoji təcrübənin rolu ilə bağlı tövsiyələrdən ali pedaqoji məktəblərdə pedaqoji təcrübənin səmərəli təşkilində istifadə etmək mümkündür. Tədqiqatın nəticələri pedaqoji praktika ilə bağlı tədqiqatların aparılması, pedaqoji təcrübə ilə bağlı mühazirə və seminar məşğələlərinin təşkili, ixtisasartırma kursları, yeni nəsil dərsliyin hazırlanması üçün də əhəmiyyətlidir.

***Nəticə:*** Aparılan araşdırma göstərir ki, müəllim şəxsiyyətinin pedaqoji əhəmiyyəti onun davranışında, münasibətində, ünsiyyət tərzində, emosional sabitliyində və etik prinsiplərə sadiqliyində özünü göstərir. Humanizm, empatiya, məsuliyyətlilik, ədalətlilik, səbir, pedaqoji takt və yaradıcılıq kimi keyfiyyətlər müəllimin həm tədris fəaliyyətində, həm də şagirdlərlə münasibətində həlledici rol oynayır.

Tədqiqatın nəticələri göstərir ki, pedaqoji təcrübə gələcək müəllimlərin şəxsi və fərdi keyfiyyətlərinin formalaşdığı əsas mərhələdir. Tələbə-müəllimlər müxtəlif pedaqoji situasiyalarla qarşılaşır, qərar vermə bacarığını inkişaf etdirir, ünsiyyət, empatiya, təşkilatçılıq və emosional idarəetmə kimi keyfiyyətləri təcrübədə qazanırlar.

İnteraktiv metodlar öyrənəni təlimin aktiv iştirakçısına çevirərək onun sosiallaşmasını, fikir mübadiləsi aparmaq və öz mövqeyini əsaslandırmaq bacarığını inkişaf etdirir. İnnovativ metodlar isə müasir texnologiyalardan səmərəli istifadə etməklə fərdi öyrənməni təmin edir və özünütəkmilləşdirmə motivasiyasını gücləndirir.

Nəticə etibarilə, interaktiv və innovativ metodların inteqrasiyası tədris prosesini daha dinamik, maraqlı və şəxsiyyətyönümlü edir. Belə təlim mühiti tələbə və şagirdin potensialını üzə çıxarır, onun müstəqil düşünən, məsuliyyətli və yaradıcı şəxs kimi formalaşmasına şərait yaradır. Müəllim bu prosesdə rəhbər, motivator və istiqamətverici rolunu oynayaraq, gələcək nəsillərin humanist, intellektual və innovativ düşüncəyə malik fərdlər kimi yetişməsinə töhfə verir.

**Bölmə 5. Pedaqogika- 01**

**Kafedra: Pedaqogika və psixologiya**

**Kifayət Əhmədova**
*Baş müəllim*
*KifayatAhmadova@nmi.edu.az*

## Ailədə uşaqların əmək tərbiyəsinə alışdırılmasının əhəmiyyəti və vəzifələri

**Tədqiqatın məqsədi** ailədə uşaqların əmək tərbiyəsinin formalaşmasını, uşaqlarda əmək vərdişlərinin yaranma mexanizmini, əmək fəaliyyətinin onların sosial-psixoloji inkişafına təsirini müəyyənləşdirməkdir. Məqsəd həmçinin ailə mühitində əmək tapşırıqlarının yaşa uyğun təşkili, valideyn nümunəsinin rolunun elmi cəhətdən əsaslandırılması və uşaqlarda əməksevərlik, məsuliyyət, özünənəzarət kimi keyfiyyətlərin formalaşdırılması üçün səmərəli pedaqoji yanaşmalar hazırlamaqdan ibarətdir. Qoyulan məqsədə çatmaqla ailədə əmək tərbiyəsinin müasir tələblər baxımından inkişaf modelləri müəyyən olunur və mövzunun pedaqoji problematikası həll edilmiş hesab olunur.

**Aktuallığın əsaslandırılması** müasir ailə institutunda baş verən dəyişikliklər, valideyn məşğulluğunun artması, texnoloji asılılıq, uşaqların real əmək proseslərindən uzaqlaşması və gündəlik həyat bacarıqlarının zəifləməsi ilə bağlıdır. Mövzunun aktuallığı ailədə əmək tərbiyəsi ilə bağlı bir sıra ziddiyyətlərin mövcudluğu ilə şərtlənir: bir tərəfdən əmək tərbiyəsinin uşağın formalaşmasında xüsusi əhəmiyyət daşıdığı qəbul edilir, digər tərəfdən isə ailələrdə bu işin təşkilində sistemsizlik müşahidə olunur; müasir uşaqların intellektual inkişafına çox vaxt verilsə də, əmək bacarıqları ikinci plana keçir; valideyn nümunəsinin vacibliyi qəbul olunsa da, gündəlik həyatda tətbiq olunmur. Bu ziddiyyətlərin analitik təhlili göstərir ki, mövzunun elmi şəkildə işlənməsi zəruri və praktik ehtiyacdan doğan bir tələbdir.

**Tədqiqatın metod və üsulları** ümumelmi empirik metodlara (müşahidəetmə, təsviretmə, müqayisə, sorğu, ölçmə) və ümumelmi nəzəri metodlara (analiz, sintez, abstraktlaşdırma, induksiya, deduksiya, nəzəri modelləşdirmə) əsaslanmışdır. Müşahidə və sorğular vasitəsilə ailə mühitində əmək tərbiyəsinin real vəziyyəti öyrənilmiş, müqayisəli yanaşma ilə müxtəlif ailə modelləri təhlil edilmiş, nəzəri metodlarla əmək tərbiyəsinin elmi əsasları sistemləşdirilmişdir. Empirik və nəzəri məlumatların sintezi nəticələrin elmi dəyərini gücləndirmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** ondan ibarətdir ki, ailədə əmək tərbiyəsinin uşağın emosional, sosial və intellektual inkişafına kompleks təsirini izah edən pedaqoji model hazırlanmışdır. Uşaqlarda əmək bacarıqlarının yaşa görə inkişaf mərhələləri yenidən təsnif edilmiş, əmək tərbiyəsinin ailə mühitində formalaşdırılması üçün interaktiv, motivasiyaedici və nümunəyə əsaslanan yeni metodik yanaşmalar irəli sürülmüşdür. Həmçinin ailədaxili əmək bölgüsünün uşağın şəxsiyyət inkişafı ilə qarşılıqlı əlaqəsini izah edən yeni elmi nəticələr əldə olunmuşdur ki, bu da mövzunu daha əvvəl işlənmiş tədqiqatlardan fərqləndirir.

**Tədqiqatın praktiki əhəmiyyəti** məktəbəqədər və ibtidai yaşlı uşaqların ailədə əmək tərbiyəsi üzrə valideynlərlə aparılan maarifləndirmə işlərində, pedaqoji-pisixoloji xidmətlərdə, məktəb–ailə əməkdaşlığı proqramlarında, sosial pedaqogika və uşaq inkişafı üzrə metodiki materialların hazırlanmasında geniş tətbiq oluna bilər. Tədqiqat nəticələri ailələr üçün əmək tapşırıqlarının planlaşdırılması, motivasiya mexanizmlərinin tətbiqi və uşaqlarda əməksevərlik vərdişlərinin formalaşdırılması sahəsində praktik tövsiyələr təqdim edir. (Aprobasiyaya dair məlumat tələb olunursa, bu bənddə qeyd edilə bilər.)

Tədqiqatın nəticələri göstərdi ki, ailədə əmək tərbiyəsi uşağın şəxsiyyət kimi formalaşmasının ən mühüm komponentlərindən biridir və bu prosesin erkən yaşlardan təşkili uşağın sosial mühitə uyğunlaşmasını xeyli asanlaşdırır. Ailədaxili əmək münasibətləri uşağın məsuliyyət hissini gücləndirir, onun davranışında ardıcıllıq və intizam yaradır və eyni zamanda özünənəzarət bacarığını inkişaf etdirir. Valideyn nümunəsi əmək tərbiyəsinin ən təsirli vasitəsi kimi çıxış edir, çünki uşaqlar əmək prosesinə münasibəti ilk növbədə valideynlərinin davranışları vasitəsilə mənimsəyirlər. Ailədə əmək bölgüsünün aydın müəyyən edilməsi uşağın öz rolunu daha aydın dərk etməsinə şərait yaradır və bu da onun həm şəxsiyyət, həm də sosial davranış olaraq inkişafına müsbət təsir göstərir. Empirik müşahidələr göstərdi ki, uşaqlar yaşlarına uyğun əmək tapşırıqlarını yerinə yetirərkən daha müstəqil qərarlar verə bilir, öz gücünə inam qazanır və problemin həll yollarını daha rahat müəyyən edirlər. Əmək tapşırıqları uşağın psixomotor bacarıqlarının inkişafını dəstəkləyir, yaradıcılıq potensialını artırır və emosional sabitliyini gücləndirir. Uşaqlar iş prosesində ardıcıllığı, diqqətini toplamağı və nəticəyə doğru çalışmağı öyrənir, bu isə gələcəkdə onların akademik və sosial fəaliyyətinə müsbət təsir göstərir.

Tədqiqat həmçinin göstərdi ki, uşağın əmək fəaliyyətinə cəlb edilməsi onun sosial məsuliyyət hissini formalaşdırır və ailə mühitində əməkdaşlıq davranışlarını inkişaf etdirir. Ailədə verilən əmək tapşırıqları uşağın həm özünütəşkil bacarığını, həm də vaxt idarəetməsi bacarığını gücləndirir. Əmək prosesində iştirak edən uşaqlar həyat bacarıqlarını daha erkən formalaşdırır və ətraf mühitə qarşı daha fəal mövqe nümayiş etdirirlər. Belə uşaqların sosial ünsiyyət bacarıqları daha sürətlə inkişaf edir, çünki əmək fəaliyyəti zamanı onlar həm sözlü, həm də qeyri-verbal kommunikasiya üsullarını təcrübədə tətbiq etmək imkanına malik olurlar. Valideynlərlə birgə yerinə yetirilən əmək fəaliyyəti emosional yaxınlığı artırır, ailədaxili münasibətlərdə qarşılıqlı etimad güclənir və uşaqlar özlərini ailənin vacib üzvü kimi hiss edirlər. Əmək tərbiyəsi uşağın səbrini, əzmini, iradə gücünü və davamlılığını formalaşdırır, çünki hər bir tapşırığın görülməsi prosesində müəyyən çətinliklərlə üzləşmək və həmin çətinlikləri aşmaq tələb olunur.

Ailədə əmək tərbiyəsinin davamlı və sistemli olması uşağın şəxsiyyət inkişafının dinamikasına ciddi təsir göstərir. Belə ki, uşaqlar əmək fəaliyyətinə cəlb olunduqca özlərini daha faydalı hiss edir, həyatın mahiyyətini daha dərindən dərk edir və gördükləri işin əhəmiyyətini başa düşürlər. Əmək tərbiyəsi uşağın həm emosional özünütənzimləmə bacarığını artırır, həm də onun analitik düşünmə tərzinin formalaşmasına kömək edir. Bu tədqiqat sübut etdi ki, ailədə əmək tərbiyəsi düzgün təşkil edildikdə uşaq tənbəllikdən uzaq olur, aktiv həyat mövqeyi nümayiş etdirir və öz davranışını daha şüurlu şəkildə idarə edir. Davamlı əmək fəaliyyəti uşağın motivasiya səviyyəsini sabit saxlayır, onun məqsədyönlülük və əzm kimi keyfiyyətlərini inkişaf etdirir və gələcək təhsil prosesinə müsbət təsir göstərir. Uşaqlar tapşırıqları yerinə yetirdikcə öz bacarıqlarını qiymətləndirməyi, zəif və güclü tərəflərini müəyyən etməyi və nəticəyə görə məsuliyyət daşımağı öyrənirlər.

Nəticələr ümumiləşdirilmiş şəkildə göstərir ki, ailədə əmək tərbiyəsi uşağın sosial, intellektual, emosional və mənəvi inkişafını təmin edən kompleks və çoxşaxəli prosesdir. Bu proses uşağın gələcək həyatında mühüm rol oynayır, çünki əmək vərdişləri yalnız ailə daxilində deyil, həm də məktəbdə və cəmiyyətdə onun davranış modelinə təsir göstərir. Əmək tərbiyəsinin sistemli təşkili uşağı daha müstəqil edir, onu sosial rollara hazırlayır və real həyat situasiyaları ilə daha rahat baş etməsinə şərait yaradır. Tədqiqatın yekun nəticəsi belədir ki, ailə və məktəbin əməkdaşlığının gücləndirilməsi, valideynlərin əmək tərbiyəsi ilə bağlı metodik maarifləndirilməsi və uşaqlar üçün yaşa uyğun əmək proqramlarının hazırlanması zəruridir. Bu tədbirlər həyata keçirildikdə ailədə əmək

tərbiyəsi daha məqsədyönlü və elmi əsaslandırılmış şəkildə təşkil oluna bilər və nəticədə uşaqların hərtərəfli inkişafı təmin edilmiş olar.

Ailədə əmək tərbiyəsinin inkişafetdirici funksiyaları tədqiqat prosesində daha dərindən araşdırıldıqda məlum oldu ki, uşaqlar əmək tapşırıqlarını yerinə yetirməklə yalnız praktik vərdişlər deyil, həm də yüksək səviyyəli sosial emosional bacarıqlar qazanırlar. Uşaq əmək fəaliyyətinə cəlb edildikdə onda qarşıya qoyulan məqsədə yönəlmək, nəticəni gözləmək və əldə edilən nəticəni dəyərləndirmək kimi mühüm davranış komponentləri formalaşır. Bu xüsusiyyətlər uşağın gələcəkdə həm təhsildə, həm şəxsi həyatında, həm də peşə fəaliyyətində uğur qazanması üçün əsas baza yaradır. Tədqiqat zamanı müşahidə edildi ki, əmək tərbiyəsi uşağın özünəinamını artırır, çünki o, gördüyü işin ailə üçün dəyər yaratdığını dərk edir və bu, onun mənlik şüurunu möhkəmləndirir. Uşaqların əmək prosesində iştirakı eyni zamanda onların iradi keyfiyyətlərinin inkişafına, çətinliklər qarşısında geri çəkilməməsinə, mübarizə aparmaq bacarığının güclənməsinə səbəb olur ki, bu da gələcəkdə həyat situasiyalarında daha dayanıqlı davranış nümayiş etdirmələrinə gətirib çıxarır.

Tədqiqat göstərdi ki, əmək fəaliyyəti uşağın emosional sabitliyinə də təsir edir. Uşaqlar müəyyən bir tapşırığı yerinə yetirdikdən sonra daxili məmnunluq, özünə dəyər hissi və psixoloji rahatlıq yaşayırlar. Bu isə onların emosional özünütənzimləmə mexanizmlərinin güclənməsinə şərait yaradır. Ailədə əmək tərbiyəsi sosial münasibətlərin möhkəmlənməsinə də xidmət edir, çünki uşaqlar əmək fəaliyyəti zamanı ailə üzvləri ilə ünsiyyətdə olur, fikir mübadiləsi aparır, əməkdaşlıq edir və qarşılıqlı anlaşma mədəniyyətini mənimsəyirlər. Əmək prosesində yaranan situasiyalar uşaqlara düzgün qərar verməyi, münaqişələri sülh yolu ilə həll etməyi və mehribanlıq nümayiş etdirməyi öyrədir. Bu isə ailədaxili münasibətlərin harmoniyasını təmin edir və uşağın sosial adaptasiyasına müsbət təsir göstərir.

Tədqiqat nəticələri həmçinin göstərdi ki, ailə mühitində əmək tərbiyəsi nə qədər ardıcıl və məqsədyönlü təşkil olunarsa, uşağın məktəb mühitinə adaptasiyası bir o qədər asan olur. Əmək fəaliyyəti uşaqlara qayda-qanuna riayət etməyi, verilmiş tapşırıqla bağlı məsuliyyət daşımayı və kollektiv daxilində işləməyi öyrətdiyi üçün onlar məktəbin tələblərinə daha rahat uyğunlaşırlar. Bu isə onların akademik motivasiyasına, dərs prosesində fəallığına və ümumi nailiyyət səviyyəsinə müsbət təsir göstərir. Əmək tərbiyəsi uşağın müstəqil qərarvermə bacarığının inkişafına da şərait yaradır və bu, onların həm təhsil, həm də sosial həyatda daha çevik davranış nümayiş etdirməsinə səbəb olur.

Ümumi yekun ondan ibarətdir ki, ailədə əmək tərbiyəsi uşağın hərtərəfli inkişafını təmin edən çoxfunksiyalı prosesdir və bu prosesin elmi əsaslarla təşkili zəruridir. Tədqiqat sübut edir ki, əmək tərbiyəsi uşağın sosiallaşma prosesinin ayrılmaz hissəsidir və düzgün həyata keçirildikdə həm uşağın fərdi inkişafını, həm də ailədaxili münasibətlərin möhkəmlənməsini təmin edir. Buna görə də əmək tərbiyəsinin ailədə sistemli təşkili, valideynlərin bu istiqamətdə maarifləndirilməsi, uşaqlar üçün yaş xüsusiyyətlərinə uyğun əmək proqramlarının hazırlanması və ailə-məktəb əməkdaşlığının gücləndirilməsi tədqiqatın əsas praktik tövsiyələrini təşkil edir. Bu tədbirlər həyata keçirildiyi təqdirdə uşaqlarda əmək mədəniyyəti ardıcıl şəkildə formalaşacaq, onların gələcək həyat keyfiyyəti yüksələcək və cəmiyyətin sosial-iqtisadi inkişafına müsbət töhfə veriləcəkdir.

**Bölmə 6. Pedaqogika- 02**

**Kafedra: Pedaqogika və psixologiya**

**Gülmira Hacıyeva**
*Pedaqogika üzrə fəlsəfə doktoru*
*Baş müəllim*
GulmiraHaciyeva@nmi.edu.az

## Səfərəli bəy Vəlibəyovun pedaqoji düşüncələri və pedaqoji fəaliyyəti

**Tədqiqatın məqsədi:**
- Səfərəli bəy Vəlibəyovun pedaqoji və maarifçilik ideyalarını araşdırmaq;
- Onun fəaliyyətinin Azərbaycan təhsil tarixindəki yerini müəyyənləşdirmək;
- Bu ideyaların müasir təhsil sisteminə təsirini qiymətləndirmək.

**Aktuallığının əsaslandırılması:** Müasir dövrdə milli-mənəvi dəyərlərə əsaslanan təhsil sisteminin inkişafı ön plandadır. Tarixi şəxsiyyətlərin pedaqoji ideyalarının araşdırılması və onların bu günə tətbiqi milli təhsilin keyfiyyətini yüksəltmək baxımından aktualdır. Vəlibəyovun fikirləri bu istiqamətdə zəngin və dəyərli mənbədir.

**Tədqiqatın metodları.** Tədqiqatın metodoloji əsasını pedaqoji fakt, hadisə və prosesləri qeyd olunur. Tədbiq olunan elmi müddəa, metod, prinsip və vasitələrin əsas götürülür. Tədqiqatın metodlarını nəzəri-tarixi təhlil, arxiv sənədlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın orijinallıgı və elmi yeniliyi** ;Tədqiqatda Vəlibəyovun ideyaları ilk dəfə olaraq müasir Azərbaycan təhsili kontekstində sistemli şəkildə təhlil olunur. Onun pedaqoji baxışları yeni nəzəri istiqamətlərdə şərh edilərək, müasir dövrün tələbləri ilə əlaqələndirilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti:**
Tədqiqatın praktik əhəmiyyəti haqqında qeyd edə bilərik ki, görkəmli pedaqoqun fəaliyyəti və pedaqoji ideyaları ölkəmizdə maarifçiliyi inkişaf etdirdi. Bu gündə müasir dövrdə də pedaqoji fikir tariximizin zənginləşməsində və bu sahədə bir sıra problemlərin həll olunması üçün mühüm ideyalardan olmuşdur. Pedaqoji təhsilin məzmununun zənginləşdirilməsində, müəllim hazırlığında və təhsil siyasətinin milli əsaslar üzərində qurulmasında tətbiq oluna bilər. Eyni zamanda maarifçilik tarixinin tədrisində əlavə vəsait kimi istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi:**
"Naxçıvan Müəllimlər İnstitutunun 2022-2026-ci illər illər üçün Strateji İnkişaf Planı", "Naxçıvan Müəllimlər İnstitutunda elmi pedaqoji əməkdaşların elmi fəaliyyətinin qiymətləndirilməsinə dair Əsasnamə" yə əsaslanaraq Naxçıvan Müəllimlər İnstitutu Elmi Şurasının 30 yanvar 2024-cü il tarixli iclasında təsdiq edilmiş "2024-2028-ci illər üçün Elmi-tədqiqat işlərinin Planı"nı ilə institutun elmi fəaliyyətinin əsas elmi problemi - "Pedaqogika və təhsilin tarixi, nəzəriyyəsi və fənlərin tədrisi texnologiyaları" kimi müəyyənləşdirilmişdir.

Tədqiqat işi ilə baglı məqalə Səfərli bəy Vəlibəyovun pedaqoji və maarifçilik ideyalarının müasir Azərbaycan təhsilində əksi. Qədim diyar beynəlxalq elmi jurnalda çap olunub. Bakı -2025.
DOI: https://doi.org/10.36719/2706-6185/49/
Həmçinin KİV -də naxçıvan xəbərləri.com saitdə məqalə çap olunub.

**Tədqiqat işində əldə olunan nəticə:** Səfərəli bəy Vəlibəyovun pedaqoji və maarifçilik fəaliyyəti Azərbaycan təhsil tarixində dərin iz qoymuşdur. Onun irəli sürdüyü ideyalar –milli təhsil, ana dilində tədris, şagirdyönümlü yanaşma və cəmiyyətin təhsillə inkişafı –bu gün də öz aktuallığını saxlayır. Müasir Azərbaycan təhsilində tətbiq olunan kurikulum modeli, pedaqoji innovasiyalar və milli-mənəvi dəyərlərə söykənən təlim yanaş-maları Vəlibəyovun ideyalarının davamıdır. O, yalnız

pedaqoq və publisist deyil, həm də maarifçi strateq kimi çıxış etmişdir. Onun fikirləri və fəaliyyəti bu günün təhsil ictimaiyyəti üçün nümunə və ilham mənbəyidir. Vəlibəyovun irsi müasir təhsil strategiyalarının ideoloji təməlində durmaqla yanaşı, gələcək nəsillərin formalaşmasında da mühüm rol oynayır.

**Təkliflər:**

- Onun əsərlərinin təkrar nəşri və tədrisdə istifadəsi təşviq olunmalıdır.
- Maarifçilik irsi ali təhsil müəssisələrində dərs vəsaiti kimi istifadə edilə bilər.
- Vəlibəyov irsi üzrə tematik elmi simpoziumlar təşkil olunmalıdır.

**Bölmə 6. Pedaqogika- 02**

**Kafedra: Pedaqogika və psixologiya**

**Qızıltac Şahbazova**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*GiziltajShahbazova@nmi.edu.az*

## Kiçik məktəbyaşlı şagirdlərin mənəvi tərbiyəsində ailənin rolu

***Tədqiqatın məqsədi*** Bu tədqiqatın məqsədi valideynlərin mədəni və intellektual mənşələrinin onların təsirinə və nümunə olduqları şəxslərin keyfiyyətinə müsbət təsir göstərdiyini nümayiş etdirməkdir. Valideynlərin ictimai xidmətlərdə fəal iştirakı onların təsirini və nümunə kimi rolunu açıq şəkildə nümayiş etdirir. İcma xidmətlərində fəal iştirak etməklə valideynlər uşaqlarına öyrənməyə qarşı proaktiv münasibət aşılayırlar. Beləliklə, valideynlər ictimai xidmətlərdə mükafat üçün deyil, öz istəkləri ilə iştirak edirlər. Tədqiqat nəticəsində belə bir nəticəyə gəlinir ki, məhsuldar fəaliyyətlərdə, ictimai xidmətlərdə fəal iştirak edən və mədəni mənşələrini yaxşılaşdırmağa çalışan valideynlər yalnız uşaqları üçün müsbət nümunə olmur və ya onların təsirini artırır, həm də uşaqlarda məsuliyyət, vəzifə və digər müsbət keyfiyyətlər hissini inkişaf etdirirlər.

***Aktuallığının əsaslandırılması*** Nəticələr: Mühüm inkişaf məqsədlərinə çatmaq üçün uşaqlara təsir göstərmək və ailənin və məktəbin təhsil təsirlərini inteqrasiya etmək üçün müxtəlif təhsil metodlarından səmərəli istifadə etmək vacibdir. Buna görə də, xüsusilə valideynlərin təsirinə və onların rol modelinə vurğu etməklə, ailə tərbiyəsinin nəzəri əsaslarını təkmilləşdirmək vacibdir. Valideynlərin təsiri altında və rol oyunları vasitəsilə uşaqlar tədricən mənəvi dəyərlər və vərdişlər, iş bacarıqları, insan hüquqları və sosial məsuliyyət anlayışı və həyatda məqsəd hissi inkişaf etdirirlər.

Fərdin mənəvi təməli ailə üzərində qurulur, ona görə də valideynlərin öz nümunələrinin uşaqlarına təsirini anlamaları vacibdir. Bir çox valideynlər nümunə olur və uşaqlarına yaxşı keyfiyyətlər aşılayırlar. Onların bir-birlərinə və övladlarına qarşı mehribanlığı, gündəlik davranışları, dürüstlüyü və sədaqəti - bütün bunlar uşaqlar üçün parlaq nümunələrdir. Valideynlərin göstərdiyi müsbət nümunə uşağın həyatının hər bir aspektinə təsir göstərir. Bu təsir nümunənin gücündən irəli gəlir və bu, konkret təlimatlardan daha da kənara çıxır.

***Tədqiqatın metod və üsulları:*** Tədqiqatta bir sıra tədiqat metodlarından istifade edilmişdir: nəzeri təhlill, müqayisə, müşahdə, anket, pedaqoji ekspeiment.

***Tədqiqatın orjinallığı və elmi yeniliyi:*** Bu tədqiqat ibtidai təhsildə nəzəri məsələləri nümunə tədqiqatları vasitəsilə yeniləməyə, müəllimlər üçün yeni tədris metodları hazırlamağa və bu nümunələri əxlaqi tərbiyəyə inteqrasiya etməyə kömək edəcək. Onun praktik əhəmiyyəti humanist tərbiyə prinsiplərinə əsaslanan təhsil proseslərini təşkil etmək və əxlaqi tərbiyənin tədris planına daxil edilməsi bacarığındadır.

***Tədqiqat işində əldə olunan nəticələri ümumiləşdirərək aşağıdakı şəkildə ifadə edə bilərik:***

Tədqiqat nəticəsində müəyyən edilib ki, müsbət valideyn nümunələri, ortaq təhsil fəlsəfəsi, yüksək səviyyəli şəxsi mədəniyyət (xüsusilə təhsil sahəsində) və işdə və sosial həyatda fəal iştirak uşaqların tərbiyəsinə və ailə dəyərlərinin möhkəmlənməsinə töhfə verir.

Birgə yaşamaq Azərbaycan ailələrinin tipik xüsusiyyətidir. Lakin təəssüf ki, bəzi ailələrdə hər iki valideynin uşaqlarına təsiri azdır. Bu, alkoqolizm, ailə münaqişələri, partnyor və uşaq istismarı və nikahdankənar münasibətlər kimi amillərlə bağlı ola bilər. Xoşbəxtlikdən, bu cür hallar Azərbaycan ailələrində nadir hallarda olur. Lakin bu cür hadisələr baş verdikdə ictimaiyyətin diqqətini cəlb edir, ona görə də oxşar hadisələrin qarşısını almaq üçün bütün valideynlər əsas səbəbləri aradan qaldırmağa çalışmalıdırlar.

## Bölmə 6. Pedaqogika- 02

## Kafedra: Pedaqogika və psixologiya

**Nəzakət Yusifova**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*NezaketYusifova@nmi.edu.az*

# Şəxsiyyətin öyrənilməsi pedaqogikanın aktual problemi kimi

**Tədqiqatın məqsədi:** Araşdırmada başlıca məqsəd dünya mütəfəkkirlərinin irəli sürdüyü fikirləri fonunda şəxsiyyətin formalaşmasına təsir edən amillərin, insan şəxsiyyətinin inkişafına təsir edən milli-mənəvi ideyaların üzə çıxarılması və təhlilidir. Eyni zamanda bu məsələ aşağıdakı vəzifələrin yerinə yetirilməsini zəruriləşdirmişdir:

- Şəxsiyyətin formalaşmasına hansı amillərin daha çox təsir göstərməsi;
- Dünyanın, o cümlədən Azərbaycanın ən görkəmli alim və mütəfəkkirlərinin şəxsiyyətin hərtərəfli inkişafına dair fikirlərinin araşdırıb təhlil edilməsi;

**Tədqiqatın aktuallığı:** Müstəqil Azərbaycan dövlətinin dünya cəmiyyətinə uğurla inteqrasiya olunması şəraitində bacarıqlı, öz işi və əməli ilə xalqımızın ulu adət-ənənələrini yaşada bilən, dünənimizə hörmətlə yanaşıb sabahımızın xoşbəxtliyi naminə qəlbən çalışan hərtərəfli inkişaf etmiş yetkin şəxsiyyətlərin formalaşması zərurətini irəli sürür.

Xüsusən son yarıməsrdə məqsədyönlü şəkildə dünya imperializminin qəsdən qızışdırdıqları region üzrə qonşu olan xalqların yanlış olaraq tərəqqi və dirçəliş yolu kimi ifrat millətçilik ideologiyasını seçmiş ictimai-siyasi cərəyanlar iradəsiz psevdo-elmi dairələri mənfi təsirləri altına alaraq qədim Azərbaycan xalqının bir çox həm maddi, həm də ruhi mədəniyyətə aid abidələrini mənimsəmək istiqamətində ciddi cəhd göstərirlər. Belə bir şəraitdə milli mədəni-mənəvi irsimizin keşiyində dayanıb dövlətçiliyimizi, elmimizi, təkrarsız mədəniyyətimizi müvafiq təcavüzlərdən qoruyan şəxsiyyətlərin yetişməsi vacib və zəruridir. Deməli bu gün gənc nəsildə müqəddəs Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizəyə qaldırılması, doğma torpağa və xalqa məhəbbət, milli adət-ənənələrə hörmət, vətənpərvərlik, qorxmazlıq, cəsarət, hünər, qəhrəmanlıq, düşmənə nifrət hiss və duyğuların aşılanması priotitet məsələlərdəndir. Bu yetkin şəxsiyyətin formalaşması amilini bir daha ön plana qoyur.

Qeyd edək ki, insanın şəxsiyyət kimi kamilləşməsində, mənəvi-estetik ideallarının formalaşmasında, bədii zövqünün tərbiyyə edilməsində tükənməz söz sənətinin – bədii ədəbiyyatın rolu və əhəmiyyəti misilsizdir. Azərbaycan mütəfəkkiri və filosofu Hüseyn Cavid yaradıcılığında öz əksini tapmış şəxsiyyət probleminin müqayisəli təhlili təbii olaraq dünya, o cümlədən Azərbaycan pedaqoji fikir tarixində insan şəxsiyyətinin öyrənilməsi ilə bağlı aparılan tədqiqatlar fonunda aparılması təbiidir. Belə ki, qədim zamanlardan bəri dünyanın ən görkəmli mütəfəkkirləri ilə yanaşı olaraq Azərbaycan ədəbiyyatı klassikləri də şəxsiyyət haqqında qiymətli fikir və mülahizələr söyləmişlər. İdeya və mənəvi-estetik tərbiyyənin əsas vəzifəsi insanlarda əmək fəallağı, mənəvi zənginlik, əxlaqi yetkinlik, emosional həssaslıq, fiziki kamillik kimi keyfiyyətləri aşılamaqdan ibarətdir. Minilliklərin ağır sınaqlarından üzüağ çıxmış zəngin Azərbaycan ədəbiyyatı dövrün həyati reallaqlarını əks etdirməklə yanaşı, milli dövlətçilik ənənələrinin təşəkkülündə və inkişafında fəal iştirak edən həqiqi vətənpərvəri də yetişdirmək iqtidarına malikdir.

**Tədqiqatın metod və üsulları**: Adından bəlli olduğu kimi tədqiqat işinin mövzusu kompleks xarakter daşıyır və bir çox elmlərin tədqiqat obyektinə çevrilmişdir. Konkret olaraq pedaqoqika ilə yanaşı psixologiya, filosofiya, ədəbiyyatşünaslıq elmi mənbələr burada öz əksini tapıb. Şəxsiyyətin

inkişafı və formalaşması mövzusunda yerli və xarici tədqiqatçıların monoqrafiya və məqalələrindən geniş istifadə edilmişdir.

Elmi-tədqiqat işində mövzunun nəzəri həlli üçün tarixi, tarixi-müqayisəli və analitik metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi .** Elmi-tədqiqat işində:

- Şəxsiyyətin formalaşmasına təsir göstərən xüsusiyyətlər, fikirlər, ideyalar pedaqoji elm baxımından ilk dəfə təhlil edilib araşdırılmışdır;
- Mövzunu müfəssəl aydınlaşdırılması üçün dünya və Azərbaycan mütəfəkkirlərinin irəli sürdüyü fikirlər və tövsiyələr ilk dəfə olaraq toplu halında araşdırılıb sistemləşdirilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti**. Hesab edirəm ki, tədqiqat işinin nəticələrinin onun digər bu tipli işlərin yazılmasında (digər Azərbaycan dramaturqlarının şəxsiyyətin öyrənilməsi baxımından əsərlərinin tədqiqində) mənbə rolunu oynaya bilər. Həmçinin nəticələri, təlim-tərbiyə prosesinin daha effektiv qurulmasına müəllimlərin pedaqoji fəaliyyətində şəxsiyyətə yönəlmiş yanaşmaların tətbiqinə, təlim-tərbiyə prosesinin daha səmərəli təşkilində səmərə verə bilər.

**Tədqiqatın Nəticələri:**

1. Bədii ədəbiyyat şəxsiyyətin bədii-estetik tərbiyyəsinin mühüm amilidir.
2. Şəxsiyyətin tərbiyəsi və inkişafı əsas istiqamət kimi müasir pedaqogikada təsbit edilmişdir..
3. Tədqiqat nəticəsində şəxsiyyətin inkişafını dəstəkləyən pedaqoji metod və üsullar müəyyən olunmuşdur.
4. Məna və hikmət axtarışında əvəzsiz və qəti vasitə olan məntiq şəxsiyyətin formalaşmasında da əsas istinad nöqtəsinə çevrilmişdir.

**Təklif və tövsiyələr :** Şəxsiyyətin formalaşması yönümündə tərbiyə nəzəriyyəsi ilə məşğul olan mütəxəssislər məhz dünya mütəfəkkirlərinin ibrətamiz fikirləri əhatə edən mövzuları tədris etsinlər. Sistemli şəkildə tədqiq edilmiş müxtəlif dram əsərləri araşdırılaraq, onlarda müəllif tərəfindən mətnaltı mənalarda gizlədilmiş olan potensial şəxsiyyət problemləri aydınlaşdırılmalı, zəruri faktlar qeydə alınmalıdır.

Hazırlanmış tövsiyələr həmçinin müəllimlərin peşəkar inkişaf proqramlarında tətbiq oluna bilər və praktik pedaqoji fəaliyyət üçün real dəstək mexanizmi kimi çıxış edir. Bu səbəbdən tədqiqatın nəticələri təhsil müəssisələri, təlim mərkəzləri və müəllim hazırlığı ilə məşğul olan qurumlar üçün əhəmiyyətli nəzəri və praktik dəyər kəsb edir.

## Bölmə 6. Pedaqogika- 02

## Kafedra: Pedaqogika və psixologiya

**Şəhla Süleymanova**
*Pedaqogika üzrə fəlsəfə doktoru*
*Baş müəllim*
*ShahlaSuleymanova@nmi.edu.az*

# İbtidai sinifdə "Azərbaycan dili" və "Texnologiya" fənninin tədrisi prosesində istedadlı uşaqların aşakara çıxarılması metodikası

***Tədqiqatın məqsədi:*** "Azərbaycan dili" və "Texnologiya" fənnlərinin tədrisi prosesində düzgün metodikaların seçilməsi, didaktik oyunlardan istifadə, fəal təlim metodlarının mövzulara uyğun olaraq müəyyənləşdirilərək bədii istedadın aşkara çıxarılması tədqiqatın əsas məqsədidir.

***Aktuallığın əsaslandırılması:*** istedadlı uşaqların xüsusilə bədii istedadın vaxtında aşkarlanması və bu istiqamətdə müəyyən işlərin görülməsi müasir dövrdə təhsilin əsas məqsədlərindən biridir. Bilirik ki, ibtidai təhsil pilləsi şagirdin şəxsiyyət kimi formalaşmasının əsasını qoyur. Bu baxımdan tədris prosesində bədii istedadlı şagirdlərin potensialının erkən yaşlardan inkişaf etdirilməsi xüsusilə ibtidai sinif mühitində daha əlverişlidir. İbtidai siniflərdə tədris olunan fənnlərin rolu danılmazdır. Bu fənnlərin tədrisi zamanı müəllimlərin düzgün mövqeyi gələcəyin istedadının inkişafı deməkdir.

Xüsusilə "Azərbayan dili" və "Texnologiya" fənləri şagirdlərin məntiqi təfəkkür tərzinin və innovativ yanaşma bacarıqlarının formalaşması və inkişafında mühüm əhəmiyyətə malikdir. "Azərbaycan dili" fənni vasitəsilə ibtidai sinif şagirdlərinin dil bacarıqları, bədii – estetik düşünə tərzi və ünsiyyət bacarıqları inkişaf etdirilir. Bu, şagirdlərin təsəvvür və ifadəetmə imkanlarının, nitq mədəniyyətinin inkişafı üçün geniş imkanlar deməkdir. Həmçinin "Texnologiya" fənni şagirdlərn yaradıcı təfəkkürünü inkişaf etdirir, əyani – təcrübi fəaliyyətə təşviq edir, praktik biliklərə əsaslanan qabiliyyətlərini üzə çıxarır.

Bədii istedadlı şagirdlərin aşkarlanması üçün indiki dövrdə sistemli metodika və yanaşmaların tətbiqinə ehtiyac vardır. Bunun üçün "Azərbayan dili" və "Texnologiya" fənlərinin inteqrasiyalı tədrisi zamanı differensiallaşdırılmış tapşırıqlar, yaradıcı fəaliyyətlər və diaqnostik qiymətləndirmə kimi vasitələrin düzgün seçilməsi vacibdir. Problemli təlim mühitinin yaradılması oyun texnologiyalarından istifadə həm şagirdləri düşünməyə, həm də əylənərək bacarıqlarını ortaya qoymalarına şərait yaradır.

Tədqiqat işinin aktuallığı onu da göstərir ki, ölkəmizdə təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan islahatlarda məktəblərdə bədii istedadın inkişafı əsas məsələlərdəndir. Bunun üçün fənnlərin tədrisi prosesi effektiv yolların tətbiqi ilə zənginləşdirilməlidir.

***Tədqiqatın metod və üsulları:*** tədqiqat aparılarkən elmi – pedaqoji ədəbiyyatların təhlili aparılmış, nəzəri təhlil, pedaqoji müsahibə metodlarından istifadə edilmiş, pedaqoji proses müşahidə edilmiş, təhsil sənədləri öyrənilmişdir. Tədqiqatın metodoloji əsasını müşahidə faktları, tədqiqat işinə aid dövlət sənədləri, təlim – tərbiyəyə aid metodik göstərişlər, konseptual baxışlar sistemi təşkil edir.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** aparılan tədqiqat işində ibtidai siniflərin təlim – tərbiyə işində şagirdlərin bədii istedadının inkişafı və formalaşmasına xidmət edən istiqamət göstərilmişdir. "Azərbayan dili" və "Texnologiya" fənlərinin tədrisində bədii istedadın aşkara çıxarılması sistemli şəkildə araşdırılmışdır.

***Tədqiqatın praktik əhəmiyyəti:*** tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, bədii istedadlı şagirdlərin inkişafı prosesini sistemli şəkildə göstərir, müəllimlərin bu istiqamətdə peşəkarlığına töhvə verir, təhsil və tərbiyə prosesini səmərəli edir. Bu baxımdan ibtidai sinif müəllimləri tədqiqat işindən bəhrələnə bilərlər.

Elmi – tədqiqat işinin aprobasiyası Türkiyədə ERIH PLUS indeksli "Akademik tarih ve düşünce dergisi"nin xüsusi buraxılışında çap edilmişdir.

**Tədqiqat işində əldə olunan nəticələri aşağıdakı kimi ümumiləşdirməklə ifadə etmək olar.**

1. "Azərbaycan dili" fənni vasitəsilə ibtidai sinif şagirdlərinin məntiqi düşüncəsi, yaradıcı qabiliyyətləri, bacarıqları müşahidə edilir, onların humanitar sahədə istedadlılığının müəyyənləşdirilməsində əsas vasitə kimi rol oynayır;
2. "Azərbaycan dili" fənninin tədrisi zamanı didaktik oyunların təşkili şagirdlərin fəaliyyətini aktivləşdirmək və inkişaf etdirmək, onların bədii istedadının aşkara çıxarılmasında əhəmiyyətli rol oynayır. Şagirdin yaradıcı potensialının həyata keçirilməsi məqsədilə praktik həllərin müəyyən edilməsi, tətbiqi məsələləri oyun texnologiyaları vasitəsilə mümkündür;
3. "Texnologiya" fənninin tədrisi tətbiqi və yaradıcı fəaliyyət növləri – rəsmlər, maketlər, konstruksiyalar üzərində iş – şagirdlərin məkan təsəvvürü, motor bacarıqları və texniki yaradıcılıq qabiliyyətlərini aşkara çıxarmağa imkan verir;
4. "Texnologiya" fənni təsviri təxəyyül, estetik ifadə qabiliyyətlərinin inkişafı üçün əlverişli şərait yaradır;
5. Bu fənnlərin tədrisi zamanı yaradıcı tapşırıqların verilməsi, layihə əsaslı təlim metodlarından istifadə, yaradıcı təlim metodlarının tətbiqi bədii istedadı olan şagirdlərin daha tez fərqlənməsinə zəmin yaradır. Bu istiqamətdə müəllimin fərdi yanaşması, yaş xüsusiyyətlərini nəzərə alması, valideynlərlə daimi əlaqəsi mühüm əhəmiyyətə malikdir.

## Bölmə 6. Pedaqogika- 02

## Kafedra: Pedaqogika və psixologiya

**Tamara Baxşəliyeva**
*Baş müəllim*
*TamaraBakhshaliyeva@nmi.edu.az*

# Məktəbdaxili qiymətləndirmənin reallaşdırılması zamanı qarşıya çıxan problemlər

***Tədqiqatın məqsədi:*** Tədqiqatın əsas məqsədi məktəbdaxili qiymətləndirmə sisteminin mövcud vəziyyətini təhlil etmək, onun əsas istiqamətlərini müəyyənləşdirmək və praktikada yaranan problemlərin mahiyyətini üzə çıxarmaqdır. Araşdırmanın məqsədi həmçinin qiymətləndirmə prosesinin səmərəliliyinə təsir edən amilləri müəyyən etmək, məktəbdaxili monitorinq və diaqnostikanın real tətbiq mexanizmlərini araşdırmaq və bu sahənin təkmilləşdirilməsi üçün elmi əsaslandırılmış təkliflər irəli sürməkdən ibarətdir.

Tədqiqat məktəbdaxili qiymətləndirmənin təlim nəticələrinin obyektivliyinə, şagirdlərin inkişaf dinamikasına və müəllim fəaliyyətinin keyfiyyət göstəricilərinə təsirini müəyyənləşdirməyi də hədəfləyir. Bu məqsədlə qiymətləndirmə prosesində rast gəlinən çətinliklərin səbəbləri araşdırılır, onların aradan qaldırılması üçün praktik və tətbiq oluna bilən istiqamətlər təklif olunur.

***Aktuallığının əsaslandırılması:*** Məktəbdaxili qiymətləndirmə hər bir təhsil müəssisəsinin fəaliyyətinin ayrılmaz hissəsi olmaqla, təlim prosesinin keyfiyyətinə birbaşa təsir göstərən əsas mexanizmlərdən biridir. Müasir dövrdə təhsil nəticələrinin şəffaf və obyektiv şəkildə ölçülməsi, şagirdlərin inkişaf dinamikasının izlənməsi, müəllimlərin peşəkar fəaliyyətinin qiymətləndirilməsi və məktəbin idarəetməsində verilən qərarların elmi əsaslara söykənməsi təhsil sisteminin qarşısında duran ən vacib tələblərdəndir. Bu baxımdan, məktəbdaxili qiymətləndirmənin mahiyyəti, vəzifələri və problemləri ilə bağlı aparılan tədqiqatların aktuallığı xüsusi əhəmiyyət kəsb edir.

Son illər təhsil islahatları qiymətləndirmənin yalnız nəticəyə deyil, prosesə yönəlik olmasını, şagirdin fərdi inkişafını, kompetensiyaların formalaşmasını və müəllimin peşəkar dəstək funksiyasını ön plana çıxarmışdır. Lakin məktəblərdə bu prinsiplərin real tətbiqi zamanı obyektivlik, vahid meyarların olmaması, müəllimlərin metodik hazırlığının kifayət etməməsi, qiymətləndirmənin formal xarakter alması kimi problemlər ortaya çıxır. Bu problemlər şagird motivasiyasının azalmasına, müəllim fəaliyyətinin təhrif olunmuş qiymətləndirilməsinə və məktəbin inkişaf strategiyasının düzgün qurulmamasına səbəb olur.

Digər tərəfdən, rəqəmsal texnologiyaların təhsilə sürətlə inteqrasiyası məktəbdaxili qiymətləndirmənin yeni alətlərə — elektron jurnallara, onlayn monitorinq sistemlərinə, rəqəmsal testlərə və analitik platformalara uyğunlaşdırılmasını tələb edir. Bu isə həm metodoloji, həm də təşkilati baxımdan yeni problemləri gündəmə gətirir.

Bütün bu amillər məktəbdaxili qiymətləndirmənin multidissiplinar yanaşma ilə araşdırılmasını, effektiv və praktik təkliflərin hazırlanmasını və mövcud problemlərin elmi əsaslarla təhlil edilməsini zəruri edir. Məhz buna görə də mövzu bu gün üçün olduqca aktualdır və təhsil müəssisələrində idarəetmə, müəllim fəaliyyəti və şagird nailiyyətləri ilə bağlı qərarların daha səmərəli verilməsinə ciddi töhfə verə bilər.

***Tədqiqatın metod və üsulları:*** **Elmi–nəzəri təhlil metodu.** Məktəbdaxili qiymətləndirmə ilə bağlı yerli və xarici ədəbiyyat, normativ sənədlər, metodik göstərişlər və müasir təhsil standartları sistemli şəkildə təhlil edilmiş, mövcud nəzəri yanaşmalar müqayisə edilərək vahid konseptual çərçivə formalaşdırılmışdır. Fərqli ölkələrin qiymətləndirmə modelləri müqayisə edilərək, Azərbaycan təhsil

sistemi üçün uyğun xüsusiyyətlər və fərqlər müəyyənləşdirilmişdir. Bu metod məktəbdaxili qiymətləndirmənin beynəlxalq yanaşmalar kontekstində qiymətləndirilməsinə şərait yaratmışdır. **Müşahidə metodu** Məktəblərdə qiymətləndirmə prosesinin gedişi modelləşdirilərək təhlil edilmiş, müəllim–şagird münasibətlərinin qiymətləndirməyə təsir edən aspektləri nəzəri müşahidə əsasında müəyyənləşdirilmişdir. Real müşahidə deyil, situasiyaların elmi simulyasiyası nəzərdə tutulmuşdur. **Sosioloji-analitik yanaşma.** Müəllimlərin qiymətləndirmə prosesinə münasibəti, qarşılaşdıqları çətinliklər və ehtiyacları haqqında mövcud tədqiqat materialları və sorğu nəticələri təhlil olunaraq ümumiləşdirilmişdir. **Sistemli yanaşma və modelləşdirmə**. Məktəbdaxili qiymətləndirmənin strukturu, funksiyaları və problemləri sistemli şəkildə müəyyənləşdirilmiş, qiymətləndirmənin təkmilləşdirilməsi üçün konseptual model hazırlanmışdır. Toplanmış məlumatlar təhlil edilərək ümumiləşdirilmiş, məktəbdaxili qiymətləndirmənin inkişafına dair elmi nəticələr və praktik təkliflər sintez olunmuşdur.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Bu tədqiqatın orijinallığı ondan ibarətdir ki, məktəbdaxili qiymətləndirməyə yalnız "nəticələrin ölçülməsi" kimi deyil, həm də məktəbin idarəetmə mədəniyyətinin, müəllim–şagird qarşılıqlı münasibətlərinin və təlim prosesinin keyfiyyətini müəyyən edən çoxşaxəli pedaqoji sistem kimi yanaşılır. Tədqiqatda qiymətləndirmənin istiqamətləri, onun real tətbiqi zamanı yaranan çətinliklər və bu çətinliklərin səbəbləri kompleks şəkildə təhlil olunur və mövcud problemlərin aradan qaldırılması üçün praktik, məktəb mühitinə uyğunlaşdırılmış model təklif edilir.

Elmi yenilik aşağıdakı məqamlarla xarakterizə olunur:

Qiymətləndirmənin nəinki şagird nailiyyətlərini müəyyən etməsi, həm də müəllim fəaliyyətinin inkişafına, məktəbin idarəetmə qərarlarına və təlim mühitinin keyfiyyətinə birbaşa təsir göstərən strateji alət kimi qiymətləndirilməsi elmi yenilik təşkil edir.

**Qiymətləndirmə problemlərinin təkcə pedaqoji deyil, psixoloji və təşkilati aspektlərdən araşdırılması.** Mövcud ədəbiyyatda problemlər əsasən metodika prizmasından izah olunsa da, bu tədqiqatda müəllim motivasiyası, şagirdin emosional münasibəti, məktəbin daxili kommunikasiya sistemi kimi amillərin qiymətləndirməyə təsiri ilk dəfə vahid model çərçivəsində təsvir edilir.

**Məktəblər üçün praktik tətbiq oluna biləcək qiymətləndirmə çərçivəsinin hazırlanması.** Tədqiqat məktəblərdə qiymətləndirmənin daha obyektiv, şəffaf və sistemli təşkilinə imkan verən yeni yanaşmanı – "məktəbdaxili formativ-monitorinq sistemini" – irəli sürür. Elektron jurnallar, rəqəmsal analitik platformalar və onlayn testlərlə bağlı mövcud təcrübə analiz edilərək onların məktəbdaxili qiymətləndirmə sisteminə adaptasiyası üçün yenilənmiş konseptual çərçivə təqdim olunur.

**Azərbaycan məktəblərinin real təcrübəsinə əsaslanan spesifik yanaşmalar.** mövcud problemlər beynəlxalq modellərlə müqayisə edilərək, ölkəmizin təhsil mühitinə uyğunlaşdırılmış elmi-pedaqoji tövsiyələr hazırlanmışdır.

Tədqiqatda qiymətləndirmə mexanizmlərinə kompleks yanaşma təqdim edilir, formativ və summativ qiymətləndirmə aspektlərinin birlikdə təhlili aparılır, milli və beynəlxalq təcrübələr sintez edilərək effektiv yanaşmalar üzrə yeni təkliflər irəli sürülür. Qiymətləndirmənin şagird inkişafına təsiri araşdırılır, müasir texnologiyaların (rəqəmsal alətlər və onlayn platformalar) rolu qiymətləndirilir və ənənəvi metodlarla müqayisəsi aparılır. Eyni zamanda, ümumtəhsil məktəbləri üçün qiymətləndirmə sisteminin səmərəliliyini artırmaq məqsədilə nəzəri və praktik tövsiyələr hazırlanır, qiymətləndirmə mexanizmlərinin təhsildə effektivliyini ölçmək üçün kombinə edilmiş metodologiya (nəzəri təhlil, müşahidə, sorğu və statistik analiz) tətbiq edilir.

***Tədqiqatın məqsədi:*** Bu tədqiqatın əsas məqsədi məktəbdaxili qiymətləndirmə sisteminin mövcud vəziyyətini, onun əsas istiqamətlərini və tətbiq prosesində meydana çıxan problemləri elmi-

pedaqoji baxımdan təhlil etmək, bu problemlərin yaranma səbəblərini müəyyənləşdirmək və məktəblərdə qiymətləndirmənin daha səmərəli, obyektiv və inkişafyönlü şəkildə təşkil olunması üçün praktik təkliflər hazırlamaqdır.

Tədqiqat həmçinin müəllimlərin qiymətləndirmə bacarıqlarının gücləndirilməsi, şagirdlərin fərdi inkişaf dinamikasının daha dəqiq izlənməsi və məktəbin idarəetmə prosesində qiymətləndirmə məlumatlarından effektiv istifadə olunmasını təmin edən modelin işlənib hazırlanmasını hədəfləyir.

***Tədqiqatın praktiki əhəmiyyəti:*** Bu tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, məktəbdaxili qiymətləndirmə prosesində rast gəlinən real çətinliklər və onların həlli yolları sistemli şəkildə müəyyənləşdirilmiş, məktəblərin gündəlik fəaliyyətində birbaşa istifadə oluna biləcək təkliflər hazırlanmışdır. Tədqiqat nəticələri həm müəllimlərin, həm məktəb rəhbərlərinin, həm də metodik xidmət orqanlarının işini optimallaşdırmağa xidmət edir.

**Tətbiq sahələri aşağıdakı kimidir:** Bu tədqiqat məktəblərdə qiymətləndirmə meyarlarının düzgün tətbiqi, şagird nailiyyətlərinin obyektiv müəyyən edilməsi və formativ qiymətləndirmənin daha səmərəli təşkili üçün praktik metodik tövsiyələr təqdim edir. Məktəb rəhbərliyi bu nəticələrdən istifadə etməklə qiymətləndirmə siyasətini yenidən qurmaq imkanı əldə edir.

Tədqiqat müəllimlərin qiymətləndirmə bacarıqlarının gücləndirilməsi üçün xüsusi təlim modullarının hazırlanmasına baza yaradır. Bu nəticələr müəllimlərin metodik hazırlığının artırılması, fərdi inkişaf planlarının tərtibində də tətbiq oluna bilər.

Məktəbdaxili qiymətləndirmə ilə bağlı əldə edilmiş məlumatlar rayon və respublika səviyyəsində monitorinq mexanizmlərinin təkmilləşdirilməsinə, obyektiv hesabatlıq sisteminin yaradılmasına və təhsil siyasətinin daha dəqiq qurulmasına yardım edir.

Tədqiqatın nəticələri dərslik, metodik vəsait və qiymətləndirmə bələdçilərinin hazırlanmasında elmi əsas kimi tətbiq oluna bilər.

Ümumilikdə, tədqiqatın praktiki əhəmiyyəti məktəbdaxili qiymətləndirməni daha şəffaf, inkişafyönlü və şagird mərkəzli etmək, həmçinin müəllim fəaliyyətində obyektivlik və peşəkarlığı artırmaq imkanları yaratmasındadır.

***Nəticə:*** Aparılan tədqiqat göstərdi ki, məktəbdaxili qiymətləndirmə tədris prosesinin keyfiyyətinə, müəllim fəaliyyətinin səmərəliliyinə və şagirdlərin inkişaf dinamikasına birbaşa təsir edən mühüm pedaqoji və idarəetmə mexanizmidir. Lakin mövcud vəziyyət təhlil edilərkən məlum olur ki, qiymətləndirmə prosesində vahid yanaşmanın olmaması, meyarların düzgün tətbiq edilməməsi, müəllimlərin metodik hazırlığının qeyri-bərabər səviyyəsi, eləcə də qiymətləndirmənin bir çox hallarda formal xarakter daşıması məktəbin təlim nəticələrinə mənfi təsir göstərir.

Tədqiqat həmçinin aşkar etdi ki, qiymətləndirmənin yalnız nəticələrin ölçülməsi kimi başa düşülməsi artıq müasir tələblərə cavab vermir. Bu gün qiymətləndirmə həm də şagirdin fərdi inkişafına dəstək verməli, müəllimin öz fəaliyyətini təkmilləşdirməsi üçün obyektiv informasiya yaratmalı və məktəbin strateji qərarlarının qəbulunda etibarlı məlumat bazası rolunu oynamalıdır. Rəqəmsal texnologiyaların tətbiqi bu prosesi daha şəffaf və sistemli edə bilsə də, bu sahədə düzgün inteqrasiya və müəllim hazırlığı hələ də kifayət qədər deyil.

Nəticə olaraq, məktəbdaxili qiymətləndirmənin təkmilləşdirilməsi üçün həm metodoloji dəstəyin artırılması, həm müəllimlərin peşəkar inkişafının gücləndirilməsi, həm də qiymətləndirmə prosesinə innovativ yanaşmaların tətbiqi zəruridir. Məktəblərdə formativ, diaqnostik və summativ qiymətləndirmənin harmonik şəkildə tətbiqi, qiymətləndirmə meyarlarının dəqiq və şəffaf olması və şagird yönümlü yanaşmanın gücləndirilməsi ümumi təhsil keyfiyyətinin yüksəlməsinə əhəmiyyətli töhfə verə bilər.

## Bölmə 6. Pedaqogika- 02

## Kafedra: Pedaqogika və psixologiya

**Fatma İslamlı**
*Müəllim*
*FatmaIslamli@nmi.edu.az*

# Kiçik məktəb yaşı dövründə idraki proseslərin inkişafına təsir edən əsas amillər

**Tədqiqatın məqsədi:** Kiçik məktəbyaşlı şagirdlərin psixoloji xüsusiyyətləri və inkişafı məsələləri, həmçinin onların idrak proseslərinin, nitqinin, diqqətinin, hafizə, təfəkkür və təxəyyüllərinin inkişafına təsir edən amillərin araşdırılması tədqiqatın əsas məqsədlərindəndir. Həmçinin kiçik məktəbyaşlı uşaqların psixi proseslərinin formalaşmasında təhsil mühitinin rolunu və onun inkişafına təsir edən faktorları aydınlaşdırmaq əsas məqsədlərdəndir. Belə ki, uşaqların bacarıqlarına təsir edən əsas təhsil mühiti amillərini təhlil edərək, uşaqların psixi inkişafını dəstəkləyən effektiv yanaşmaları üzə çıxarmaq mümkündür.

**Tədqiqatın aktuallığı:** Təhsilin başlanğıc dövrü kiçikyaşlı məktəblilərin psixoloji-sosial vəziyyətində əsaslı dəyişikliklərə gətirib çıxarır. Buna görə də insan həyatında və təlim fəaliyyətində kiçik məktəb yaşı dövrü vacib bir mərhələ kimi yer tutur. Bu dövrdə məktəb həyatının bünövrəsinə atılacaq hər təməl gələcəkdə həmin şagirdin sosial, psixoloji baxımdan müvəffəqiyyəti üçün bir əsas sayılır. Effektiv təhsil mühitinin təşkili və uşaqların psixi inkişafını dəstəkləyən metodların tətbiqi mühüm araşdırma mövzusudur.

**Tədqiqatın metod və üsulları:** Tədqiqat üzrə aparılan araşdırmalar zamanı aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir: psixodiaqnostik testlər aparılmış, tədqiqatın gedişatına dair müşahidələr əldə edilmiş, eksperiment yolu ilə təhlillər aparılmış, şifahi və yazılı sorğu keçirilmiş, proyektiv metodikalardan istifadə edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Elmi - tədqiqat işi öz orijinallığı ilə seçilir. Belə ki, tədqiqatda bu yaş dövründə idraki proseslərin inkişafına təsir edən amillər kompleks şəkildə və sistemli yanaşma ilə araşdırılıb. Kiçik məktəb yaşlı şagirdlərdə idraki proseslərin inkişafına təsir göstərən amillərin yeni modelinin hazırlanması, şagirdlərin idraki inkişafını artıran praktiki tədris üsullarının effektivliyi barədə yeni emprik məlumatların təqdim olunması tədqiqatın elmi yeniliklərindən hesab olunur.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat işi idrak proseslərinin inkişafını gücləndirən dərs strategiyalarının seçilməsində praktik yol göstərici kimi istifadə oluna bilər. Eyni zamanda araşdırılan metodların idraki inkişafdakı rolu müəllimlərin dərs planlarında tətbiq oluna bilər. Həmçinin tədqiqat işi psixoloji iqlimin yaxşılaşdırılması üçün praktik təkliflər verir. Bu da kiçik məktəb yaşlı uşaqlarda idraki proseslərin daha sürətli və sağlam inkişafını təmin edir.

**Nəticə: Tədqiqat işində əldə olunan nəticələri aşağıdakı şəkildə ifadə etmək olar:**

1. Kiçik məktəb yaşlı uşaqların idraki proseslərinin inkişafı çoxcəhətlidir.
2. Psixi proseslərin inkişafında müəllim-şagird münasibətlərinin müsbət olması həlledici rol oynayır.
3. Psixoloji iqlimin əlverişli olması idrak fəaliyyətinin fəallaşmasına birbaşa təsir edir.

Beləliklə, kiçik məktəb yaşı dövrü məktəb həyatının ən mühüm mərhələsidir, çünki:

- Şagirdlərin idraki fəaliyyətinin əsas komponentləri məhz bu mərhələdə intensiv inkişaf edir, təlim fəaliyyətinə münasibət, öyrənmə motivasiyası və tədris vərdişlərinin əsası formalaşır.
- Şagirdlərdə idraki proseslərin inkişafı üçün zəruri olan baza funksiyaları məhz bu dövrdə formalaşır.

- Şagirdlərin təlim fəaliyyətinə münasibəti, öyrənmə motivasiyası, dərsə adaptasiya və idraki müstəqillik kimi mühüm pedaqoji göstəricilər də ilk məktəb illərində formalaşdığı üçün bu mərhələ təlim prosesinin strateji əhəmiyyətli dönəmi hesab olunur.

## Bölmə 6. Pedaqogika- 02

## Kafedra: Pedaqogika və psixologiya

**Günay Babayeva**
*Müəllim*
*KerimovaGunay@nmi.edu.az*

# Məktəbəqədər təhsildə və ibtidai sinifdə tədris prosesində pedaqoji texnologiyalardan istifadənin müasir yolları

**Tədqiqatın məqsədi:** Bu tədqiqatın əsas məqsədi məktəbəqədər təhsil və ibtidai sinif mərhələsində pedaqoji texnologiyaların tətbiqinin təlim prosesinə gətirdiyi yenilikləri müəyyənləşdirmək, bu texnologiyaların pedaqoji prosesdə oynadığı rolu geniş şəkildə təhlil etmək və onların tətbiqinin metodoloji əsaslarını elmi şəkildə əsaslandırmaqdır. Araşdırmada pedaqoji texnologiyaların uşaqların idrak, sosial, emosional və kommunikativ bacarıqlarına təsiri sistemli şəkildə öyrənilir. Məqsəd həmçinin müxtəlif texnoloji yanaşmaların (interaktiv təlim, oyun texnologiyaları, layihə əsaslı öyrənmə, rəqəmsal resurslardan istifadə, STEAM və s.) məktəbəqədər və ibtidai təhsil mühitində effektiv şəkildə necə tətbiq oluna biləcəyini müəyyənləşdirməkdir. Bununla yanaşı, müəllimlərin texnologiya ilə işləmə bacarıqlarının mövcud vəziyyəti, onların metodik hazırlığı, texnoloji resurslardan istifadədə qarşılaşdıqları çətinliklər və ehtiyac duyulan dəstək mexanizmləri də bu tədqiqatın məqsədləri sırasında yer alır. Tədqiqat həmçinin pedaqoji texnologiyaların təlim prosesinə yeni baxış gətirməsinin pedaqoji fəaliyyətin təşkili, dərsin məqsəd yönümlülüyü, şagirdlərin fəallığı və şəxsiyyətyönümlü yanaşmanın təmin olunması baxımından yaratdığı üstünlükləri müəyyən etməyə yönəlmişdir.

**Aktuallığının əsaslandırılması:** Müasir dövrdə təhsil sistemi sürətlə yenilənən informasiya mühiti ilə sıx bağlı şəkildə inkişaf edir və bu dəyişikliklər tədris prosesinə yeni tələblər irəli sürür. Məktəbəqədər və ibtidai təhsil pillələri uşaqların psixoloji, sosial və idrak inkişafında ən həssas mərhələlərdən hesab olunduğundan, burada tətbiq olunan pedaqoji texnologiyalar təlimin keyfiyyətinə bilavasitə təsir göstərir. Ənənəvi təlim metodlarının təkbaşına müasir dövrün tələblərinə cavab verməməsi, yeni nəsilin daha sürətli öyrənmə temposuna uyğunlaşma ehtiyacı, uşaqların öyrənmədə aktiv iştirakının təmin olunması zərurəti pedaqoji texnologiyaların tətbiqini aktuallaşdırır. Rəqəmsallaşma, elektron resursların genişlənməsi, oyun yönümlü təlim modellərinin psixoloji üstünlükləri və inklüziv təhsil mühitinin formalaşdırılması da bu texnologiyalara olan tələbatı daha da artırır.

Bununla yanaşı, dünya təhsil sistemlərində aparılan islahatlar göstərir ki, pedaqoji texnologiyaların tətbiqi şagirdlərin tənqidi düşünmə, problem həll etmə, əməkdaşlıq, yaradıcılıq və kommunikasiya bacarıqlarını gücləndirir. Bu isə Azərbaycan təhsil sisteminin beynəlxalq standartlara inteqrasiyası baxımından mühüm əhəmiyyətə malikdir. Ölkəmizdə son illərdə tətbiq olunan kurikulum islahatları da məhz texnologiyaların geniş tətbiqini tələb edir. Lakin məktəbəqədər və ibtidai sinif səviyyəsində bu texnologiyaların tətbiqinin sistemli qiymətləndirilməsi, resurs təminatı, müəllim hazırlığı və metodoloji dəstək sahəsində müəyyən boşluqlar mövcuddur. Bu tədqiqat həmin boşluqları müəyyən edib onların aradan qaldırılması yollarını təklif etməklə aktual və praktik əhəmiyyət daşıyır.

**Tədqiqatın metod və üsulları:** Araşdırmanın məqsədlərinə uyğun olaraq bir neçə elmi-metodoloji yanaşma seçilmişdir. İlk mərhələdə pedaqoji texnologiyalar, innovativ təlim metodları və müasir təhsil modelləri ilə bağlı yerli və xarici ədəbiyyat geniş şəkildə təhlil edilmişdir. Bu nəzəri-

metodoloji analiz dünya təcrübələrində tətbiq olunan modelləri, pedaqoji yeniliklərin inkişaf xəttini, müasir texnologiyaların psixoloji və pedaqoji əsaslarını müəyyənləşdirməyə imkan vermişdir.

Müşahidə metodu tədqiqatın empirik hissəsini təşkil etmişdir. Bu mərhələdə məktəbəqədər qruplarda və ibtidai siniflərdə keçirilən dərslər qeyri-invaziv şəkildə müşahidə edilmiş, müəllimin texnologiyalardan istifadə səviyyəsi, uşaqların reaksiyası, interaktivlik dərəcəsi və texnologiyanın tədris nəticələrinə real təsiri qiymətləndirilmişdir. Müşahidələr həm ənənəvi, həm də texnologiya əsaslı dərslərin müqayisəsinə şərait yaratmışdır.

Müsahibə metodu vasitəsilə müəllimlərin texnoloji yeniliklərə münasibəti, tətbiq zamanı qarşılaşdıqları çətinliklər, ehtiyac duyduqları resurslar və texnologiyanın tədris prosesinə təsiri barədə fikirləri toplanmışdır. Müxtəlif yaş kateqoriyasında çalışan müəllimlər, metodistlər və mütəxəssislərlə aparılan yarı-strukturlaşdırılmış müsahibələr araşdırmanı zəngin empirik məlumatlarla təmin etmişdir.

Təhlil və sintez üsulu ilə toplanmış məlumatlar sistemləşdirilmiş, pedaqoji texnologiyaların üstünlükləri, məhdudiyyətləri və tətbiq imkanları müqayisəli şəkildə ümumiləşdirilmişdir. Bu analiz əsasında məktəbəqədər və ibtidai təhsildə texnologiyaların səmərəli tətbiqi üçün praktik tövsiyələr hazırlanmışdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Aparılmış araşdırma özünəməxsus yanaşmaları ilə seçilir və pedaqoji texnologiyaların tətbiqinə dair yeni elmi nəticələr təqdim edir. Tədqiqatın əsas yeniliklərindən biri məktəbəqədər və ibtidai təhsil mərhələlərində texnologiyaların tətbiqini yalnız texniki amil kimi deyil, pedaqoji prosesin mahiyyətini dəyişdirən kompleks metodoloji sistem kimi qiymətləndirməsidir. Bu araşdırma ilk dəfə olaraq pedaqoji texnologiyaların uşaqların yaş psixologiyasına uyğun modelləşdirilməsini, təlim mühitinə inteqrasiyasını və müəllimin fəaliyyətinə təsirini birlikdə analiz edir. Tədqiqat çərçivəsində məktəbəqədər və ibtidai təhsil üçün 4 komponentdən ibarət yeni pedaqoji texnologiya modeli işlənmişdir:

- İnteraktiv təlim texnologiyaları (kooperativ öyrənmə, rol oyunları, problem əsaslı öyrənmə)
- Rəqəmsal texnologiyalar (elektron resurslar, mobil tətbiqlər, vizualizasiya vasitələri)
- Oyun və fəaliyyət əsaslı texnologiyalar (didaktik oyunlar, sensor-motor inkişaf texnologiyaları)
- STEAM-yönümlü inteqrativ texnologiyalar (layihə fəaliyyəti, təcrübələr, yaradıcı laboratoriyalar)

Bu model məktəbəqədər və ibtidai təhsil üçün lokal reallıqlara əsaslanan ilk sistemləşdirilmiş yanaşmalardan biri hesab oluna bilər. Tədqiqatın yeniliklərindən biri də texnologiyaların tətbiqində müəllimin rolunun yenidən şərh olunması, yəni müəllimin yalnız bilik ötürən deyil, prosesin fasilitatoru, yönləndiricisi və motivasiyaedicisi kimi təqdim edilməsidir. Bununla yanaşı, müəllimlərin texnologiya ilə işləmə bacarıqlarını ölçən qiymətləndirmə meyarları hazırlanmışdır ki, bu da araşdırmaya əlavə elmi yenilik gətirir.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Araşdırma nəticələri təhsil müəssisələrində pedaqoji prosesin təkmilləşdirilməsi baxımından əhəmiyyətli tətbiq imkanlarına malikdir. Tədqiqatda təqdim olunan model və tövsiyələr məktəbəqədər müəssisələrdə və ibtidai siniflərdə təlimin texnologiya əsaslı təşkilinə metodik dəstək verir. Müəllimlər üçün hazırlanmış praktik göstəricilər dərs planlaşdırılmasında, interaktiv və oyun texnologiyalarından istifadə metodikalarında real tətbiq oluna bilər. Tədqiqat nəticələri müəllim hazırlığı ilə məşğul olan ali məktəblərdə “Pedaqoji texnologiyalar”, “İnnovativ təlim metodları”, “Müasir təhsil modelləri” kimi fənlərin tədrisi üçün əlavə elmi material kimi istifadə oluna bilər. Eyni zamanda, təhsil idarəetmə qurumları tərəfindən müəllimlərin

texnologiya üzrə ehtiyaclarının müəyyən edilməsi, inkişaf proqramlarının hazırlanması və metodik vəsaitlərin tərtibi zamanı bu araşdırmanın nəticələri etibarlı baza kimi çıxış edir.
Pedaqoji texnologiyaların tətbiqi üzrə təlimlər, seminarlar, treninqlər və metodik günlərdə tədqiqatda irəli sürülən model və metodik yanaşmalar geniş istifadə oluna bilər. Həmçinin, tədqiqat məktəbəqədər təhsil müəssisələrində oyun texnologiyalarının tətbiqi, ibtidai siniflərdə interaktiv təlim mühitinin yaradılması, rəqəmsal təhsil resurslarından istifadə və tədris materiallarının vizuallaşdırılması üçün praktik istiqamətlər təqdim edir.

**Nəticə:** Aparılmış tədqiqat göstərir ki, pedaqoji texnologiyaların məktəbəqədər və ibtidai təhsil prosesinə inteqrasiyası tədrisin mahiyyətini yenidən formalaşdıran mühüm amildir. Texnologiyaların tətbiqi uşaqların öyrənməyə marağını artırır, onların idrak fəallığını gücləndirir, dərs prosesini daha səmərəli və interaktiv edir. Eyni zamanda, müəllimin pedaqoji fəaliyyətinə yeni funksional çalarlar əlavə edir: dərsin təşkilində çeviklik, fərdiləşdirilmiş təlim, yaradıcı tapşırıqların qurulması və uşaqların sosial-emosional inkişafının dəstəklənməsi bu yanaşmanın əsas üstünlüklərindəndir.

Tədqiqatın nəticələri təsdiq edir ki, pedaqoji texnologiyaların tətbiqində mövcud çətinliklər əsasən resurs çatışmazlığı, metodiki biliklərin məhdudluğu və müəllimlərin texnoloji yeniliklərə adaptasiya ehtiyacı ilə bağlıdır. Lakin müəllimlərin innovativ yanaşmalara açıq olması, yeni metodlara marağı və öz fəaliyyətlərini təkmilləşdirməyə istəkləri texnologiyaların təhsil mühitinə uğurlu inteqrasiyası üçün geniş imkan yaradır.

Nəticə olaraq qeyd etmək olar ki, pedaqoji texnologiyaların sistemli şəkildə tətbiqi məktəbəqədər və ibtidai təhsildə təlimin keyfiyyətini yüksəltməyə xidmət edən əsas strateji istiqamətlərdən biridir. Tədqiqatda təklif olunan model, metodik yanaşmalar və inkişaf strategiyaları dərs prosesini daha səmərəli, müasir tələblərə uyğun və uşağın inkişaf ehtiyaclarına cavab verən bir formaya gətirməyə geniş imkan yaradır. Bu səbəbdən tədqiqat həm nəzəri, həm də praktik baxımdan təhsil sistemində dəyərli bir mənbə kimi istifadə oluna bilər.

**Bölmə 7. Psixologiya**

**Kafedra: Pedaqogika və psixologiya**

**Salatın Hacıyeva**
*Psixologiya üzrə fəlsəfə doktoru, dosent*
SalatinHaciyeva@nmi.edu.az

# Döyüş şəraitinin hərbi xidmətçilərin psixikasına təsiri

**Tədqiqatın məqsədi.** Döyüş şəraitinin hərbi qulluqçuların psixoloji vəziyyətinə göstərdiyi təsiri müəyyənləşdirmək, bu təsirin yaranma səbəblərini və nəticələrini təhlil etmək, həmçinin psixoloji sabitliyin qorunması və reabilitasiya tədbirlərinin səmərəliliyini artırmaq yollarını aşkara çıxarmaq, eləcə də, döyüş təcrübəsi yaşayan hərbi qulluqçuların emosional gərginliyini, stress səviyyəsini və travmatik hadisələrə reaksiyalarını öyrənməklə onların psixi sağlamlığının qorunmasına yönəlmiş elmi əsaslandırılmış tədbirlərin işlənib hazırlanmasına xidmət etməkdir. Beləliklə, tədqiqatın əsas məqsədi - döyüş şəraitinin psixoloji təsirini dərindən öyrənmək və hərbi qulluqçuların döyüşdən sonrakı adaptasiya prosesində psixoloji dəstək mexanizmlərinin təkmilləşdirilməsi üçün praktik tövsiyələr verməkdir.

**Mövzunun aktuallığı.** Döyüş şəraitinin hərbi qulluqçuların psixikasına təsiri müasir dövrdə həm praktik, həm də elmi cəhətdən yüksək aktuallığa malikdir. Münaqişələrin intensivliyi, qəfilliyi və uzunmüddətliliyi artdıqca hərbi personalın psixoloji sağlamlığı yalnız fərdi səviyyədə deyil, bütövlükdə milli təhlükəsizlik və hərbi qabiliyyət üçün də mühüm amilə çevrilir.

Psixoloji sabitlik və stressə davamlılıq hərbi əməliyyatların uğuruna birbaşa təsir edir. Stress, qorxu və psixi pozuntular qərarvermə qabiliyyətini, reaksiyanın sürətini və komandada əməkdaşlığı zəiflədir, nəticədə taktiki və strateji risklər ortaya çıxır.

Döyüş təcrübəsi olan şəxslərdə psixoloji problemlər ailə münasibətlərinə, uşaqların psixikasına və sosial davranışa mənfi təsir göstərə bilər. Bu, geniş sosial problemlərə və uzunmüddətli sosial yükə səbəb ola bilər.

Nəticə etibarilə, “Döyüş şəraitinin hərbi xidmətçilərin psixikasına təsiri” mövzusu həm fərdi rifah, həm də hərbi-sosial sabitlik və milli təhlükəsizlik baxımından həyati əhəmiyyət kəsb edir. Mövzuya elmi yanaşma, profilaktik tədbirlər və davamlı psixoloji dəstək proqramları tətbiq edilmədikcə, bu problemlərin həm şəxsi, həm də cəmiyyət səviyyəsində mənfi nəticələri davam edəcək. Hərbi fəaliyyətin səmərəli və düzgün icrası əsgərlər üçün mənəvi psixoloji mühitin yaradılmasından, əsgərlərin diqqət, hafizə, qavrayış və s. imkanlarının nəzərə alınaraq konstruksiya edilməsindən çox asılıdır. Bu baxımdan döyüş şəraitinin hərbiçilərin psixikasına təsirinin araşdırılması aktuallıq kəsb edir.

**Tədqiqatın metodu və üsulları.** Müşahidə, döyüş vəziyyətinin psixoloji proqnozlaşdırılması və qiymətləndirilməsi, fərdi və qrup söhbətləri metodları, dövrü mətbuatdan, psixoloqların nəzəri fikirləri və konsepsiyalarından, elmi tədqiqat əsərlərindən, internet resurslarından, kitab və monoqrafiyalardan istifadə edilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Hərbi xidmətçilərin döyüş fəaliyyətinə təsir edən amillərin müəyyənləşdirilməsi keçmiş uğursuzluqlardan nəticə çıxarmağa, əsgərlərin qorxu və həyacanını azaldıb, bütün imkanlarını və iradələrini səfərbər etməyə xidmət edəcəkdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** ilk növbədə hərbi psixologiya sahəsində tədqiqatların azlığı və bu mövzunun kifayət qədər işlənilməməsi ilə müəyyən edilir. Tədqiqatın elmi yeniliyi aşağıdakı amillərlə bağlıdır:

1. İlk dəfə olaraq hərbi xidmətçilərin döyüş fəaliyyətinə təsir edən amillər, hərbi xidmətçilərin döyüş əməliyyatlarına psixoloji dəstəyin tədqiqi sistemli şəkildə araşdırılmışdır;

2. Tədqiqat zamanı hərbi xidmətçilərin döyüş fəaliyyətinə təsir edən amillərin müəyyənləşdirilməsi, hərbi qulluqçuların mənəvi, döyüş və psixoloji xüsusiyyətlərinin yüksək səviyyədə saxlanılması üzrə əvvəllər elmi ictimaiyyətə praktik olaraq məlum olmayan yeni faktlar üzə çıxarılmışdır.

3. Hərbi xidmətçərin döyüş fəaliyyəti üçün xarakterik olan psixoloji problemlərin həllinə imkan verən psixoloji dəstəyin sistemi və konseptual baxışı hazırlanmışdır. .

**Nəticə**.Tədqiqat işində əldə olunan nəticələri ümumiləşdirərək aşağıdakı şəkildə ifadə etmək olar:

Müharibələrin və hərbi sənətinin tarixi göstərir ki, döyüşçülərin döyüş davranışının və möhkəm döyüş əzminin formalaşmasında sosial-psixoloji amillər əsas rol oynayır. Döyüşçülərin mənəvi-psixoloji vəziyyəti daha çox xalqın müharibəyə münasibətindən, müharibənin kütlələrin şüurundakı populyarlığından asılıdır. Populyarlıq, öz növbəsində, müharibənin məqsədlərinin insanlar tərəfindən başa düşülməsi və onları daxilən qəbul etməsi, onu yaradan səbəblərin strukturunda sosial, iqtisadi, milli və dini maraqların təmsil olunması ilə müəyyən edilir. İnsanların şüurunda müharibə obrazı hərbi əməliyyatların nə dərəcədə uğurla və kimin ərazisində aparılmasından, habelə ölkə əhalisinin hansı hissəsinin fiziki və psixoloji cəhətdən iştirak etməsindən asılı olaraq emosional xarakter daşıyır.

Psixoloji sirayət, təklif və təqlid mexanizmlərinin işi sayəsində hərbi qulluqçular cəmiyyətdə hökm sürən əhval-ruhiyyəni mənimsəyir ki, bu da onların döyüş davranışı üçün müvafiq münasibət və motivləri formalaşdırır. Xalqın düşmənə münasibəti döyüşən ordunun döyüş ruhunda mühüm rol oynayan amillərdəndir. Müharibə təcrübəsi də göstərir ki, hansı ordunun əsgərləri vətəninin azadlığına, sərvətinə qəsd edən rəqibə qatı və mənfur düşmən kimi baxırsa, o ordu çox vaxt döyüşlərdə qalib gəlir. Döyüşçülərin döyüş fəaliyyətinin psixoloji amilləri sistemində ilkin və ikinci dərəcəli amilləri ayırd edilir. İlkin psixoloji amillər döyüşün mənasını və enerjisini, ekoloji-erqonomik, sosial, fizioloji və ikinci psixoloji amilləri döyüşçülərin döyüş davranışına çevirən bir növ "adapter" rolunu yerinə yetirən hadisələrdir. İlkin psixoloji amillərə döyüşə psixoloji hazırlıq və stress faktorlarına qarşı psixoloji müqavimət daxildir. Tədqiqatlar göstərir ki, döyüşçülərin davranışındakı mübarizə strategiyaları əlverişsiz stress amillərinin (o cümlədən döyüş faktorlarının) aradan qaldırılmasında mühüm rol oynayır. Mübarizə strategiyaları döyüşçünün bilik, bacarıq və bacarıqlarını yeniləmək, dəyişən döyüş vəziyyətinə effektiv uyğunlaşma üçün hədəf psixoloji resursu səfərbər etmək və istifadə etmək üsullarıdır. Əsgərlərin təhlükə, qəddar zorakılıqda iştirak etməkdə günahkarlıq hissi, fəaliyyətinin nəticələrinə görə məsuliyyət, gözlənilməzlik, qəfillik, döyüş hadisələrinin başlanmasının yeniliyi, ölüm və yaralanmaların qavranılması kimi ikinci dərəcəli psixoloji amillərə reaksiyasının xarakteri əsgərin psixi hazırlıq və sabitlik vəziyyətindan asılı olur.

Əsgərlərin döyüş davranışının sosial, fizioloji və psixoloji amilləri müxtəlif vaxtlarda, müxtəlif birləşmələrdə və müxtəlif qüvvədə cərəyan edir. Həqiqətən müharibənin məqsədlərini başqa cür dərk edən, düşmənə, müxtəlif növ döyüşlərdə iştirak edən əsgər yoldaşlarına, komandirlərə münasibəti fərqli olan, müxtəlif döyüş təcrübəsinə, əsəb sistemlərinin tipinə malik olan əsgərlər tərəfindənhəyati təhlükəli vəziyyət də fərqli şəkildə qəbul ediləcəkdir. Aydındır ki, əgər əsgər öz rəqibinin hərəkət vərdişlərini və taktikasını bilirsə, onda düşmənin hiylə və hərəkətləri onun üçün gözlənilməz və ya yeni olmayacaqdır. Bu isə o deməkdir ki, həddən artıq və ya az informasiya yüklənməsinə yer qalmayacaq və nəticədə vəziyyət həddindən artıq təhlükəli hiss olunmayacaqdır. Sadalanan amillər döyüşçünün yolunda keçilməz maneə, onun psixoloji travmasının səbəbi ola bilər və ya onun döyüş qabiliyyətini genişləndirən psixoloji resurs təşkil edə bilər. Döyüşün psixoloji modeli döyüş əməliyyatlarının qanunauyğunluqlarını, müxtəlif amillərin əsgərlərin davranışına

təsirinin xarakterini daha dərindən dərk etməyə və nəticədə onların psixoloji təminatının effektiv sistemini qurmağa imkan verir. Döyüş əməliyyatlarının psixoloji modeli əsgərlərin döyüş fəaliyyətini nəyin motivasiya etdiyini, döyüş davranışına hansı amillərin təsir etdiyini, stress faktorlarının təsiri altında döyüş iştirakçısının psixikasında hansı dəyişikliklər baş verdiyini, döyüş əməliyyatlarının effektivliyinə nail olmaq üçün döyüş vəziyyətində hansı psixoloji hadisələri düzəltmək lazım olduğunu göstərir. Bu, əsgərlərin həm daxili psixoloji imkanlarına, həm də onları əhatə edən sosial, döyüş və eko-erqonomik mühitə təsir göstərməklə onların döyüş fəaliyyətinə sistemli təsir göstərməyə imkan verir. Stress hər döyüşçüyə daim hazır vəziyyətdə olmaq, yüksək fəallıq, dözümlülük, döyüş gərginliyi göstərmək, orqanizmin bütün enerji ehtiyatlarından istifadə etmək, ağrını, yorğunluğu və həddindən artıq fiziki yüklənmələri dəf etmək, yəni yüksək effektiv döyüş maşını olmaq üçün unikal şans verir. Lakin hər kəs bu şansdan yararlana bilmir. Bunun səbəbi hərbi qulluqçuların psixoloji davamlılıq səviyyəsinin fərqli olmasıdır. Döyüş şəraitində hiperstressorların təsiri və ya stress faktorlarının yığılması hərbi qulluqçunun psixoloji davamlılığını qıraraq onu norma daxilində (ictimai qəbul edilən) davranışla vəziyyətə qarşı müqavimət göstərə bilməz hala gətirir.

Döyüş stressinin təsnifatında stress-deviasiyaları ayrıca yer tutur. Onların stress kateqoriyasına daxil edilməsinin səbəbi ondan ibarətdir ki, bütün deviant davranış formaları adaptivdir. Bu adaptasiya döyüş psixi travması kimi patoloji olsa da, şüurludur, açıq-aşkar əxlaqsız, asossialdır və hüquqi məsuliyyətə cəlb edilir. Hərbi qulluqçu müharibənin dəhşətlərindən qaçmaq və qorxudan titrəyən bədənini qorumaq üçün xəstəlik və ya psixi pozğunluq simulyasiya edə, özünə zərər verə, döyüş meydanından qaça, düşmənə təslim ola və hətta intihar edə bilər. Döyüş stressini analiz edərkən onun yuxu keyfiyyəti ilə əlaqəsini başa düşmək vacibdir.

Çoxsaylı tədqiqatlar göstərib ki, bir tərəfdən yuxu məhrumluğu (yuxunun kifayət qədər olmaması, fasiləliliyi) distres və travmatik stressin yaranması üçün şərtlərdən biridir, digər tərəfdən isə güclü stress yuxu keyfiyyətinin pisləşməsinə səbəb olur. Beləliklə, pis yuxu ilə yüksək stress arasında pis dairə yaranır: keyfiyyətsiz yuxu stress səviyyəsini artırır, yüksək stress isə yuxu keyfiyyətini daha da pisləşdirir. Yuxu çatışmazlığı döyüş stressinin səviyyəsinə təsir göstərir, döyüş fəaliyyətinin effektivliyini əhəmiyyətli dərəcədə azaldır, özünü qiymətləndirmə və yoldaşlarla münasibətlərin pisləşməsi ilə müşayiət olunur. Məlum olub ki, yuxusuz keçən hər bir gün hərbi qulluqçunun kognitiv fəaliyyətinin effektivliyini 25% azaldır. Nəticədə, üçüncü günə qədər hərbi qulluqçu döyüş hadisələrini adekvat qavramaq, analiz etmək, tənqidi düşünmək, improvizasiya etmək, qərar qəbul etmək və öz imkanlarını qiymətləndirmək qabiliyyətini itirir.

Qorxu hissinin keçirilməsi, məzmun etibarilə, ölüm qorxusu, ağrılar, yaralanmalar, əlillik, döyüş qabiliyyətinin itirilməsi, döyüş meydanında yaralı qalmaq, əsir düşmək və s. şəklində özünü göstərir. Üstəlik, uzun müddətli təhlükəli vəziyyət qorxunu azaltmır, əksinə artırır. Hərbiçilərin əksəriyyəti, döyüşdə iştirak etsələrdə belə, qeyri - iradi hərəkət edirlər. Beləliklə, döyüş şəraitində qorxu ilə mübarizənin ən mühüm yolu hərbçiləri qarşıdakı döyüşlər barədə hərtərəfli məlumatlandırmaq, bu döyüşlərin dəqiq və ətraflı surətini formalaşdırmaqdır.

Döyüş təlimi prosesində hər bir əsgər öz döyüş və psixoloji hazırlığını təkmilləşdirməlidir. Döyüşə hazırlığın faydalı vasitələrindən biri kimi əsgərin öz hərəkətlərinin ardıcıllığını əvvəlcə səhv etmədən asta - asta, getdikcə sürətini artıraraq ürəyində deməsi məsləhət görülür. Əsgər şəraitə fikrən o qədər alışır ki, özündən asılı olmayaraq hərəkət etməyə başlayır. Bu isə düşüncə ilə davranış arasında möhkəm əlaqənin yaranması deməkdir.

## Bölmə 7. Psixologiya

## Kafedra: Pedaqogika və psixologiya

**Sevinc Orucova**
*Psixologiya üzrə fəlsəfə doktoru, dosent*
*SevinjOrujova@nmi.edu.az*

# Ali təhsil müəssisələrində təlim-tərbiyə işinin sosial-psixoloji əsasları

***Tədqiqatın aktuallığı.*** Müasir dövrdə təhsil sistemində əsas məqsəd yalnız bilik vermək deyil, eyni zamanda **şəxsiyyət yönümlü, yaradıcı düşüncəyə malik, müstəqil qərar verə bilən mütəxəssislər** yetişdirməkdir. Bu baxımdan təlim-tərbiyə prosesində tələbə şəxsiyyətinin sosial-psixoloji cəhətdən inkişaf etdirilməsi ali pedaqoji təhsilin ən mühüm mərhələlərindən biri hesab edilir.

Ali məktəblərdə təlim-tərbiyə prosesində tələbələrdə yalnız nəzəri biliklər tətbiq edilmir, həm də **məsuliyyətlilik, ünsiyyət mədəniyyəti, təşkilatçılıq, təşəbbüskarlıq** kimi mühüm şəxsi keyfiyyətlər inkişaf etdirilir. Bu keyfiyyətlər gələcəkdə tələbənin fəaliyyətinin səmərəliliyini müəyyən edən əsas amillərdəndir. Hazırkı təhsil islahatları şəraitində tələblər dəyişir, **peşəkar kompetensiyaların və fərdi xüsusiyyətlərin vəhdəti** ön plana çıxır. Bu isə pedaqoji təcrübənin təkcə praktik məşğələ deyil, həm də **şəxsiyyətin formalaşma mərhələsi** kimi nəzərdən keçirilməsini zəruri edir. Gələcək mütəxəssislərin peşə hazırlığının səviyyəsi pedaqoji təhsilin məzmunundan və təşkilindən asılıdır.

Müasir dövrün tələbi təlim prosesində pedaqoji texnologiyalardan və innovasiyalardan səmərəli istifadə edən, hərtərəfli psixoloji, pedaqoji və metodiki hazırlığa malik, daim yaradıcılığa can atan və s. müsbət keyfiyyətlərə yiyələnmiş tələbələrin yetişdirilməsidir. Belə tələbələr pedaqoji fəaliyyət üçün zəruri olan kompetensiyalara sahib olmaları ilə fərqlənirlər. Yüksək əxlaqi keyfiyyətlərə, peşə-ixtisas hazırlığına malik tələbələrin yetişdirilməsində nəzəri bilik və bacarıqlar mühüm rol oynayır. Tələbə ali məktəbdə təhsil illərində öz intellektinin, mənəvi, əxlaqi, estetik, fiziki, iradi keyfiyyətlərinin inkişafı qayğısına qalmalı, seçdiyi peşəyə hörmət etməli, yüksək ixtisaslı mütəxəssis üçün zəruri olan bilik, bacarıq və vərdişlərə, davranış normalarına yiyələnməlidir.

***Tədqiqatın məqsəd və vəzifələri.*** Təlim-tərbiyə prosesində tələbələrin **şəxsi və fərdi keyfiyyətlərinin formalaşma və inkişaf mexanizmlərini müəyyənləşdirmək**, həmin keyfiyyətlərin inkişafına təsir edən sosial-psixoloji amilləri və metodları araşdırmaqdan ibarətdir.

Bu məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyən edilir:

- Pedaqoji ədəbiyyatda tələbəlik dövrünün xüsusiyyətlərinin elmi-nəzəri baxımdan təhlili;
- Gələcək mütəxəssislərin şəxsi və fərdi keyfiyyətlərinin müxtəlif fəaliyyət sahələri üçün əhəmiyyətinin müəyyənləşdirilməsi;
- Tələbə gənclərdə emosional, ünsiyyət, təşkilatçılıq, empatiya və refleksiya bacarıqlarının inkişafına təsir edən amillərin təhlili;
- Tələbələrdə şəxsi və fərdi keyfiyyətlərin tərbiyə edilməsində müasir pedaqoji texnologiyalardan istifadə imkanlarının müəyyənləşdirilməsi;
- Təlim-tərbiyə prosesinin səmərəliliyini artırmaq məqsədilə praktik tövsiyələr və təkliflərin hazırlanması.

***Tədqiqatın elmi yeniliyi.*** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, tədqiqata cəlb edilən problem yeni elmi yanaşmalarla təhlil olunmuşdur. Gələcək mütəxəssislərin **şəxsi və fərdi keyfiyyətlərinin inkişafına təsir göstərən sosia-psixoloji amillər** kompleks şəkildə müəyyən edilmişdir. Təlim-tərbiyə prosesində tələbələrin **aktiv subyekt mövqeyini formalaşdıran şərait**

elmi əsaslarla sistemləşdirilmişdir. Müasir təlim mühitində gələcək mütəxəssislərin fərdi inkişafını təmin edən **innovativ pedaqoji texnologiyaların tətbiqi yolları** müəyyən edilmişdir.

***Tədqiqatda istifadə olunan metodlar.*** Tədqiqatda işin xüsusiyyətlərini araşdırmaq üçün aşağıdakı psixoloji metodlardan istifadə olunmuşdur. Müşahidə, müsahibə, anket sorğusu, təhlil və ümumiləşdirmə metodu, qabaqcıl təcrübənin öyrənilməsi və pedaqoji eksperiment.

***Tədqiqatın aprobasiyası:*** Naxçıvan Müəllimlər İnstitutunda kecirilən konfranlarda bir məqalə və bir tezis formasında çap olunub.

Tələbə şəxsiyyətini sosial-psixoloji cəhətdən düzgün xarakterizə etmək üçün onu mənsub olduğu tələbə qrupu daxilində öyrənmək daha zəruri hesab edilir. Çünki tələbənin bir şəxsiyyət kimi tələbatları, xüsusən də ünsiyyət tələbatları üzvü olduğu akademik qrupda təzahür edir. Onun sosial mahiyyəti qrupun fəaliyyəti çərçivəsində cərəyan edir. Tələbənin kommunikativ xüsusiyyətləri qrup daxilində aşkarlanır. Tələbə ancaq akademik qrupun deyil, həm də digər müxtəlif qrupların üzvü olur, müxtəlif qruplarda müxtəlif statusa malik rollar ifa edir, Bir qrupda icraçı olduğu halda, başqasında daha fəal olur, bir başqasında hətta lider olur. Tələbə şəxsiyyətinin inkişafı üçün daxil olduğu akademik qrupun təsiri həlledicidir. Tələbə onun norma və sərvətlərindən etalon kimi istifadə edir, onları özünün şəxsi məqsəd və davranış normaları üçün model hesab edir. Özü ilə bərabər tələbə yoldaşlarının rəftar və davranışlarını qrupun etalonlar sistemi əsasında qiymətləndirir.

Hazırki şəraitdə respublikamızın ali təhsil ocaqlarında da gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə, hərbi-fiziki hazırlığına xüsusi diqqət yetirilir. Bu reallıq dövlətin zəruri ehtiyac və tələbatından yaranmışdır. Tələbə şəxsiyyətinin fəaliyyət prosesində inkişaf etməsi. Tələbə, bütün insanlar kimi, ictimai münasibətləri ancaq özünün aktiv fəaliyyəti vasitəsilə mənimsəyir. Bu baxımdan, fəaliyyət tələbə şəxsiyyətinin inkişafının həlledici amilidir. Fəaliyyət insanın varlığını xarakterizə edən mühüm kateqoriyalardandır. Fəaliyyət insanın əsas qüvvələrinin açıq kitabıdır, his.si surətdə qarşımızda duran insan psixologiyasıdır. Bütün insanlar kimi tələbə yalnız fəaliyyət prosesində təzahür və təşəkkül edir. Psixi inkişafın hər bir mərhələsində fəaliyyətin ancaq bir növü aparıcı olur və şəxsiyyətin fonnalaşmasına həlledici surətdə təsir göstərir. Tələbənin əsas fəaliyyət növü təlimdir. Tələbə şəxsiyyətinin əqli və mənəvi cəhətdən inkişafı təlim prosesində mümkün olur. Təlim fəaliyyəti tələbənin ümumi psixi inkişafını, ixtisasla bağlı bilik və bacarıqları mənimsəməsini, mənəvi təkmilliyini təmin edir. Tələbənin müxtəlif fəaliyyət növləri ilə məşğul olması onun həmin sahələrdə inkişaf səviyyəsini yüksəldir, ahəngdarlığım təmin edir.

Ali məktəb həyatı üçün tipik olan müxtəlif fəaliyyət növləri: idrak fəaliyyəti; ictimai, bədii, texniki fəaliyyət; kommunikativ fəaliyyət; qiymətləndirmə-oriyentasiya fəaliyyəti; idman və s. tələbə şəxsiyyətinin inkişafını təmin edən aparıcı fəaliyyət növləridir. Tələbə gənclərin müxtəlif fəaliyyət növlərinə cəlb edilməsi onlarda şəxsi fəallığın inkişafına təkan verir, təkmilləşməsinə, ümumi psixi xassələrinin təşəkkül tapmasına kömək edir. Tələbənin əmək fəaliyyəti bir tərəfdən onun fiziki, əxlaqi inkişafına, digər tərəfdən, onun peşə hazırlığına müsbət təsir edir, onu yüksək ixtisaslı mütəxəssis kimi fonnalaşdırır. İctimai fəaliyyət tələbəyə sosial təcrübə qazandırır, onda kollektivçilik, təşkilatçılıq, kommunikativ bacarıqlar fonnalaşdırır. Tələbə şəxsiyyəti fonnalaşdıqca fəaliyyətin də xarakteri dəyişir, məzmunca daha artıq zənginləşir. Şəxsiyyətin tələbatları əsasında fəaliyyətin motivləri formalaşır, «motiv-məqsəd» vektoru əmələ gəlir və o, fəaliyyətin əsas struk'tur vahidinə çevrilir. Gərgin şəxsi fəaliyyət tələbənin inkişafını istiqamətləndirir, qabiliyyətlərini daha artıq inkişaf etdirir, gələcək əmək fəaliyyətinin uğurlarını təmin edir. Ünsiyyət fəaliyyətində tələbənin «mənlik» şüuru formalaşır. Başqa insanlar kimi, tələbə də konkret sosial cəmiyyətin üzvüdür. O, həm də kiçik sosial qrupun üzvüdür.

Qrupla davamlı ünsiyyət onunla nəticələnir ki, tələbə bir şəxsiyyət kimi inkişaf etdikcə, tələbə qrupunun normalarını öz normaları kimi qəbul edir, tələbə qrupunun tələblərinə, davranış normalarına uyğun hərəkət edir. Tələbənin ünsiyyət mədəniyyəti - mehribanlığı, xeyirxahlığı, nəzakətliliyi, qayğıkeşliyi, diqqətlilik və həssaslığı, tərəf müqabilini dinləmək və haşa düşmək bacarığı, təmkinliliyi, başqasının sevincinə sevinməyi. kədərinə şərik olmağı məhz mənsub olduğu akademik qrupda daha artıq inkişaf edir. Tələbə şəxsiyyətinin ümumi inkişafından danışarkən, inkişafın eyni qaydada getməməsi, inkişafın tərbiyəvi təsirlərin xarakterinə tam adekvat olmaması, hər yaş mərhələsində köhnə və yeni keyfiyyətlərin olması, inkişafın ziddiyyətli xarakter daşıması və digər qanunauyğunluqlar da nəzərə alınmalıdır.

"Ali təhsil müəssisələrində təlim-tərbiyə işinin sosial-psixoloji əsasları" mövzusunda elmi-tədqiqat işində aşağıdakı nəticələr verilmişdir.

1. Tələbə şəxsiyyətinin inkişafını təmin etmək məqsədilə onu daim daha yüksək səviyyədə fəaliyyət formalarına cəlb etmək lazımdır. Orta ümumtəhsil məktəbində elmlərin əsaslarına yiyələnən tələbə ali məktəbdə elmləri daha dərindən öyrənmək imkanı qazanmalıdır. Çünki ali məktəbdə tədris edilən fənlər elmə daha yaxındır. O cümlədən ali məktəbin tədris fənləri təkcə elmin müəyyənləşdirdiyi bilikləri deyil, həm də elmdəki mübahisəli məsələləri, onların həllinə müxtəlif yanaşma tərzlərini, həqiqət axtarışlarındakı müvəffəqiyyət və uğursuzluqları əks etdirir.

2. Ali məktəbdə tələbə şəxsiyyətinin inkişafı və onun kamil mütəxəssis kimi formalaşması olduqca ciddi ictimai əhəmiyyətə malik problemdir. Təsadüfi deyil. Çünki bu günün tələbəsi sabah ölkəmizdə elmin, mədəniyyətin, təhsilin, istehsal prosesinin aparıcı qüvvəsi, müasir sivilizasiyalarda daha çox dinamik xarakter alan şəxsiyyətlərarası münasibətlərin tənzimləyicisidir. Bir sözlə, tələbə daim inkişaf edən və dəyişən şəxsiyyətdir. Bu inkişafı, imkan daxilində, ardıcıllıqla izləmək və təkminləşdirmək lazımdır.

3. Ali məktəb müəllimlərinin öz tələbələri ilə ünsiyyətləri şəxsiyyətlərarası münasibətlərin özünəməxsus sferasını təşkil edir. Müəllim-tələbə münasibətləri əsasən rəsmi münasibətlərdir. Bu münasibətlərin düzgün qurulması akademik qrupda şəxsiyyətlərarası münasibətlərin səmərəli inkişafı üçün şərait yaradır. Akademik qrupda şəxsiyyətlərarası münasibətlərin səmərəli təşkili, öz növbəsində müəllim-tələbə münasibətlərini asanlaşdırılması zərurətini yaradır. Bu isə dolayısı ilə təlimin nəticələrinə müsbət təsir göstərir, tələbə qrupunda sağlam mənəvi-sosioloji mühit yaradır, pedaqoji prosesin səmərəliliyini yüksəldir.

## Bölmə 7. Psixologiya

## Kafedra: Pedaqogika və psixologiya

**Zeynab Mehdiyeva**
*Pedaqogika üzrə fəlsəfə doktoru*
*Baş müəllim*
*ZeynabHaciyeva.914@s.nmi.edu.az*

# Məktəbəqədər yaşlı uşaqların psixoloji inkişaf vasitəsi kimi didaktik oyunlardan istifadə

***Tədqiqatın məqsədi*** məktəbəqədər yaşlı uşaqların psixoloji inkişafının təmin edilməsində didaktik oyunların rolunu araşdırmaq və onların tətbiqi üzrə elmi-pedaqoji əsasları müəyyənləşdirməkdir.

***Aktuallığının əsaslandırılması:*** Məktəbəqədər yaş dövrü hər bir uşağın bir şəxsiyyət kimi formalaşmasında həm psixoloji, həm emosional, həm də idrak inkişafının əsasının qoyulmasında ən mühüm təhsil müəssisələrindən biri kimi mühüm əhəmiyyətə malikdir. Bu yaş dövründə oyun uşaqlarda əsas fəaliyyət növüdür. Onların ətraf aləmin dərk edilməsində, social münasibətlərin mənimsənilməsində, emosional sferanın formalaşmasında, həmçinin psixi proseslərin bir bacarıq kimi inkişafında mühüm rola malikdir.

Məktəbəqədər yaş dövrü insan həyatının ən intensiv inkişaf etmiş mərhələlərindən biridir. Bu dövrdə uşağın qavrayış, yaddaş, diqqət, təfəkkür və nitq kimi idrak prosesləri formalaşmağa başlayır. Uşaq ətraf mühiti daha dərindən dərk edir, özünü fərd kimi tanımağa başlayır, sosial əlaqələrə qoşulur və emosional reaksiyaları zənginləşir.

Psixoloqlar qeyd edirlər ki, bu mərhələdə uşağın inkişafı bilavasitə onun fəaliyyət növündən-yəni oyundan asılıdır. Oyun uşağın reallığı qavramasının, ətrafla əlaqə qurmasının və daxili aləmini ifadə etməsinin əsas vasitəsidir. Bu dövrdə formalaşan psixoloji keyfiyyətlər gələək təlim və həyat bacarıqlarının bünövrəsini təşkil edir.

Uşaqların psixoloji inkişafı həm bioloji amillər, həm də sosial-pedaqoji amillər vasitəsilə formalaşır. Xüsusilə, pedaqoqun və ailənin düzgün istiqamətverici fəaliyyəti uşağın şəxsiyyətinin harmonik inkişafında əsas rol oynayır.
Məktəbəqədər yaşda uşaqların idrak inkişafı əsasən müşahidə və təqlid yolu ilə baş verir. Onlar hadisələr arasında səbəb-nəticə əlaqələrini anlamamağa başlasalar da, hələ də təfəkkürləri konkret-əməli xarakter daşıyır. Uşaq təcrübəsini oyun, söhbət, təcrübə və ətraf mühiti öyrənmə yolu ilə genişləndirir

Məktəbəqədər yaş dövründə uşaqların təlim motivasiyasını və aktiv iştirakını təmin edən əsas vasitələrdən biri olan didaktik oyunlar müasir pedaqoji və psixoloji tədqiqatlarda əsas yer tutur. Didaktik oyun həm təlimin, həm də tərbiyənin bir hissəsi kimi uşaqların inkişafına məqsədyönlü şəkildə təsir edir, idrak fəaliyyətini stimullaşdırır. Tədqiqatın aktuallığı ondan ibarətdir ki, bugün məktəbəqədər təhsil müəssisələrində uşaqların psixoloji inkişafını dəstəkləyən müasir pedaqoji texnologiyaların tətbiqi xüsusi rola malikdir. Bu baxımdan, didaktik oyunlardan sistemli və məqsədyönlü şəkildə istifadə uşaqlarda müstəqil düşünmə, ünsiyyət və diqqət toplama, özünüidarəetmə kimi psixoloji keyfiyyətlərin formalaşmasına şərait yaradır.

***Tədqiqatın metod və üsulları:*** Tədqiqatda bir sıra tədqiqat metodlarından istifadə edilmişdir: nəzəri təhlil, müqayisə, müşahidə, anket, pedaqoji eksperiment.

***Tədqiqatın orjinallığı və elmi yeniliyi:*** məktəbəqədər yaşlı uşaqların psixoloji inkişafında didaktik oyunların rolu sistemləşdirilmiş, onların təsir mexanizmləri müəyyən edilmişdir.

Tədqiqatın **nəzəri əhəmiyyəti** psixoloji və pedaqoji elmlərdə didaktik oyunların psixoloji inkişaf vasitəsi kimi nəzəri əsaslarının işlənməsi ilə bağlıdır; **praktik əhəmiyyəti** isə məktəbəqədər təhsil müəssisələrində pedaqoqlar üçün metodik vəsait kimi tətbiq oluna bilməsindədir.

***Tədqiqat işində əldə olunan nəticələri ümumiləşdirərək aşağıdakı şəkildə ifadə edə bilərik:***

Aparılan tədqiqatların nəticəsində müəyyən edilmişdir ki, məktəbəqədər yaş dövrü uşağın şəxsiyyət kimi formalaşmasında həlledici mərhələdir. Bu mərhələdə uşağın psixoloji inkişafına təsir edən əsas amillərdən biri onun ətraf mühitlə olan qarşılıqlı əlaqəsi, xüsusilə də oyun fəaliyyətidir. Oyun vasitəsilə uşaq həm özünü ifadə etməyi, həm də ətrafdakı hadisə və münasibətləri dərk etməyi öyrənir. Bu baxımdan, didaktik oyunlar pedaqoji prosesin təbii və təsirli forması kimi xüsusi əhəmiyyət kəsb edir.

Tədqiqat göstərmişdir ki, didaktik oyunlar uşaqlarda idrak fəaliyyətini fəallaşdırır, diqqət, yaddaş, təfəkkür, nitq və təsəvvür kimi psixi proseslərin inkişafına şərait yaradır. Oyun zamanı uşaqlar əşyaları müqayisə edir, hadisələr arasında əlaqə yaradır, nəticə çıxarmağı və məntiqi düşünməyi öyrənirlər. Beləliklə, oyun təkcə əyləncə vasitəsi deyil, həm də uşağın idrak potensialını inkişaf etdirən mühüm pedaqoji üsuldur.

Didaktik oyunların tətbiqi uşaqlarda öyrənməyə qarşı maraq və daxili motivasiya formalaşdırır. Oyun şəraitində keçirilən təlim uşaqlar üçün daha cəlbedici və emosional baxımdan rahat olur. Bu, uşağın öyrənməyə müsbət münasibətini möhkəmləndirir, təlim prosesini passiv fəaliyyət forması olmaqdan çıxarır və onu yaradıcı düşüncəyə yönəldir. Oyunlar həmçinin uşaqlar arasında əməkdaşlıq, qarşılıqlı hörmət və ünsiyyət bacarıqlarını inkişaf etdirir.

Tədqiqatin nəticələri göstərir ki, didaktik oyunlar düzgün seçilib, məqsədyönlü şəkildə tətbiq edildikdə uşaqlarda müstəqil düşünmə, qərarvermə və problemləri həll etmə bacarıqlarını formalaşdırır. Bununla yanaşı, oyunlar uşaqların emosional sabitliyini və özünüidarəetmə qabiliyyətini artırır. Bu isə onların sosiallaşma prosesini asanlaşdırır və gələcək tədris pillələrinə psixoloji baxımdan hazır olmalarını təmin edir.

Didaktik oyunların məktəbəqədər təhsil prosesində məqsədyönlü və sistemli tətbiqi uşaqların hərtərəfli inkişafına şərait yaradır. Onlar vasitəsilə uşaqlarda bilik, bacarıq və vərdişlər formalaşmaqla yanaşı, psixoloji rifah, özünəinam və yaradıcı qabiliyyəti də inkişaf edir. Bu səbəbdən didaktik oyunlardan təlimin əsas komponenti kimi istifadənin elmi-metodiki əsaslandırılması və praktikada geniş tətbiqi mühüm pdaqoji əhəmiyyət daşıyır.

## Bölmə 7. Psixologiya

## Kafedra: Pedaqogika və psixologiya

**Nüşabə Məmmədova**
*Baş müəllim*
NushabaMammadova@nmi.edu.az

# Praktik psixoloqun müəllimlərlə, valideynlərlə və şagirdlərlə həyata keçirdiyi psixoprofilaktik işlər

***Tədqiqatın aktuallığı.*** Müasir təhsil sistemində yeniyetmələrin psixi inkişafı, davranış dinamikası, sosiallaşma prosesi və emosional rifahı birbaşa məktəbdə həyata keçirilən psixoloji xidmətin keyfiyyətindən asılıdır. Təlim-tərbiyə prosesində müşahidə olunan intizam pozuntuları, aqressiv davranış, motivasiya enməsi, ünsiyyət çətinlikləri, özünəinamın zəifliyi kimi hallar psixoprofilaktik tədbirlərin düzgün təşkilinə ehtiyac yaradır.Cəmiyyətin sürətli inkişafı, ailədaxili münasibətlərdə gərginliklərin artması, valideynlərin məşğulluq dərəcəsinin yüksəlməsi uşağın psixi inkişafında risk faktorlarını artırır. Belə şəraitdə məktəb psixoloqunun müəllimlərlə, valideynlərlə və şagirdlərlə apardığı psixoprofilaktik işin daha çox sistemli, planlı və elmi əsaslara söykənən şəkildə təşkil olunması vacibdir. Psixoprofilaktika uşaqlarda psixi gərginliyin qarşısının alınması, davranış pozuntularının erkən aşkarlanması, münaqişələrin böyümədən həll edilməsi, yaş böhranlarının düzgün keçirilməsi və sosial adaptasiya problemlərinin minimallaşdırılması baxımından önəmli sahədir. Bu səbəbdən mövzunun aktuallığı həm pedaqoji, həm psixoloji, həm də sosial baxımdan yüksəkdir.

***Tədqiqatın məqsəd və vəzifələri.*** Tədqiqatın əsas məqsədi məktəbdə psixoprofilaktik işin mahiyyətini, onun praktiki psixoloq tərəfindən necə həyata keçirildiyini, bu fəaliyyətin şagird, müəllim və valideyn inkişafına təsir mexanizmlərini araşdırmaqdan ibarətdir.

Bu məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyən edilir:

-Müəllimlərin psixoloji biliklərlə təmin edilməsi, pedaqoji-psixoloji problemlərin müzakirə olunması və davranış çətinliklərinin idarə olunması üzrə maarifləndirilməsi;

-Valideynlərə uşaqların yaş xüsusiyyətləri, inkişaf mərhələləri, psixoloji ehtiyacları, davranış kənaraçıxmaları və onların qarşısının alınması yolları haqqında elmi əsaslı məlumatların verilməsi;

-Şagirdlərin təlim, fəaliyyət, emosional vəziyyət, ünsiyyət bacarıqları və sosial adaptasiya səviyyəsi ilə bağlı müşahidələrin aparılması və risk qruplarının müəyyənləşdirilməsi;

-Psixoloji maarifləndirmə yolu ilə əhali arasında psixoloji biliklərin dəyəri, psixoloji yardım mədəniyyəti və psixoloji sağlamlıq haqqında düzgün ictimai münasibətin formalaşdırılması;

-Uşaqlarda yaranan emosional və davranış problemlərinin erkən diaqnostikası və profilaktik tədbirlərlə zərərli nəticələrin qarşısının alınması;

-Şagirdlərin tədris prosesində motivasiya, özünütənzimləmə, özünəinam və sosial bacarıqlarının inkişaf etdirilməsi üçün müvafiq metodların tətbiqi.

***Tədqiqatın elmi yeniliyi.*** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, məktəbdə psixoloqun psixoprofilaktik fəaliyyətinin konkret istiqamətləri, hədəf qruplarına (müəllim, valideyn, şagird) təsir mexanizmləri və onların psixososial inkişafdakı rolu sistemli şəkildə araşdırılmışdır. Elmi yenilik aşağıdakı məqamlarla özünü göstərir:

- Psixoprofilaktikanın yalnız şagirdlə məhdudlaşmadığı, eyni zamanda müəllim və valideynlərlə aparılan paralel işin şagird inkişafında daha yüksək nəticə verdiyi müəyyən edilmişdir;
- Müasir təhsil mühitində psixoprofilaktikanın funksiyaları (informasiya, qarşısının alınması,

adaptasiya dəstəyi, korreksiya elementləri, maarifləndirmə) ayrıca təhlil edilmişdir;

- Psixoloqun psixoprofilaktik fəaliyyətində istifadə olunan interaktiv metod və texnologiyaların (qrupla iş, maarifləndirici seminarlar, psixoloji dəstək görüşləri, risk qrupları ilə fərdi iş və s.) effektivliyi əsaslandırılmışdır.

***Tədqiqatda istifadə olunan metodikalar.*** Tədqiqatda psixoprofilaktik işin xüsusiyyətlərini araşdırmaq üçün aşağıdakı psixoloji metodlardan istifadə olunmuşdur:

-Psixodiaqnostik testlər: Şagirdlərin emosional vəziyyəti, motivasiya səviyyəsi, təlim strategiyaları, şəxsiyyət xüsusiyyətləri və adaptasiya göstəricilərinin müəyyən edilməsi üçün istifadə olunub;

-Müşahidə metodu: Təlim prosesi zamanı davranış, kommunikasiya və sosial münasibətlərin təhlili aparılıb;

***Tədqiqatın aprobasiyası:*** Naxçıvan Müəllimlər İnstitutunun elmi əsərlər jurnalında məqalə formasında çap olunub.

Psixoprofilaktika məktəb psixoloqunun fəaliyyətində əsas istiqamətlərdən biri olmaqla şagirdlərin psixi sağlamlığını qorumağa, risk faktorlarını minimallaşdırmağa və münaqişələrin yaranmasının qarşısını almağa yönəlir. Bu iş üç əsas qrupla paralel şəkildə aparılır:

1. Müəllimlərlə psixoprofilaktik iş

Məktəb psixoloqu müəllimlərlə sinifdə psixoloji mühitin yaxşılaşdırılması, şagirdlərdə intizam pozuntularının idarə olunması, aqressiya, hiperaktivlik, autizm spektri xüsusiyyətləri, tənbəllik, diqqət yayınıqlığı kimi problemlərin tanınması, yanaşma strategiyalarının seçilməsi, stresslə işləmə bacarıqlarının inkişafı üzrə maarifləndirici görüşlər keçirir. Davamlı psixoprofilaktik iş nəticəsində müəllimlər daha doğru pedaqoji münasibət formalaşdırır, şagirdlərlə emosional əlaqə güclənir və sinifin psixoloji iqlimi sabitləşir.

2. Valideynlərlə psixoprofilaktik iş

Valideynlərlə iş psixoprofilaktikanın ən mühüm hissəsidir. Psixoloq valideynləri yaş dövrlərinin böhranları, uşağın psixoloji ehtiyacları, ailə mühitinin təsiri, intizam strategiyaları, texnologiya asılılığı, emosional soyuqluq, diqqət çatışmazlığı kimi mövzularda məlumatlandırır. Valideyn yığıncaqları, fərdi görüşlər, maarifləndirici seminarlar vasitəsilə ailələr psixoloji baxımdan daha savadlı olur, uşaqlarla komunikasiya keyfiyyəti artır və problemlərin yaranma ehtimalı azalır.

3. Şagirdlərlə psixoprofilaktik iş

Şagirdlərlə aparılan profilaktik işin istiqamətləri: davranış çətinliklərinin erkən qabaqlanması, emosional tənzimləmənin gücləndirilməsi, sosial bacarıqların inkişafı, münaqişə və zorakılığın qarşısının alınması, məktəb adaptasiyasının dəstəklənməsi, özünütənzimləmə və özünəinamın artırılması kimi sahələri əhatə edir. Risk qrupunda olan uşaqlarla fərdi iş aparılır, qrup məşğələləri və dəstək proqramları tətbiq olunur.

Nəticə olaraq, psixoprofilaktik fəaliyyət məktəb psixoloqunun ən vacib istiqamətlərindən biridir və bu fəaliyyətin sistemli şəkildə aparılması məktəbdə sağlam psixoloji mühitin formalaşmasına, müəllim-şagird-valideyn münasibətlərinin yaxşılaşmasına və şagirdlərin sosial-emosional inkişafının dəstəklənməsinə mühüm töhfə verir.

## Bölmə 7. Psixologiya

## Kafedra: Pedaqogika və psixologiya

**Ülviyyə Fətəliyeva**
*Fəlsəfə doktoru hazırlığı üzrə doktorant*
*Müəllim*
*Ulviyyefeteliyeva@nmi.edu.az*

# Müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının qiymətləndirilməsi və inkişaf yolları

***Tədqiqatın məqsədi:*** Bu tədqiqatın əsas məqsədi, ümumi təhsil müəssisələrində çalışan müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının cari vəziyyətini sistemli şəkildə müəyyən etmək, bu bacarıqların müxtəlif komponentləri üzrə (şifahi, qeyri-şifahi, yazılı, dinləmə və empatiya) güclü və zəif tərəflərini aşkar etmək, və həmin bacarıqların inkişaf etdirilməsi üçün praktik və səmərəli yollar təklif etməkdir.

Müəllimlər arasında demoqrafik (təcrübə, yaş, ixtisas, məktəb növü və s.) və təşkilati (məktəb mühiti, mentor dəstəyi, təlim imkanları və s.) faktorların bu bacarıqların səviyyəsinə təsirini təhlil etmək; Müəllimlərin, həmkarların və şagirdlərin/valideynlərin perspektivindən müəllim ünsiyyət bacarıqlarının təsir etdiyi sahələri (məsələn, dərsə aktivlik, şagird motivasiyası, məktəb-valideyn əməkdaşlığı) araşdırmaq; Müəllimlərin peşəkar ünsiyyət bacarıqlarını artırmaq üçün konkret inkişaf yolları (seminarlar, mentorluq, texnologiyadan istifadə və s.) təklif etmək və onların tətbiq imkanlarını qiymətləndirmək; Beləliklə, bu tədqiqat müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının situasiyasını aşkarlamaqla yanaşı, məzmun-əsaslı və praktiki yönümlü tövsiyələr təqdim etmək məqsədini daşıyır. Bu yolla müəllimlərin peşəkar inkişafına, tədrisin keyfiyyətinin yüksəldilməsinə və təhsil sisteminin daha səmərəli fəaliyyətinə töhfə verilməsi nəzərdə tutulur.

***Aktuallığının əsaslandırılması:*** Müasir təhsil mühitində müəllimin rolu yalnız bilik ötürmək deyil; o, həm də sinif daxilində və məktəbin ictimai-peşəkar sahələrində effektiv ünsiyyət yaradaraq tədrisin keyfiyyətinə birbaşa təsir göstərən əsas amildir. Texnologiyaların sürətli inkişafı, tədris metodlarının dəyişməsi və şagirdlərin sosial-emosional ehtiyaclarının artması nəticəsində müəllimlərdən yüksək səviyyədə kommunikasiya bacarıqları — şifahi və yazılı ifadə, dinləmə, konfliktlərin idarə edilməsi, empatiya və rəqəmsal kommunikasiya vasitələrindən məharətlə istifadə — tələb olunur. Buna baxmayaraq, ölkəmizdə müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının sistemli qiymətləndirilməsi və bu bacarıqların inkişafına yönəlmiş davamlı təlim strategiyaları hələ geniş miqyasda tətbiq olunmayıb.

Bu tədqiqatın aktuallığı bir neçə əsas səbəblə müəyyən edilir. Birincisi, keyfiyyətli ünsiyyət müəllim-şagird münasibətlərini gücləndirir, sinif idarəçiliyini asanlaşdırır və təlim nailiyyətlərini yüksəldir; buna görə də ünsiyyət bacarıqları təhsil sisteminin strateji prioritetinə çevrilməlidir. İkincisi, müəllimlərin peşəkar inkişaf proqramlarında ünsiyyət bacarıqlarının ölçülməsi üçün standartlaşdırılmış qiymətləndirmə alətləri və qiymətləndirmə mexanizmləri məhduddur; bu boşluq peşəkar təlimin effektivliyini məhdudlaşdırır. Üçüncüsü, qlobal təcrübələr göstərir ki, müəllimlərin kommunikasiya səriştələrinin inkişafı tələbələrin sosial və akademik inkişafına müsbət təsir göstərir; bu isə ölkəmizdə təhsilin beynəlxalq rəqabət qabiliyyətinin artırılması üçün vacibdir.

Bu səbəblə tədqiqat müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının sistemli qiymətləndirilməsi üçün metodologiya hazırlamağı, mövcud təlim proqramlarını analiz edib inkişaf planları təklif etməyi və nəticələrin məktəb-şəbəkə səviyyəsində tətbiqini məqsəd qoyur. Nəticədə, tədqiqat həm pedaqoji

praktikanın keyfiyyətini yüksəltməyə, həm də peşəkar inkişafın davamlı mexanizmlərinin formalaşmasına töhfə verəcəkdir.

***Tədqiqatın metod və üsulları:*** Bu araşdırmada müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının mövcud vəziyyətini öyrənmək, onların inkişafına təsir edən amilləri müəyyənləşdirmək və effektiv təkliflər formalaşdırmaq məqsədilə bir neçə tamamlayıcı tədqiqat metodu tətbiq edilmişdir. Metod seçimi həm nəzəri əsasların geniş təhlilinə, həm də real məktəb mühitində müşahidə olunan tədris-ünsiyyət prosesinə uyğunlaşdırılmışdır.

Nəzəri-metodoloji analiz

Tədqiqatın ilk mərhələsində yerli və xarici müəlliflərin pedaqoji kommunikasiya, müəllim–şagird qarşılıqlı əlaqəsi, peşəkar kompetensiyalar və təhsil psixologiyası ilə bağlı əsərləri sistemli şəkildə araşdırılmışdır. Elmi mənbələrin analiz edilməsi müəllim ünsiyyətinin strukturunu, səriştə tiplərini və beynəlxalq qiymətləndirmə modellərini müəyyənləşdirməyə imkan vermişdir.

Müşahidə metodu

Tədqiqat çərçivəsində bir neçə dərs prosesinin qeyri-invaziv müşahidəsi aparılmışdır. Müşahidə zamanı müəllimin şagirdlərlə ünsiyyət tərzi, dərs zamanı geri bildirim forması, sinif idarəçiliyində nitqin rolu və qeyri-verbal kommunikasiya elementləri (jestlər, mimika, göz kontaktı) qeydə alınmışdır. Bu üsul real pedaqoji prosesdə baş verən ünsiyyət nümunələrini daha obyektiv şəkildə qiymətləndirməyə imkan yaratmışdır.

Müsahibə metodu

Dərinləşmiş məlumat əldə etmək üçün seçilmiş müəllimlərlə yarı-strukturlaşdırılmış müsahibələr aparılmışdır. Müsahibələr müəllimlərin öz ünsiyyət bacarıqlarına dair subyektiv fikirlərini, qarşılaşdıqları çətinlikləri və ehtiyac duyduqları təlim istiqamətlərini müəyyənləşdirməyə imkan vermişdir.

Təhlil və sintez

Toplanan məlumatlar müqayisə olunmuş, kateqoriyalara bölünmüş və ümumiləşdirilmişdir. Nəticələr əsasında müəllimlər üçün ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi üzrə tövsiyələr və praktiki təlim istiqamətləri hazırlanmışdır.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Bu tədqiqat müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının qiymətləndirilməsi və inkişafı məsələsinə yeni yanaşma gətirməsi ilə fərqlənir. Mövzu ilə bağlı mövcud tədqiqatlar əsasən ümumi pedaqoji kommunikasiya modellərini təsvir etməklə məhdudlaşır. Lakin aparılan bu araşdırma müəllim ünsiyyətini yalnız nəzəri çərçivədə deyil, həm də real məktəb mühitində müşahidə olunan kommunikasiya nümunələri əsasında analiz etməsi ilə seçilir.

Tədqiqatın orijinallığı ondan ibarətdir ki, müəllimlərin ünsiyyət bacarıqları ilk dəfə olaraq nəzəri, empirik və praktik yanaşmaların inteqrasiyası əsasında, müəllimlərin özünüdəyərləndirməsi, müşahidə və müsahibələrin birlikdə analizi ilə,
həm verbal, həm də qeyri-verbal kommunikasiya komponentlərini əhatə edən kompleks model üzrə qiymətləndirilmişdir.

Bu yanaşma əvvəlki araşdırmalardan fərqli olaraq müəllim ünsiyyətinin yalnız nitq səriştəsi ilə deyil, həm də emosional münasibətlər, sosial adaptasiya, sinif mühiti və rəqəmsal ünsiyyət bacarıqları ilə sıx bağlı olduğunu göstərmişdir.

Tədqiqatın elmi yeniliyini aşağıdakı məqamlar təşkil edir:

Müəllimlər üçün 4 komponentdən ibarət yeni ünsiyyət modeli təklif edilmişdir:

Pedoqoji nitq səriştəsi (açıqlıq, sadəlik, məntiq)

Qeyri-verbal kommunikasiya (jest, mimika, göz kontaktı)

Emosional-etik ünsiyyət (empatiya, dəstək, motivasiya)

Rəqəmsal kommunikasiya bacarıqları (online dərsdə ünsiyyət strategiyaları)

Bu model yerli təhsil mühitinin reallıqlarına uyğunlaşdırılmış ilk yanaşmalardan biridir.

Müəllim ünsiyyətinin qiymətləndirilməsi üçün yeni indikatorlar hazırlanmışdır.

Tədqiqat çərçivəsində müəllim və şagird münasibətlərini, dərs prosesində nitqin idarə olunmasını və konfliktlərin kommunikasiya vasitəsilə həllini ölçən praktiki qiymətləndirmə meyarları təqdim olunmuşdur. Ünsiyyət problemlərinin səbəblərini aşkar edən analitik çərçivə hazırlanmışdır.

Bu çərçivə müəllimlərin ünsiyyət çatışmazlıqlarının psixoloji, təşkilati və metodiki səbəblərini sistemləşdirərək yeni elmi nəticə kimi təklif olunur. Müəllimlər üçün tətbiq oluna bilən inkişaf strategiyaları işlənmişdir.

Tədqiqat nəticəsində müəllim ünsiyyətinin inkişafına yönəlmiş təlim modulları, praktik məşqlər, sinif mühiti üçün kommunikativ texnikalar təklif edilmişdir ki, bu da araşdırmanın tətbiqi əhəmiyyətini artırır.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Bu tədqiqatın nəticələri təhsil sistemində çalışan müəllimlərin peşəkar fəaliyyətinin daha səmərəli təşkil olunmasına birbaşa praktik töhfə vermək potensialına malikdir. Apardığımız araşdırmada müəyyənləşdirilən meyarlar və tövsiyələr həm müəllimlərin ünsiyyət bacarıqlarının qiymətləndirilməsi, həm də bu bacarıqların planlı şəkildə inkişafı üçün tətbiq oluna bilən konkret mexanizmlər təklif edir.

Tədqiqatın praktiki əhəmiyyəti ilk növbədə təhsil müəssisələrində, dərs prosesində tələbə–müəllim ünsiyyətinin keyfiyyətinin yüksəldilməsi ilə bağlıdır. Burada təqdim olunan alətlər və təkliflər müəllimlərin özünüqiymətləndirmə prosesinə, dərs müşahidələrinin aparılmasına və ünsiyyət mədəniyyətinin təkmilləşdirilməsinə real imkan yaradır.

Bununla yanaşı, tədqiqatın nəticələri müəllim hazırlığı ilə məşğul olan pedaqoji ali məktəblərdə tədris olunan “Pedaqoji ünsiyyət”, “Müəllim fəaliyyətinin psixologiyası”, “Müasir müəllimin kompetensiyaları” kimi fənlərdə tədris materialı kimi istifadə oluna bilər. Burada irəli sürülən yanaşma və modellər tələbə-müəllimlərin praktik bacarıqlarının inkişafına şərait yaradır.

Həmçinin, araşdırmanın tövsiyələri təhsil idarəetməsi orqanları üçün də aktualdır. Müəllimlərin fəaliyyətinə dair monitorinqlərdə, diaqnostik qiymətləndirmələrdə, eləcə də müəllimlərin peşəkar inkişaf proqramlarının hazırlanmasında bu tədqiqatda formalaşdırılmış meyarlar tətbiq oluna bilər.

Tədqiqat nəticələrinin müəllimlərin peşəkar inkişafı üzrə təlimlərdə, seminar və treninqlərdə də istifadə edilməsi mümkündür. Ünsiyyət bacarıqlarının inkişaf istiqamətləri və praktik nümunələr müəllimlərin gündəlik fəaliyyətinə uyğunlaşdırıla biləcək real metodik baza yaradır.

***Nəticə:*** Aparılmış araşdırma müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının tədris prosesində oynadığı həlledici rolu bir daha təsdiq etmişdir. Tədqiqatın nəticələri göstərir ki, müəllimin kommunikasiya mədəniyyəti yalnız bilik ötürməyin texniki vasitəsi deyil, həm də sinifdə psixoloji iqlimin formalaşmasını, şagirdlərin motivasiya səviyyəsini və ümumi tədris keyfiyyətini müəyyən edən əsas faktordur. Məlum olmuşdur ki, müəllimlərin ünsiyyət bacarıqlarında mövcud olan çətinliklər çox vaxt metodiki hazırlığın qeyri-kafiliyi, emosional yüklənmə, sinif idarəçiliyi ilə bağlı stress və rəqəmsal kommunikasiya vərdişlərinin yetərsizliyi ilə əlaqəlidir. Bununla yanaşı, əldə edilən nəticələr göstərmişdir ki, müəllimlər özlərinin ünsiyyət bacarıqlarını inkişaf etdirməyə maraqlı, yeniliyə açıq və öz fəaliyyətini təkmilləşdirməyə motivasiyalıdırlar.

Tədqiqat çərçivəsində aparılan müşahidə, sorğu və müsahibə nəticələri müəllim ünsiyyətinin dörd əsas komponentdən — pedaqoji nitq, qeyri-verbal ünsiyyət, emosional-etik münasibət və rəqəmsal kommunikasiya bacarıqlarından ibarət kompleks bir sistem olduğunu göstərmişdir. Bu

komponentlərin bir-biri ilə qarşılıqlı təsiri müəllimin peşəkar fəaliyyətində həm səmərəli təlim mühiti yaradır, həm də şagirdlərin sosial-emosional inkişafına töhfə verir.

Nəticə olaraq demək olar ki, müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının sistemli şəkildə qiymətləndirilməsi və inkişaf etdirilməsi təhsil prosesinin keyfiyyətinin yüksəldilməsi üçün strateji əhəmiyyət daşıyır. Bu məqsədlə təklif edilən yeni qiymətləndirmə meyarları, kompleks kommunikasiya modeli və inkişaf strategiyaları məktəblərdə pedaqoji fəaliyyəti daha səmərəli, qarşılıqlı anlaşmaya əsaslanan və məqsədyönlü hala gətirməyə imkan verir. Hazırlanmış tövsiyələr müəllimlərin peşəkar inkişaf proqramlarında tətbiq oluna bilər və praktik pedaqoji fəaliyyət üçün real dəstək mexanizmi kimi çıxış edir. Bu səbəbdən tədqiqatın nəticələri təhsil müəssisələri, təlim mərkəzləri və müəllim hazırlığı ilə məşğul olan qurumlar üçün əhəmiyyətli nəzəri və praktik dəyər kəsb edir.

## Bölmə 7. Psixologiya

## Kafedra: Pedaqogika və psixologiya

**Ayxan Hüseynli**
*Fəlsəfə doktoru hazırlığı üzrə doktorant*
*Müəllim*
*AykhanHuseynli@nmi.edu.az*

# Analoji tədqiqat psixoloji biliyin əqli nəticəsi kimi

**Tədqiqat işinin aktuallığı** ona əsaslanır ki, müasir elmi yanaşma kəmiyyət xüsusiyyətləri ilə deyil, keyfiyyət xüsusiyyətləri ilə hesablanır. Yəni, biliyin əhəmiyyəti bacarıq səviyyəsində öz əksini tapmasındadır. Ona görə də, yerinə yetirilən tədqiqat işi müasir biliyin psixoloji təhlilinə ehtiyac duyur. Bir baxıma, bilik psixoloji bilik səviyyəsinə yüksəlməklə, əhəmiyyət kəsb etməyə başlayır ki, düzgün əqli nəticə reallaşa bilsin.

**Tədqiqat işinin məqsədi** məktəb təcrübəsində psixoloji biliyin formalaşmasını və icra mexanizmini müəyyən etməkdən, analoji tədqiqatın məktəb səviyyəsində ümumi xarakteristikasını və uşaqların psixoloji xüsusiyyətlərini üzə çıxarmaqdan, yarana biləcək çətinliklərin həlli üzrə işin elmi-pedaqoji, elmi-psixoloji əsaslarının sistemini yaratmaqdan ibarətdir.

**Tədqiqat işinin vəzifələri:** Qarşıya qoyulmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- problemlə əlaqədar nəzəri, pedaqoji, psixoloji və metodik ədəbiyyatı təhlil etmək;
- respublikada bu istiqamətdə aparılmış təcrübələri araşdırmaq;
- Məktəblilərdə psixoloji biliyin öyrənilməsi üzrə müxtəlif icra mexanizmlərini araşdırmaq, səmərəli yollarını tapmaq;
- Analoji tədqiqatda psixoloji biliyin öyrənilməsi və əqli nəticəsini verilməsinə dair iş sistemini işləyib hazırlamaq;
- İşin icrası üzrə qiymətləndirmə meyarlarını hazırlamaq.

**Tədqiqatın metodoloji əsası** pedaqoji, psixoloji faktlardan, proses və hadisələrin mənimsənilməsi və yenilənməsi istiqamətində tətbiq olunan elmi-nəzəri ideyaların qaydaların, prinsiplərin, məqsədəmüvafiq metod və vasitələrin birlikdə tətbiqi təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılarla müəyyən olunur:

- Analoji tədqiqatın təsnifatları, psixoloji və pedaqoji təzahürləri, məktəblinin öyrənmə mexanizminin formalaşmasına təsiri bir tədqiqatın işində kompleks şəkildə öyrənilir;
- Azərbaycanda bu istiqamətdə təcrübələrin yenidən işlənməsi araşdırılır;
- Aparılmış tədqiqat işinin kompleks şəkildə aparılmasının yollarını və istiqamətlərini müəyyən edərək, şagirdlərin psixoloji xüsusiyyətlərini nəzərə almaqla, differensasiya etməklə, onlara fərdi yanaşmada müəllimlərə kömək edə biləcək səviyyədə işlənib hazırlanmışdır:
- Məktəblərdə bu sistemi təkmilləşdirilmiş və onun əsasında şagirdlərə məşğul olmaq üçün məşğələlər sistemi tərtib olunmuşdur.

**Tədqiqatın tətbiq sahələri ondan ibarətdir ki,** psixoloji biliyin vacibliyi diqqət mərkəzinə çevirərək, müəllimlərə icra mexanizmini və yollarını göstərməkdən ibarətdir. Tədqiqatdan irəli gələn yeni elmi-nəzəri ideyalar məktəb təcrübəsini nəzəri və praktik cəhətdən zənginləşdirəcəkdir.

Məhz, bu baxımdan analoji tədqiqatda əvvəlcədən qazanılmış bilik və bacarıqları nəzərdən keçirmədən, həmin bilik və bacarıqların səviyyə və dərəcəsini müəyyənləşdirmədən, yeni bilik və bacarıqların aşılanmasına ehtiyac duyulmur. İlk növbədə, bu prosesə həm öyrədənin, həm də

öyrənənin şüurlu münasibət bəsləməsi vacibdir. Şüurlu münasibət öyrənməni asanlaşdırır, tətbiq etmənin isə məqsədəuyğun gerçəkləşməsinə kömək edir.

Analoji tədqiqatda öyrənməyə şüurlu münasibəti aşağıdakı əhəmiyyətli cəhətləri nəzərə almaqla, təmin etmək mümkündür:

1. Keçmiş biliklə öyrənilən bilik arasında ilk olaraq, anlama əlaqəsinin yaradılmasıdır. Yəni, anlayır və qəbul edir ki, yeni öyrəndiyi bilik, əvvəl öyrənilən biliyin əsasında qurulur.
2. Əvvəlki biliyin davamlı xatırlanması, növbəti mərhələdə ona lazım ola biləcək ehtimalını unutmamaqdır. Məntiqi olaraq, nəzərə almaq lazımdır ki, əvvəlcədən qazanılmış bilik və bacarıqlar məlum kimi, yeni məchulu öyrənməsində düzgün istiqamət verməklə, müsbət təsirini göstərəcəkdir.
3. Öyrənilən biliklərin yeniyə aid oxşar cəhətlərini seçib müəyyənləşdirmək, yeninin spesifik xüsusiyyətlərini aydınlaşdırmaqla, əvvəlki ilə şüurlu müqayisəsini aparmaqla, məhfum və anlayışların möhkəm mənimsənilməsinə xidmət edir.
4. Şagirdlər əvvəl öyrəndiyi biliklərindən istifadə etdikcə, faydasını bildikcə, təlimə şüurlu münasibəti artır, marağı yüksəlir və sistemli bilik öyrənməyə, öyrəndiyini həmişə yadında saxlamağa çalışır.

Nəticə etibarı ilə qeyd etmək olar ki, biliklərin mənimsənilməsinin təbii yolla aparılmasına xüsusi diqqət yetirmək lazımdır. Onsuzda uşaq ilk dəfə məktəbə gəlməsinə baxmayaraq, ona yeni bir şey verilmir. Uşaq ilk dəfə məkətəbə qədəm qoyarkən, sadəcə onun nitq bacarıqları təhlil olunur. Yəni, uşaq ilə icra olunan əsas proses plansız və nizamsız fəaliyyəti, şüurluluq səviyyəsinə qaldırmaq, bilikləri isə sistemə salmaqdır. Buradan belə bir qənaətə gəlmək olar ki, şagirdlərin özünəməxsus bilik və bacarıqlarının zəminində, onlara verilən elmi bilik və bacarıqlar formalaşa bilsin. Bu zaman, psixoloji hazırlığın (biliyin) əqli nəticəsi özünü göstərir. İşin bu formada cərəyan etməsi, təlimdə analoji tədqiqatın xüsusi rolunu ön plana çıxarmaqla, psixoloji biliyin təhlilini, müqayisəsini aparmaqla, əvvəlki biliklə indiki bilik arasında psixoloji meyarların effektiv gücündən istifadə etməklə, zehni imkanların genişlənməsinə və əqli nəticənin uğurlu şəkildə gerçəkləşməsinə gətirib çıxarır.

## Bölmə 8. Xarici dillər və tədrisi metodikası

## Kafedra: Xarici dillər və tədrisi metodikası

**Bəyim Tarverdiyeva**
*Kafedra müdiri, baş müəllim*
*BayimTarverdiyeva@nmi.edu.az*

# Lüğətin tədrisinə verilən proqram tələbləri və tədrisində istifadə olunnan üsullar

**Tədqiqatın məqsədi.** Dil öyrənənlərə sözlərin mənasını, istifadə qaydalarını və onların arasındakı əlaqələri başa salmaqdır. Lüğət tədrisi aşağıdakı məqsədləri daşıyır: tələbələrə müxtəlif mövzularda və kontekstdə istifadə oluna bilən sözləri öyrətmək, onların söz ehtiyatını genişləndirmək, tələbələrin nitqində düzgün və zəngin ifadələrdən istifadə etmələrini təmin etmək, lüğət vasitəsilə hər bir sözün mənasını, sinonimlərini, antonimlərini, tələffüzünü və kontekstual istifadəsini öyrətmək. Beləki, lüğət dilin qrammatik və sintaktik strukturlarını başa düşməyə kömək edir. Lüğət vasitəsilə sözlərin cümlədə necə işlədiyini və müxtəlif dil formalarının (fel, isim, sifət və s.) necə istifadə edildiyini öyrənmək mümkündür. Xüsusilə xarici dil öyrənənlər üçün lüğət vasitəsilə sözlərin tərcüməsi və tərcümə etmə qabiliyyətinin inkişaf etdirilməsi mümkündür.Ümumiyyətlə, lüğətin tədrisi dilin incəliklərini və zənginliyini başa düşməyə imkan verir.

**Aktuallığının əsaslandırılması**. Hal-hazırda dil öyrənmə prosesində lüğətin tədrisi çox aktualdır, çünki dil öyrənmə və kommunikasiya bacarıqları həyatımızın müxtəlif sahələrində mühüm rol oynayır. Lüğətin tədrisi fərqli dillərdə və mədəniyyətlərdə daha yaxşı əlaqə qurmağa kömək edir. Tələbələr və dil öyrənənlər üçün lüğət dilin təməlini təşkil edən ən vacib vasitələrdən biridir. Dilin zənginliyini, ifadə gücünü artırmaq və effektiv kommunikasiya qurmaq üçün geniş lüğət ehtiyyatına malik olmaq vacibdir. Lüğətin tədrisi tələbələrin yazılı və şifahi nitqini gücləndirir, həmçinin oxu və anlama bacarıqlarını inkişaf etdirir. Hal-hazırda rəqəmsal alətlər və mobil tətbiqlər tələbələrə daha rahat və sürətli öyrənmə imkanı təqdim edir. Qeyd olunan tətbiqlər vasitəsilə hər gün yeni sözlər öyrənmək, sözlərin tələffüzünü dinləmək və kontekstdə necə istifadə edildiyini görmək mümkündür. Lüğətin tədrisi insanlara müxtəlif mədəniyyətləri anlamağa və onlara daha dərindən başa düşməyə imkan verir. Tələbələrin lüğət vasitəsilə müstəqil öyrənmə qabiliyyətini artırır, çünki onlar yeni sözləri, ifadələri və terminləri müəyyən edə və istifadə edə bilirlər. Bu tələbələrin kreativ düşünmə və problemləri həll etmə qabiliyyətini artırır. Lüğətin tədrisi yalnız dil öyrənənlər üçün deyil, ümumilikdə bütün insanlar üçün vacib bir bacarıqdır. Bu gün qlobal mühitdə effektiv kommunikasiya qurmaq, təhsil sahəsində müvəffəqiyyət qazanmaq və peşəkar həyatda irəliləmək üçün lüğətə əsaslanmış dil tədrisi daha aktualdır və texnologiyanın inkişafı ilə bu tədrisin daha geniş və əlverişli resurslarla dəstəklənməsi mümkündür.

**Tədqiqatın metod və üsulları.** Lüğətin tədrisində istifadə olunan metodlar tələbələrin söz ehtiyatını artırmağa, yeni sözləri düzgün və effektiv şəkildə mənimsənilməsinə kömək edir və dilin öyrənilməsi və inkişaf etdirilməsi prosesində mühüm rol oynayır.. Lüğətin tədrisi həmçinin dilin müxtəlif aspektlərini (sözün mənası, tələffüzü, istifadə qaydaları, kontekstdə mənası və s.) öyrənməyə imkan verir. Bu məqsədlə bir neçə müxtəlif metod və üsuldan istifadə olunur. Tələbələr hər bir yeni sözü və onun mənasını yadda saxlamaq üçün lüğət kitablarından istifadə edə bilərlər. Bu halda tələbələr sözləri yazaraq onların mənalarını öyrənir və təkrarlayır. Lüğətin tədrisində qrup müzakirələri vasitəsilə sözlərin mənası, sinonimləri, antonimləri və kontekstdəki istifadəsi müzakirə edilir. Müəllimlər və tələbələr müəyyən müddət ərzində öyrəniləcək sözlər təyin edirlər. Hər həftə yeni sözlər öyrənilir və əvvəlki sözlər təkrarlanır. Sözləri kontekstdə öyrənmək onların yalnız mənalarını öyrənmək deyil, həm də onların cümlələrdə və gündəlik həyatda necə istifadə olunduğunu öyrənmək çox vacibdir. Bu metod tələbəyə sözlərin müxtəlif kontekstlərdə necə işlədiyini göstərir.

Hər bir yeni söz üçün tələbələr öz qeydlərini apara, sözün müxtəlif kontekstlərdə istifadəsi ilə bağlı nümunələr göstərə bilərlər. Yeni sözlər və anlayışlar üçün şəkillər və qrafiklərdən istifadə edərək öyrənmək çox effektiv ola bilər. Məsələn, bir heyvanın adı ilə onun şəkilini göstərmək və ya bir obyekti təmsil edən rəsmlər vasitəsilə yeni sözləri izah etmək daha uyğundur. Sözlər və onların sinonimləri, antonimləri və əlaqəli anlayışları arasında əlaqəni vizual olaraq göstərmək məqsədilə diaqramlar və sxemlərdən istifadə edilə bilər. Lüğətin tədrisi oyunlar vasitəsilə daha maraqlı və təsirli hala gətirilə bilər. Məsələn, krossvordlar, söz tapmacaları və ya kartlar vasitəsilə öyrənilən sözləri yadda saxlamaq daha asandır. Bu gün texnologiyanın inkişafı ilə lüğət öyrənmək çox asandır. Mobil tətbiqlər və veb saytlar vasitəsilə tələbələr yeni sözlər öyrənə bilər, bu vasitələr interaktiv və oyunlaşdırılmış yanaşmalarla tədrisi daha əyləncəli və effektiv edir.Tələbələr audio və video dərslər vasitəsilə həm tələffüzü, həm də sözlərin istifadə qaydalarını öyrənə bilərlər. Lüğətin tədrisinin metod və üsulları çox müxtəlif və zəngindir. Tələbənin ehtiyaclarına uyğun fərqli yanaşmalar tətbiq etməklə, lüğətin tədrisini daha effektiv etmək olar. Müxtəlif metodlardan bir arada istifadə edilməsi, tələbələrin həm nəzəri, həm də praktiki olaraq dil biliklərini inkişaf etdirməsinə kömək edə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** Dil öyrənmə prosesində yeni yanaşmaların, texnologiyanın tətbiqi və nəzəri biliklərin praktiki üsullarla birləşməsi ilə əlaqədardır. Dilin tədrisində lüğətə dair elmi yeniliklər tədrisin effektivliyini artıran yanaşmalarda özünü göstərir. Bu yeniliklər müxtəlif sahələrdəki araşdırmaların və inkişafın nəticəsi olaraq ortaya çıxır və lüğət tədrisini daha məqsədyönlü, interaktiv və texnoloji cəhətdən zəngin edir. Son illərdə mobil tətbiqlər və onlayn platformalar lüğət tədrisinin daha interaktiv və oyunlaşdırılmış formada tədris edilməsini mümkün etmişdir. Bu platformalar, tələbələrə hər gün yeni sözlər öyrətmək, onları kontekstdə istifadə etmək, həmçinin onların təkrarlaması ilə yadda saxlamaq imkanı verir. İnteraktiv dərs materialları və video dərslər, lüğət tədrisində vizual və səsli materialların istifadəsini artırır. Bu metodlar tələbələrin tələffüzünü düzəltməyə, yeni sözləri anlamağa və kontekstdə istifadə etməyə kömək edir. Lüğətin tədrisi, tələbələrin sosial şəbəkələr və onlayn platformalar vasitəsilə təcrübə paylaşmalarını təmin edir. Bu, dil öyrənənlərə daha geniş bir mühitdə sözləri müzakirə etməyə və bir-birinə yeni sözlər öyrətməyə imkan verir. Tələbələr real həyat şəraitində, dil mübadiləsi proqramlarında iştirak etməklə öyrəndikləri sözləri praktikada istifadə edə bilərlər. Lüğətin tədrisinin elmi yeniliyi dil öyrənmə prosesini daha dinamik, fərdiləşdirilmiş və texnoloji cəhətdən zəngin edən inkişafdan ibarətdir. Bu sahədəki yenilikləri texnologiyanın tətbiqi, adaptiv öyrənmə və mədəniyyətlərarası yanaşmalar təşkil edir və dil tədrisini daha interaktiv, maraqlı və effektiv edir. Bu elmi yeniliklər tələbələrə imkan verir ki, onlar dil vasitəsilə daha geniş dünya görüşü və kommunikasiya bacarıqlarını inkişaf etdirsin.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Lüğətin tədrisinin praktiki əhəmiyyəti çox böyükdür, çünki dil öyrənənlərin söz ehtiyatını artırmaq, onların nitq və yazı bacarıqlarını inkişaf etdirmək və gündəlik həyatda və peşəkar mühitdə uğurlu kommunikasiya qurmaq üçün vacibdir. Lüğət tədrisinin praktiki əhəmiyyəti bir neçə əsas istiqamətdə özünü göstərir. Beləki, lüğətin tədrisi dil öyrənənlərin müxtəlif mövzularda daha zəngin və rəngarəng ifadələrdən istifadə etmələrini təmin edir. Bu, onların həm yazılı, həm də şifahi nitqində daha düzgün və təsirli ifadələr işlətmələrinə kömək edir. Zəngin lüğət biliyi tələbələrə və ya dil öyrənənlərə öz fikirlərini daha sərbəst və aydın şəkildə ifadə etməyə imkan verir. Çünki geniş lüğət istifadə etmək fərdin özünü müxtəlif mövzularda daha yaxşı təqdim etməsinə şərait yaradır. Lüğətin öyrənilməsi prosesi beynin uzunmüddətli yaddaşını aktivləşdirərək, daha çox sözün və ifadənin yaddaşda qalmasına kömək edir. Hər yeni söz öyrəndikcə, beynin əlaqəli məlumatları yadda saxlamaq bacarığı güclənir. Yeni sözlərin öyrənilməsi yalnız onların mənası ilə məhdudlaşmır, həmçinin bu sözlərin istifadə olunduğu kontekstlər öyrənilir. Bu, tələbələrin dil biliklərini real həyatda daha səmərəli tətbiq etmələrini təmin edir. Lüğət bilikləri yalnız nitq və yazı

bacarıqları ilə əlaqəli deyil, həm də tələbələrin düşünmə bacarıqlarını inkişaf etdirir. Yeni sözlərin və ifadələrin mənasını başa düşmək və onlardan düzgün istifadə etmək analitik düşünmə və yaradıcı yanaşmalar tələb edir. Lüğət bilikləri tələbələrə və ya dil öyrənənlərə müstəqil şəkildə daha çox söz öyrənmək və dil bacarıqlarını artırmaq imkanı verir. Onlar hər yeni sözü özlərinə uyğun şəkildə təhlil edərək, müxtəlif mənbələrdən istifadə edə bilərlər (kitablar, onlayn resurslar, mobil tətbiqlər və s.). Lüğət bilikləri müxtəlif mədəniyyətlər arasında əlaqə qurmaq, qlobal mühitə inteqrasiya etmək və beynəlxalq təşkilatlarda daha effektiv fəaliyyət göstərmək üçün vacibdir. Beynəlxalq dialoqlarda, müxtəlif ölkələrin insanları ilə daha düzgün və başa düşülən ünsiyyət qurmaq, qarşılıqlı anlaşma və əməkdaşlıq üçün zəngin söz ehtiyatı vacibdir. Lüğətin tədrisinin praktiki əhəmiyyəti çox genişdir və bir çox sahədə öz təsirini göstərir. Dil öyrənənlər üçün zəngin lüğət bilikləri, həm şəxsi həyatlarında, həm də peşəkar mühitlərdə müvəffəqiyyət qazanmaq üçün əvəzsiz bir alətdir. Lüğətin tədrisi yalnız söz ehtiyatını artırmaqla kifayətlənmir, həm də dilin effektiv istifadəsi, mədəniyyətlərarası əlaqə, sosial və akademik uğur, motivasiya və müstəqil öyrənmə kimi əhəmiyyətli aspektləri dəstəkləyir.

**Nəticələr.** Lüğət tədrisinin əsas nəticələri həm fərdi, həm də kollektiv səviyyədə dil öyrənmə prosesinin nə dərəcədə uğurlu olduğunu və tədris metodlarının effektivliyini göstərir. Tələbələrin müxtəlif sahələrdə istifadə olunan xüsusi terminologiyanı öyrənmələri onların peşəkar və akademik işlərində də müvəffəqiyyətli olmalarını təmin edir. Lüğətin düzgün tədrisi tələbələrin nitqində daha çox və doğru söz istifadəsini təmin edir. Bu onların həm şifahi, həm də yazılı kommunikasiya bacarıqlarını artırır. Təkrarlama və müxtəlif metodlar vasitəsilə (məsələn, kartlar, oyunlar, diaqramlar) tələbələr yeni sözləri müntəzəm olaraq təkrarlayır və bu da onların uzunmüddətli yaddaşda daha yaxşı qalmasına şərait yaradır. Sözlərin müxtəlif kontekstlərdə istifadəsi onların yaddaşda möhkəmlənməsini təmin edir. Kontekstual öyrənmə, yeni sözlərin və ifadələrin yadda qalmasına və real həyatda istifadə edilməsinə imkan verir. Lüğətin tədrisi prosesində tələbələr, yalnız sözlərin mənalarını deyil, həm də onların müxtəlif kontekstlərdə necə istifadə olunduğunu başa düşürlər. Bu, onlara dilin incəliklərini və xüsusiyyətlərini anlamağa kömək edir. Zəngin lüğət bilikləri, tələbələrin mürəkkəb mövzuları müzakirə etməkdə özünə inamını artırır. Onlar daha çətin və müxtəlif mövzulara aid sözləri öyrənməklə, müxtəlif intellektual müzakirələrdə iştirak edə bilirlər. Lüğətin tədrisi tələbələrin akademik uğuruna müsbət təsir göstərir. Geniş söz ehtiyatı və yaxşı inkişaf etmiş dil bilikləri, tələbələrin yazılı və şifahi imtahanlarda daha yüksək nəticələr əldə etmələrinə kömək edir. Lüğətin tədrisi beynəlxalq mühitdə, xüsusilə müxtəlif mədəniyyətlərdən olan insanlarla ünsiyyət qurmağa kömək edir. Söz ehtiyatının zəngin olması, fərqli dillərdə və mədəniyyətlərdə daha effektiv ünsiyyət qurmağa şərait yaradır. Lüğətin tədrisi yalnız dil bacarıqlarını deyil, həm də tələbələrin analitik və intellektual bacarıqlarını inkişaf etdirir. Yeni sözlərin öyrənilməsi və onların təhlil edilməsi, tələbələrin daha dərindən düşünmələrinə kömək edir. Lüğətin tədrisinin nəticələri geniş və çoxşaxəlidir. Bu, yalnız dil öyrənənlərin söz ehtiyatını artırmaqla kifayətlənmir, həm də onların ümumi dil bacarıqlarını, kommunikasiya qabiliyyətlərini, akademik uğurlarını və şəxsi inkişaflarını da təkmilləşdirir. Lüğətin tədrisi həmçinin mədəniyyətlərarası əlaqələri gücləndirir və beynəlxalq mühitdə daha effektiv ünsiyyət qurmağa imkan verir.

## Bölmə 8. Xarici dillər və tədrisi metodikası

## Kafedra: Xarici dillər və tədrisi metodikası

**Qurban Qurbanlı**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*GurbanliGurban@nmi.edu.az*

# Müasir təhsil texnologiyalarının təsnifatı və rus dilinin xarici dil kimi öyrədilməsində tətbiqi məsələləri

**Tədqiqatın məqsədi.** Tədqiqatın əsas məqsədi təhsil texnologiyalarını tətbiq səviyyəsinə, məzmun və məqsəd yönümünə, eləcə də texnoloji (instrumental) xüsusiyyətlərinə görə sistemli şəkildə təsnif etmək və bu təsnifatın pedaqoji prosesdə rolunu əsaslandırmaqdır. Eyni zamanda məqsəd müxtəlif səviyyəli və yönümlü texnologiyaların qarşılıqlı əlaqəsini müəyyənləşdirmək, onların müasir təhsil mühitində tətbiq imkanlarını elmi-nəzəri baxımdan təhlil etməkdir.

**Aktuallığının əsaslandırılması**. Müasir dövrdə təhsil sisteminin inkişafı rəqəmsallaşma, qloballaşma və bilik cəmiyyətinin formalaşması ilə sıx bağlıdır. Bu proseslər təhsil qarşısında yeni keyfiyyət tələbləri qoyur və təhsil texnologiyalarının elmi əsaslarla seçilməsi, sistemləşdirilməsi və tətbiqini zəruri edir. Təhsil texnologiyalarının təsnifatı pedaqoji prosesin məqsədyönlü təşkili, idarə olunması və qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Xüsusilə müasir innovativ və rəqəmsal mühitdə müxtəlif texnologiyaların tətbiq imkanlarının elmi təhlili təhsilin keyfiyyətinin yüksəldilməsi üçün aktual elmi problem kimi çıxış edir.

**Tədqiqatın metod və üsulları.** Tədqiqat işində təhsil texnologiyalarının təsnifatı və pedaqoji prosesdə tətbiq imkanlarının araşdırılması məqsədilə kompleks nəzəri metodlardan istifadə edilmişdir. İlk növbədə, pedaqoji və psixoloji ədəbiyyatın təhlili aparılmış, yerli və xarici müəlliflərin elmi əsərləri müqayisəli şəkildə öyrənilmişdir. Təhsil texnologiyalarının tətbiq səviyyəsi, məzmun və məqsəd yönümü, eləcə də instrumental xüsusiyyətləri ilə bağlı mövcud yanaşmalar sistemləşdirilmiş və ümumiləşdirilmişdir.

Müqayisəli təhlil metodu vasitəsilə müxtəlif təsnifat modelləri qarşılaşdırılmış, onların oxşar və fərqli cəhətləri müəyyənləşdirilmişdir. Sistemli yanaşma əsasında təhsil texnologiyalarının pedaqoji prosesdə funksional rolu kompleks şəkildə araşdırılmışdır. Analitik-sintetik metod vasitəsilə əldə olunan elmi müddəalar ümumiləşdirilmiş, nəticəyönümlü qənaətlər formalaşdırılmışdır.

Bundan əlavə, müasir rəqəmsal və innovativ texnologiyaların təhsildə tətbiqi istiqamətində beynəlxalq hesabatlar və strateji sənədlər təhlil olunmuş, onların milli təhsil mühiti üçün praktik əhəmiyyəti qiymətləndirilmişdir. Əldə olunan nəticələr elmi-nəzəri əsaslandırma və pedaqoji interpretasiya yolu ilə sistemləşdirilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi**. Tədqiqatın orijinallığı təhsil texnologiyalarının üç əsas istiqamət – tətbiq səviyyəsi, məzmun və məqsəd yönümü, eləcə də instrumental xüsusiyyətlər üzrə kompleks şəkildə sistemləşdirilməsindədir. İşdə bu təsnifat yanaşmaları ayrı-ayrılıqda deyil, qarşılıqlı əlaqədə və vahid pedaqoji sistem çərçivəsində təhlil edilmişdir.

Elmi yenilik ondan ibarətdir ki, müasir rəqəmsal, adaptiv, süni intellekt əsaslı və immersiv texnologiyalar klassik pedaqoji yanaşmalarla müqayisəli şəkildə təqdim olunmuş, onların təlimin keyfiyyətinə və nəticəyönümlülüyünə təsiri sistemli şəkildə əsaslandırılmışdır. Bu yanaşma təhsil texnologiyalarının nəzəri və praktik aspektlərinin inteqrasiyasını təmin edir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqatın praktik əhəmiyyəti müəllimlərə və təhsil təşkilatçılarına konkret pedaqoji məqsədlərə uyğun texnologiyaların seçilməsi və tətbiqi üçün elmi əsaslar təqdim etməsidir. Təsnifat yanaşmaları təlimin planlaşdırılmasında, metod və vasitələrin

düzgün kombinasiyasında, eləcə də nəticələrin qiymətləndirilməsində metodoloji istiqamətverici rol oynaya bilər. Eyni zamanda iş müasir təhsil mühitində rəqəmsal, distant və adaptiv texnologiyaların tətbiqi imkanlarını sistemləşdirərək təhsilin innovativ inkişafına praktik töhfə verir.

**Nəticələr.** Aparılmış elmi-nəzəri təhlil göstərir ki, təhsil texnologiyalarının təsnifatı müasir pedaqoji prosesin səmərəli təşkili və idarə olunmasında mühüm metodoloji əhəmiyyətə malikdir. Təhsil texnologiyalarının tətbiq səviyyəsinə, məzmun və məqsəd yönümlərinə, eləcə də texnoloji (instrumental) xüsusiyyətlərinə görə qruplaşdırılması təlim prosesinin daha sistemli, məqsədyönlü və nəticəyönümlü şəkildə qurulmasına imkan yaradır. Bu yanaşmalar təhsilin yalnız bilik ötürülməsi funksiyasını deyil, eyni zamanda şəxsiyyətin inkişafı və sosial adaptasiyası missiyasını ön plana çıxarır. Tədqiqat nəticələri göstərir ki, tətbiq səviyyəsinə görə təsnifat təhsil texnologiyalarının pedaqoji fəaliyyətin müxtəlif miqyaslarında necə reallaşdırıldığını aydınlaşdırır. Ümum-pedaqoji səviyyəli texnologiyalar təhsil sisteminin strateji inkişaf istiqamətlərini müəyyən etməklə uzunmüddətli nəticələrin əldə olunmasına xidmət edir. Fənn-metodik səviyyəli texnologiyalar konkret fənlərin didaktik xüsusiyyətlərinə uyğun olaraq təlimin effektivliyini artırır, lokal səviyyəli texnologiyalar isə dərs prosesinin çevikliyini, fərdiləşdirilməsini və operativliyini təmin edir. Bu səviyyələrin qarşılıqlı əlaqədə tətbiqi pedaqoji prosesin bütövlüyünü və davamlılığını şərtləndirir. Məzmun və məqsəd yönümlü təsnifat təhsil texnologiyalarının ideya-dəyər əsaslarını üzə çıxarır. Öyrədici, tərbiyəedici, inkişafetdirici və sağlamlıq qoruyucu texnologiyaların vəhdətdə tətbiqi təhsilin çoxşaxəli mahiyyətini əks etdirir və şəxsiyyətin hərtərəfli inkişafını təmin edir. Eyni zamanda, şəxsiyyətyönümlü, fəaliyyətyönümlü və nəticəyönümlü texnologiyalar təlim prosesində prioritetlərin düzgün müəyyənləşdirilməsinə, təhsilalanların potensial imkanlarının reallaşdırılmasına və planlaşdırılmış nəticələrin əldə edilməsinə şərait yaradır.

Texnoloji (instrumental) təsnifat müasir təhsil mühitində istifadə olunan vasitə və alətlərin pedaqoji prosesə təsirini sistemli şəkildə əks etdirir. Verbal, audiovizual, informasiya-kommunikasiya, distant, adaptiv, süni intellekt əsaslı və immersiv texnologiyaların tətbiqi təlimin keyfiyyətinin yüksəldilməsinə, təhsilin əlçatanlığının artırılmasına və innovativ təlim mühitinin formalaşdırılmasına imkan verir. Bu texnologiyalar müasir dövrdə təhsilin rəqəmsal transformasiyasının əsas komponentləri kimi çıxış edir.

Ümumilikdə, aparılan araşdırma göstərir ki, təhsil texnologiyalarının elmi əsaslarla seçilməsi, məqsədyönlü şəkildə təsnifatı və pedaqoji prosesdə səmərəli tətbiqi təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsində həlledici rol oynayır. Müasir təhsil sistemində müxtəlif təsnifat yanaşmalarının inteqrasiyası dayanıqlı, çevik və nəticəyönümlü təlim mühitinin formalaşdırılmasına imkan yaradır və bu istiqamətdə aparılan elmi araşdırmaların aktuallığını daha da artırır.

## Bölmə 8. Xarici dillər və tədrisi metodikası

## Kafedra: Xarici dillər və tədrisi metodikası

**Ayşən İmanlı**
*Pedaqogika üzrə fəlsəfə doktoru*
*Müəllim*
*AyshenImanli@nmi.edu.az*

# Xarici dilin tədrisində ənənəvi metodlardan istifadənin üstün və mənfi cəhətləri

**Tədqiqatın məqsədi.** Bu tədqiqatın məqsədi xarici dilin tədrisində ənənəvi metodların rolunu, onların üstün və məhdud cəhətlərini müəyyənləşdirmək və müasir təlim tələbləri kontekstində qiymətləndirməkdir.

**Aktuallığının əsaslandırılması.** Tədqiqat işinin aktuallığı ondan ibarətdir ki, bu tədqiqat ənənəvi metodların sıradan çıxmadığını, əksinə, onların düzgün və yaradıcı tətbiqinin bu gün də xarici dil tədrisinin effektivliyini artıra biləcəyini göstərir.

**Tədqiqatın metod və üsulları.** Araşdırmada müqayisəli-təhlil və elmi-nəzəri yanaşma üsullarından istifadə edilmişdir. Ənənəvi və müasir metodların pedaqoji effektivliyi ədəbiyyat mənbələri əsasında analiz olunmuşdur.Tədqiqatın aparılması zamanı xarici dilin tədrisində ənənəvi metodların pedaqoji əsasları, onların tarixi inkişaf mərhələləri və tətbiq mexanizmləri nəzəri baxımdan öyrənilmişdir. Əsas elmi yanaşma kimi nəzəri-təhlili və müqayisəli metodlardan istifadə olunmuşdur. Araşdırma prosesi zamanı yerli və xarici müəlliflərin xarici dilin öyrədilməsi sahəsində yazılmış elmi məqalələri, dərsliklər, metodiki göstərişlər və təlim proqramları təhlil edilmişdir.

Tədqiqat materialına ənənəvi tədris modellərinin (qrammatika-tərcümə metodu, təqlid və təkrarlama üsulu, müəllim yönümlü təlim modeli) praktik tətbiqi nümunələri daxil edilmişdir. Bu nümunələr əsasında metodların dil bacarıqlarının formalaşmasına təsiri sistemli şəkildə qiymətləndirilmişdir.

Məlumatların toplanması və təhlili zamanı kəmiyyət və keyfiyyət metodlarının kombinasiyasına üstünlük verilmiş, xüsusən qrammatika, lüğət və yazı bacarıqlarının inkişaf səviyyəsi ilə kommunikativ bacarıqların formalaşması arasındakı əlaqələr araşdırılmışdır.

Eyni zamanda, tədqiqatda pedaqoji müşahidə və tədris təcrübəsinin analizi metodlarından da istifadə olunmuşdur. Bu üsullar vasitəsilə ənənəvi metodların tətbiqi zamanı tələbələrin fəallıq səviyyəsi, motivasiyası və öyrənmə nəticələri müqayisə edilərək qiymətləndirilmişdir.

Beləliklə, aparılan tədqiqatın metodoloji əsasını elmi-nəzəri analiz, empirik müşahidə və müqayisəli qiymətləndirmə təşkil etmişdir ki, bu da xarici dil tədrisində ənənəvi metodların üstün və mənfi cəhətlərini obyektiv şəkildə müəyyənləşdirməyə imkan vermişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** İşdə ənənəvi metodların müasir kommunikativ yanaşmalarla inteqrasiyasına dair yeni konseptual baxış təqdim olunur.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Nəticələr xarici dil müəllimləri üçün tədris strategiyalarının optimallaşdırılmasına və balanslaşdırılmış metod seçiminə kömək edə bilər.

**Nəticələr.** Aparılan tədqiqat göstərdi ki, xarici dilin tədrisində ənənəvi metodlar müəyyən pedaqoji dəyərlərə malik olmaqla bərabər, müasir tədris tələbləri qarşısında məhdud imkanlara sahibdir. Bu metodların əsas üstünlüyü öyrənənlərdə dilin struktur əsaslarının, qrammatikanın və leksik qaydaların dərindən mənimsənilməsinə şərait yaratmasıdır. Ənənəvi yanaşmalar tələbələrdə nizam-intizam, diqqət və analitik düşüncə bacarıqlarının formalaşmasına da müsbət təsir göstərir. Bununla belə, bu metodların əsas çatışmazlığı kommunikativ bacarıqların – yəni dinləmə, danışma və qarşılıqlı ünsiyyətin – inkişafına kifayət qədər şərait yaratmamasıdır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, yalnız ənənəvi metodlara əsaslanan tədris modeli müasir təhsil sisteminin məqsədlərinə – şəxsiyyətyönümlü, kommunikativ və interaktiv öyrənmə prosesinə – tam uyğun gəlmir. Buna görə də, dil tədrisində ənənəvi metodların müasir yanaşmalarla inteqrasiyası zəruri hesab olunur. Belə bir inteqrativ yanaşma həm nəzəri biliklərin, həm də praktik bacarıqların eyni zamanda formalaşmasına şərait yaradır.

Nəticə olaraq, xarici dil tədrisində ənənəvi metodlardan tamamilə imtina etmək əvəzinə, onların müasir kommunikativ texnologiyalar və interaktiv üsullarla birləşdirilməsi daha səmərəli nəticələr verir. Bu istiqamət üzrə davamlı elmi araşdırmalar aparılması və müəllim hazırlığında bu inteqrasiyanın nəzərə alınması tədrisin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verə bilər.

**Bölmə 8. Xarici dillər və tədrisi metodikası**

**Kafedra: Xarici dillər və tədrisi metodikası**

**Şəfəq Muradova**
*Baş müəllim*
*ShafagMuradova@nmi.edu.az*

## Xarici dilin tədrisində istifadə olunan tərcümə metodları

**Tədqiqatın məqsədi.** Elmi tədqiqat işində məqsəd xarici dilin tədrisi prosesində istifadə olunan tərcümə metodlarının əhəmiyyətini, pedagoji funksiyalarını və eyni zamanda tədris prosesinə necə təsir göstərməsini araşdırmaq, tərcümə metodlarının mahiyyətini, həmçinin dil bacarıqlarının inkişafında bu metodların effektivliyini və səmərəliliyini müəyyənləşdirməkdir. Tədqiqat işində həm müasir, həm də ənənəvi tərcümə metodları müqayisə olunaraq üstün və mənfi cəhətlər müəyyənləşdirilmiş və belə bir qənaətə gəlinmişdir ki, xarici dil dərslərində tərcümə strategiyalarından səmərəli istifadə etmək üçün elmi-pedagoji əsaslar formalaşdırılmalıdır. Bu qarşıya qoyulan ən mühüm məqsəddir. Tədqiqatın əsas məqsədlərindən biri də tərcümə fəaliyyətinin dil bacarıqlarının inkişafına,eyni zamanda tələbələrin qrammatik, eləcə də leksik biliklərinin artırılmasına müsbət təsirini müəyyənləşdirməkdir.

**Aktuallığın araşdırılması**.Araşdırmalar göstərir ki, müxtəlif xalqların və millətlərin bir-birini anlamasında tərcümənin mühüm rolu vardır.Tərcümə xalqların bir-biri ilə əməkdaşlıq etməsi,yaxınlaşması və dostlaşması üçün mühüm bir vasitə olmuşdur.Xüsusilə qeyd etmək lazımdır ki, xalqların ədəbi əlaqələrinin başlıca forması hesab olunan tərcümə incəsənətin digər növlərindən fərqli olaraq ən zəngin ifadə vasitələrinə malikdir və hər hansı bir məlumatı və ya həqiqəti daha dolğun, hərtərəfli ifadə etməyə qadir olan söz sənətidir.Müasir qloballaşan dünyada, beynəlxalq əlaqələrin genişləndiyi bir dövrdə dil öyrənən tələbələrin həm dil bacarıqlarının inkişafında, həm də tələbələr arasında mədəniyyətlərarası ünsiyyətin formalaşmasında tərcümənin rolu danılmazdır.

**Tədqiqatın metod və üsulları.**Bu tədqiqat işində tədqiqatın məqsədinə uyğun olaraq bir çox metod və üsullardan istifadə edilmişdir.

1.Teorik-təhlil metodu.Xarici dilin tədrisi prosesində istifadə olunan tərcümə metodlarına dair məqalələr,ədəbiyyatlar, mövcud metodik vəsaitlər toplanmış və təhlil edilərək ümumiləşdirilmişdir.

2.Müqayisəli təhlil metodu. Kommunikativ, məna üzrə,birbaşa,sözbəsöz,yardımçı,funksional və s. bu kimi tərcümə metodları müqayisə edilmiş, üstün və mənfi cəhətlər araşdırılmışdır.

3.Müsahibə metodu. Xarici dili tədris edən müəllimlərlə müsahibələr aparılmış,onların dil dərslərinə tətbiq etdikləri tərcümə metodları ilə bağlı fikirləri öyrənilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi**. Deyilənləri ümumiləşdirsək,belə qənaətə gələrik ki,tərcüməni kompleks bir proses hesab etmək olar.Müxtəlif dövrlərdə tərcüməyə dair müxtəlif yanaşmaların və fikirlərin olması tərcümənin hər zaman aktual olduğunu göstərən bir reallıqdır.Bu tədqiqatın orijinallığı xarici dilin tədrisi zamanı tətbiq olunan tərcümə metodlarının müasir, eləcə də ənənəvi yanaşmalar prizmasından tədqiq olunması,tədris prosesində tətbiq mexanizmlərinin ardıcıl,ətraflı araşdırılması ilə bağlıdır.

**Tədqiqatın praktiki əhəmiyyəti.**Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, xarici dilin tədrisi prosesində tərcümə metodlarından daha səmərəli istifadə etmək üçün əldə olunan nəticələrdən və metodik tövsiyələrdən yararlanmaq olar. Tədqiqat işində tərcümə metodları və onların tətbiqinə dair istiqamətlər göstərilmişdir ki,bu da dil dərslərində dərsi planlaşdırmaqda tapşırıqların düzgün qurulmasında və eyni zamanda tələbələrin dil bacarıqlarının inkişaf etdirilməsində

müəllimlərə dəstək verir, göstərilən metodik tövsiyələr tədris materiallarının hazırlanmasını asanlaşdırır.

**Nəticə.** Xarici dilin tədrisi prosesində dil materiallarının seçilməsində bir sıra prinsiplər nəzərə alınmalıdır.Bu prinsipləri aşağıdakı kimi ümumiləşdirmək olar: seçilən dil materialı təlim prosesinin məqsədlərinə uyğun olmalıdır; bu uyğunluq çox zaman tematik səciyyə daşımalıdır; materialın mənimsənilməsi prosesi sadədən mürəkkəbə doğru getməlidir; təlim prosesində mütləq şəkildə illüstrativ materialdan istifadə olunmalıdır; ana dili ilə öyrədilən xarici dilə dair müqayisələr aparılmalıdır; müqayisə prosesində əyani vəsaitlərdən istifadə olunması vacibdir.

Xarici dilin tədrisi prosesində tərcümə metodu baza metod hesab edilir Tərcümə metodundan istifadə olunması yazı bacarıqlarının inkişafına, söz ehtiyatının zənginləşməsinə, leksik və qrammatik bacarıqların inkişafına kömək edir. Tərcümənin tədrisi zamanı istifadə olunan tapşırıq nümunələri tələbələrin söz ehtiyatının artmasına kömək edir. Dilçi alimlərin çoxsaylı tədqiqatları milli dildə danışan tələbə auditoriyasına ikidilli tapşırıqların daxil edilməsinin zəruriliyini göstərir, çünki bu yaş kateqoriyasında məntiqə əsaslanaraq xarici dilin şüurlu mənimsənilməsi və yeni məlumatların sistemləşdirilməsi baş verir.İkidilli tapşırıqlar həm xarici dilin tədrisi prosesində, həm də materialın dərindən başa düşülməsinə və mənimsənilməsinə nəzarət prosesində təsirli olur. İkidilli tapşırıq və çalışmaların əsas növü isə xarici dil dərslərində tədris vasitəsi funksiyasını yerinə yetirən və bütün növ aktiv nitq fəaliyyətinin inkişafına kömək edən tərcümə hesab olunur. Tərcümənin tədrisi zamanı istifadə olunan tapşırıq nümunələri bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Seçilmiş tapşırıq nümunələrinin tədris prosesində istifadəsi mexanizmi öyrənənlərə imkan verir ki, dil materialının leksik və qrammatik strukturunu düzgün anlasın. Lakin bu gün verilmiş tapşırıq nümunələrinin proqramlar vasitəsi ilə tərcümə edilməsi təlimin keyfiyyətini aşağı salır.

## Bölmə 8. Xarici dillər və tədrisi metodikası

## Kafedra: Xarici dillər və tədrisi metodikası

**Şəhla Piriyeva**
*Müəllim*
*ShahlaPiriyeva@nmi.edu.az*

# Xarici dilin tədrisində ənənəvi və müasir metodların müqayisəli təhlili

**Tədqiqatın məqsədi:** Tədqiqatın əsas məqsədi xarici dilin tədrisində istifadə olunan ənənəvi və müasir metodlar, onların xarakterik xüsusiyyətləri və müqayisəli təhlili haqqında araşdırma aparmaq və dil öyrənməni daha effektiv edə biləcək fərziyyələr irəli sürməkdir.

**Aktuallığın əsaslandırılması:** Xarici dilin tədrisində ənənəvi və müasir metodlardan istifadənin inteqrativliyini təmin edərək təlim-tədris prosesini daha effektiv hala gətirmək bu gün pedaqoji nəzəriyyə və təcrübə üçün mühüm elmi-metodiki əhəmiyyət daşıyır.

**Tədqiqatın metod və üsulları:** Tədqiqat zamanı təhlil, müqayisə və pedaqoji ümumiləşdirmə metodlarından istifadəyə üstünlük verilmişdir.

**Ümumelmi empirik:** Tədqiqat zamanı müsahibə, statistik təhlil, sorğu və müşahidə metodlarından geniş şəkildə istifadə edilmişdir.

**Ümumelmi nəzəri tədqiqat metodları:** Ümumelmi nəzəri tədqiqat metodlarından analiz metodu, sintez metodu, müqayisə və təhlil-sintez metodlarından istifadə olunaraq ənənəvi və müasir metodların xarakterik xüsusiyyətləri təhlil olunmuş, ümumi nəticələr çıxarılmış və müqayisələr edilmişdir

**Tədqiqatın orjinallığı və elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyi ondadır ki, ənənəvi və müasir təlim metodları arasında oxşar və fərqli xüsusiyyətlər analiz olunmaqla təlim-tədris prosesini daha effektiv edə biləcək fərziyyələr irəli sürülmüşdür.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Aparılan tədqiqat nəticəsində xarici dilin tədrisində müasir və ənənəvi metodların üstünlükləri və çatışmazlıqları müəyyən olunmuş, müqayisəli təhlili aparılmış və müvafiq nəticələr çıxarılmışdır ki, bunların dərsdə tətbiqi dil öyrənməni daha effektiv edir.

**Nəticələr:** Xarici dilin tədrisində istifadə olunan ənəvi və müasir metodların müqayisəli təhlili zamanı nəticəyə gəlinmişdir ki, xarici dilin öyrədilməsi zamanı həm ənənəvi, həm də müasir metodlardan istifadə məqbul görülə bilər Belə ki dil öyrənmə zamanı dil öyrənənlərin danışıq və ünsiyyət bacarıqlarını formalaşdıran müasir metodlarla bərabər inteqrativ şəkildə dilin qrammatik strukturunu və söz ehtiyatını öyrənməyə imkan verən ənənəvi metodların da tətbiqi məqsədəuyğun hesab oluna bilər

## Bölmə 8. Xarici dillər və tədrisi metodikası

## Kafedra: Xarici dillər və tədrisi metodikası

**Aytəkin Əliyeva**
*Fəlsəfə doktoru hazırlığı üzrə doktorant, müəllim*
AytakinAliyeva@nmi.edu.az

# Xarici dilin tədrisi prosesində istifadə ediləcək materialların seçilməsinin psixoloji əsasları

Məsələnin araşdırılmasının əsas məqsədi xarici dilin tədrisi prosesində öyrədiləcək məzmunun seçilməsində nəzərə alınması vacib olan psixoloji prinsipləri düzgün şəkildə müəyyənləşdirmək, seçilmiş materialların təlim nəticələrinə təsirini təhlil etmək və əldə etdiyimiz nəticələrə əsasən müəllimlər üçün müəyyən tövsiyyələr təklif etməkdir.

Mövzunun aktuallığı ondan ibarətdir ki, müasir dövrümüzdə xarici ölkələrlə beynəlxalq əlaqələrin genişləndirilməsi, cəmiyyətin qloballaşması, xaricdə təhsil imkanlarının daha da artması xarici dil biliklərinə olan tələbatı artırmışdır. Buna görə də tələbələrin öyrənmə həvəsini artırmaq, diqqətini stimullaşdırmaq və nəticədə dil bacarıqlarını daha da inkişaf etdirmək üçün onlara bu dili tədris etmək üçün seçiləcək materialların psixoloji əsasları düzgün şəkildə nəzərə alınmalı və hətta əsas istiqamətlərdən biri olmalıdır.

Tədqiqatda istifadə olunan nəzəri və empirik metodlar qarşılıqlı şəkildə bir-birini izləyərək tədqiqatın məzmununun tamlığını formalaşdırmışdır. Tədqiqatda ümumelmi nəzəri tədqiqat metodlarından analiz, sintez üsullarından istifadə olunmuş, tədris materiallarının seçilməsi üçün müəyyənləşdirilmiş meyarların psixologiya elminin prinsipləri ilə uyğunluğu müəyənləşdirilmişdir. Empirik metodlardan müşahidəetmə, ölçmə, eksperiment üsuallarından istifadə edilmişdir ki, bu zaman müxtəlif yaş qruplarının seçilmiş materiallara münasibəti yoxlanılmış və bu materialların onların leksik bacarıqlarının formalaşmasına təsiri müəyyənləşdirilmişdir.

Tədqiqatın elmi yeniliyini bir neçə istiqamətdə əsaslandırmaq mümkündür. Belə ki, tədqiqatda xarici dilin tədrisində istifadə olunan materialların seçilməsinin psixoloji əsasları sistemli formada təhlil olunmuş, öyrənmə və öyrətmə prosesinin effektivliyini artırmaq üçün elmi əsaslı tövsiyyələr hazırlanmışdır. Digər tərəfdən müxtəlif yaş və bilik səviyyələrinə malik öyrənənlər üçün material seçimi üzrə fərqli praktiki modellər təqdim olunmuşdur. Bu, müəllimlərin tədris prosesində material seçimini asanlaşdırmağa, öyrənmə prosesini fərdiləşdirməyə və tədrisin səmərəliliyini və effektivliyini artırmağa imkan yaratmışdır.

Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, bu tədqiqat müəllimlərə istifadə edəcəkləri tədris materialını seçərkən nəzərə alacaqları psixoloji əsaslara qərar verməklərinə kömək ola bilər. Tədqiqatda təqdim olunan qiymətləndirmə meyarları, material seçimi modeli orta ümumtəhsil məktəblərində və ali təhsil müəssisələrində dərsin planlaşdırılmasında istifadə edilə bilər. Qeyd edək ki, tədqiqatla bağlı tezis 30 may 2025-ci il tarixində Naxçıvan Müəllimlər İnstitutunda keçirilmiş «Ümumi təhsilin aktual problemləri» mövzusunda IV Respublika elmi-praktik konfransının materiallarında nəşr olunmuşdur.

Tədqiqatın nəticələrini aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

1. Seçilmiş tədris materiallarının öyrənənlərin psixoloji səviyyəsinə uyğunluğu onların motivasiyasını, dərslərdə fəallığını və öyrənmə səviyyələrini əsaslı şəkildə artırır.
2. Dərslərdə istifadə olunan dinləmə materialları (məsələn, mahnılar, dinləmə tapşırıqları) öyrənənlərin dinləmə və danışıq bacarıqlarının (listening and speaking) inkişaf etdirilməsində mühüm rol oynayır.

3. Xarici dilin tədrisi üçün material seçimi yalnız biliklərin bir şəxsdən digərinə, ya da bir mənbədən digərinə ötürülməsi prosesi deyil, həmçinin öyrənmənin həm psixoloji, həm pedaqoji tələblərinə uyğun olan sistemli bir fəaliyyətdir.
4. Xarici dilin tədrisi üçün seçilən materiallar həm nəzəri, həm də praktik baxımdan elmi əsaslara söykənməli və psixoloji amilləri özündə ehtiva etməlidir.

Tədqiqatın nəticələrinə uyğun olaraq, sonda müəllimlər üçün bir sıra tövsiyələrimiz verilmişdir:

1. Keçiriləcək hər bir dərsin əsas məqsədi müəyyən edilməli, öyrənənlərin yaş, bilik səviyyəsi, öyrənmə tərzi, emosional vəziyyəti nəzərə alınmalıdır.
2. Dərsin planlaşdırılması zamanı vizual vasitələrdən, dinləmə materiallardan istifadə səviyyəsi artırılmalıdır.
3. Materialların həcmi və çətinlik dərəcəsi öyrənənlərin səviyyəsinə uyğun seçilməli və ya böyük həcmli materiallar hissələrə bölünmüş şəkildə tədris olunmalıdır.
4. Müəllimlər üçün psixoloji qiymətləndirmə meyarları ilə bağlı davamlı olaraq təlimlər təşkil olunması məqsədəuyğun hesab olunur.

Nəticə olaraq, aparılmış tədqiqat göstərir ki, xarici dilin tədrisi prosesində material seçimi zamanı psixoloji əsasların nəzərə alınması öyrənənlərin motivasiyasını, diqqətini və dil bacarıqlarının inkişafını əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Tədqiqatın nəticələri həm nəzəriyyə, həm də praktikada geniş tətbiq oluna bilər. Təklif olunan tövsiyələr müəllimlərin tədris fəaliyyətini optimallaşdırmağa, dərslərin daha effektiv olmasına xidmət edəcəkdir.

## Bölmə 8. Xarici dillər və tədrisi metodikası

## Kafedra: Xarici dillər və tədrisi metodikası

**Əli Qasımov**
*Fəlsəfə doktoru hazırlığı üzrə doktorant, müəllim*
EliGasimov@nmi.edu.az

# İngilis dilində afirmativliyin çatdırılması

**Tədqiqatın məqsədi.** Tədqiqatın obyekti koqnitiv dilçilikdə afirmativlik kateqoriyasıdır. Tədqiqatın predmetini koqnitiv analiz nöqteyi nəzərdən afirmativliyin öyrənilməsi təşkil edir. Bununla yanaşı dildə afirmativ kimi ifadə edilən vasitələr də təhlilə cəlb olunacaqdır.

- dilçilik və fəlsəfi mənbələrdən afirmativlik anlayışını tədqiq etmək
- müasir ingilis dilində afirmativliyin tədqiqi aspektlərini müəyyənləşdirmək
- afirmativliyi müxtəlif səviyyələrində tədqiq etmək
- afirmativliyin semantik hadisə kimi özünəməxsus cəhətlərini aşkar etmək
- afirmativliyin koqnitiv mahiyyətini müəyyən etmək

**Aktuallığının əsaslandırılması**. Azərbaycan dili dünya dillərinin bir hissəsi olduğuna görə, dünyadakı dillərin predmeti dolayısı ilə Azərbaycan dilinin də predmetidir. Tədqiqatın elmi yeniliyi dilçiliyin yeni bir qolu olan koqnitiv dilçilik baxışından afirmativliyi-təsdiqlənməni analiz etməkdir. Müxtəlif dil səviyyələrində və ifadə vasitələrində afirmativliyin dərk edilməsinə diqqət yönəldilmişdir. Afirmativliyin koqnitiv yanaşma nöqteyi-nəzərindən müzakirəyə qoyulması müəyyən etdi ki, o universal dil hadisəsi olub, müxtəlif ifadə vasitələri ilə dərk edilir. Tədqiqat işindən tərcümə və leksikoqrafik təcrübədə, İngilis və Azərbaycan dillərinin tədrisi praktikasında, koqnitiv dilçilik üzrə xüsusi kurslarda, ali məktəblərin filoloji istiqamətli fakültələrində, bakalavriatura və magistratura səviyyələri üzrə müəyyən fənlərin tədrisində, dərs vəsaitlərinin hazırlanmasında, növbəti elmi tədqiqatlarda faydalı ola bilər.

**Tədqiqatın metod və üsulları.** Qarşıya qoyulmuş vəzifələrin həlli tədqiqat predmetinin spesifikası ilə müəyyən edilir. Qarşıya qoyulan məsələlər üçün semantik interpretasiya, koqnitiv və kontekstlə bağlı təhlili özündə ehtiva edən metodlar məcmusundan istifadə olunmuşdur. Əsasən tədqiqat işində istifadə etdiyimiz metodlar bunlardır: təsviri metod; müşahidə metodu; linqvistik analiz, kontekstual təhlil, diskursiv təhlil və müqayisə metodu olmuşdur. Müasir dilçilik 20-ci əsrin 1-ci yarısına qədər digər elm sahələrinin bir qolu idi və onun yaranması İsveçrəli dilçi F.DE Sössürün adı ilə bağlıdır. Sössür ümumi və nəzəri dilçilik sahəsində inqilabi dəyişikliklər etmişdir. Dilçiliyi psixologiyanın tərkib hissəsi, dili isə işarələr sistemi kimi göstərməklə dil haqqında elmin üfüqlərini genişləndirmişdir. V. Humboldt dili xalq ruhu hesab ediridi. O, yazmışdır" Xalq dili onun ruhudur, ruhu onun dilidir, bundan da güclü eynilik təsəvvür etmək çətindir". Dilin mədəniyyətlə, xalq adət və ənənələri ilə bağlı olan xüsusi dilçilik məktəbləri də var. Amerika dilçiləri E. Sapir v B. Uorfun adı ilə bağlı olan həmin məktəb etnolinqvistika adlanır. Eyni zamanda dilçilikdə koqnitivizm yaxud antroposentrik paradiqma V. Fon Humboldtun elmi baxışları ilə bağlıdır. Sonralar müvafiq ideyalar E.Sepirin, B.Uorfun, A.Vejbitskayanın, L.Vissonun və başqa alimlərin əsərlərində öz inkişafını tapmışdı. F. de Sössür, Boduen de Kurtene, Klod Levi Stros, J.Piaje, N.Xomski, J. Ləkoff, M.Conson, L.Talmi, Ç.Fillmor, R.Lonqaker, J.Fokonye, R.Cekendof, R.Dirven, və b. alimlərin təməlini qoyduğu müasir koqnitiv dilçilik dili insandan ayırmadan, insan nitqinin onun daxili psixoloji proses və vəziyyətlərindən asılı olduğunu öyrənən cərəyandır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi**. Afirmativlik dil sisteminin mühüm semantik kateqoriyası olaraq, hər zaman tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Qərbi Avropa, Amerika, Rusiya və digər ölkələrin mütəxəssisləri həm koqnitiv dilçiliyə, həm də afirmativlik konseptinə münasibət

bildirir, mülahizələr irəli sürmüşlər. Əsasən də Qərbi Avropa, Amerika dilçiliyində afirmativlik tədqiqinin koqnitiv aspektdən araşdırmaları davam etdirilir. Bütün bunlar dilçilikdə afirmativ kateqoriyası ilə bağlı məsələyə müxtəlif müəlliflərin fərqli baxışını göstərir. Bu tədqiqatın aktuallığı hər şeydən əvvəl dil sistemində afirmativliyin əhəmiyyəti ilə şərtlənir. Çünki, dünyanın bütün dillərində inkarlılıq və təsdiqlilik dilin ən geniş yayılmış kateqoriyalarıdır. Mövzuya müraciət müxtəlif səviyyələrdə afirmativliyin daha dərindən dərk edilməsinin vacibliyini və müvafiq dilçilikdə birmənalı izah edilə bilməyən afirmativliyin koqnitiv baxımdan tədqiqi ilə bağlıdır.

Azərbaycan dilçiliyində afirmativlik kateqoriyasının semantik dərəcələnmə, məna və çoxmənalılığının qütbləşməsi kimi məsələlər də indiyə qədər tədqiqat obyekti olmamışdır. Afirmativlik Azərbaycan dilçiliyində bu günə qədər koqnitiv baxışdan sistemli şəkildə araşdırılmamışdır. Tədqiqat işində afirmativliyin sistemli şəkildə araşdırılması, bu kateqoriyanın semantik dərəcələnməsi, məna və qütblənməsi mövzunun aktuallığını şərtləndirir.

Bu gün ingilis dili materialları əsasında afirmativliyin tədqiqinin öyrənilməsi həm də ona görə vacibdir ki, artıq xarici dili elə həmin dilin özündə düşünərək, dərk edərək daha mükəmməl öyrənilməsi nəzəriyyəsi praktikada sübut olunmuşdur. Ana dili ingilis dili olmayan inasanlar xarici dildə ünsiyyət qurarkən, oxuyarkən bunu necə başa düşürlər, onlar bu kateqoriyanın qarışıq linqvistik semantikasını necə dərk edirlər.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Aristotel , Platon, Əl Fərabi kimi alimlər fəlsəfə tarixində ilk dəfə dilin koqnitiv vasitə ola bilməsi fikrinə ilk töhfələrini vermişlər. Lakin əsas xüsusiyyətlər, koqnitiv elmin məhfumları qərb dilçiləri tərəfindən təqim edilmişdir. G. Miller 1950-ci illərdə koqnitiv elmi "informasiya nəzəriyyəsinin simfoziumu" adlandırmışdır.

Koqnitiv paradiqmanın sürətli inkişafının arxasında dilçilikdəki antroposentrik tendensiyalar durur. Koqnitivizm hal-hazırda diqqəti üzərinə çəkir və digər paradiqmaları da öz qanunları ilə izah etməyə çalışır. Koqnitiv paradiqma çərçivəsində semantika, sintaktika və praqmatikanın sintezi də mümkündür. Belə ki, semantika və praqmatikanın koqnitiv sahəyə meyl etməsi intensionallıq problemini həm sırf insani, həm də təkamül-bioloji aspektlərdə öyrənilməyə başladı. Boduen de Kurtene koqnitiv dilçiliyin predmetini dil təfəkküründən varlıq və qeyri-varlığın, dünyanın maddi, psixoloji-fərdi və ictimai özünəməxsus dil biliklərini aşkara çıxarmaq olduğu qənaətində idi. Əslində, insan şüuru, özünüdərketmə, özünüidarəetmə, daxili hiss, qavrayış, dil və təfəkkür, psixoloji proseslər, məna və anlam və s. kimi məsələlərin tədqiqi heç də yeni deyil. Belə məsələlərə qədim dövrlərdə də alimlərin əsərlərində, xüsusilə Aristotel və Platonda, rast gəlmək olar.

**Nəticələr.** Semantik olaraq limitsiz kateqoriya olan afirmativlik kateqoriyası həddən artıq subyektivdir, mühakimə və istəyə bağlı hissələrə bölünməyə meyllidir. Afirmativliyin qrammatikada ən mühüm göstəricisi əksilik konteksidir, amma bunun eyni prinsipini koqnitiv dilçilikdəki afirmativ anlayışına aid etmək doğru deyil. Afirmativlik kateqoriyası afirmativ cümlələrin bütün mənalarını əhatə edir. Bu da onu çox böyük və ümumi kateqoriya olmasına gətirib çıxarır. O, semantik quruluşu ilə birlikdə məntiqli bir metalinqvistik kateqoriyadır. Afirmativlik yalnız xalis linqvistik strukturlara məxsus deyil, həmçinin kommunikativ kontekslərə də aiddir və tərkibində bu strukturlar yerləşmişdir. Afirmativlik qradual kateqoriyadır, zəif və güclü dərəcədə mövcuddur. Afirmativlik linqvistik strukturun müxtəlif səviyyələrdə ifadə edilir, konseptual və formal olaraq da işarələnir. Ünsiyyət yalnız sözlü həyata keçmədiyi üçün insanlar bədən hərərkətləri ilə danışıqlara fərqli mənalar yükləyərək söylədiklərinin təsirin artırılar. Jestlər də daxil, paralinqvistik ifadə vasitələri afirmativlərin çatdırılmasında mühüm rol oyanyır.

## Bölmə 8. Xarici dillər və tədrisi metodikası

## Kafedra: Xarici dillər və tədrisi metodikası

**Gülmirə Əliyeva**
*Fəlsəfə doktoru hazırlığı üzrə doktorant, müəllim*
*GulmireEliyeva@nmi.edu.az*

# İngilis dili qlobal dil kimi

**Tədqiqatın məqsədi.** Bu tədqiqatın məqsədi ingilis dilinin qlobal dil statusuna yüksəlməsinin tarixi, sosial, iqtisadi və kommunikativ əsaslarını araşdırmaq, onun müasir dünyada dominant mövqeyə malik olmasının səbəblərini elmi şəkildə müəyyənləşdirmək və bu prosesin gələcək perspektivlərini qiymətləndirməkdir.Tədqiqatın məqsədi həmçinin aşağıdakıları əhatə edir:
1) Qlobal miqyasda ingilis dilindən istifadə tendensiyalarını müəyyənləşdirmək;
2) Mövcud problemlər və ziddiyyətlər fonunda ingilis dilinin beynəlxalq kommunikasiya vasitəsi kimi formalaşmasını izah etmək;
3) Dünyada dil siyasəti, qloballaşma və mədəni mübadilə proseslərində ingilis dilinin rolunu qiymətləndirmək.
Məqsədə nail olduqda ingilis dilinin qlobal statusu ilə bağlı əsas nəzəri problem həll edilmiş sayılır.

**Aktuallığının əsaslandırılması.** İngilis dilinin qlobal dil kimi mövqeyi müasir dövrdə beynəlxalq kommunikasiya sisteminin ən mühüm elementlərindən birinə çevrilmişdir. Qloballaşma prosesinin sürətlənməsi, beynəlxalq əməkdaşlığın genişlənməsi, rəqəmsal texnologiyaların inkişafı və transsərhəd informasiya mübadiləsinin artması ingilis dilinin dünya üzrə dominant ünsiyyət vasitəsi kimi rolunu daha da gücləndirmişdir. Bu tendensiya həm sosial, həm iqtisadi, həm də mədəni sferalarda ingilis dilinə olan ehtiyacı artırmışdır.

Mövzunun aktuallığı ondan ibarətdir ki, müasir dövrdə demək olar ki, bütün elmi araşdırmaların, beynəlxalq biznes münasibətlərinin, diplomatik əlaqələrin və texnologiya sahəsində innovasiyaların böyük hissəsi ingilis dili vasitəsilə həyata keçirilir. Bu fakt ingilis dilinin yalnız ünsiyyət vasitəsi deyil, həm də qlobal əməkdaşlığı, bilik mübadiləsini və inteqrasiya proseslərini təmin edən strateji resurs olduğunu göstərir.

Digər tərəfdən, ingilis dilinin qlobal miqyasda bu qədər geniş istifadə olunması müxtəlif ölkələrdə dil siyasətinə, təhsil proqramlarına və mədəniyyətlərarası ünsiyyətə birbaşa təsir edir. Bu təsirin elmi əsaslarla öyrənilməsi, həmçinin ingilis dilinin qlobal statusunun yerli və beynəlxalq səviyyədə yaratdığı imkanların təhlil edilməsi müasir dilçilik və sosiolinqvistika üçün xüsusi əhəmiyyət kəsb edir.

Bütün bu amillər mövzunun işlənməsini zəruri edir və göstərir ki, “İngilis dili qlobal dil kimi” mövzusu həm nəzəri, həm də praktiki baxımdan müasir elmi tədqiqatlarda mühüm yer tutur.

**Tədqiqatın metod və üsulları.** Tədqiqatın aparılmasında ümumi qəbul olunmuş elmi metodlardan istifadə olunur. İşin elmi bazasının formalaşdırılmasında həm empirik, həm də nəzəri yanaşmalar tətbiq edilir:

Ümumiləşdirilmiş metodlar:

Müşahidə və təsvir — ingilis dilinin müxtəlif sahələrdə tətbiqinin izlənilməsi və ümumi mənzərənin müəyyənləşdirilməsi.

Müqayisə — ingilis dilinin digər beynəlxalq dillərlə funksional mövqeyinin müqayisəli təhlili.

Analiz və sintez — mövzuyla bağlı elmi mənbələrin, statistikanın və real istifadənin işlənməsi və ümumiləşdirilməsi.

İnduktiv və deduktiv yanaşma — faktlardan ümumi nəticələrə gəlmək və mövcud nəzəriyyələri konkret nümunələrlə əsaslandırmaq.

Nəzəri modelləşdirmə — ingilis dilinin qlobal mövqeyinin inkişaf tendensiyalarının nəzəri çərçivədə izahı. Bu metodlar mövzunun geniş şəkildə araşdırılmasına imkan verir və elmi nəticələrin dəqiqliyini təmin edir.

**Tədqiqatın orjinallığı və elmi yeniliyi.** Bu tədqiqat ingilis dilinin qlobal statusunu yalnız tarixi və sosial aspektlərdə deyil, həm də müasir texnoloji və rəqəmsal transformasiya kontekstində araşdırması ilə fərqlənir. İşin elmi yeniliyi aşağıdakılarda öz əksini tapır:

İnkişaf edən texnologiyaların (süni intellekt, avtomatik tərcümə sistemləri, qlobal rəqəmsal platformalar) ingilis dilinin beynəlxalq roluna təsirinin yeni analitik qiymətləndirilməsi.

İnkişaf etməkdə olan ölkələrdə dil siyasətinin qlobal ingilisləşmə prosesinə uyğunlaşma mexanizmlərinin təhlili.

Qlobal dil fenomeninin yalnız kommunikasiya vasitəsi kimi deyil, həm də sosial-iqtisadi üstünlüklər yaradan strateji resurs kimi təqdim olunması.

İngilis dilinin gələcək qlobal rolunu müəyyən edən proqnostik yanaşmaların işlənməsi.

Bu istiqamətlər mövzunun əvvəlki tədqiqatlardan fərqli metodoloji çərçivədə araşdırılmasını təmin edir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələri aşağıdakı sahələrdə tətbiq oluna bilər:

- Təhsil: Xarici dil tədrisi strategiyalarının və kurikulumların təkmilləşdirilməsi.
- Dil siyasəti: Qlobal ünsiyyət tələblərinə uyğun milli dil proqramlarının hazırlanması.
- İnformasiya texnologiyaları: İnternet məzmunu, rəqəmsal kommunikasiya və media sahəsində çoxdilli platformaların formalaşdırılması.
- Sosiologiya və mədəniyyətşünaslıq: Mədəni inteqrasiya və qlobal identiklik kimi sahələrin tədqiqi.

**Nəticə**-Tədqiqatın məqsədinə uyğun olaraq aşağıdakı elmi nəticələr əldə edilmişdir:

- İngilis dilinin qlobal dilə çevrilməsi təkcə tarixi kolonial faktorlarla deyil, müasir texnoloji, iqtisadi və elmi inkişafla şərtlənir.
- Qloballaşmanın intensivləşməsi ingilis dilini beynəlxalq kommunikasiya üçün strateji vasitəyə çevirib.
- İnformasiya mübadiləsi, rəqəmsal media və dünya elminin böyük hissəsi ingilis dilində aparıldığından, dil qlobal biliklərin ötürülməsində aparıcı rol oynayır.
- Müasir texnoloji yeniliklər (AI, big data, rəqəmsal platformalar) ingilis dilinin mövqeyini daha da möhkəmləndirir.
- İngilis dilinin qlobal statusu bir çox ölkənin təhsil və dil siyasətinə birbaşa təsir edir.
- Dil qloballaşması iqtisadi inteqrasiya və əmək miqrasiyası üçün yeni imkanlar yaradır.

**Bölmə 8. Xarici dillər və tədrisi metodikası**

**Kafedra: Xarici dillər və tədrisi metodikası**

**Aysun Hacıyeva**
*Müəllim*
*AysunHajiyeva@nmi.edu.az*

# Tarix və İSM müəllimliyi ixtisaslarında xarici dil (ingilis dili) fənninin tədrisinin aktual məsələləri

**Tədqiqatın məqsədi**. Bu tədqiqatın əsas məqsədi Tarix və İbtidai Sinif Müəllimliyi (İSM) ixtisaslarında xarici dil (ingilis dili) fənninin tədrisinin mövcud vəziyyətini, aktual problemlərini və inkişaf perspektivlərini elmi-metodik baxımdan araşdırmaq, həmçinin bu istiqamətdə səmərəli tədris strategiyaları, metodlar və tövsiyələr hazırlamaqdır.
Tədqiqatın məqsədi həm də bu ixtisaslarda xarici dilin yalnız ünsiyyət vasitəsi deyil, peşəkar və fənlərarası inkişaf aləti kimi rolunu əsaslandırmaqdan ibarətdir.Bu məqsədə çatmaq üçün aşağıdakı konkret hədəflər müəyyənləşdirilmişdir:Müasir təhsil sistemində xarici dil fənninin funksiyalarını, məqsəd və vəzifələrini müəyyənləşdirmək;Tarix və İSM ixtisaslarında xarici dilin tədrisində qarşıya çıxan aktual problemləri (metodik, təşkilati, motivasiya və qiymətləndirmə ilə bağlı) təhlil etmək;Xarici dilin fənlərarası inteqrasiyasının təlim prosesində oynadığı rolu müəyyənləşdirmək;Müasir təlim metodları, kommunikativ strategiyalar və rəqəmsal resurslardan istifadənin effektivliyini qiymətləndirmək;Tədris prosesinin keyfiyyətini artırmaq məqsədilə praktik-metodik tövsiyələr hazırlamaq;Təhsil sahəsində inkişaf üçün prioritet istiqamətləri müəyyənləşdirmək və onların tətbiq imkanlarını araşdırmaqdan ibarətdir.Tədqiqatın məqsədi yalnız dil öyrənmənin pedaqoji tərəflərini deyil, həm də gələcək müəllimlərin bilik, bacarıq və dəyərlər sistemində xarici dilin formalaşdırıcı rolunu üzə çıxarmağa yönəlmişdir.

**Aktuallığının əsaslandırılması**. Müasir dövrdə təhsil sisteminin modernləşməsi və qloballaşma prosesləri xarici dil biliklərinə olan tələbatı xeyli artırmışdır. İngilis dili bu gün dünyada elmin, texnologiyanın, siyasətin və mədəniyyətin universal ünsiyyət vasitəsinə çevrilmişdir. Buna görə də, müəllim hazırlığı sistemində xarici dilin tədrisinə verilən diqqət yalnız kommunikativ bacarıqların formalaşdırılması ilə məhdudlaşmamalı, həm də gələcək müəllimlərin **elmi, metodik və pedaqoji düşüncə tərzinin inkişafına** yönəlməlidir.Xüsusilə **Tarix və İbtidai sinif müəllimliyi (İSM)** ixtisaslarında xarici dilin öyrədilməsi çoxcəhətli əhəmiyyət daşıyır. Tarix ixtisası üzrə tələbələr üçün xarici dil biliyi beynəlxalq mənbələrdən istifadə, müqayisəli təhlil aparmaq və tarixi hadisələri obyektiv qiymətləndirmək üçün mühüm vasitədir. İbtidai sinif müəllimliyi ixtisasında isə xarici dil uşaqlarda erkən yaşlardan kommunikativ bacarıqları, mədəniyyətlərarası anlayışı və yaradıcı təfəkkürü formalaşdırmaq üçün vacibdir.Mövzunun aktuallığı həm də ondan irəli gəlir ki, hazırda bir çox ali təhsil müəssisələrində xarici dil tədrisi **ənənəvi metodlara** əsaslanır, bu isə müasir təlim tələbləri ilə tam uzlaşmır. Müəllimlərin metodik hazırlığının zəifliyi, təlim resurslarının məhdudluğu, motivasiya və qiymətləndirmə problemləri kimi məsələlər tədrisin səmərəliliyinə mənfi təsir göstərir. Bu problemlərin həlli üçün **kommunikativ, konstruktivist və fənlərarası inteqrativ yanaşmaların** tətbiqi zərurəti meydana çıxır.

Digər tərəfdən, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərildiyi kimi, təhsil sistemində **yeni nəsil müəllimlərin formalaşdırılması, dil və informasiya texnologiyalarının səmərəli tətbiqi** əsas hədəflərdən biridir. Bu baxımdan, tarix və ibtidai sinif müəllimliyi ixtisaslarında xarici dilin tədrisinin elmi-metodik əsaslarla təkmilləşdirilməsi ölkənin təhsil strategiyasına tam uyğun gəlir.

Mövzunun aktuallığı aşağıdakı amillərlə əsaslandırılır:
Qloballaşma şəraitində xarici dil biliklərinin artan rolu;Müəllim hazırlığında fənlərarası inteqrasiyanın zəruriliyi;Tədris prosesində müasir texnologiyaların və kommunikativ metodların tətbiqinə ehtiyac;Təhsil siyasətində dil və pedaqoji kompetensiyanın prioritet istiqamət kimi müəyyənləşdirilməsi;Mövcud problemlərin elmi-metodik əsaslarla həllinə olan tələbat.

Bu mövzu həm nəzəri, həm praktik, həm də strateji baxımdan aktualdır. Onun araşdırılması gələcək müəllimlərin peşəkar hazırlığının keyfiyyətinə, təlim prosesinin səmərəliliyinə və ümumilikdə təhsil sisteminin inkişafına birbaşa təsir göstərir.

**Tədqiqatın metod və üsulları**. Tədqiqatın məqsədinə uyğun olaraq mövzunun elmi-metodik əsaslarını müəyyənləşdirmək, tədris prosesində mövcud vəziyyəti təhlil etmək və praktik tövsiyələr hazırlamaq üçün müxtəlif elmi-tədqiqat metod və üsullarından istifadə edilmişdir. Bu metodlar həm nəzəri, həm də praktiki istiqamətləri əhatə edir. Tədqiqatın məqsədinə çatmaq üçün nəzəri və praktiki yanaşmalar birgə tətbiq edilmişdir. Nəzəri tərəfdə mövcud elmi ədəbiyyat, dövlət sənədləri və təhsil strategiyaları sistemli şəkildə təhlil edilmiş, xarici dilin tədrisinin məqsəd, məzmun və metodik xüsusiyyətləri müqayisəli üsulla öyrənilmişdir. Əldə olunan məlumatlar ümumiləşdirilərək tədris prosesinin təkmilləşdirilməsi üçün elmi nəticələr formalaşdırılmışdır.

Praktiki istiqamətdə isə müşahidələr vasitəsilə ali təhsil müəssisələrində xarici dil dərslərinin təşkili, müəllim-tələbə münasibətləri, tədris strategiyaları və motivasiya faktorları öyrənilmişdir. Tələbələr və müəllimlər arasında aparılan sorğu və müsahibələr tədrisin keyfiyyətini, mövcud problemləri və ehtiyacları müəyyən etməyə imkan yaratmışdır. Eyni zamanda müasir təlim texnologiyaları, o cümlədən kommunikativ metod, fənlərarası inteqrasiya və layihə əsaslı təlim təcrübə yolu ilə sınanmış, nəticələr statistik üsullarla analiz edilmişdir.Tədqiqatda həmçinin kommunikativ və konstruktivist yanaşmalar, probleməsaslı təlim və fənlərarası inteqrasiya prinsipləri tətbiq edilmişdir. Bu yanaşmalar tələbələrin bilik və bacarıqlarını inkişaf etdirmək, öyrənməni interaktiv və praktik yönümlü etmək, həmçinin xarici dili digər fənlərlə əlaqələndirərək tədrisin effektivliyini artırmaq məqsədi daşıyır.

Tədqiqat real tədris mühitində aparılmış müşahidə, sorğu, təhlil və digər empirik məlumatlara əsaslandığı üçün praktiki təlim prosesinə tətbiq oluna bilən ölçülə bilən nəticələr təqdim edir. Empirik əhəmiyyət ondan ibarətdir ki, əldə olunan faktlar və statistik məlumatlar real vəziyyəti obyektiv qiymətləndirməyə və təkmilləşdirmə istiqamətləri müəyyənləşdirməyə imkan verir.

**Tədqiqatın orjinallığı və elmi yeniliyi:** Mövcud elmi ədəbiyyatda xarici dil tədrisi məsələləri ümumi şəkildə öyrənilsə də, tarix və ibtidai sinif müəllimliyi ixtisaslarında tədrisin spesifik xüsusiyyətləri, metodik problemləri və tələbələrin ehtiyacları sistemli şəkildə araşdırılmamışdır. Bu tədqiqat həmin boşluğu aradan qaldıraraq mövzunu ixtisas yönümlü şəkildə təhlil edir. Tədqiqat müddətində aparılan müşahidələr, sorğular və eksperimental təcrübələr əsasında xarici dilin tarix və ibtidai sinif müəllimliyi ixtisaslarında tədrisi üçün effektiv metodik tövsiyələr hazırlanmışdır. Bu tövsiyələr, xüsusilə kommunikativ və layihə əsaslı yanaşmaların ixtisas dərslərinə inteqrasiyasını nəzərdə tutur.Tədqiqat nəticələri əsasında hazırlanmış metodik vəsaitlər, dərs planları və təlim strategiyaları müəllimlərin işinə birbaşa tətbiq oluna bilər və tədris prosesinin keyfiyyətini artırmaq potensialına malikdir. Bu yanaşma əvvəlki işlərdən fərqli olaraq nəzəri biliklərlə praktik fəaliyyətləri birləşdirir.Tədqiqat, xarici dil tədrisini yalnız dil bacarıqlarının inkişafı kimi deyil, eyni zamanda tarixi və pedaqoji biliklərin təkmilləşdirilməsi və fənlərarası inteqrasiya vasitəsi kimi qiymətləndirir. Bu, mövzunun nəzəri baza və konseptual modelini genişləndirir və yeni yanaşma təqdim edir.Tədqiqat həm Azərbaycan kontekstində, həm də beynəlxalq elmi diskursda xarici dilin ixtisas yönümlü tədrisi üzrə metodik yeniliklərin tətbiqinə dair orijinal məlumat və təcrübə təqdim edir.

Tədqiqatın elmi yeniliyi və orijinallığı həm nəzəri, həm də praktiki sahədə xarici dil tədrisinin effektivliyini artırmaq, ixtisas üzrə tələbələrin öyrənmə motivasiyasını yüksəltmək və müəllimlərin metodik bacarıqlarını təkmilləşdirmək baxımından öz əhəmiyyətini qoruyur.

Tədqiqat nəticəsində əldə olunan metodik tövsiyələr və dərs planları tarix və ibtidai sinif müəllimliyi ixtisasında çalışan müəllimlərin xarici dil tədrisində **effektiv üsullardan istifadə etməsinə** imkan yaradır. Bu, dərslərin daha interaktiv və məqsədyönlü keçirilməsini təmin edir. Təklif olunan yeni yanaşmalar və metodlar tələbələrin dərsə marağını artırır, onların xarici dil bacarıqlarını **praktik və kommunikativ yönümlü** şəkildə inkişaf etdirməyə kömək edir. Tədqiqat çərçivəsində hazırlanmış **dərs vəsaitləri, tapşırıq və oyunlar** ixtisas müəllimləri üçün dərs prosesini daha əlçatan və maraqlı edir, həmçinin tədris proqramının daha müasir və interaktiv formada aparılmasına şərait yaradır. Tədqiqat xarici dili yalnız dil bacarıqları üçün deyil, həm də **tarix və digər fənlərlə inteqrasiya** vasitəsi kimi tətbiq etməyə imkan verir. Bu, həm müəllimlərin, həm də tələbələrin multidisiplinar bacarıqlarını artırır.

Tədqiqatın nəticələri məktəb və lisey səviyyəsində dərs prosesində **birbaşa tətbiq oluna bilər,** müəllimlər və təhsil müəssisələri üçün istifadə üçün əlverişli tövsiyələr təqdim edir. Bu, tədris keyfiyyətinin yüksəlməsinə və təhsil prosesinin daha effektiv olmasına xidmət edir.

**Tədqiqatın praktiki əhəmiyyəti** Bu tədqiqatın nəticələri Tarix və İbtidai Sinif Müəllimliyi ixtisaslarında ingilis dili fənninin tədrisi prosesinin optimallaşdırılması üçün real tətbiq imkanları yaradır. Araşdırma zamanı müəyyən edilən problemlərin elmi əsaslarla təhlili və onların həlli yollarının göstərilməsi, müəllimlərin metodik hazırlığının təkmilləşdirilməsinə, dərs prosesində müasir təlim texnologiyalarının daha effektiv tətbiqinə şərait yaradır.

Tədqiqatın praktiki əhəmiyyəti ingilis dili dərslərinin interaktiv, kommunikativ və tələbəyönlü şəkildə qurulmasına yardım edir, tədris strategiyalarının təkmilləşdirilməsi üçün metodik tövsiyələr təqdim edir, kurikulumun yenilənməsi və dərs planlarının hazırlanması prosesində istifadə oluna bilər, müəllimlərin peşəkar inkişafı üçün təlim proqramlarının hazırlanmasında nəzərə alına bilər, ibtidai və orta təhsil müəssisələrində tətbiq edilə biləcək praktiki model və təlim üsulları təqdim edir, xarici dilin effektiv öyrədilməsi üçün qiymətləndirmə mexanizmlərinin seçilməsində istiqamət verir, gələcək elmi araşdırmalar üçün baza rolunu oynayır.

Beləliklə, bu tədqiqat həm elmi, həm də pedaqoji müstəvidə tətbiq oluna bilən nəticələr ortaya qoyur və real tədris prosesində səmərəliliyin artırılmasına xidmət edir.

**Nəticə**. Bu tədqiqatın nəticələri göstərir ki, xarici dilin tədrisində effektiv metod və üsulların tətbiqi həm müəllimlərin, həm də tələbələrin bilik və bacarıqlarının inkişafına mühüm töhfə verir. Araşdırma nəticəsində müəyyən edildi ki:Müasir və interaktiv metodlardan istifadə dərs prosesini daha maraqlı və məhsuldar edir, tələbələrin öyrənmə motivasiyasını artırır.Fənlərarası inteqrasiya tələbələrin dil bacarıqlarını genişləndirməklə yanaşı, onların analitik və yaradıcı düşünmə qabiliyyətlərini də gücləndirir.Tədqiqat çərçivəsində hazırlanmış dərs vəsaitləri və metodik tövsiyələr müəllimlər üçün praktik tətbiq imkanları yaradır, tədris prosesinin keyfiyyətini yüksəldir.Tədqiqatın nəticələri xarici dilin tədrisində effektiv strategiyaların müəyyənləşdirilməsinə, dərs planlarının optimallaşdırılmasına və təhsil müəssisələrində daha müasir tədris üsullarının tətbiqinə xidmət edir.

Beləliklə, aparılan araşdırma həm nəzəri, həm də praktiki baxımdan xarici dilin tədrisi sahəsində əhəmiyyətli töhfələr təqdim edir və gələcək tədqiqatlar üçün əsas yaradır.

## Bölmə 8. Xarici dillər və tədrisi metodikası

## Kafedra: Xarici dillər və tədrisi metodikası

**Aynur İsayeva**
*Müəllim*
*Aynurisayeva@nmi.edu.az*

# Kulturoloji amillərin ingilis dilinin leksik sisteminin zənginləşməsində rolu

**Tədqiqatın məqsədi.** Bu tədqiqatın məqsədi kulturoloji amillərin ingilis dilinin leksik sisteminin zənginləşməsinə təsirini araşdırmaq, mədəniyyətin sosial, tarixi, etnik, dini və texnoloji əlamətlərinin söz ehtiyatının formalaşmasındakı rolunu müəyyən etməkdir. İngilis dilində yeni sözlərin yaranması, alınma leksikanın artması, pop-kultura və qloballaşmanın təsiri tədqiqatın əsas məqsəd istiqamətlərini təşkil edir. Məqsəd ingilis dilinin leksik inkişafının mədəni-tarixi proseslərlə qarşılıqlı əlaqəsini göstərmək, müasir dövrdə dil dəyişmələrinin kulturoloji əsaslarını izah etmək və bu təsirlərin leksik sistemdə yaratdığı yenilikləri elmi şəkildə təhlil etməkdir.Müqayisəli təhlil metodu vasitəsilə ingilis dilində mövcud olan kulturoloji mənşəli söz və ifadələr digər dillərlə, xüsusilə Azərbaycan dili ilə müqayisə edilmişdir. Eyni zamanda, tədqiqat ingilis dilində yeni leksik vahidlərin yaranmasında və semantik dəyişikliklərin baş verməsində kulturoloji amillərin nə dərəcədə həlledici rol oynadığını üzə çıxarmağı qarşıya məqsəd qoyur. Eyni zamanda qloballaşma, multikulturalizm, media, texnologiya və mədəniyyətlərarası ünsiyyət kimi kulturoloji faktorların ingilis dilinin leksik inkişafına təsirinin elmi cəhətdən əsaslandırılması da bu işin əsas məqsədlərindən biridir.

Bu mövzu vasitəsilə ingilis dilində baş verən leksik dəyişikliklərin səbəbləri və mexanizmləri aydınlaşdırılır və kulturoloji təsirin dilin inkişafında necə mühüm rol oynadığı göstərilir.

**Aktuallığının əsaslandırılması**. Kulturoloji amillərin dilə təsiri müasir dilçilikdə geniş araşdırılan mövzulardandır. Qloballaşma, texnologiyanın sürətli inkişafı, mədəniyyətlərarası əlaqələr və sosial media ingilis dilinin leksik sistemini daim genişləndirir. Müasir dövrdə ingilis dili dünya miqyasında beynəlxalq kommunikasiya vasitəsi olduğuna görə, leksik sistemin mədəni təsirlərdən asılı olaraq dəyişməsinin öyrənilməsi daha da aktuallaşır. Tədqiqatın aktuallığı müasir dövrdə dil və mədəniyyət münasibətlərinin getdikcə dərinləşməsi, qloballaşma proseslərinin insan ünsiyyətinə və dillərin inkişafına təsirinin artması ilə sıx bağlıdır. İngilis dili bu gün təkcə beynəlxalq kommunikasiya vasitəsi deyil, həm də mədəniyyətlərin daşıyıcısı və ötürücüsüdür. Fərqli xalqların təmasda olduğu qlobal mühitdə ingilis dili müxtəlif mədəni təsirləri qəbul edərək öz leksik sistemini daim zənginləşdirir. Bugünkü informasiya və texnologiya əsrində xalqlar arasında mədəni əlaqələr daha sıx və sürətli şəkildə qurulur. Dünya mətbəxləri, musiqi janrları, geyim tərzləri, sosial media trendləri, kinematoqrafiya və digər mədəni fenomenlər ingilis dilinə yeni sözlərin daxil olmasına səbəb olur. “Sushi”, “emoji”, “yoga”, “k-pop”, “ramen”, “café culture” kimi terminlər bunun bariz nümunəsidir. Bu sözlər yalnız leksikanı genişləndirmir, həm də mədəniyyətlərarası qarşılıqlı təsirin gücünü göstərir.

**Tədqiqatın metod və üsulları.** Bu tədqiqatın aparılmasında müxtəlif elmi araşdırma metod və üsullarından istifadə olunmuşdur. İlk olaraq, mövzunun nəzəri əsaslarını müəyyənləşdirmək üçün geniş **ədəbi-biblioqrafik təhlil** aparılmış, ingilis dilinin leksik sisteminə kulturoloji təsiri ilə bağlı yerli və xarici müəlliflərin elmi mənbələri, araşdırmaları və monoqrafiyaları müqayisəli şəkildə öyrənilmişdir. Tədqiqat zamanı **müqayisəli-linqvistik yanaşma** tətbiq edilmiş, müxtəlif

mədəniyyətlərdən ingilis dilinə keçmiş borc sözlərin mənşəyi, semantik xüsusiyyətləri və dilə adaptasiya prosesi təhlil olunmuşdur.

Eyni zamanda, mədəniyyətlərarası ünsiyyət və qloballaşmanın dilə təsir mexanizmlərini müəyyənləşdirmək üçün **deskriptiv və analitik üsullardan** istifadə edilmişdir. İngilis dilində son onilliklərdə yaranmış yeni sözlərin formalaşma prosesi müşahidə edilmiş, media, texnologiya və pop-kulturanın leksik dəyişikliklərə təsiri **müşahidə metodu** ilə qiymətləndirilmişdir. Toplanmış faktlar arasında əlaqələrin müəyyənləşdirilməsi üçün **sistemləşdirilmə və ümumiləşdirmə üsulları** tətbiq edilmiş, əldə olunan məlumatlar əsasında mədəni amillərin ingilis dilinin lüğət tərkibinin zənginləşməsində oynadığı rol geniş şəkildə izah edilmişdir. Eyni zamanda, tədqiqatda **korpus və kontekstual analiz** üsullarından istifadə olunmuşdur. Bu üsullar kulturoloji mənşəli leksik vahidlərin müxtəlif kommunikativ şəraitlərdə işlənmə tezliyini və semantik xüsusiyyətlərini öyrənməyə imkan vermişdir. Tədqiqatda həm yazılı, həm də şifahi dil nümunələri təhlil olunmuş, internet, media və ədəbi mənbələrdən toplanan faktlar əsasında mədəni təsir nümunələri müəyyənləşdirilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi**. Bu tədqiqat kulturoloji amillərin ingilis dilinin leksik sisteminin zənginləşməsinə təsirini kompleks şəkildə araşdırması ilə seçilir. Mövzunun orijinallığı ondan ibarətdir ki, burada dilin inkişafına təsir edən mədəni faktorlar yalnız borc sözlərin qəbulu nöqteyi-nəzərindən deyil, həm də qloballaşma, media, multikulturalizm, sosial-mədəni dəyişikliklər və texnoloji inkişaf kontekstində təhlil olunur. Tədqiqat ingilis dilinin müasir leksik strukturunda müşahidə olunan yenilənmələrin spesifik kulturoloji mənbələrini müəyyənləşdirir və onların dil sisteminə inteqrasiya mexanizmlərini izah edir. Elmi yenilik ondan ibarətdir ki, tədqiqatda kulturoloji faktorların leksik genişlənməyə təsiri çoxşaxəli yanaşma əsasında sistemləşdirilmiş şəkildə təqdim olunur. Mədəniyyətlərarası təmasın yaratdığı yeni söz, ifadə və terminlərin yaranma səbəbləri, semantik sahənin genişlənməsi və sözlərin funksional yükündə baş verən dəyişikliklər elmi əsaslarla izah edilir. Həmçinin, pop-kultura, sosial şəbəkələr və texnoloji transformasiyaların leksik yeniliklərə təsiri ayrıca təhlil olunur ki, bu da mövzunun müasir elmi diskursda yeni yanaşma ilə işıqlandırılmasına imkan yaradır. Bununla da tədqiqat həm dilçilik, həm kulturologiya, həm də kommunikasiya elmləri üçün aktual və yenilikçi nəticələr ortaya qoyur. İngilis dilinin leksik sisteminin zənginləşməsi ilk dəfə geniş şəkildə **kulturoloji aspektdən** təhlil olunur. Əvvəlki tədqiqatlarda əsas diqqət dilin daxili leksik inkişaf mexanizmlərinə yönəldilmişdirsə, bu işdə mədəniyyətlərarası əlaqələrin, qloballaşmanın və kütləvi mədəniyyətin dilin leksik strukturuna təsiri ayrıca bir istiqamət kimi araşdırılmışdır. Elmi yeniliyin əsas məğzi, dilin yalnız kommunikativ vasitə kimi deyil, həm də mədəniyyət daşıyıcısı kimi rolunun önə çıxarılmasıdır.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Bu tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, kulturoloji amillərin ingilis dilinin leksik sisteminə təsirinin sistemli şəkildə öyrənilməsi həm dilçilik elmi, həm də xarici dil tədrisi üçün mühüm nəticələr çıxarır. Əldə olunan elmi araşdırmalar ingilis dilinin müasir inkişaf dinamikasını anlamağa, onun leksik tərkibinin formalaşmasında mədəniyyətlərarası əlaqələrin rolunu müəyyənləşdirməyə və bu prosesin praktik tətbiqinə imkan yaradır. Tədqiqatın nəticələri ingilis dilinin tədrisi ilə məşğul olan müəllimlər, dilçilər, tərcüməçilər və mədəniyyət araşdırıcıları üçün faydalıdır. Kulturoloji mənbəli sözlərin mənşəyinin, semantik xüsusiyyətlərinin və istifadə sahələrinin izahı müəllimlərin tədris materiallarını daha zəngin təqdim etməsinə şərait yaradır. Bu isə tələbələrin söz ehtiyatının genişlənməsinə, dilin real kommunikativ mühitdə tətbiqini daha yaxşı qavramasına kömək edir. Eyni zamanda, tədqiqatın nəticələri tərcümə sahəsində də praktik əhəmiyyət daşıyır. Mədəniyyətə bağlı söz və ifadələrin düzgün tərcüməsi üçün onların kulturoloji mənşəyi və semantik çalarlarının bilinməsi vacibdir. Bu iş tərcümə prosesində ekvivalentlik probleminin daha effektiv həllinə töhfə verir. Tədqiqat həmçinin leksikoloji, kulturoloji

və tətbiqi dilçilik üzrə gələcək araşdırmalar üçün nəzəri baza formalaşdırır, müasir ingilis dilinin leksik inkişaf tendensiyalarını daha aydın göstərir. Bu isə dil siyasəti, tədris proqramlarının hazırlanması və mədəniyyətlərarası kommunikasiya strategiyalarında istifadə oluna biləcək praktik töhfələr kimi qiymətləndirilə bilər.

**Nəticələr.** Dilin təkcə ünsiyyət vasitəsi deyil, eyni zamanda mədəniyyətin daşıyıcısı olması faktı onun leksik strukturuna birbaşa təsir göstərir. İngilis dili tarixi inkişafı boyunca müxtəlif xalqlarla mədəni, siyasi və iqtisadi əlaqələr nəticəsində saysız-hesabsız leksik vahidlərlə zənginləşmiş, bu da onun qlobal ünsiyyət dili kimi mövqeyini möhkəmləndirmişdir. Latın, Fransız, Hind, Yapon, Ərəb və digər dillərdən alınan sözlər dilin mədəni sərhədlərini genişləndirmiş, yeni semantik və üslubi qatlar yaratmışdır. Aparılan araşdırma göstərir ki, kulturoloji amillər ingilis dilinin leksik sisteminin zənginləşməsində əsas hərəkətverici qüvvələrdən biridir. Qloballaşma, mədəniyyətlərarası əlaqələrin genişlənməsi, pop-kulturanın və medianın təsiri, texnoloji yeniliklər, həmçinin multikultural cəmiyyətlərdə baş verən proseslər ingilis dilinin lüğət tərkibini daim yeniləyir və genişləndirir. Bu amillər təkcə yeni sözlərin dilə daxil olmasına deyil, həm də mövcud sözlərin semantik çalarlar qazanmasına səbəb olur. Tədqiqat göstərir ki, kulturoloji təsir ingilis dilinin dinamik inkişafını təmin edən əsas mənbələrdən biridir və bu proses müasir dövrdə daha intensiv xarakter daşıyır. Buna görə də kulturoloji faktorlara əsaslanan leksik dəyişikliklərin araşdırılması həm nəzəri, həm də praktiki cəhətdən böyük əhəmiyyət kəsb edir. Ümumilikdə, bu tədqiqat bir daha sübut edir ki, ingilis dilinin leksik sisteminin inkişafı və zənginləşməsi kulturoloji amillərlə sıx bağlıdır. Mədəniyyətlərarası təmaslar, qloballaşma və ədəbi irs dilin canlılığını qoruyur, onu daim yeniləyir və insan sivilizasiyasının əsas ünsiyyət alətinə çevirir. Beləliklə, kulturoloji amillərin təsiri altında ingilis dilinin leksik sistemində baş verən dəyişikliklərin araşdırılması həm nəzəri, həm də praktiki baxımdan mühüm əhəmiyyətə malikdir. Bu proseslərin gələcəkdə də davam edəcəyi və ingilis dilinin leksik inkişafına yeni istiqamətlər verəcəyi gözlənilir.

## Bölmə 9. Humanitar və ictimai fənlər

## Kafedra: Humanitar və ictimai fənlər

**Aytəkin Qəhrəmanova**
*tarix üzrə fəlsəfə doktoru*
*AytekinGahramanova@nmi.edu.az*

# Tarixin təlim metodları və onların təsnifatı

**Tədqiqatın məqsədi**: Tədqiqatın əsas məqsədi tarix dərslərində tətbiq olunan təlim metodlarının mahiyyətini araşdırmaq, onların təsnifat prinsiplərini müəyyənləşdirmək və tədrisin keyfiyyətini yüksəldən fəal təlim metodlarını əsaslandırmaqdan ibarətdir. Bununla yanaşı, tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə ənənəvi və interaktiv təlim metodlarının birləşdirilməsi kobinasiyasını qurmaqdır. Təlim metodlarını mövzunun məqsədinə, məzmununa, müəllim-şagird münasibətlərinə və tətbiq sahələrinə görə sistemləşdirməkdən və verilən təsnifatın məntiqi əsaslarını izah etməkdən ibarətdir.

**Aktuallığın əsaslandırılması:** Dünya təcrübəsindən istifadə edərək Azərbaycan təhsil mühitində baş verən yeniləşmə prosesləri müəllim və şagird münasibətlərinin mahiyyətini dəyişməklə yanaşı, istifadə olunan təlim metodlarının da yenidən nəzərdən keçirilməsini zəruri edir. Xüsusən tarix fənninin tədrisində məqsəd yalnız məlumatı şagirdlərə hazır şəkildə ötürməkdən ibarət deyil, dərs prosesində şagirdlərin düşünmə, araşdırma, nəticə çıxarma və hadisələr arasında məntiqi əlaqə qurma bacarıqlarını inkişaf etdirən müasir təlim metodlarının seçilməsi daha böyük əhəmiyyət daşıyır. Müasir təlim metodlarının tədris prosesinə tətbiq edilməsi bu metodların elmi əsaslarla sistemli formadaqurulmasına gətirib çıxarır ki, bu da mövzunun aktuallığını müəyyən edir.

**Tədqiqatın metod və üsulları:** Tədqiqat işi yerinə yetirilərkən müəyyən elmi metodlardan istifadə edilmişdir:

-İlk olaraq tədqiqat aparılarkən **elmi-nəzəri təhlil metodundan** istifadə edilərək əsasən mövcud elmi ədəbiyyatladan M.Əmirovun, S.Əhmədovun, A.Əliyevanın, T.Hüseynovun, M.Məmmədovanın və digərlərinin elmi ədəbiyyatlarının təhlili aparılmışdır. Araşdırmalar zamanı ənənəvi və müasir təlim metodlarının tarix dərslərindəki tətbiqi müqayisə edilmiş, onların üstün və zəif cəhətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Aparılan tədqiqat nəticəsində belə qənaətə gəlinmişdir ki, tarix fənninə uyğun təlim metodları proqramda əks olunan mövzulara uyğun olaraq yenidən qruplaşdırılmış, ənənəvi və müasir metodların birgə tətbiqinə dair inteqrativ- fəal yanaşma modeli hazırlanmış və şagirdlərin idrak fəaliyyətini artıran metodların, həm ənənəvi, həm də interaktiv metodların funksiyası ətraflı şəkildə izah edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Yerinə yetirilən elmi-tədqiqat işinin praktiki əhəmiyyəti ilk növbədə tarix müəllimlərinin metod seçimini asanlaşdırır, digər tərəfdən dərs prosesində müəllimin fəal təlim metodlarından istifadəsinni təmin edən mühitinin formalaşmasına metodik dəstək verir. Bunlarla yanaşı, şagirdlərin tədqiqat, təhlil və nəticə çıxarma bacarıqlarını gücləndirməyə yönəlmiş fəaliyyətlərin tətbiqinə şərait yaradır.

Tədqiqat işi Naxçıvan Müəllimlər İnstitutunun 2025-ci il üzrə Elmi əsərlər jurnalının №1 sayında nəşr edilmişdir.

**Tədqiqatın aparılmasında əldə edilən nəticələr:**

1. Tədqiqat nəticəsində belə qənaətə gəlinmişdir ki, müəllim tərəfindən təlim metodlarının düzgün və məqsədyönlü seçilməsi tədrisin keyfiyyətini artırmış olur.

2. Tədris prosesində fəal təlim (interaktiv) üsullarının tətbiqi nəticəsində şagirdlərin analitik düşünmə qabiliyyəti inkişaf edir və şagirdlərə tarixi hadisələri analiz etmək, müqayisə aparmaq və səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək imkanı yaradır, bununla da tədris prosesinin fəaliyyəti genişlənmiş olur.

3. Təlim metodlarının təsnifatlandırılması müəllimin metod seçimini daha dəqiq edir, dərsin keyfiyyətini yüksəldər.

4. Düzgün seçilən fəal təlim metodlarının tətbiqi nəticəsində təhsilalnaların tarix fənninə maraqları artar və onların vətənpərvər bir şəxsiyyət kimi formalaşmalarında mühüm pola malik olar.

## Bölmə 9. Humanitar və ictimai fənlər

## Kafedra: Humanitar və ictimai fənlər

**Zeynəb Quliyeva**
*Tarix üzrə elmlər doktoru, dosent*
*ZeynebGuliyeva@nmi.edu.az*

# Debat, müzakirə metodlarından istifadə üsullarının tarixi mövzuların mənimsənilməsinə təsiri

**Tədqiqatın məqsədi.** Tarixi-mədəni dəyərlərimizin innovasiyalar vasitəsi ilə təbliği, tarix təlimində arxeoloji, pedaqoji və texnoloji biliklərin sintezinin vətənpərvərliyin gücləndirilməsində rolunu araşdırmaq məqsədi ilə cari ilin tədqiqat planında 2 istiqamət seçilmişdir. Birinci tədqiqat istiqamətində məqsəd orta və ali məktəblərdə tariximizin tədrisində varisliyin əhəmiyyətini araşdırmaq, mövcud yanaşmalar və problemləri təhlil etmək və bu sahəyə töhfə ola biləcək təkliflər irəli sürməkdən ibarətdir.

İkinci tədqiqat istiqamətinin məqsədi pedaqoji kadr hazırlığında innovativ təlim texnologiyalarının rolunu üzə çıxarmaqdır. Bunun üçün əsas vəzifə olaraq 2 təlim metodunun qarşılıqlı təhlili qarşıya qoyulmuşdur.

**Aktuallığın əsaslandırılması.** Mövzunun tədqiqi gənclərdə milli vətənpərvərlik hissinin gücləndirilməsi, milli-mədəni kimliyin qorunması kimi mental dəyərlərin təbliği baxımından aktualdır. XXI əsrdə baş verən texnoloji inqilablar dünyanın qloballaşma axınına doğru sürətini artırmaqdadır. Bu proses müxtəlif mədəniyyətlərin daha sürətli və geniş miqyaslı tanıdılmasına yol açır. Bu gün dünyanın istənilən yerində aşkar edilən hər hansı yeni tapıntı məhz yeni texnoloji imkanların köməyi ilə həmin anda ictimaiyyətə çatdırıla bilir. Başqa sözlə desək, mədəniyyətimizi, tariximizi tanıtmağın yeni və daha optimal variantları qarşımıza çıxır. Lakin bu yolları istifadə edə bilmək eyni zamanda müasir tədqiqat metodikası, yeni təlim üsulları, texnoloji bacarıqlarını mənimsəmək zərurətini də özü ilə gətirir. Bütün bunlar innovasiyalar sistemini öyrənməyi və tətbiq etməyi tələb edir. Xüsusilə, tariximizin təbliğində innovasiyaların rolu əvəzolunmazdır.

**Tədqiqatın metod və üsulları.** Tədqiqat prosesində müqayisə, eksperimental müzakirə, analitik təhlil metodlarından istifadə edilmişdir. Bu zamn istifadə edilən eksperimental üsullarla bağlı qrafiklər hazırlanmışdır. Onlar təqdim edilən hesabatın-tədqiqat mövzusunun I paraqrafında təqdim edilmişdir.

İkinci istiqamət də aparılan tədqiqatlar prosesində qarşılaşdırma və cədvəlləşdirmə üsullarından istifadə edilmişdir. Bu zaman əsas vəzifə olaraq 2 təlim metodunun qarşılıqlı təhlili aparılmışdır. Müqayisəli cədvəllər əsasında tarix təlimində bu metodların fərqi göstərilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** Tədqiqat nəzəriyyə və praktikanın birgə tətbiqinə əsaslanır. Tarix təlimində innovativ üsulların arxeoloji mövzularda tətbiq edilməsi sahəsində ilk təşəbbüs olduğu üçün orijinaldır. Digər tərəfdən bu mövzu Naxçıvan Müəllimlər İnstitutunun I və IV kurs tələbələri ilə auditoriya şəraitində keçilən debat, diskussiyalarda dərs olaraq keçildiyindən əldə edilən nəzəri nəticələr praktik olaraq təsdiqlənmişdir.

Müəllifin pedaqoji-tarixi araşdırmaları nəticəsində təlimdə varisliyin əhəmiyyəti ilə bağlı ədə edilən 3 əsas prioriteti təqdim edilmişdir. Müqayisəli cədvəllər əsasında tarix təlimində bu metodların fərqi göstərilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqat mövzusu ilə bağlı auditoriya şəraitində dərslər aparılmışdır. Bu dərslərin gedişində debat, diskussiyaların tələbələrin intellektual inkişafına, kreativ

düşüncəyə malik olmasına, xüsusilə özünüifadə etmə bacarığının formalaşdırılmasına stimul verdiyi öz real təsdiqini tapmışdır.

Tədqiqat mövzusunun elmi- nəzəri nəticələri ilə bağlı 2 tezis hazırlanmış, Naxçıvan Müəllimlər İnstitunda təşkil olunmuş Respublika konfranslarında təqdim edilmişdir.

**Tədqiqatın aparılmasında əldə edilən nəticələr**

1. Tarixi mövzuların mənimsənilməsində debat, müzakirə, qruplararası dialoqlar, ümumilikdə innovativ üsulların tətbiqi xüsusi əhəmiyyət daşıyır. Debatlar gənc nəsilin daha inamlı, qərarlı şəkildə öz fikirlərini çatdırmasına optimal şərait yaradır, həmçinin özünütəkmilləşdirmə prosesinə töhfə verir. Onların gələcəkdə yeni üsulları tətbiq etməsinə stimul verir.
2. İnnovativ təlim üsulları pedaqoji kadr hazırlığnda elm və təhsilin vəhdətini təmin edərək, öyrənənləri gələcəyin araşdırmaçısı kimi yetişdirməyə təminat verir. Ənənəvi təlimdən fərqli olaraq, innovativ təlim prosesi pedaqoji kadrların hərtərəfli inkişafına, novatorluq təşəbbüsünə münbit şərait yaradır.
3. Müzakirə üsulları təlimlə yanaşı tədris prosesində də uğurlu nəticələrin əldə edilməsinə şərait yaradır, gənc nəsildə milli-mənəvi identifikliyin qorunmasını şərtləndirir.

Müasir dünya arenasında öz milli-mənəvi identifikliyini qoruyub saxlamağın başlıca prioritetləri aşağıdakı amillərlə şərtlənir:

1. tarixini yaxşı bilmək;
2. innovativ düşüncədən çıxış edə bilmək;
3. onları öyrənməyin təməl bazası isə təlim prosesinin orta və ali məktəblərdə varisliyi prinsipinə söykənir.
4. Tarix təlimində varislik prinsipindən istifadə edilməsi arxeoloji irsin qorunmasını, qlobal miqyasda təbliğini və gələcək nəsillərə milli-mənəvi dəyər kimi çatdırılmasını stimullaşdırır.

Müasir texnoloji inkişafa uyğunlaşan, dövrün tələblərinə cavab verən hər bir peşə sahibi öz tarixini yaxşı bildikdə mükəmməl vətəndaş ola bilər.

**Bölmə 9. Humanitar və ictimai fənlər**

**Kafedra: Humanitar və ictimai fənlər**

**Sara Hacıyeva**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
SaraHajiyeva@nmi.edu.az

# Orta əsrlər dövrü türk xalqları tarixinin öyrənilməsində milli və dini dəyərlərin rolu

**Tədqiqatın aktuallığı:** Mövzunun aktuallığı bir neçə mühüm amillə şərtlənir. Birincisi, XXI əsrdə türk xalqları arasında siyasi, mədəni və iqtisadi inteqrasiya meyilləri sürətlə artır və bu proses tarixi köklərin yenidən öyrənilməsini zərurətə çevirir. Orta əsrlər dövrü türk xalqları üçün milli və dini dəyərlərin birləşdirici güc kəsb etdiyi tarixi mərhələdir. Bu dəyərlərin mahiyyətini anlamaq bugünkü inteqrasiya proseslərini daha düzgün qiymətləndirməyə imkan verir. İkincisi, qloballaşmanın təsiri ilə dünya xalqları mədəni homogenləşməyə doğru gedərkən, milli kimliyin, tarixi yaddaşın və mənəvi dəyərlərin qorunması xüsusi əhəmiyyət qazanmışdır. Türk xalqları üçün bu məsələnin həlli onların orta əsr mədəni irsinə, dini inanclarına və milli dəyərlərinə söykənərək aparılır. Üçüncüsü, orta əsr türk dövlətlərinin idarəçilik modeli, siyasi quruluşu və hüquq sistemi müasir türk dövlətçiliyinə birbaşa təsir göstərmiş və bu təsirin izləri bu gün də müşahidə edilməkdədir. Törə, el qanunları, dini legitimlik və ictimai nizam kimi anlayışlar tarixdən müasir dövrə keçid edən sabitləşdirici prinsiplər olmuşdur. Beləliklə, tədqiqatın aktuallığı həm elmi baxımdan tarixi mirasın yenidən dəyərləndirilməsi, həm də praktik baxımdan müasir türk cəmiyyətlərinin kimlik siyasəti, dövlət quruculuğu və mədəni birliyi üçün əhəmiyyət daşıması ilə bağlıdır.

**Tədqiqatın məqsədi və üsulları:** Orta əsrlər dövrü türk xalqlarının tarixi, onların milli kimlik və dini dünyagörüş sistemlərinin formalaşdığı və inkişaf etdiyi ən mühüm mərhələlərdən biridir. Bu tədqiqatın əsas məqsədi həmin dövrdə türk xalqlarının mənəvi, siyasi və sosial həyatına təsir göstərmiş milli və dini dəyərlərin rolunu daha dərindən araşdırmaq, bu dəyərlərin dövlətçilik ənənələrinin formalaşması üçün necə strateji əhəmiyyət kəsb etdiyini müəyyənləşdirməkdir. Tədqiqatın məqsədi həm də türk xalqlarının tarixi inkişafında dinin — xüsusilə İslamın — humanist mədəniyyətin, ictimai nizamın və siyasi idarəetmənin bərqərar olmasında necə güclü təsirə malik olduğunu üzə çıxarmaqdır. Orta əsrlər türk dövlətləri (Göytürklər, Uyğurlar, Səlcuqlar, Qaraqoyunlular, Ağqoyunlular, Osmanlılar və başqaları) milli dəyərlərin qorunması və dini prinsiplərin idarəçilikdə istifadəsi ilə özlərinə məxsus tarixi inkişaf modeli yaratmışdılar. Məqsəd bu modelin mahiyyətini göstərmək, onun türk xalqlarının tarixində yaratdığı davamlılığı izah etmək və müasir dövrdə bu dəyərlərin necə yaşadığını elmi əsaslarla müəyyənləşdirməkdir. Bu yanaşma həm də türk dünyasının tarixi-mədəni irsinin daha obyektiv və sistemli şəkildə qiymətləndirilməsinə xidmət edir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Bu araşdırmanın orijinallığı onun mövzunu geniş və çoxsahəli yanaşma ilə təhlil etməsindədir. Tədqiqat yalnız tarixi faktların sadalanması ilə məhdudlaşmır; əksinə, milli və dini dəyərlərin türk xalqlarının mədəniyyətinə, siyasi həyatına, hüquq sisteminə və sosial davranış normalarına necə nüfuz etdiyini kompleks şəkildə göstərir. Orijinallığı təmin edən əsas cəhətlərdən biri dini və milli dəyərlərin qarşılıqlı təsirinin dinamik şəkildə izah edilməsidir. Türk xalqlarında İslamın yayılması, qədim türk inancları ilə sintez olunaraq unikal bir mənəvi model yaratmışdır. Bu model həm dövlətin legitimliyini, həm də cəmiyyətin birliyini möhkəmləndirmişdir. Bu baxımdan tədqiqat, tarixdə çox az araşdırılan bu sintez prosesinə yeni elmi

baxış gətirir. Digər bir orijinal cəhət isə tədqiqatın müqayisəli metoddan istifadə etməsidir. Fərqli türk dövlətlərinin mədəni, siyasi və dini modelləri müqayisə edilir və onların ortaq dəyərləri müəyyənləşdirilir. Bu yanaşma türk xalqlarının tarixi inkişafında müxtəlif coğrafiyalarda yaşamalarına baxmayaraq eyni ideoloji və mənəvi xəttin varlığını göstərir. Tədqiqat həmçinin müasir türk xalqları üçün orta əsrlərdən miras qalan dəyər sisteminin bu gün necə yaşadığını təhlil etməklə mövzuya əlavə elmi yenilik gətirir.

**Tədqiqatın praktiki və elmi əhəmiyyəti**: Bu araşdırmanın elmi və praktiki əhəmiyyəti çoxşaxəlidir. İlk növbədə, tədqiqatın nəticələri türk xalqlarının tarixi, mədəniyyət tarixi, din tarixi və dövlətçilik ənənələri üzrə aparılan elmi işlər üçün zəngin mənbə rolunu oynayır. Orta əsrlər tarixi ilə bağlı yeni yanaşmalar elmi biliklərin inkişafına töhfə verir və gələcək tədqiqatlar üçün istiqamət göstərir. Praktiki baxımdan, bu tədqiqatın materialları ali məktəblərdə türk tarixi, etnoqrafiyası, mədəniyyət tarixi və siyasi tarix fənlərinin tədrisində istifadə oluna bilər. Eyni ezamanda türk xalqlarının müasir kimlik siyasətinin formalaşmasında tarixi dəyərlərin rolu barədə geniş izah verdiyi üçün dövlət idarəçiliyi, mədəniyyət siyasəti və ictimai elmlər sahəsində çalışan mütəxəssislər üçün də faydalıdır. Araşdırmanın elmi əhəmiyyəti həm də ondan ibarətdir ki, türk xalqlarının tarixində milli və dini dəyərlərin yaratdığı birləşdirici ideoloji çərçivə müasir türk dünyası üçün də aktualdır. Tarixi dəyər sistemləri türk xalqları arasındakı mədəni əlaqələrin gücləndirilməsi və ortaq tarix anlayışının formalaşdırılması üçün möhkəm baza yaradır. Tədqiqat işi AMEA Naxçıvan Bölməsi (20 noyabr 2025-ci il "Konstitusiya və suverenlik ili" nə həsr olunmuş II konfransın materiallarında nəşr olunmuşdur.

**Tədqiqatin nəticələri:** Orta əsrlərdə türk xalqları arasında milli kimliyin formalaşmasında əsas faktorlardan birinin dini dəyərlər və şamanizm–İslam sintezi olduğu müəyyən edildi.

Türk dövlətlərinin idarəçilik modelində dini legitimliyin siyasi birləşməni gücləndirdiyi sübuta yetirildi.

Milli dəyərlərin qorunmasına yönəlmiş hüquqi və hərbi ənənələrin (törü, el qanunları və s.) dövlətin uzunömürlülüyündə mühüm rol oynadığı təsbit edildi.

Orta əsrlər türk dövlətlərinin mədəni inteqrasiya siyasətinin müxtəlif tayfaları vahid etnos kimi formalaşdırdığı elmi əsaslarla izah olundu.

Mənbə analizi nəticəsində milli-dini dəyərlərin türk xalqlarının sosial həyatında iqtisadi, ictimai və diplomatik münasibətlərə təsir etdiyi müəyyənləşdirildi.

Türk xalqlarının dini-mənəvi dəyərlərinin sonrakı dövrlərdə klassik türk ədəbiyyatının, sənətinin və fəlsəfi fikrinin inkişafında baza funksiyası daşıdığı aşkarlandı.

Tədqiqat göstərdi ki, orta əsrlərdə türk dünyasında dini institutlar (molla, baxşı, sufi təriqətləri) ictimai nizamın formalaşmasında mühüm stabilizasiya roluna malik olmuşdur.

Müasir türk dövlətlərinin tarixi yaddaş və kimlik siyasətinin kökündə orta əsrlərdə formalaşan milli-dini dəyərlərin dayandığı nəticəsinə gəlinmişdir.

## Bölmə 9. Humanitar və ictimai fənlər

## Kafedra: Humanitar və ictimai fənlər

**Aslan İbrahimov**
*Baş müəllim*
*AslanIbrahimov@nmi.edu.az*

# Tələbələrdə tarixi materialları analtik təhlil və sintez etmək bacarıqlarının formalaşdırılması və inkişafının metodikası

**Tədqiqatın məqsədi:** Burada məqsəd tələbələrə tarixi tədqiqatların aparılmasında istifadə edilən analit təhlil və sintez etmə bacarıqlarının formalaşdırılmasına yönəldilmişdir. Belə ki. Gələcəyin tarixçi -tədiqatçıları, expertləri, analitikləri və politoloqları üçün bu bacarıqların formalaşdırılması üçün xüsusi əhəmiyyət kəsb edir.

**Aktuallığın əsalandırılması:** Tədqiqatçı, amalitik və ümumiyyətlə araşdırma aparan hər bir şəxs üçün baş vermiş tarixi hadisəni ən müxtəlif aspektlərdən məsələn səbəb-nəticə baxımından tarixi hadisələrin təhlili metodu, tarixi dövrlər və hadisələr arasında əlaqə qurmaq metodu və s. Kimi metod və təhlillərin köməyi ilə izah edib lazimi təticələr çıxarmağı bacarmalıdır.

**Tədqiqatın metod və üsulları:**Tədqiqat aparılarkən möxtəlif dövrlərə aid olan Azərbaycan tarixinə və ümumdünya tarixinə aid yazılmış ümumilədirilmiş və xüsusi tədqiqat əsərlərinə müraciət edilmiş və bütün bunların əsasında keçmişdə baş vermiş müəyyən tarixi hadisənin günümüzə necə təsir ütməsi araşdırılmışdır. Həmçinin tarixi hadisələr arsında səbəb nəticə əəlaqələi bunun analitik və sintez etmə məsələsri araşdırılmışdır.

**Tədqiqatın orjinallığı və elmi yeniliyi:** Aparılan tədqiqatın orjinallığı və yeniliyi ondan ibarətdir ki, gələcəyin tarixçilər analitik təhlil və sintez etmə bacarıqlarından məharətlə istifadə edərək keçmiş də və gününmüzdə baş vermiş hadisələrin mahiyyətini anlamalrına kömək edəcəkdir. Eyni zamanda əsas məqamlardan biri də müasirtarixdə baş verən hadisələrin təhili əsasında gələcəkdə baç verə biləcək tarixi hadisələrin baş vermə prosenini proqnozlaşdırmaq bacarıqlarının yaradılması da bu tədiqatın əhəmiyyətinin artıran məqamlardan biri kimi çıxış edir.

**Tədqiqatın praktik əhəmiyyəti:** Tədqiqatın əsas əhəmiyyəti ondan ibarətdir ki, gəlcəyin tarixçi-tədqiqatçılarında formalaşdırılan analitik təhlil və baş verimş siyasi hadisəni sintez etmə kimi bacarıqlar onların daha ayxşı mütəxəssis kimi formalaşmasına öz müsbət təsirini göstərəcəkdir. Tədqiat işinin bir hissəsi NMİ -də 30 may 2025-ci il tarixdə keçirilmiş IV Respublika elmi-praktik konfransının materiallarında tezis formasında dərc edimişdir. Eyni zamanda Tədqiqat işinin digər hissəsi isə NMİ də keçiriləcək beynəlxalq konfransa məqalə formasında təqdim edilmişdir.

**Tədqiqatın aparılmasında əldə edilən nəticələr:** 1.Tələbələr tarixi hadisələrin sintez edilməsi bacarığını formalaşdırmaq üçün onlara yalnız faktları öyrətmək kifayət deyil.
2.Tarix ixtisaslarında təhsil alan tələbələr hadisələr arasında əlaqə qurmalı, dövrlər üzrə müqayisə etməli, qlobal təsirləri nəzərə almalı və alternativ ssenarilər üzərində düşünməlidirlər.
3.Bunun üçün praktiki tapşırıqlar, müzakirələr, müqayisəli təhlillər və tənqidi düşünmə metodları tətbiq olunmalıdır. Bu yanaşmalar sayəsində tələbələr tarixə təkcə faktlar toplusu kimi yox, dinamik və sistemli bir proses kimi yanaşmağı öyrənəcələr
4. Analitik təhlil metodundan istifadə etməklə tarix dərsləri daha maraqlı və interaktiv olur. Bu yanaşma tələblərdə təkcə faktları öyrənmək deyil. həm də tarixi hadisələrin arxasında duran səbəbləri və onların nəticələrini düşünmək imkanları yaranır ki, bu da təhsil prosesində çox gərəkli bir fəaliyyətdir.

| Bölmə 9. Humanitar və ictimai fənlər |
|---|
| Kafedra: Humanitar və ictimai fənlər |

**Günay Əlizadə**
*Müəllim*
*GunayElizade@nmi.edu.az*

# "Azərbaycan tarixi" fənnindən mühazirə, seminar və auditoriyadankənar saatların təşkilinə dair

**Tədqiqatın məqsədi**: Tədqiqatın əsas məqsədi Azərbaycan tarixi fənnində mühazirə, seminar və auditoriyadankənar dərslərin tətbiqinin tələbələrin bilik səviyyəsinə, analitik bacarıqlarına və motivasiyasına təsirini sistemli şəkildə araşdırmaqdır. Elmi-tədqiqat işi, müxtəlif dərs formalarının qarşılıqlı əlaqəsini və onların tədris nəticələrinə təsirini nəzəri və empirik yolla öyrənməyə yönəlmişdir.

**Aktuallığın əsaslandırılması:** Azərbaycan tarixi fənninin tədrisində müasir pedaqoji tələblərə cavab verən, tələbələrin aktivliyini və tənqidi düşünmə qabiliyyətini inkişaf etdirən dərs formalarının seçimi və tətbiqi son dərəcə aktualdır. Bu işin məqsədi — mühazirə, seminar və auditoriyadankənar dərslərin tələbələrin bilik səviyyəsinə, analitik bacarıqlarına və motivasiyasına təsirini sistemli şəkildə araşdırmaqdır. Vəzifələrə isə bu dərs formalarının xüsusiyyətlərinin təhlili, onların öyrənmə prosesinə təsirinin qiymətləndirilməsi və tələbə fəallığını artıracaq optimal kombinasiyanın müəyyən edilməsi daxildir. Tədqiqatda sorğu, müşahidə, müqayisə və sənədli analiz kimi metodlar tətbiq olunmuşdur. Nəticədə əldə edilən məlumatlar tədris keyfiyyətinin yüksəldilməsi üçün praktiki tövsiyələr kimi istifadə olunur.

**Tədqiqatın metod və üsulları:** Tədqiqat işi yerinə yetirilərkən müəyyən elmi metodlardan istifadə edilmişdir: Elmi-tədqiqat işi hazırlanarkən tələbələr arasında sorğular keçirilmiş, müşahidələr aparılmış və bunlar əsasında təhlillər aparılmışdır. Eyni zamanda R.Əliyev, İ.Əliyev, V.Hacıyevin müəllifi olduqları elmi ədəbiyyatlarının təhlili aparılmışdır. Araşdırmalar zamanı ənənəvi və müasir təlim metodlarının tarix dərslərindəki tətbiqi müqayisə edilmiş, onların müsbət və mənfi xüsusiyyətləri aydınlaşdırılmışdır.

**Tədqiqatın elmi yeniliyi:**

1. **Azərbaycan tarixi fənninə uyğunlaşdırılmış kompleks dərs modelinin təklif edilməsi**: İşdə yalnız ümumi interaktiv metodlar deyil, həm də Azərbaycan tarixi fənninin məzmununa, tədris proqramına və tələbələrin yaş xüsusiyyətlərinə tam uyğunlaşdırılmış, müxtəlif dərs formalarının (mühazirə, seminar, auditoriyadankənar) qarşılıqlı əlaqəli istifadəsini nəzərdə tutan praktik bir dərs modeli irəli sürülmüşdür. Bu model, tarixi hadisələrin ancaq xronoloji ardıcıllıqla yox, həmçinin tənqidi analiz və praktiki tətbiq vasitəsilə öyrənilməsinə imkan verir.

2. **Dərs formalarının effektivliyinin kvantitativ və keyfi göstəricilərlə ölçülməsi:** Tədqiqatda mühazirə, seminar və auditoriyadankənar dərslərin tələbələrin bilik səviyyəsinə, fəallığına və motivasiyasına təsiri sadəcə nəzəri olaraq deyil, həmçinin sorğu, müşahidə və statistik təhlil kimi obyektiv metodlarla ölçülmüşdür. Nəticədə, mühazirədə 40%, seminarda 85%, auditoriyadankənar dərslərdə isə 95% mənimsəmə səviyyəsi kimi konkret rəqəmsal göstəricilər əldə edilmişdir ki, bu da tədris prosesinin qiymətləndirilməsində yeni standartlar yaratır.

3. **Tələbə fəallığının dərs formasından asılılığına dair empirik sübutların toplanması:** Tədqiqatda müəyyən edilmişdir ki, tələbələrin dərs zamanı fəallığı dərs formasından çox asılıdır. Mühazirədə yalnız 30% tələbə aktiv iştirak edir, seminarlarda isə bu rəqəm 65%-ə,

auditoriyadankənar dərslərdə isə 75%-ə yüksəlir. Bu empirik məlumatlar, müəllimlərin dərs planlaşdırmasında daha aktiv və tələbəyönümlü formaların seçilməsinə əsas verir.

4. **Mövcud dərsliklərin və proqramların tənqidli təhlili:** Tədqiqatda sənədli analiz üsulu ilə mövcud Azərbaycan tarixi dərslikləri və fənn proqramları təhlil edilmiş və onların tarixi hadisələri xronoloji şəkildə təqdim etməyə üstünlük verməsi, tənqidi düşünməyə vadar edən materialların çatışmazlığı kimi ciddi çatışmazlıqlar aşkar edilmişdir. Bu, gələcəkdə dərsliklərin yenidən hazırlanması üçün əhəmiyyətli elmi əsas təşkil edir.

5. **Ali təhsil müəssisələrində tədris innovasiyalarının praktiki tətbiqi üçün metodik tövsiyələrin formalaşdırılması:** Tədqiqatın nəticələri əsasında Naxçıvan Müəllimlər İnstitutu kimi ali təhsil müəssisələrində tədris prosesini təkmilləşdirmək üçün konkret, praktik və doğrudan tətbiq olunabilən metodik tövsiyələr işlənib hazırlanmışdır. Bu tövsiyələr müəllimlərə dərs planlarını optimallaşdırmaq və tələbələrin öyrənmə effektivliyini artırmaq üçün reallıqda istifadə edilə biləcək alətlər təqdim edir.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Elmi-tədqiqat işinin praktiki əhəmiyyəti ondan ibarətdir ki, ali məktəblərdə tarix fənnini tədris edən müəllimlərin mühazirə, seminar və audioriyadankənar dərslərin təşkili işini asanlaşdırır, eyni zamanda müəllimin dərs prosesndə yeni təlim metodlarından istifadəsinin əhəmiyyətini bir daha sübut edir.

Tədqiqat işi Naxçıvan Müəllimlər İnstitutunun 2025-ci il üzrə Elmi əsərlər jurnalının №2 sayında nəşr edilmişdir.

**Tədqiqatın aparılmasında əldə edilən nəticələr:** Bu tədqiqat göstərdi ki, Azərbaycan tarixi fənninin tədrisində mühazirə, seminar və auditoriyadankənar dərslərin balanslı və qarşılıqlı tətbiqi tələbələrin öyrənmə nəticələrinə mühüm təsir göstərir. Mühazirələr sistemli biliklərin mənimsənilməsini təmin edir və tələbələrin tarixi məlumatları daha yaxşı qavramasına kömək edir. Seminar dərsləri tələbələrin diskussiya aparma, fikir mübadiləsi və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir, onları öyrənmədə daha fəal edir. Auditoriyadankənar dərslər isə tarixi mövzulara marağı artırır, iştirakçılığı təşviq edir və öyrənmə prosesini daha maraqlı və cəlbedici edir.

Belə nəticəyə gəlmək olar ki, yalnız mühazirə ilə dərs keçilməsi tələbələrin analitik bacarıqlarının inkişafını tam təmin etmir. Seminar və auditoriyadankənar dərslərin tətbiqi tələbələrin fəallığını artırır və öyrənmə nəticələrinin yüksəlməsinə səbəb olur. Müxtəlif dərs formalarının birgə və balanslı istifadəsi nəticələrin daha yüksək olmasına, tələbələrin bilik və bacarıqlarının inkişafına və motivasiyasının güclənməsinə şərait yaradır.

Eyni zamanda, tədqiqat göstərdi ki, müəllimlərin dərs planlarını optimallaşdırması və dərs formalarını məqsədyönlü şəkildə seçməsi öyrənməni daha səmərəli edir. Tələbələrin marağı, iştirak səviyyəsi və öyrənməyə yönəlmiş fəaliyyəti dərs formalarının düzgün tətbiqi ilə birbaşa əlaqəlidir. Bu nəticələr müəllimlər üçün praktiki tövsiyələr təqdim edir və gələcək tədris proseslərinin planlanmasında əhəmiyyətli rol oynayır.

Beləliklə, tədqiqatın yekunu göstərir ki, mühazirə, seminar və auditoriyadankənar dərslərin qarşılıqlı və məqsədyönlü istifadəsi Azərbaycan tarixi fənninin tədrisini daha effektiv edir, tələbələrin bilik və bacarıqlarını artırır, öyrənmə prosesini maraqlı və motivasiyaedici edir.

## Bölmə 9. Humanitar və ictimai fənlər

## Kafedra: Humanitar və ictimai fənlər

**Qorxmaz Hacızadə**
*Baş müəllim*
*QorkhmazHacizade@nmi.edu.az*

# Azərbaycan tarixində və dünya tarixində quldarlıq quruluşunun müqayisəli təhlil metodikası

**Tədqiqatın məqsədi:** Burada məqsəd tələbələrə müxtəlif müqayisə metodlarından istifadə edərək qədim dövrdə Azərbaycan və fərqli ölkələrdə quldar-qul münasibətlərinin gedişatını izləmək və bu gedişata yön verən amillərin yollarının tapılmasını asanlaşdırmaqdır. Həmçinin burada quldarlıq sisteminin fərqli əlamətlərinin qədimdən bu günə mövcud olan ölkələrə olan təsirindən söz açılır. Öyrəncilərə quldarlıq quruluşunun məkan, hökmdar, din, xronololi və başqa amillərini nəzərə alaraq təhlil etməsinin, onların istədikləri nəticələrə nail olması yolunda çox mühüm addım olduğu bildirilir. Quldarlıq quruluşunun qədimdə müxtəlif cəmiyyətlərdə fərqli şəkildə inkişafı və formalaşmasının, hazırki müasir dövrdə olan dövlətlərə necə təsir etdiyinin və onların apardıqları siyasətə necə təsir göstərdiyini izah etməkdir.

**Aktuallığın əsalandırılması:** Araşdırmanın aktuallığını göstərən səbəblərdən biri müasir dövrdə olan əksər ölkələrlə müqayisədə Azərbaycanda olan multukultural dəyərlərin sürətli inkişafının səbəblərinin indiki zamanla deyil hələ quldarlıq dövründə zəngin qədim dövlətçilik ən-ənələrinə sahib olan dəyərlərimizlə bağlılığıdır. Tədqiqatda dünya və Azərbaycanda sinifli cəmiyyətlərin yaranması nəticəsində meydana gələn quldarlıq quruluşunun fərqli və oxşar cəhətlərinin öyrəncilərə müqayisəli təhlil üsulu ilə əldə edilməsi barədə məlumatların verilməsi mövzunu aktual edir.

**Tədqiqatın metod və üsulları:** Tədqiqat aparılarkən müqayisə və təhlil metodlarından istifadə edilmişdir. Biz bu tədqiqatda müqayisəli təlim metodunundan istifadə edilərək, qədim dövrdə olan qanunlar, tikintilər, qul bazarı, dini məbədlər, su hövzələri və digərlərinin müqayisəsi verilmişdir. Məhz bu metodun müxtəlif üsullarından istifadə etməklə quldarlıq quruluşunda ölkəmizdə və başqa ərazilərdə mövcud olan dövlətlərin fərqliliklərini incə detallarla ortaya çıxarılmışdır. Mövzuda F.Ağasıoğlunun, Y.Yisifovun, T.Orucovun, M.Erivanski, Y.Həsənovun və digərlərinin monoqrafiya və elmi tədqiqatlarından istifadə edilərək onların müqayisəli təhlili aparılmışdır. Həmin əsərlərdə qədim şərq və qərb dövlətlərindəki quldarlıq münasibətlərinin ətraflı izahı verilmişdir. Bu məlumatları müqayisəli təhlil metodunun müxtəlif üsulları olan analiz, sintez, və başqa üsullarından istifadə edərək quldarlıq quruluşundakı, ölkəmiz və digər cəmiyyətlərdəki dövlət idarəetməsi qaydası və insana verilən dəyərlərin fərqi aşkar edilmişdir.

**Tədqiqatın orjinallığı və elmi yeniliyi:** Azərbaycanda quldarlıq quruluşu Qədim Roma və Yunanıstandakı kimi inkişaf etməmiş, birbaşa feodal münasibətlərinə transformasiya olunan keçid modeli yaratmışdır. Bu keçidin səbəbi kimi, köçəri və yarımköçəri təsərrüfatın geniş yayılması, tayfa strukturlarının güclü olması, yerli iqtisadiyyatın fərqli inkişaf dinamikası göstərilə bilər. Azərbaycanın quldarlıq sisteminin Yaxın Şərq sivilizasiyaları ilə müqayisəli təhlili yeni elmi nəticə kimi təqdim edilə bilər.

**Tədqiqatın praktik əhəmiyyəti:** Tədqiqatın praktik əhəmiyyəti quldarlıq quruluşunun təhlili cəmiyyətlərin necə formalaşdığını, hakimiyyət və mülkiyyət münasibətlərinin tarixən necə dəyişdiyini göstərir. Bu, müasir dövlət idarəçiliyi, hüquq və sosial siyasətin tarixi köklərini anlamaqda vacibdir. İnsan hüquqları tarixinin öyrənilməsində quldarlıq sistemi insan hüquqlarının

tam pozulması nümunəsidir. Onun tədqiqi bu gün bərabərliyin əhəmiyyətini, insan hüquqlarının necə çətinliklə formalaşdığını, bəzi ölkələrdə hələ də mövcud olan insan alverinin tarixi köklərini anlamaqda mühüm rol oynayır. **Bu mövzunun praktik əhəmiyyəti** insan hüquqlarının, sosial ədalətin, dövlət strukturlarının, iqtisadi-sosial inkişafın və müasir istismar formalarının daha düzgün başa düşülməsinə xidmət etməsidir.

**Tədqiqatın aparılmasında əldə edilən nəticələr:** Buradan belə nəticəyə gəlmək olar ki, ilk baxışda Azərbaycan ərazisində mövcud olan qədim dövlətlərimizin həmin zaman dünyadakı digər ölkələrlə quldarlıq idarəçiliyindəki və quldar-qul münasibətlərindəki fərqi ilk məqamda çoxda fərqlənməyib onlarla eyni quruluş sistemindəki kimi görsənir. Ancaq müqayisəli metodun müxtəlif üsullarından istifadə edildiyində bu fərqlərin əhəmiyyətli dərəcədə olduğu nəticəsinə gəlirik. Məhz bu nəticələrdən də ən mühümlərindən biridə, hələ qədim tarixdə belə dünyanın inkişaf etmiş və güclü quldar cəmiyyətlərilə müqayisədə bizim cəmiyyətin insan dəyərlərinə nə qədər önəm verdiyini görürük. Buda əbəs deyil ki, müasir qloballaşan dünyamızın ən ağrılı problemlərindən olan irqi-ayrıseçkilik dini dözümsüzlük siyasətinin yeridildiyi bir vaxtda, məhz qədim tarixi ən-ənəmizə uyğun olaraq tarixən ölkəmizdə bu siyasətə qarşı çıxılmış və bu siyasətin alternativi olan multukulturalizm dəyərləri ön planda olmuşdur. Qul əməyi Orta əsrlərin bitiminə qədər qərb cəmiyyətinin iqtisadi və ictimai baxımdan ayrılmaz bir hissəsi olmuşdur. Azərbaycandan fərqli olaraq Qərb dünyasında feodalizmin tarix səhnəsindən çəkilərək yerini burjua iqtisadi sisteminə buraxmağa başladığı ana qədər qul əməyi əmək səmərəsinin aşağı və texniki imkanların son dərəcə məhdud olması səbəbiylə ən əhəmiyyətli istehsal vasitəsi olmuşdur.

**Bölmə 9. Humanitar və ictimai fənlər**

**Kafedra: Humanitar və ictimai fənlər**

**Altay Cəfərli**
*Müəllim*
*AltayCeferli@nmi.edu.az*

# 1993-2003-ci illərdə (sabitliyin bərpası və dövlət quruculuğu dövrü) Naxçıvan tarixçilərinin elmi fəaliyyəti

***Tədqiqatın məqsədi:*** Bu elmi araşdırmanın əsas məqsədi 1993–2003-cü illər ərzində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərmiş tarixçilərin elmi yaradıcılığını hərtərəfli şəkildə təhlil etmək, həmin dövrün elmi mühitini formalaşdıran amilləri müəyyənləşdirmək və bu mühitdə yetişmiş alimlərin Azərbaycan tarixşünaslığına verdiyi töhfələri nəzəri-metodoloji baxımdan qiymətləndirməkdən ibarətdir. Tədqiqatın məqsədi yalnız konkret bir qrup tarixçinin fəaliyyətinin sadəcə təsvirini vermək deyil, həm də bu dövrün elmi-intellektual potensialını bütöv bir sistem kimi öyrənmək, onların araşdırma metodologiyalarını, seçdikləri problemləri və elmi nəticələrinin Azərbaycan tarixşünaslığına təsir mexanizmini ortaya çıxarmaqdır.

Naxçıvanda tarix elminin inkişafı bütövlükdə Azərbaycanın elmi-intellektual proseslərinin mühüm tərkib hissəsidir. Bu səbəbdən tədqiqatın məqsədi təkcə regional müstəvini əhatə etmir, həm də ümummilli tarixşünaslıq məkanında baş verən dəyişiklikləri və yenilənmə meyllərini nəzərə alır. Sözügedən dövr Azərbaycanın müstəqillik dövrünün ideoloji və elmi əsaslarının formalaşması ilə səciyyələndiyi üçün Naxçıvan tarixçilərinin yaradıcılığının araşdırılması xüsusi elmi əhəmiyyət daşıyır.

***Mövzunun aktuallığı:*** 1993–2003-cü illər Azərbaycan tarixində yalnız siyasi sabitliyin bərpası ilə deyil, həm də elmi-intellektual yüksəlişin başlanğıcı kimi səciyyələnən mühüm mərhələdir. Bu dövr ölkədə müstəqil dövlət quruculuğunun hüquqi, ideoloji və mədəni əsaslarının yenidən formalaşdırıldığı bir zaman kəsimini əhatə edir. Azərbaycan elminin müxtəlif sahələrində olduğu kimi, tarixşünaslıqda da yeni konseptual yanaşmalar ortaya çıxmış, uzun illər sovet ideoloji çərçivələri altında qalmış araşdırma mövzuları daha obyektiv, milli baxışa əsaslanan elmi prinsiplərlə araşdırılmağa başlanmışdır. Bu prosesin mühüm regional mərkəzlərindən biri isə, şübhəsiz ki, Naxçıvan Muxtar Respublikası olmuşdur.

Naxçıvanın elmi mühitinin aktuallığını artıran əsas amillərdən biri onun Azərbaycan dövlətçiliyində oynadığı xüsusi roldur. XX əsrin sonlarında yaşanan ağır geosiyasi proseslər fonunda Naxçıvan həm dövlətçiliyin qorunub saxlanıldığı, həm də müstəqillik ideologiyasının konseptual əsaslarının formalaşdırıldığı strateji bir məkan olmuşdur. Belə bir şəraitdə tarix elmi yalnız akademik sahə kimi deyil, həm də milli şüurun möhkəmləndirilməsində və dövlətçilik ideyalarının təbliğində mühüm ideoloji vasitə kimi çıxış etmişdir.

**Mövzunun çağdaş dövrdə də davam edən elmi əhəmiyyəti**. Globalizasiya şəraitində milli kimliyin qorunması, tarixi yaddaşın möhkəmləndirilməsi və regional elmi ənənələrin inkişaf etdirilməsi məsələləri bu gün də aktual olaraq qalır. Bu baxımdan 1993–2003-cü illərdə Naxçıvan tarixçilərinin apardığı işlərin yenidən sistemləşdirilməsi və elmi-nəzəri baxımdan qiymətləndirilməsi müasir tarix elmi üçün böyük əhəmiyyət kəsb edir.

Bütün bunlar göstərir ki, tədqiqat mövzusu yalnız tarix elminin daxili inkişaf məntiqi baxımından deyil, həm də Azərbaycan dövlətçiliyinin gücləndirilməsi və milli ideologiyanın möhkəmləndirilməsi kontekstində yüksək aktual elmi problemlərdən biridir.

***Tədqiqatın metod və üsulları:*** Hazırkı tədqiqatın elmi-nəzəri məzmununun formalaşdırılmasında kompleks metodoloji baza tətbiq edilmişdir. Məqsəd Azərbaycan tarixinin konkret dövrlərini, tarixşünaslıq ənənələrinin inkişaf mərhələlərini və bu proseslərin mənbələrdə əksini mümkün qədər obyektiv, dəqiq və sistemli şəkildə araşdırmaq olduğundan, tədqiqatda həm klassik, həm də müasir elmi metodlar inteqrasiya olunmuş şəkildə istifadə edilmişdir. Bu metodoloji çərçivə tədqiqatın elmi əsaslı olmasını, nəticələrin ümumiləşdirilə bilən xarakter daşımasını və araşdırılan məsələlərin geniş kontekstdə dəyərləndirilməsini təmin etmişdir.

**Analitik–sintez metodu**. Araşdırmanın nəzəri çərçivəsinin müəyyənləşdirilməsində analitik-sintez metodu mühüm yer tutmuşdur. Bu metod tarixi faktların ayrı-ayrılıqda təhlil olunması ilə kifayətlənməyib, onların qarşılıqlı əlaqəsinin araşdırılmasını, ümumi nəticələrin çıxarılmasını və yeni elmi qənaətlərin formalaşdırılmasını mümkün etmişdir. Analitik-sintez yanaşması vasitəsilə müxtəlif mənbələrdəki məlumatların müqayisəsi aparılmış, oxşar və fərqli cəhətlər müəyyənləşdirilmiş, daha sonra bu məlumatlar sintez olunaraq vahid elmi konsepsiya yaradılmışdır. Bu üsul, eyni zamanda, mövcud tarixşünaslıq irsində mövcud boşluqları, ziddiyyətləri və interpretasiya fərqlərini aşkarlamağa imkan vermişdir.

**Tarixi-müqayisəli metod**. Tarixi-müqayisəli metod araşdırmanın ən vacib komponentlərindən biridir. Bu metod sayəsində müxtəlif dövrlərin, regionların və tarixi şəraitlərin müqayisəsi aparılmış, oxşarlıq və fərqliliklər müəyyən edilmişdir. Azərbaycan tarixşünaslığının inkişaf mərhələlərinin Osmanlı, Rusiya və Qafqaz regionunun digər xalqlarının tarix yazıcılığı ilə müqayisəsi nəticəsində metodoloji paralellər və spesifik xüsusiyyətlər aydınlaşdırılmışdır. Tarixi-müqayisəli metod həmçinin arxiv mənbələrindəki məlumatların digər təsdiqləyici mənbələrlə tutuşdurulmasına, məlumatların etibarlılıq səviyyəsinin müəyyənləşdirilməsinə xidmət etmişdir.

***Tədqiqatın orijinallığı və elmli yeniliyi:*** Müasir tarixşünaslıqda elmi yenilik tədqiqatın əhəmiyyətini müəyyən edən əsas meyarlardan biridir. Bu baxımdan, 1993–2003-cü illərdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən tarixçilərin elmi yaradıcılığı üzərində aparılan tədqiqat bir sıra elmi-nəzəri və metodoloji cəhətlər baxımından yenilik təşkil edir.

**Sistemli yanaşmanın tətbiqi**. Əvvəlki araşdırmalarda Naxçıvan tarixçilərinin fəaliyyəti adətən ayrı-ayrı tədqiqatlar çərçivəsində, konkret şəxslərin və ya hadisələrin şərhi ilə məhdudlaşırdı. Hazırkı tədqiqat isə həmin dövrün elmi mühitini **sistemli yanaşma** əsasında öyrənir, müxtəlif amillərin – siyasi, sosial, iqtisadi və mədəni – qarşılıqlı təsirini nəzərə alaraq geniş kontekstdə təhlil aparır. Bu, Naxçıvan tarixşünaslığının inkişaf mərhələlərinin kompleks şəkildə anlaşılmasına imkan yaratmışdır.

**Regional və ümumazərbaycan tarixi inteqrasiyası**. Tədqiqatın elmi yeniliyini artıran əsas amillərdən biri regional tarixşünaslıqla ümumazərbaycan tarix elminin inteqrasiyasının ilk dəfə sistemli şəkildə aparılmasıdır. Naxçıvan tarixçilərinin əsərləri yalnız muxtar respublikanın tarixini əhatə etməklə kifayətlənmir, həm də Azərbaycan dövlətçiliyi, milli kimlik və tarixi irs məsələlərini daha geniş elmi kontekstdə işıqlandırır. Bu yanaşma həmin dövrdə yaranan elmi mühitin milli tarixşünaslıq üçün əhəmiyyətini nəzəri cəhətdən əsaslandırır.

**Dövlətçilik və milli ideologiya kontekstində analiz**. Tədqiqatın yenilikçi cəhətlərindən biri Naxçıvan tarixçilərinin fəaliyyətinin **dövlətçilik ideyaları və milli kimlik məsələləri ilə əlaqəsinin** elmi əsaslarla araşdırılmasıdır. Bu yanaşma, tarix elminin yalnız keçmişi öyrənmə funksiyasını deyil, həm də milli ideologiyanın formalaşmasındakı rolunu nəzəri şəkildə göstərir.

***Tədqiqatın praktiki əhəmiyyəti.*** Tədqiqatın praktiki əhəmiyyəti onun elmi nəticələrinin yalnız nəzəri səviyyədə qalmaması, eyni zamanda müxtəlif elmi və tədris sahələrində tətbiq edilə bilməsi ilə müəyyən edilir. 1993–2003-cü illərdə Naxçıvan Muxtar Respublikasında formalaşmış elmi mühitin

araşdırılması, tarixçilərin fəaliyyətinin sistemləşdirilməsi və əldə edilmiş nəticələrin elmi əsaslarla təhlili bir sıra praktik istiqamətlər üzrə əhəmiyyət kəsb edir.

**Təhsil prosesində tətbiq imkanları**. Aparılan tədqiqatın nəticələri ali və orta ixtisas təhsil müəssisələrində "Azərbaycan tarixi", "Naxçıvan tarixi", "Müasir tarixşünaslıq" və digər ixtisaslaşmış fənlərin tədrisində geniş istifadə oluna bilər. Xüsusilə region tarixinin öyrənilməsi və tələbələrin analitik bacarıqlarının inkişaf etdirilməsi baxımından bu iş praktik əhəmiyyət daşıyır. Tədqiqat materialları dərs və seminar mövzularının zənginləşdirilməsinə, tələbələrin elmi araşdırmalar aparmaq bacarıqlarının artırılmasına və regional tarixşünaslıq üzrə müasir biliklərin mənimsənilməsinə xidmət edir.

**Gənc tədqiqatçılar və magistrantlar üçün mənbə bazası**. Araşdırma gənc tədqiqatçılar, magistrantlar və doktorantlar üçün elmi mənbə kimi yüksək dəyərə malikdir. Tədqiqatın nəticələri onların öz elmi layihələrini planlaşdırmasına, mövcud boşluqları müəyyən etməsinə və regional tarixşünaslıqda yeni elmi istiqamətlər seçməsinə imkan yaradır. Eyni zamanda, sistemli yanaşma və tətbiq edilmiş metodoloji prinsiplər gənc alimlər üçün nümunəvi model rolunu oynayır. Tədqiqat işi Naxçıvan Müəllimlər İnstitutunda 18-19 dekabr 2025-ci il tarixlərində "Naxçıvanda pedaqoji kadr hazırlığı: ənənələr, reallıqlar və perspektivlər" mövzusunda keçiriləcək Respublika konfransı materialında çapdadır.

**Regional və milli tarixşünaslığın inkişafına töhfəsi**. Tədqiqatın praktiki əhəmiyyəti həm də Naxçıvan tarixşünaslığının regional və milli səviyyədə inkişafına xidmət etməsində özünü göstərir. 1993–2003-cü illərdə formalaşmış elmi mühitin öyrənilməsi və tarixçilərin fəaliyyətinin sistemləşdirilməsi gələcəkdə Azərbaycan tarixşünaslığının regional aspektdə daha əhatəli və elmi əsaslı inkişafına zəmin yaradır. Bu, həm milli kimliyin möhkəmləndirilməsi, həm də dövlətçilik ənənələrinin araşdırılması üçün praktik dəyər daşıyır.

***Tədqiqatın nəticələri.*** 1993–2003-cü illər Naxçıvan Muxtar Respublikasında tarix elminin inkişafında mühüm mərhələ kimi səciyyələnir. Aparılan tədqiqat nəticəsində aşağıdakı elmi nəticələr əldə edilmişdir: **Elmi mühitin formalaşması və inkişaf dinamikası**. Tədqiqat göstərir ki, 1993–2003-cü illərdə Naxçıvan Muxtar Respublikasında yaranmış elmi mühit yüksək dinamikaya malik olmuşdur. Dövlət tərəfindən elmi fəaliyyətə göstərilən qayğı, siyasi sabitliyin bərpası və intellektual potensialın stimullaşdırılması alimlərin və tədqiqatçıların fəaliyyətinə güclü təkan vermişdir. Bu dövrdə elmi müəssisələrin fəaliyyəti genişlənmiş, tədqiqatların coğrafi və tematik spektri artırılmış, həmçinin yeni elmi istiqamətlər müəyyən edilmişdir.

**Tarixçilərin elmi yaradıcılığı və mövqeləri**. Tədqiqat zamanı Naxçıvanda fəaliyyət göstərmiş tarixçilərin elmi irsi sistemli şəkildə təhlil edilmiş və onların müxtəlif istiqamətlər üzrə fəaliyyətinin əhəmiyyəti müəyyən edilmişdir. İsmayıl Hacıyev, Hacıfəxrəddin Səfərli və Vəli Baxşəliyev kimi alimlərin əsərləri yalnız Naxçıvan tarixinin öyrənilməsinə deyil, həm də ümumazərbaycan tarixşünaslığının zənginləşdirilməsinə mühüm töhfələr vermişdir. Onların tədqiqatları dövlətçilik ənənələrinin araşdırılması, milli kimliyin qorunması və tarixi irsin təhlilində elmi yeniliklər təqdim etmişdir.

**Regional və milli tarixşünaslığın inteqrasiyası**. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Naxçıvan tarixçilərinin fəaliyyəti yalnız regional səviyyədə deyil, həm də milli tarixşünaslığın inkişafında əhəmiyyətli rol oynamışdır. Onların elmi axtarışları və metodoloji yanaşmaları Azərbaycan tarixinin müxtəlif dövrlərinin araşdırılmasına yeni perspektivlər gətirmiş, regional tədqiqatların ümumazərbaycan tarix elmi ilə əlaqəsini gücləndirmişdir.

**Metodoloji nailiyyətlər**. Tədqiqatda tətbiq edilmiş kompleks metodoloji yanaşma – tarixi-deskriptiv, analitik-sintez, müqayisəli, struktural-funksional və sosial-tarixi metodların

birləşdirilməsi – Naxçıvan tarixçilərinin elmi fəaliyyətinin sistemli şəkildə qiymətləndirilməsini təmin etmişdir. Bu metodoloji yanaşma, həmçinin gələcək elmi tədqiqatlar üçün nümunəvi model kimi çıxış edir.

**Elmi və tədris sahəsində tətbiq imkanları**. Tədqiqat nəticələri ali və orta ixtisas təhsil müəssisələrində regional və milli tarix fənlərinin tədrisində elmi-metodik material kimi istifadə oluna bilər. Həmçinin gənc tədqiqatçılar və magistrantlar üçün elmi layihələrin hazırlanması, dissertasiya işlərinin aparılması və elmi-praktiki seminarların təşkili baxımından əhəmiyyətlidir.

**Naxçıvanda elmi ənənələrin qorunması və gələcək nəsil tarixçilərin yetişdirilməsi**. Araşdırma göstərir ki, 1993–2003-cü illərdə formalaşmış elmi mühit, yaradılmış elmi institutlar və yetişmiş tədqiqatçı kadrlar regionda tarix elminin davamlı inkişafı üçün möhkəm baza yaratmışdır. Bu, elmi ənənələrin qorunması və gələcək nəsil tarixçilərin formalaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

**Bölmə 10. Ümumi fənlər**

**Kafedra: Ümumi fənlər**

**Nurlanə Novruzi**
*Biologiya üzrə fəlsəfə doktoru*
*Kafedra müdiri, baş müəllim*
*NurlanaNovruzi@nmi.edu.az*

## "Uşaq anatomiyası, fiziologiyası və gigiyenasının əsasları" fənnindən mühazirə və seminar dərslərinin təşkilinə dair

***Tədqiqatın məqsədi:*** tədqiqatın əsas məqsədi uşaq anatomiyası, fiziologiyası və gigiyenası fənnin mühazirə və seminar dərslərinin tədrisində müasir innovativ yanaşmalardan istifadənin metodikasını öyrənməkdir. Uşaq anatomiyası, fiziologiyası və gigiyenası fənninin tədrisi zamanı İKT, əyani vəsaitlər, interaktiv metodlar və virtual laboratoriyalardan istifadə hər zaman zəruri olmuşdur. Digər tərəfdən innovativ yanaşmaların tədrislə inteqrasiyasını təmin etmək üçün metodik vasitə və tövsiyələr hazırlanmalıdır.

***Aktuallığın əsaslandırılması:*** fənnin tədrisi zamanı ənənəvi metodla tədrisin təşkili hələ də tətbiq edilir. Burada daha çox nəzəri metodikadan istifadə edilir. Lakin, müasir dünya qapıları bizə müasir dərs metodları və texnologiyaların qapılarını açır. Dərsin tədrisi zamanı İKT-dən istifadə, elektron lövhələrin işə salınması, slayd və video-roliklərin nümayişi arzu olunandır. Bununla yanaşı VR (virtual reallıq), virtual laboratoriyalar, elektron simulyatorlar, virtual anatomik atlaslar və b. yeni texnoloji tədris metodlarının tətbiqi öyrənməni daha praktik, fərdi və səmərəli edir. Çünki biologiya əsaslı fənlərin tədrisi zamanı daha çox canlılar və onlarda gedən fizioloji proseslərdən bəhs edildiyi üçün, burada simulyator və virtual laboratoriyalar mühim rol opynayır. Burada nəzəri əsaslı tədris demək olar ki, çox az effekt verir.

***Tədqiqatın metod və üsulları:*** tədqiqatın məqsəd və vəzifələrini əsas tutaraq daha çox mühazirə-seminar dərslərində aparılan müşahidələr, öyrənənlərlə aparılan anket sorğular, qabaqcıl ölkələrin təhsil sistemində fənnin tədrisi üçün tətbiq edilən dərs metodları və tədris yönümlü texnologiyalardan istifadə prioritet metod kimi götürülmüşdür.

***Tədqiqatın praktiki əhəmiyyəti:*** Uşaq anatomiyası, fiziologiyası və gigiyenasının əsasları fənnindən mühazirə və seminar dərslərində öyrənənlər baza biliklər əldə etməklə yanaşı, fənnin məqsədini, vəzifələrini tam dərk etməli, mövzunu analizetmə qabiliyyəti və müəyyən səriştələr qazanmalıdırlar. Bunun əldə edilməsi üçün fənnin mövzularına uyğun olaraq İKT, əyani vəsaitlər, interaktiv metodlar və virtual laboratoriyalardan istifadə olunmalıdır. Belə ki, insan anatomiyası orqanizmin quruluşunu, orqanların yerləşmə yerini, sayını, ölçüsünü və s. öyrənir. Fənnin tədrsində əyani vəsaitlər, 3D maketlər, slayd dərslər məqsədəuyğun hesab edilə bilər. Əyani vəsaitlərlə öyrənən istənilən orqanın yerləşmə yerini, sayını, rəngini , ölçüsünü müşahidə edə bilir. Anatomiyanı əyani vəsaitlər üzərində öyrəndikdən sonra, növbəti addım fiziologiya, yəni, canlılarda gedən canlılıq prosesləri öyrənilməlidir. Artıq burada Virtual Reallıq əsaslı texnoloji tədris daha effektli öyrənmə nəticəsi almağa kömək edəcəkdir. Virtual laboratoriyalar imkan verir ki, öyrənən həmin fizioloji prosesin içində olsun və özü yaxından müşahidə etsin. Məsələn, orqanizmdə gedən qazlar mübadiləsi, maddələr mübadiləsi, qanın damarlarda hərəkəti və s. Bu isə daha praktik, səmərəli və öyrənənyönümlü metod sayıla bilər.

***Nəticə:***

1. Fənnin tədrisi zamanı İKT, əyani vəsaitlər və interaktiv metodlardan istifadə tədrisin keyfiyyətini artırır.

2. Ənənəvi metodları dərsin təşkili nəzəri bilikləri ön plana çəkdiyindən praktik bacarıqlar zəifləyir.
3. Virtual laboratoriyalar imkan verir ki, öyrənən həmin fizioloji prosesin içində olsun və özü yaxından müşahidə etsin.
4. VR (virtual reallıq), virtual laboratoriyalar, elektron simulyatorlar, virtual anatomik atlaslar və b. yeni texnoloji tədris metodlarının tətbiqi öyrənməni daha praktik, fərdi və səmərəli edir.

## Bölmə 10. Ümumi fənlər

## Kafedra: Ümumi fənlər

**Nizami Quliyev**
*Riyaziyyat üzrə fəlsəfə doktoru*
*NizamiGuliyev@nmi.edu.az*

# Azərbaycan təhsil müəssisələrində problemli təlim texnologiyalarının təhsil prosesində tətbiqi

**Tədqiqatın məqsədi:** Müasir təhsil sistemində ənənəvi təlim üsullarının imkanları ilə yalnız yeni pedaqoji yanaşmaların tətbiqi zəruri hesab olunur. Bu yanaşmalar arasında problemli təlim texnologiyaları xüsusi yer tutur. Problemli təlim şagirdlərin qarşısına müxtəlif idrak problemləri qoyur, onları müstəqil şəkildə həll yolları axtarmağa təşviq edir. Beləliklə, öyrənənlər yalnız hazır bilikləri mənimsəmir, həm də öz axtarışları nəticəsində yeni bilik və bacarıqlar əldə edirlər.

**Mövzunun aktuallığı :** Şagird və tələbələrdə problemli suallar ətrafında bilik və bacarıqların inkişafı.

**Tədqiqatın metod və üsulları :** Nəzəri tədqiqat metodları, Statistik və müqayisəli təhlil metodları ,Modelləşdirmə və ümumiləşdirmə üsulları

**Ümumelmi empirik :** Müsahibə ,eksperiment, müşahidə

**Tədqiqatın orjinallığı və elmi yeniliyi:** Tədqiqat nəticəsində ölkə məktəblərinin pedaqoji mühiti, kurikulum tələbləri və didaktik imkanları nəzərə alınmaqla lokal təhsil mühitinə uyğunlaşdırılmış problemli təlim modeli hazırlanmışdır.

**Tədqiqatın praktiki əhəmiyyəti:**Tədqiqatın praktiki əhəmiyyətini aşağıdakı istiqamətlər xarakterizə edir.

1.Müəllimlərin pedaqoji fəaliyyətinin təkmilləşdirilməsi
2.Dərs prosesinin keyfiyyətinin artırılması
3.Şagirdlərin düşünmə bacarıqlarının inkişafına dəstək
4.Tətbiq oluna bilən dərs modellərinin hazırlanması

**NƏTİCƏ**

**1.** Tədris prosesi zamanı idrak fəallığının artması
**2.** Müəllim dərsi tədris etdiyi zaman öyrənməyə marağın və motivasiyanın artması.
**3**. Problemli təlimin tətbiq edildiyi vaxt müəllim-şagird münasibətlərinin yeni səviyəyə yüksəlməsi

Şagirdlərin müstəqil düşünmə, analiz və qərarvermə bacarıqlarını artırmış, təlim prosesinin keyfiyyətini yüksəltmişdir.

## Bölmə 10. Ümumi fənlər

## Kafedra: Ümumi fənlər

**Oktay Rzayev**
*Dosent*
OktayRzayev@nmi.edu.az

# "Kimyəvi şəraitin aşkar olunması və qiymətləndirilməsinin qanunauyğunluqları" mövzusunun tədrisi xüsusiyyətləri

**Tədqiqatın məqsədi**. Ali təhsil müəssisələrinin, həmçinin orta məktəbin yuxarı sinif şagirdlərinin təhsil aldıqları təhsil müəssisələrindətələbə və gənclərə Mülki müdafiə fənnindən öyrədilməsi vacib olan mövzuların onlara öyrənilməsindən ibarət olmasıdır. Tələbə və gənclərə bu elmi-tədqiqat işi yəni "Kimyəvi şəraitin aşkar olunması və qiymətləndirilməsinin qanunauyğunluqları" günün ən vacib məsələsi kimi ön planda göstərilmişdir.

Elmi-tədqiqat işişnin başqa bir məqsədi tələbə və gənclərə tədrisin əhəmiyyətini anlatmaq tədris bacarıqlarını formalaşdırmaq, eyni zamanda Mülki müdafiənin tədrisi zamanı istifadə oluna biləcək müasir təlim metod və üsullarını müəyyənləşdirmək, onun tətbiqi yollarını aydınlaşdırmaqdan ibarətdir.

Tədqiqatın məqsədi həmçinin kimyəvi şəraitin aşkar olunması və qiymətləndirilməsinin qanunauyğunluqları yollarını müəyyən etmək, tələbələrdə bu sahədə praktik bacarıqlar formalaşdırmaqdır.

**Mövzunun aktuallığı.** Ali təhsil müəssisələrində təhsil alan tələbələrin təlim nəticələrinə cavab verə bilməsinin əsas şərtlərindən biri tədris edilən fənnin müasir təlim metod və üsullarına cavab verə bilməsi, eyni zamanda indiki zamanda İKT-dən düzgün istifadə qaydalarına yiyələnməsinə əsaslanır. Müasir dünya daim inkişaf etdiyi bir dövrdə keçmişdən qalan metod üsulların tədris prosesində istifadəsi indiki zamanla əlaqə yarada bilmir. Buna görə də bu elmi-tədqiqat işinin yeni təhsil sisteminə uyğynlaşdırılması indiki dövrün qarşısında duran məsələlərdən biri olmalıdır. Bu baxımdan mövzunun əhəmiyyəti elmi-tədqiqat işində geniş açıqlanmış tədris prosesində asanlaşması üçün metod və vasitələri müəyyən olunmuşdur. Bütün yuxarıda qeyd olunanları nəzərə alaraq demək olar ki, tədqiqat işinin mövzusu aktualdır.

**Tədqiqatın metod və üsulları.** Tədqiqat işi işlənərkən bir çox elmi ədəbiyyatlardan, metod və üsullardan istifadə olunmuşdur. Mülki müdafiə fənninin hal-hazırkı tədris qaydaları öyrənilmiş, müasir təhsil üsulları ilə haliyədəki tədris sistemi arasında müqayisələr aparılmış, Kimyəvi şəraitin aşkar olunması və qiymətləndirilməsinin qanunauyğunluqları çox geniş analiz edilmişdir.

Həmçinin dünyada baş verə biləcək kimyəvi şəraitinin aydınlaşdırılması və qiymətləndirilməsi məsələləri təhlil edilmiş, müasir kimyəvi kəşfiyyat cihazlarından istifadə qaydaları göstərilmişdir. Havada, suda və torpaqda radiasiyanın aşkar edilməsi elmi yollarla təhlil edilmiş, istiqamətlər araşdırılmış, onlar əlaqəli şəkildə əsaslandırılmış və mühüm elmi nəticələr əldə edilmişdir.

**Tədqiqatın orjinallığı və elmi yeniliyi.** Tədqiqat işində sülh və müharibə dövrlərində Kimyəvi şəraitin aşkar olunması, qiymətləndirilməsinin qanunauyğunluqları,aradan qaldırılması məsələləri tələbələrin Mülki müdafiə biliklərinin tədrisində o cümlədən gənc nəslin kimyəvi şəraitinin aydınlaşdırılması kimi biliklərə yiyələnmələri üçün çox böyük bir obyekt olmuşdur.

Elmi-tədqiqat işində kimyəvi şəraitinin aydınlaşdırılması və aradan qaldırılması ilə əlaqədar elmi araşdırmalar aparılmış, istiqmətlər əlaqəli şəkildə əsaslandırılmış və çox mühüm elmi nəticələr əldə edilmişdir. Həmçinin tədqiqat içində dünya miqyasında radioaktiv maddələrdən istifadə etməklə

terrorçuluğun qarşısının alınması, təhlükəsizlik baxımından bu istiqamətdə dozimetrik cihazların və kimyəvi şəraitinin qiymətləndirilməsinin tətbiqi göstərilmişdir.

Kimyəvi şəraitin aşkar olunması və qiymətləndirilməsinin qanunauyğunluqları və təhlükəsizliyinin təmin olunması sahəsində dövlət orqanlarının səlahiyyətləri ilə də geniş şəkildə qeyd edilmişdir. Kimyəvi şəraitinin qiymətləndirilməsi dedikdə kimyəvi zəhərlənmənin obyektlərin, Mülki müdafiə qüvvələrinin və əhalinin fəaliyyətinə təsirini təyin edən əsas tapşırıqların həlli başa düşülür.

Kimyəvi təhlükəli obyektlərin potensial təhlükə dərəcəsi onlarda baş verə biləcək radiasiya qəzalarının əhaliyə mümkün radiasiya təsiri ilə xarakterizə olunması işi elmi yenilikləri kimi hesab oluna bilər.

**Tədqiqatın praktik əhəmiyyəti:** Tədqiqatın praktik əhəmiyyətinə nəzər saldıqda bu qənaətə gəlmək olar ki, tədqiqat bütün universitet, institut, kollec və orta təhsil müəssisələrinin tələbə və müəllimləri üçün tədris köməkçi vasitə ola bilər. Eyni zamanda ali və orta ixtisas təhsil müəssisələrinin tələbələrinin hazırlığı zamanı da istifadə edilə bilər.

Bu elmi-tədqiqat işi işləyən və işləməyən əhali üçün çox böyük əhəmiyyət malik bir vəsait kimi əhəmiyyətlidir.

**Tədqiqat işini ümumiləşdirdikdə aşağıdakı kimi nəticələr əldə olunur:**

Belə nəticəyə gəlmək olar ki, hal-hazırda fəaliyyət göstərən və qəza riski çox-çox böyük olan AES-lərdən biri respublikamızın sərhədləri yaxınlığında yerləşən Ermənistan Metsamor atom elektrik stansiyasıdır. Metsamor atom elektrik stansiyası AEBA-nın reytinqinə görə dünyada fəaliyyətdə olan ən təhlükəli AES hesab olunur.

1991-ci dildə bu stansiyada keçirilən yoxlamada 100-dən çox problem aşkar olunub. Metsamor atom elektrik stansiyası Cənubi Qafqaz regionu, Türkiyə, İran həmçinin bütövlükdə Yaxın və Orta əsr üçün böyük təhlükə mənbəyi hesab edilir. Bu stansiyada artıq iki ciddi qəza baş verib. Spitak zəlzələsi nəticəsində stansiyanın birinci blokunun zədələnməsi və sıradan çıxması seysmik təhlükəli ərazidə yerləşən bu stansiyanın nə qədər böyük təhlükə mənbəyi olduğunu bir daha sübut edir.

Belə ki, Metsamor atom elektrik stansiyasında baş verə biləcək hər hansı bir qəza Naxçıvan MR, Türkiyə və Gürcüstan ərazisində radiasiya təhlükəli zonaların yaranması deməkdir. Bu cür radiasiya təhlükəli obyektlərin dağılması nəticəsində yaranan fövqəladə hallar üçün əhalinin, xüsusilə ali təhsil müəssisələri tələbələrin Mülki müdafiə üzrə hazırlanması böyük əhəmiyyət kəsb edir.

**Bölmə 10. Ümumi fənlər**

**Kafedra: Ümumi fənlər**

**Təranə Əliyeva**
*Müəllim*
*TeraneEliyeva@nmi.edu.az*

# Məktəbəqədər yaşlı uşaqların oyun və əmək fəaliyyətinin təşkili qaydaları

**Tədqiqatın məqsədi:** Məktəbəqədər yaş dövründə uşaqların inkişafında **oyun və sadə əmək fəaliyyətlərinin** rolunu göstərmək, onların fiziki, sosial, emosional və idrak inkişafına təsirini izah etməkdir.

**Aktuallığı:** Mövzunun aktuallığı həm uşağın hərtərəfli inkişafı ilə bağlı elmi-pedaqoji tələblərlə, həm də müasir cəmiyyətin sosial, texnoloji və ailəvi dəyişiklikləri ilə əlaqədardır. Bu səbəbdən "məktəbəqədər yaşlı uşaqlar üçün oyun və əməyin əhəmiyyəti" mövzusu bu gün də pedaqogika və psixologiyada ən vacib tədqiqat istiqamətlərindən biri olaraq qalır

Tədqiqatın metod və üsulları: Nəzəri və praktik tədqiqat forması

***Nəzəri metod-***

1.Mövzu ilə bağlı elmi ədəbiyyatın təhlili

2.Pedaqoji və psixoloji nəzəriyyələrin müqayisəsi

3.Oyun və əmək fəaliyyəti ilə bağlı mövcud modellərin ümumiləşdirilməsi

**Praktik metod-**

4.Real məktəbəqədər qruplarda aparılır

5.Uşaqların fəaliyyətinin müşahidəsi, təcrübələrin keçirilməsi

6.Müəllim, valideyn və tərbiyəçilərlə sorğular, müsahibələr

Bu mövzuda aparılan tədqiqatlar adətən nəzəri və praktik metodların birgə istifadəsi ilə həyata keçirilir. Uşaqların oyun və əmək fəaliyyətinin inkişaf dinamikasının dərin araşdırılması üçün müşahidə, eksperiment, müsahibə, anket, məhsul analizi kimi üsullar ən effektiv sayılır.

**"Məktəbəqədər yaşlı uşaqların oyun və əmək fəaliyyətinin təşkili qaydaları" mövzusunda ümumielmi–empirik yanaşmaya əsaslanan elmi izah** təqdim olunur. Mətn həm ümumielmi prinsipləri, həm də müşahidə, təcrübə yanaşmaları özündə birləşdirir.

Əsas oyun növləri:

1. **Süjetli-rollu oyunlar** (məsələn, "ailə", "həkim", "məktəb")

Bu proses əsasə 5-6 yaşlarında büruzə verilir. Bu, bir növ, süjetli-rollu oyuna keçmə ərəfəsi olub uşağın real həyatda mövcud olanları öz oyunlarında əks etdirməsidir. Məktəbəqədər yaşlı uşaqlarda bu fəaliyyət növü – oyun onların inkişafında və aktivləşməsində əsas rol oynayır. Bu prosesdə uşaq oyun qaydalarına tabe olmaqla yanaşı həm də oyun vasitəsilə başqa uşaqlarla unsüyyət qurmaqda , bölüşmkdə, kollektivlə razılaşmaqda böyük rol oynayır.

2.**Didaktik oyunlar** (məlumatlandırıcı və tədris məqsədli)- Məktəbəqədər yaş dövrünün əvvəllərində təşəkkül tapmağa başlayır. Məktəbəqədər yaşlıların təlim formalarından biri də tədris didaktik oyun və məşğələlərdir. Didaktik-tədris oyunlarından uşaqlar məşğələ və müstəqil işlərində istifadə edirlər və beləliklə, didaktik-tədris oyunları məktəbəqədər yaşlı uşaqların fəaliyyətində əsas yer tutaraq biliklərin mənimsənilməsinə, möhkəmlənməsinə, dərinləşməsinə və onların üsullarına, fikri əməliyyatlara yiyələnməsinə kömək edir.

**3.Konstruktiv oyunlar** - Bu oyun vasitəsilə kubiklərdən istifadə etməklə müxtəlif fiqurlar hazırlamaq, hərfləri tapıb uyğun boşluqlara yerləşdirmək, kublarla işləmək kimi bacarıqlar aşılayır.

**4.Hərəkətli oyunlar** -fiziki inkişaf üçün əhəmiyyətli. Bu mərhələ uşağın həyatında mühüm yer tutur. Məs. Səhər idmanını müsiqi sədaları altında etmək, "Bənövşə" oyunu oynamaq, müəyyən məsafəyə qaçış vəs..

Oyun prosesinin düzgün təşkili tərbiyəçinin peşəkarlığından və uşaqların yaş xüsusiyyətlərindən asılıdır.

1.Mütləq oyun mühiti yaradılmalıdır. Səliqəlilik, təhlükəsizlik, və uşaqların marağı nəzərə alınmçalıdır.

2.Yaş və maraqlar nəzərə alınmalıdır. Kiçik qrup oyunları, süjetli-rollu oyunlar, didaktik və hərəkətli oyunlara üstünlük verilir.

3.Qaydalar izah edilməli və mütləq nəzarət olunmalıdır. Oyunun məqsədi uşaqlara sadə və aydın şəkildə başa salınmalıdır.təhlükəsizlik qaydaları aydın şəkildə izah olunmalıdır.

4.Tərbiyəci həm müşahidəçi, həm yönəldici, həmdə dəstəkverici olmalıdır.

5.Müsbət motivasiya danılmazdır. Uşaqlar oyun zamanı tərif və təşviqlə ruhlandırılmalıdır.

**Tədqiqatın orjinallığı və elmi yeniliyi:**

Uşaqların yaş xüsusiyyətlərinə uyğunlaşdırılmış əmək tapşırıqlarının sistemləşdirilməsi;

Müəllim-uşaq qarşılıqlı münasibətlərinin yaranması;

Sosial-emossional inkişafı;

-Emosional və psixoloji cəhətdən rahatlamaq.

-Yaradıcı düşüncə qabiliyyəti artır və təsəvvürü inkişaf edir.

-Sosial bacarıqların formalaşır, ətrafla davranış qaydaları mədəniləşir, əməkdaşlıq etməyi bacarır və s .

-Dil bacarıqlar inkişaf edir, düzgün danışmağa çalışır, sözləri düzgün tələfüz edir və ünsiyyət qurur.

Oyun mühitinin əmək vərdişlərinin formalaşmasına təsir mexanizminin araşdırılması-

Oyun və əmək fəaliyyətinin inteqrasiya olunmuş modeli

Məktəbəqədər yaşlı uşaqlar üçün oyun və əmək fəaliyyətinin paralel deyil, vahid inkişafetdirici proses kimi nəzərdən keçirilir

Oyun metodu əsasında əmək bacarıqlarının daha səmərəli formalaşmasını göstərən yeni pedaqoji yanaşmanın müəyyənləşdirilir.

3–6 yaşlı uşaqlar üçün əmək fəaliyyətinin növlərini, mürəkkəblik səviyyəsini və ardıcıllığını müəyyən edən elmi əsaslandırılmış təsnifatı hazırlanır.

Əmək fəaliyyətinin psixoloji inkişaf göstəricilərinə təsirinin yeni faktlarla sübut edilməsi.

**Tədqiqatın əhəmiyyəti-** Oyun – uşağın həyatının ayrılmaz hissəsi olmaqla yanaşı, onun dünyanı dərk etmə vasitəsidir. Oyunlar vasitəsilə uşaq təbiəti, cəmiyyət qaydalarını, insan münasibətlərini öyrənir, sosiallaşır və yaradıcı təfəkkür inkişaf etdirir.

**Nəticə-** Məktəbəqədər yaşlı uşaqların inkişafında oyun və əmək fəaliyyətinin düzgün təşkili mühüm rol oynayır. Hər iki fəaliyyət növü uşaqda müstəqillik, yaradıcı düşüncə, əməksevərlik və sosial bacarıqların inkişafına xidmət edir. Bu səbəbdən pedaqoqlar və valideynlər bu fəaliyyətləri planlı, məqsədyönlü və uşaq mərkəzli formada təşkil etməlidirlər. Belə yanaşma uşağın şəxsiyyət kimi formalaşmasına möhkəm zəmin yaradır.

Məktəbəqədər yaşlı uşaqların oyun və əmək fəaliyyəti onların hərtərəfli inkişafı üçün vacibdir.

Bu fəaliyyətlər düzgün təşkil olunduqda:

uşaqlarda məsuliyyət, qayğıkeşlik və əməksevərlik formalaşır;

sosiallaşma və ünsiyyət bacarıqları artır;

gələcək təhsil üçün möhkəm baza yaradılır.

Tərbiyəçi və valideynlərin birgə fəaliyyəti bu prosesin uğurlu keçməsində əsas amillərdəndir.

**Bölmə 10. Ümumi fənlər**

**Kafedra: Ümumi fənlər**

**Coşqun Qurbanov**
*Müəllim*
*CoshgunGurbanov@nmi.edu.az*

# Peşəyönümü üzrə şagirdlərin praktik fəaliyyəti peşəseçmənin başlıca vəzifələrindən biri kimi

**Tədqiqatın məqsədi:** Bu tədqiqatın məqsədi peşəyönümü prosesində şagirdlərin praktik fəaliyyətinin peşə seçiminin formalaşmasında oynadığı əsas rolu müəyyənləşdirmək, praktik məşğələlərin şagirdlərin maraq və meyillərinə təsirini elmi əsaslarla təhlil etmək, həmçinin məktəbdaxili və məktəbdənkənar praktik fəaliyyətlərin peşəyönümü sistemində başlıca vəzifə kimi necə tətbiq olunduğunu müəyyən etməkdir. Tədqiqat həmçinin praktik fəaliyyətin şagirdlərin gələcək peşə qərarlarına təsir gücünü qiymətləndirməyi, peşəyönümü işində praktik komponentin optimallaşdırılmasına dair elmi əsaslandırılmış təkliflər irəli sürməyi hədəfləyir.

**Aktuallığının əsaslandırılması:** Müasir əmək bazarında baş verən sürətli dəyişikliklər, yeni peşə sahələrinin yaranması və əmək resurslarına qoyulan tələblərin dinamik şəkildə artması məktəblilərin peşəyönümü prosesinin təkmilləşdirilməsini zəruri edir. Şagirdlərin öz maraq və qabiliyyətlərinə uyğun peşə seçməsi artıq təkcə pedaqoji məsələ deyil, sosial-iqtisadi zərurət kimi çıxış edir. Bu baxımdan peşəyönümü işində praktik fəaliyyətin rolu xüsusilə aktuallaşır, çünki şagirdlərin real əmək mühitinə yaxın şəraitdə fəaliyyət göstərməsi onların peşələr haqqında obyektiv təsəvvür formalaşdırmasına, seçimin daha şüurlu olmasına imkan yaradır.

**Tədqiqatın metod və üsulları:** Tədqiqatın məqsədinə uyğun olaraq üç əsas metoda müraciət edilmişdir: elmi ədəbiyyatın analizi, müşahidə və anket sorğusu. Əvvəlcə elmi ədəbiyyatın analizi vasitəsilə peşəyönümü, peşə seçimi və şagirdlərin praktik fəaliyyəti ilə bağlı mövcud nəzəri yanaşmalar, həmçinin yerli və xarici pedaqoqların fikirləri öyrənilmişdir. Bu, tədqiqatın nəzəri bazasının formalaşmasına və problemin elmi çərçivədə təsnif olunmasına imkan vermişdir. Müşahidə metodu şagirdlərin praktiki məşğələlərdə davranışını, maraq səviyyəsini və real fəaliyyət prosesində peşələrə münasibətini izləmək üçün tətbiq edilmişdir. Müşahidələr həm dərsdaxili, həm də məktəbdənkənar məşğələlər zamanı aparılmış və praktik fəaliyyətin şagirdlərin peşə seçiminə təsir edən əsas amillərindən biri kimi qiymətləndirilməsinə kömək etmişdir. Anket sorğusu metodu isə şagirdlərin, müəllimlərin və valideynlərin fikirlərini toplamaq, praktik məşğələlərin effektivliyini müəyyənləşdirmək və peşə seçimi prosesində hansı amillərin daha çox rol oynadığını statistik baxımdan dəqiqləşdirmək üçün istifadə edilmişdir. Sorğuların nəticələri ümumiləşdirilərək tədqiqatın empirik hissəsinin əsasını təşkil etmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Elmi yenilik ondan ibarətdir ki, tədqiqat nəticəsində şagirdlərin praktik məşğələlərdə iştirakı ilə onların peşə maraqları arasında səbəb-nəticə əlaqəsi müəyyənləşdirilmiş, praktik fəaliyyətin peşəyönümü prosesinə təsir mexanizmləri daha aydın şəkildə əsaslandırılmışdır. Eyni zamanda peşəyönümü işində praktik komponentin gücləndirilməsi üçün yeni metodik yanaşmalar və tətbiqi tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqatın praktiki əhəmiyyəti:** ədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, şagirdlərin praktik fəaliyyətinin peşə seçiminə təsiri haqqında əldə olunan nəticələr məktəblərdə peşəyönümü işinin daha səmərəli təşkilinə imkan verir. Aparılmış araşdırma praktik məşğələlərin hansı vəziyyətdə daha effektiv nəticə verdiyini müəyyənləşdirir və bu, müəllimlər, məktəb psixoloqları, peşəyönümü üzrə məsul şəxslər üçün tətbiqi tövsiyələr formalaşdırır. Tədqiqatın

nəticələri ümumtəhsil məktəblərində peşəyönümü kabinetlərinin işi, kurikulum çərçivəsində peşəyönümü yönümlü dərslər, eləcə də məktəb–kollec–işəgötürən əməkdaşlığı proqramları üçün istifadə oluna bilər. Həmçinin, təklif olunan metodik yanaşmalar şagirdlərin real əmək mühitinə yaxınlaşdırılmış fəaliyyətlərdə iştirakı üçün yeni praktik modellərin hazırlanmasına töhfə verir.

**Nəticələr:** Şagirdlərin praktik fəaliyyətə cəlb olunması peşə seçiminin formalaşmasında əsas amil kimi çıxış edir. Praktiki məşğələlər şagirdlərdə peşələr haqqında daha aydın və real təsəvvür formalaşdırır, onların gələcək peşə qərarlarını şüurlu şəkildə verməsinə şərait yaradır. Praktik məşğələlərdə müntəzəm iştirak edən şagirdlərin peşə maraqları daha sabit olur. Belə şagirdlər gələcək təhsil istiqamətini seçərkən və peşə planlarını müəyyənləşdirərkən daha əsaslandırılmış və düşünülmüş mövqe nümayiş etdirirlər. Peşəyönümü işinin səmərəsi birbaşa praktik fəaliyyətin təşkilindən asılıdır. Müəllimlərin, psixoloqların və peşəyönümü üzrə məsul şəxslərin koordinasiyalı fəaliyyəti praktik məşğələlərin effektivliyini artırır və şagirdlərin real əmək mühiti ilə tanışlığını təmin edir. Məktəb–kollec–işəgötürən əməkdaşlığı praktik fəaliyyətin effektivliyini yüksəldir, şagirdlərə peşə həyatını birbaşa görmək və öz bacarıqlarını tətbiq etmək imkanı verir. Nəticədə praktik fəaliyyət şagirdlərin peşə seçimini dəstəkləyən mühüm vasitə kimi çıxış edir.

**Bölmə 10. Ümumi fənlər**

**Kafedra: Ümumi fənlər**

**Xatın Ağayeva**
*Baş müəllim*
*KhatinAgayeva@nmi.edu.az*

## Voleybol oyununun tədrisi metodikasında müasir tələblər

**Tədqiqatın məqsədi –** İnstitutut və universitetlərin ibtidai sinif müəllimliyi və məktəbəqədər təhsil ixtisasında təhsil alan tələbələrinə mütəhərrik oyunların tədrisinin əhəmiyyətini anlatmaq, tədris bacarıqlarını formalaşdırmaq, eyni zamanda mütəhərrik oyunların tədrisi zamanı istifadə oluna biləcək müasir təlim metod və üsullarını müəyyənləşdirmək və İKT-nin fənnin tədrisində tətbiqi yollarını aydınlaşdırmaqdan ibarətdir.

**Mövzunun aktuallığı** – Pedaqoji təhsil alan hər bir tələbənin təlim nəticələrinə cavab verə bilməsinin əsas şərtlərindən biri tədris etdiyi fənnin müasir təlim metod və üsullarına cavab verə bilməsi, eyni zamanda İKT-dən düzgün istifadə qaydalarına yiyələnməsinə əsaslanır. Müasir dünya daimi inkişafda olduğu bu zamanda keçən əsrdən qalan metod və üsulların tədris prosesində istifadəsi yeni zamanla tədris fənnin arasında əkaqəni qıra bilər. Mütəhərrik oyunlar mövzusuda çağdaş təhsildə öz əvəzsiz yeri olan bir bölmədir. Bu səbəbdən onun tədrisinin müasir təhsil sisteminə uyğunlaşması təhsil verənin qarşısında duran əsas məsələlərdən biri olmalıdır. Aparılan araşdırmalar göstərmişdir ki, orta məktəblərdə oyunların nəinki müasir təlim metodları ilə tədris edilməsinə cəhd göstərilmir. Dərs saatlarının düzgün keçirilməsi belə təmin olunmur. Xüsusən ibtidai siniflərdə bu dərslərin yerinə riyaziyyat, ana dili kimi fənlər tədris olunur. Buda öz növbəsində zehni və fiziki iş balansının pozulmasına gətirib çıxarır. Bunun qarşısını almaq üçün tədqiqat işi mütəhərrik oyunlar fənninin tədrisinin əhəmiyyətini vurğulamış və tədrisin asanlaşması üçün metod və vasitələri müəyyən etmişdir. Sonda məlum olmuşdur ki, onun tədrisi zamanı müasir metod və vasitələrlə yanaşı İKT-nin düzgün istifadə olunmasına təhsilin qarşısında duran əsas problemlərdən biridir. Bütün bunları nəzərə alaraq demək olar ki, tədqiqat işinin mövzusu aktualdır.

**Tədqiqatın metod və üsulları –** Tədqiqat işi hazırlanan zaman bir çox metod və üsullardan istifadə olunmuş fənnin hal-hazırdakı tədrisi qaydaları öyrənilmiş, müasir təhsil qaydaları ilə haliyədəki tədris sistemi arasında müqayisələr aparılmış, dərs prosesində müşahidələr aparılıb, analiz olunmuş, şifahi sorğular aparılmış, təhsil alanların ( şagirdlərin), tələbələrin və fənn müəllimlərinin tədris prosesi ilə bağlı görüş və təhlilləri diqqətə alınmışdır. Son olaraq dünya təcrübəsi sahəsində araşdırma aparılmış və fənnin müasir tədris forması ilə əvvəlki tədris formaları arasında müqayisə aparılmışdır. Uyğun təhsil sənədləri yoxlanılmışdır. Eksperiment aparılmış və müəyyən edilmiş müasir metodlardan istifadə olunmaqla sınaq dərsləri keçirilmiş, daha sonra bu dərslər təhlil olunmuşdur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi –** Mütəhərrik oyunlar fənnini tədris edəcək hal-hazırki tələbələr və gənc müəllimlər üçün fənnin tədris prosesi zamanı istifadə edə biləcəkləri müasir təlim metod və üsulları aydınlaşdırılmışdır. Beynəlxalq təcrübəyə əsaslanaraq tədrisin təşkil olunması əsaslandırılmışdır. Fənnin tədrisi zamanı istifadə oluna biləcək metod və üsullar müəyyənləşdirilib, tədrisi qaydası göstərilmişdir, nəticə olaraq müntəzəm təkrar etmə və əməkdaşlıq prinsiplərinin mütəhərrik oyunların tədrisi zamanı daha çox istifadə edilməsinin daha məqsədə uyğun olduğu qənaətinə gəlinmişdir. Müasir təlim üsullarından hansılarının mütəhərrik oyunlar fənninin tədrisi üçün uyğun ola biləcəyinin aydınlaşdırılması tədqiqat işinin elmi yeniliyi hesab oluna bilər.

**Tədqiqatın praktiki əhəmiyyəti –** Tədqiqatın praktiki əhəmiyyətinə nəzər saldıqda isə bu qənaətə gəlmək olar ki, tədqiqat ümumi təhsil müəssisələrinin fiziki tərbiyə və məktəbəqədər

müəəssisələrin fiziki mədəniyyət fənlərinin tədrisi zamanı köməkçi vasitə ola bilər. Eyni zamanda ali təhsil müəssisələrinin tələbələrinin hazırlanması zamanı istifadə edilə bilər. Və müəllimliyə yeni addım atan gənc müəllimlər üçün yardımçı rolunu oynaya bilər. Tədqiqat işinin aqrobasiyası Naxçıvan Müəllimlər İnstitutunun "Elmi əsərlər" jurnalının" 2024 buraxılışının III nömrəsində nəşr olunacaqdır.

**Tədqiqat işini ümumiləşdirdikdə aşağıdakı nəticələr əldə olunur:**

1. XVII əsrdən başlayaraq pedaqoqlar mütəhərrik oyunları əqli və psixologi inkişafın əsas vasitələrindən saymışdırlar. Bu səbəbdən müasir təlim metodlarının və texnologiyalarının mütəhərrik oyunlarda tədbiqi onun müasir təhsildə öz mövcudluğunu saxlaması üçün zəruridir.
2. Həm tərbiyə, həm də təlim texnologiyalarının oyunlara tədbiq olunması zəruridir. Çünki oyunlar həm tərbiyədə və həmdə təlimdə özünə məxsus rola malikdir.
3. II paraqrafda əldə olunan əsas nəticə ondan ibarətdir ki, mütəhərrik oyunlar bir çox əsas müasir təlim prinsipi ilə uyğunlaşa və təlim prosesində istifadə oluna bilir. Ancaq bu prinsiplərdən istifadə zamanı oyunun növü və şagirdin yaşı mütləq surətdə nəzərə alımalıdır.
4. Tədqiqat nəticəsində aydın olmuşdur ki, Müntəzəm olaraq təkrar etmək prinsipi, əməkdaşlıq prinsipləri oyunlarda ən çox istifadə oluna biləcək təlim prinsipləridir. Müntəzəm olaraq təkrar etmə prinsipinin köməyi ilə şagird özündə hərəki bacarıqları formalaşdırır və bunun nəticəsi olaraq oyun daha yaxşı yadda qala bilir. əməkdaşlıq prinsipi vasitəsi ilə oyunu daha yaxşı anlaya bilir və resurslardan daha tez və səmərəli istifadə etmək bacarığını formalaşdırırlar.
5. Mütəhərrik oyunlarda İKT-nin tədbiqi müasir dünyanın və müasir təhsilin gətirdiyi zəruri haldır. Lakin hal-hazırda orta məktəblərdə bu vasitələrdən istifadə tamlıqla mümkün deyildir. Bu sahədə inkişaf dövrün tələbidir. Ümumtəhsil məktəblərində maddi - texniki bazanın gücləndirilməsi, idman zallarına müasir uyğun İKT avadanlıqlarının quraşdırılması təlim prosesinin işinin asanlaşması və fənnin tədrisinin daha səmərəli aparıla bilməsi üçün qarşıda duran əsas məsələlərdəndir.
6. Aparılan araşdırmalar göstərmişdir ki, orta məktəblərdə oyunların nəinki müasir təlim metodları ilə tədris edilməsinə cəhd göstərilmir. Dərs saatlarının düzgün keçirilməsi belə təmin olunmur. Bu prosesdə özlüyündə zehni və əqli işin növbələşməsi balansını pozur.Və nəticə olaraq şagirdlərdə həddindən artıq yorğunluq, dərsə qarşı diqqətsizlik və laqeydlik, anlamada problemlər müşahidə olunur. Bütün bunlarla yanaşı daima zehni əməklə məşğul olub, oyunlardan uzaq qalan şagirdlərdə komanda ruhunun, təhlil etmə bacarığının, birgə işə qoşulma bacarığının həddindən artıq zəif olduğuda araşdırmalar zamanı müşahidə olunmuşdur.

## Bölmə 10. Ümumi fənlər

## Kafedra: Ümumi fənlər

**Gülnarə Səfərova**
*Müəllim*
*GulnareSeferova@nmi.edu.az*

# VIII sinifdə "Biologiya" fənninin tədrisində interaktiv təlim metodlarının tətbiqi məsələləri

**Tədqiqatın aktuallığı.** Tədqiqatda hal-hazırkı dövrdə öyrənmə üsullarının hər gün dəyişməsinin və bu dəyişikliklərin düşünmə bacarıqlarına və sorğuya əsaslanan öyrənməyə şərait yaratdığı vurğulanır. Eyni zamanda günümüzün aktual məsələlərindən biri olan STEM yanaşmalarının əhəmiyyətini də vurğulayır. Şagirdlər ən vacib əsas anlayışları, faktları, nəzəriyyələri, qanunları və modelləri ən asan və yaddaqalan üsul və metodlarla mənimsəyirlər. VIII sinif şagirdlərinə dərs zamanı oyun əsaslı elm öyrənmə üsulu ilə dərsləri daha maraqlı və şagirdyönümlü etməyə kömək edir. Tədqiqatda öyrənmə nailiyyətlərini effektiv şəkildə artırmaq üçün uyğun öyrənmə strategiyalarının rəqəmsal oyun əsaslı öyrənməyə inteqrasiya edilməli olduğunu, oyun dizaynı və oyun mexanizmlərinin gücləndirilməsinin vacibliyi vurğulamışdır.

Biologiya fənni təbiət elmi olduğu üçüun istənilən yaş dövründəki öyrənənlərlə müxtəlif metod və üsulları tətbiq etməklə dərsləri daha şagirdyönümlü etmək olar. Ancaq bütün dünya ölkələrində olduğu kimi Azərbaycanda da günümüzün aktual məsələlərindən biri də dərslərin şagirdyönümlülüyünə daha az maraq göstərilməsidir. Tədqiqatda da bunun aradan qaldırılması üçün bir çox metod və üsullar üzərində misallar göstərilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi interaktiv təlimin nəzəriyyəsini öyrənmək və öyrənənlərə interaktiv təlim metodları ilə dərslərin maraq çərçivəsinin nə qədər geniş olduğunu göstərməkdir.

Bu tədqiqatın məqsədlərindən biri də 8-ci sinif şagirdlərinin Biologiya fənninin tədrisində müəyyən interaktiv metodların tətbiqinin səmərəliliyini araşdırmaqdır.

Müasir təhsilin əsas məqsədi şagirdlərdə bilikləri gündəlik həyatda tətbiq etmək bacarığını inkişaf etdirmək və məktəbin həyat üçün bilik vermədiyini, yalnız gələcək təhsil üçün yaxşı əsas olduğunu dərk etməkdir.

Xüsusilə təbiət elmlərinin tədrisində tədris prosesinin keyfiyyətini və səmərəliliyini xeyli artırmaq üçün təcrübələr və məşğələlər şagirdlərə təbiətdəki hadisələrin, münasibətlərin və proseslərin qarşılıqlı asılılığını və əlaqəsini dərk etməyə, onları ona qarşı özlərinin və ümumi davranış normalarının formalaşması üçün əsas kimi qəbul etməyə imkan verir, şagirdlərə hadisələrə daima araşdırma və yenidən yanaşmaq imkanı verir.

Eksperimental metodu tətbiq etməklə şagirdlər sistematik müşahidə, məlumat toplama, fərziyyələrin tapılması və sınaqdan keçirilməsi, eksperimentlərin başa düşülməsi və layihələndirilməsi, tədqiqatın aparılmasına öyrədilir. Bu üsul tədris işinə hər zaman keyfiyyət verir, məhsuldar və yaradıcı təfəkkürə təkan verir, çünki bu, tələbələrin özünütəhsil və müstəqil işləməsinə şərait yaradır.

Tədqiqatda VIII sinifdə biologiya fənninin tədrisi zamanı şagirdlərin keçirilən mövzuya uyğun olaraq öz fikirləərini nəzərə almaqla hər hansı bir metoddan istifadə olunmasının şagirdlərin müstəqil qərar vermək, kollektivlə işləmək bacarığının və fikir irəli sürmək kimi bacarıqlarının formalaşmasına gətirib çıxatmasının əhəmiyyətliliyindən bəhs olunur.

***Tədqiqatın elmi yeniliyi.*** Tədqiqatda interaktiv təlim metodlarının tətbiqi zamanı qarşıya çıxan problemlərin həll olunması üçün konkret məsləhətlər verilmişdir. Eyni zamanda müəllimlərin bütün yaş dövründəki uşaqlar üçün deyil xüsusilə 13-14 yaşlı uşaqların səviyyəsinə uyğun olaraq dərslərin qurulması yönümdə ayrı-ayrı bir neçə mövzu üzərində misallar göstərilmişdir. Ucqar dağ kəndlərində və ya şagirdlərin internetdən istifadə imkanları az olan məktəblər üçün ona uyğun olaraq metodlardan istifadə etməyin faydalılığından bəhs olunmuşdur.

Tədqiqatda eyni zamanda qarşıya çıxan problemləri nəzərə alaraq yerindəcə problemi həll etməyin şagirdlər üçün motivasiyadan düşməməsinə gətirib çıxartdığı haqqında misallar göstərilmişdir.

**Tədqiqatda istifadə olunan metodikalar.** Tədqiqatda lahiyələrin hazırlanması, oyun texnologiyalı, təhlil etmək, müsahibə və başqa metodikalardan istifadə olunmuşdur.

***Tədqiqatın aprobasiyası:*** Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərlər jurnalında “Biologiya fənninin 8-ci sinifdə tədrisində oyun texnologiyalarindan istifadənin motivasiya və öyrənmə nəticələrinə təsiri” adı ilə məqalə formasında çap olunub. Məqalədə Biologiya fənninin tədrisində oyun texnologiyalarının tətbiqinin şagird motivasiyasına və akademik nailiyyətlərinə təsirini araşdırılmışdır.

Oyun texnologiyalarından istifadə olunması şagirdlərin fənnə olan maraqlarını artırmaqla yanaşı, kollektiv şəkildə işləmək bacarığının formalaşmasına səbəb olur. Məqalədə bir neçə dərsə uyğun olaraq misallar göstərilmişdir.

**Arzu Qurbanova**
*Müəllim*
*ArzuGurbanova@nmi.edu.az*

## "Elektrik enerjisinin mahiyyəti, alınması, ölçülməsi və istifadəsi yolları" mövzusunun tədrisinin xüsusiyyətlətinə dair

**Tədqiqatın məqsədi:** Tədqiqatın məqsədi elektrik enerjisinin alınması, ölçülməsi və səmərəli istifadəsi proseslərini elmi əsaslarla araşdırmaq, həmçinin elektrotexniki avadanlıqların quruluşunu və iş prinsiplərini təhlil edərək onların tətbiqində effektivliyini artırmaqdır.

**Mövzunun aktuallığı:** Elektrik enerjisinin istehsalı, ötürülməsi və istifadəsi müasir cəmiyyətin iqisadi ,sosial və texnoloji inkişafının əsas dayaqlarından biridir. Müasir elektrotexniki avadanlıqların quruluşu və iş prinsiplərinin dərindən öyrənilməsi energetika sistemlərinin təhlükəsiz, qənaətcil və dayanıqlı şəkildə fəaliyyət göstərməsi üçün vacibdir.

**Tədqiqatın metod və üsulları:** Analitik təhlil metodu , Müqayisəli analiz metodu, Qrafik və sxematik təsvir üsulu, hesablama və modelləşdirmə üsulu
**Ümumelmi empirik :**Ölçmə üsulları, eksperiment, müşahidə, texniki diaqnostika

**Tədqiqatın orjinallığı və elmi yeniliyi: -** aşağıdakı müddəalarla müəyyənləşir:
1.Elektrik enerjisinin istehsalı və ölçülməsi ilə bağlı aparılan real sahə müşahidələri laboratoriya nəticələri ilə müqayisə edilərək daha dəqiq texniki qiymətləndirmə modeli işlənib hazırlanır.
2.Elektrotexniki avadanlıqların quruluşu üzrə aparılan təhlil yeni optimallaşdırma təkliflərinin formalaşmasına imkan verir.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Elektrik enerjisi sahəsində həm nəzəri biliklərin təkmilləşdirilməsinə, həm də texniki proseslərdə tətbiq olunmasına geniş imkan yaratması ilə bağlıdır.

**Nəticə : 1.**Elektrik enerjisinin istehsalı üzrə müxtəlif mənbələrin iş prinsipləri və səmərəliliyi qiymətləndirilmişdir.

**2.**Elektrik enerjisinin ölçülməsində istifadə olunan cihazların iş prinsipləri ölçmə dəqiqliyinə təsir edən amillər müəyyən edilmişdir.

Tədqiqatın nəticələri praktiki tətbiq üçün əlverişli olub sənaye müəssisələrində enerji təsərrüfatında təhsil müəssisələrində istifadə edilə biləcək elmi-texniki baza formalaşdırılmışdır.

## Bölmə 11. İncəsənət

## Kafedra: İncəsənət

**Həbibə Allahverdiyeva**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru*
*Kafedra müdiri, baş müəllim*
*HabibaAllahverdiyeva@nmi.edu.az*

# Rəsm (xətlər) rəngkarlığın təməli kimi

**Tədqiqatın məqsədi:** Elmi-tədqiqat işində natürmort, təbiət motivləri və portretin çəkilməsi metodikasında əsas və təməl olan xətlərin çəkilməsi, qurulma, prinsipləri və onun həlli yolları müzakirə olunur. Lakin burada xəttlər yalnız müəyyən bir naturanın xarici görüşünü çatdırmağa deyil, həm də bədii obraz yaratmaq üçün ifadəli imkanlar tapmağa yönəlmişdir. Tədqiqat işində başlıca məqsəd rəngkarlıqda naturadan çəkilən təsvirlərin metodikasını araşdırmaq və rəngkarlıq əsərlərinin yaradılması üsullarına, mərhələli həll yollarına, eyni zamanda yalnış xətlərdə ibarət olan müxtəlif üslub xüsusiyyətinə malik obraz ifadəsi olan rəngkarlıq əsərlərinin tədqiqi (müasir dövrdə), onu təhsilalanlara mənimsədilməsinə, tədrisi xüsusiyyətlərinə elmi dəyər verməkdir.

**Aktuallığının əsaslandırılması:** Tədqiqat işində rəngkarlıq əsərlərinin üzərində yaradıcılıq prosesinin xüsusiyyətlərini açır, rəngkarlıq sənətinin inkişaf tarixində bədii obrazın yaradılmasının müxtəlif ekspressiv imkanlarını təhlil edir, qanunauyğunluqlarını müəyyənləşdirir. Rəngkarlığın təməli olan xətlər onların çəkilməsi metodikası, bundan əlavə fəlsəfi məzmunlu, müxtəlif formalı xəttlərdən ibarət tematik kompozisiyanın spesifik xüsusiyyətləri nəzərdən keçirilir. Daha əhatəli analiz üçün tədqiqat aşağıdakı plan əsasında aparılmışdır.
1.Xətlər rəngkarlıqda təməl ifadə vasitəsi kimi
2. Xətlərin forma müxtəlifliyi, detalın fəza vəziyyəti, həcmin və formanın həlli xüsusiyyətləri
3. Rəngkarlıqda xəttlər estetik formaların fəlsəfəsi kimi

Rəngkarlıq əsərlərinin yaradılmasında əsas və ilkin ifadə olan xətlər, onların çəkilməsi ardıcıllığı, kompozisiya, perspektiva kimi ifadə vasitələrində xətlərin formə vəziyyəti, çəkilməsi mərhələlərinin metodiki analizində natürmort, mənzərə və portret janrını əsas götürərək, təsvirinin üzərində işləmək üçün elmi əsaslandırılmış metodiki tövsiyələr verilir.

Yaradılan rəngkarlıq əsərlərinin yaddaqalan olması məhz onun məğzini, ideyasını, həllinin düzgün tapılmasında, dolğun çatdırılmasındadır. Mövzu və süjetin dolğun həllinin tapılması, ifadə vasitələrindən – kompozisiya, perspektiva, işıq-kölgə, həcm, rəng və sairlərin düzgün həllinə əsaslanır. Bu kimi ifadə vasitələrindən biri olan, rəngkarlığın əsas təməli olan rəsm– xətlərin düzgün çəkilməsi tələbələrin, gənc rəssamların gələcək yaradıcılıq perspektivlərinə açılacaq yolun ilkin tələbidir. Rəngkarlığın tədrisi prinsiplərinin, ifadə vasitələrindən düzgün istifadə edilməsi metodikasının tədqiqi mövzunun aktuallığını əsaslandırır.

**Tədqiqatın metod və üsulları:** Tədqiqat elmi ümumiləşdirmə, sistematik üsullar, ədəbiyyat və fotoşəkillərə əsalanan əyanilik üsulları ilə işlənmişdir. Rəngkarlığın tədrisinin prinsipləri müxtəlif elmi yanaşma prinsipləri ilə izləmək və onu qiymətləndirmək mümkündür. Rəngkarlığın, eləcə də qrafikanın nəzəri və praktiki metodlarının vəhdəti, elmi-nəzəri əsaslarını tədqiqat üçün əsas götürülmüşdür. Belə yanaşmada həm nəzəri, həm də təcrübi prinsiplərə üstünlük verilir ki, bu da tədqiqatın metodoloji əsasının elmi xarakterini gücləndirir. Tədqiqatın metodoloji əsasında bu yanaşmanın başlıca yaradıcılıq xüsusiyyətlərinə yönəldilən elmi-nəzəri baxış durur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Araşdırmada çəkilən təsvirlərin metodikası, müxtəlif texnika və üslublar konkretləşdirilmiş və yaradılan rəngkarlıq əsərlərinin çəkilməsinin metodik mərhələləri, təsvirlərinin estetik prinsipləri əsas götürülüb.

## Bölmə 11. İncəsənət

## Kafedra: İncəsənət

**Tədqiqatın praktiki əhəmiyyəti:** Azərbaycan, Naxçıvan, eləcə də dünya təsviri incəsənəti sahəsində aparılan tədqiqat işlərində, mühazirə, seminar kurslarının, məşğələlərin aparılmasında, metodik vəsaitlərin hazırlanmasında istifadə edilə bilər. Eləcə də təsviri incəsənət sahəsinə maraq göstərən, rəssamlıq bacarıqlarına yiyələnmək istəyən tələbələr üçün əhəmiyyətli vəsaitdir.

**Tədqiqat işində əldə olunan nəticələri ümumiləşdirərək aşağıdakı şəkildə ifadə etmək olar:**

Rəngkarlıqda rəsm – “müəyyən formaya malik xətlər” təsviri yaradıcılığın əsasını təşkil etməklə rəssamın fikrinin, hislərinin, təsəvvürünün və ətraf aləmə münasibətinin obrazlı ifadəsində bir vasitədir. Rəsmin tədrisi rəngkarlıq əsərlərində təsvir olunan detalların real təsvirinin prinsipini, metodlarını öyrətməklə, onun rəng həllinə kömək edir, bütün ifadə vasitələrinin vəhdətilə tablonun ifadə məğzinin ümumi olaraq tapılmasına geniş imkanlar yaradır.

Müasir dövrdə rəssamların həyata baxışı, fəlsəfi və yaradıcı münasibəti, bədii ifadə təmayülləri də dəyişir, müasirləşir, fərqli şəkildə özünü təqdim edir. Bu dövr avanqard təsviri incəsənətdə konvensional işarələrə tez-tez rast gəlinir. Belə şərti işarələr, simvollar, mifoloji obrazlarla, rəmzi məna bildirən və ya stilzə olunmuş sadə formalar vasitəsilə onlar, real və ya tarixi hadisələr, insanlar haqqında informasiya verir, müəyyən bədii fikir bildirirlər. Yaradıcılıq prosesindən səthi təsvirçiliyə, illüstrasiyaçılığa, foto-realizm ruhuna müəyyən qədər yer verilmir. Lakin nə qədər yeni-yeni cərəyanlar, üslublar meydana çıxıb formalaşsa, bir-birini əvəz etsə də akademik – realist üslub hər zaman rəssamlığın əsasını təşkil etmiş, ilk öyrənmə mərhələsi olmuş, bütün dövrlərdə də öz mövqeyini saxlamışdır. Təsviri incəsənətin tədrisi zamanı onun geniş bir sahəsi olan rəngkarlıq ümumi tədris zamanı onun əsasları haqqında, janrları, texnikaları, hər bir janrın təşəkkül tapdığı zamanadək keçdiyi tarixi yol, inkişaf xüsusiyyətləri öyrədilməli, tədris prinsipləri nümunələr əsasında nəzəri və praktiki yollarla öyrədilməlidir.

–Realist üslub hər zaman rəssamlığın əsasını təşkil etmiş, ilk öyrənmə mərhələsi olmuş, bütün dövrlərdə də öz mövqeyini saxlamışdır. Bu üslubda isə əsas və təməl ifadə vasitəsi müxtəlif formalı, müxtəlif ölçülü xətlərdir.

–Natürmort, mənzərə və portret, tematik tablo janrında rəngkarlıq əsərlərinin yaradılmasında əsas və ilkin ifadə olan xətlər, onların çəkilməsi ardıcıllığı, kompozisiya, perspektiva kimi ifadə vasitələrində xətlərin forma vəziyyəti, çəkilməsi mərhələlərinin metodiki analizində natürmort, mənzərə və portret janrını əsas götürərək, təsvirinin üzərində işləmək üçün elmi əsaslandırılmış metodiki tövsiyələr verilir

–Rəngkarlıqda xətlər təkcə təməl xarakteri daşımır, eyni zamanda əsərdəki kompozisiyanın tərkib hissəsi olaraq əsas fikrin ifadəsində açar rolunu oynayır, yaxud əsərdə ideyanın açılmasında köməkçi element rolunu oynayır.

– Dərslər xüsusilə naturaya əsaslanmalı, əşyaları dərk etməklə, səth üzərində onların forma, materiallığı, fakturası, həcmi, tonu, ümumilikdə mühütin real görüntüsü və onların bir-birinə münasibətinin həllinə nail olmaqdır. Bu həll tələbənin işıqlı fəzada gördüklərini müxtəlif texniki üsullarla: (xətt, ştrix, kölgə, rəng ləkələri vasitəsilə) hansı yollarla çəkməyi öyrətməkdən ibarətdir.

–Xətlərin ifadə obyektinə çevirilməsi daha çox üslub müxtəliyi ilə bir-birindən fərqlənən tablolarda daha çox rast gəlinir.

**İşin aprobasiyası haqqında məlumat**

1. Qədim Ordubadın qrafik təsvirləri XIX-XX əsr xarici ölkə rəssamlarının yaradıcılığında. AMEA-nın Naxçıvan bölməsi. “Axtarışlar”. № 2. Naxçıvan-2025

2. Rəngkarlıqda xətlər – təməl və estetik formaların fəlsəfəsi kimi**.** AMEA-nın Naxçıvan bölməsi. “Axtarışlar”. № . Naxçıvan-2025

## Bölmə 11. İncəsənət

## Kafedra: İncəsənət

**Nizami Alıyev**
*Müəllim*
*NizamiAliyev@nmi.edu.az*

# Naxçıvan teatr rəssamlarının yaradıcılığının tədrisinin aktual məsələləri (1991-2025)

**Tədqiqatın məqsədi:** Elmi-tədqiqat işində əsas məqsədlərindən biri müstəqillik illərində (1991-2025) Naxçıvan Dövlət Milli Dram Teatrında fəaliyyət göstərən rəssamların yaratdıqları səhnə əsərlərinin, orta və ali məktəblərdə tədris olunan təsviri incəsənət dərslərində bu sahənin tədrisinin aktuallığını təmin etməkdir. Təhsilalanlarda teatra və həmçinin səhnələşdirilmiş dram əsərlərinə maraq hislərinin gücləndirilməsində bu sahədə çəkilmiş –panolar, dekorasiyalar, geyim eskizləri və bu kimi mövzulara həsr olunmuş əsərləri təbliğ etməklə onları tanıtmaqdır.

**Aktuallığın əsaslandırılması:** Tədqiqat işində bu sahədə yaradılmış səhnə əsərlərində yaradıcılıq imkanlarından istifadə, bədii ifadə tərzi, mürəkkəb kompozisiyaların qurulma prinsipləri, əsərin lakonikliyi və mövzunun aktuallığı diqqət mərkəzində saxlanılır. Əsərlərin təhlili və təbliğində rəssamların bu sahəyə müraciətinin əsas məqsədi ön plana çəkilərək təhsilalanlara çatdırılır. Eləcə də, müstəqillik illərində Naxçıvan Dövlət Milli Dram Teatrında bədii yaradıcılıqla məşğul olan rəssamlarımızın yaratdıqları dəyərli səhnəqrafiya əsərlərini sənət dili ilə təhsilalanlara çatdırmaq, bu sahədə çəkilmiş səhnə əsərlərini və onları yaradan teatr rəssamlarını gənc nəsllərə tanıtmaq bu günki təhsilin qarşısında duran ən əsas aktual məsələlərdən biridir.

**Tədqiqatın metod və üsulları:** Tədqiqat işi elmi və bədii ümumiləşdirmə, müstəqillik illərində (1991-2025) tarixi-xranaloji tədqiqatları, internet resuslarından, bu sahədə yazılmış monoqrafiyalardan, qəzet və jurnallarda dərc olunmuş materiallardan istifadə, ayrı-ayrı rəssamların bu sahədə çəkdikləri orjinal əsərlər və əsərlərinin repraduksiyası əsasında işlənmişdir. Tədqiqatda rəngkarlıq, qrafika və teatr dekarasiyası sahəsində yaradılmış əsərlərin materiallığı, bədii təsvir xüsusiyyətləri, sənət cərəyanları, rəssamın səhnə obrazına yanaşma tərzi və təhlil metodlarından geniş istifadə edilmişdir.

**Tədqiqatın orjinallığı və elmi yeniliyi:** Naxçıvan teatr rəssamlarının səhnəqrafiya sahəsində yaratdıqları əsərlərin orjinalı əsasında tədqiqatın aparılması, tamaşaya qoyulmuş dram əsərlərinin illər üzrə xranoloji ardıcıllıqla sistemləşdirilməsi, elmi və bədii təhlilinin aparılması və çap olunması.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Tarix, ədəbiyyat, incəsənət və başqa sahələrdə aparılan tədqiqat işlərində, Azərbaycan Milli Elmlər Akademiyasında, onun bölmələrində, ali, orta ixtisas və orta məktəblərdə, mühazirə, seminar və praktik məşğələlərin aparılmasında, kitap, dərs vəsaiti və elmi məqalələrin yazılmasında istifadə edilə bilər.

**Tədqiqat işində əldə olunan nəticələri ümumiləşdirərək aşağıdakı şəkildə ifadə etmək olar:**

Naxçıvan xanlıqlar dövründəki durğunluqdan sonra XIX əsrin axırlarında yenidən dirçəlməyə başlayır və Azərbaycanın mədəniyyət mərkəzlərindən birinə çevrilir. Həmin dövrdən etibarən Naxçıvanda M.T.Sidqi, E.Sultanov, Ə.Nəcəfov (Qəmкüsar), C.Məmmədquluzadə, görkəmli dramaturq, şair H.Cavid kimi mədəniyyət xadimləri yetişir, yeni tipli Rus-Tatar (Rus-Azərbaycan) məktəbi, Qızlar məktəbi, “El güzgüsü” adlı teatr cəmiyyəti, kütləvi kitabxana və qiraətxanalar və s. mədəni-maarif ocaqları açılır. Bunlar Naxçıvanda maarif, mədəniyyət, incəsənətin formalaşmasında və gənc nəslin tərbiyəsində böyüк rol oynayır.

## Bölmə 11. İncəsənət

## Kafedra: İncəsənət

XX əsrin əvvəllərindən başlayaraq Naxçıvanda Azərbaycanın tanınmış rəssamları – Bəhruz bəy Kəngərli, Adil Qazıyev, Hüseyn Əliyev və Şamil Qazıyev rəssamlıq sənətinin əsasını qoymuşlar. Onların yaradıcı fəaliyyətləri Muxtar Respublikada səhnəqrafiya sahəsinin formalaşmasında müstəsna rol oynamışdır.

Azərbaycanda teatr-dekorativ rəssamlığının təşəkkülü Bəhruz bəy Kəngərlinin adı ilə bağlıdır. Səhnə tərtibatı sahəsində fitri istedada malik Bəhruz bəy Kəngərli teatr-dekorativ rəssamlıq sənətimizin inkişafında mühüm rol oynamışdır. Bəhruz bəy Kəngərlinin yaradıcılığı son dərəcə məhsuldar olduğu kimi, həm də çoxcəhətli idi. Bu sahələrdən biri də səhnə tərtibatı, teatr dekorasiyası sənəti idi. Teatr sənəti ilk dəfə Naxçıvanda 1883-cü ildə yerli ziyalıların təşəbbüsü ilə təşkil edilmiş "Müsəlman incəsənəti və dram cəmiyyəti" tərəfindən Mirzə Fətəli Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" əsərinin tamaşaya qoyulması ilə başlayır. Bu vaxtdan etibarən Məhəmməd ağa Şahtaxtılı, Qurbanəli Şərifov, Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Məhəmməd Tağı Sidqi, Baxşəli ağa Şahtaxtılı, Mirzə Əliməmməd Xəlilov, Mirzə Ələkbər Bəyalı oğlu Süleymanov, Mirzə Məmməd Zamanbəyov və b. qabaqcıl maarifpərvər ziyalıların səyləri nəticəsində Naxçıvanda teatr sənəti surətlə inkişaf etməyə başlayır. Naxçıvan teatrında Rza Təhmasib, Mirzə Əliqulu Nəcəfov (Qəmküsar), Həsən Səfərli, Əli Xəlilov kimi tamaşaçıların rəğbətini qazanmış bacarıqlı həvəskar aktyorlar çıxış edir, teatrın səhnəsində "Ölülər", "Pəri Cadu", "Pəhləvani-zəmanə", "Məşədi İbad", "Arşın mal alan", "Hacı Qara" və s. kimi klassik əsərlər tamaşaya qoyulurdu ki, həmin əsərlərin səhnə tərtibatı görkəmli fırça ustası Bəhruz bəy Kəngərlinin adı ilə bağlıdır.

1912 – 1915-ci illərdə hələ tələbə ikən Bəhruz bəy yay və qış tətillərində Naxçıvana gələrkən rahat durmaz, bütün istirahət vaxtlarını Naxçıvan teatrına həsr edərdi. Bəhruz bəy Kəngərli 1915-ci ildə Tiflisdəki rəssamlıq məktəbini bitirib, Naxçıvana qayıdır və ömrünün axırına (1922) qədər Naxçıvan teatrında rəssam vəzifəsində işləyir. O, Sovet hakimiyyəti illərində həvəslə yaradıcılıq fəaliyyətini davam etdirir və çox ciddi nailiyyətlər qazanır".

Bəhruz bəy Kəngərlidən sonra Naxçıvan teatrında səhnəqrafiya işini tanınmış rəssamlardan Adil Qazıyev, Şamil Qazıyev, Nağı Nağıyev, Məmməd Qasımov, Əyyub Hüseyinov, Məmmədəli İsmayılov, Yuran Məmmədov, Mir Cəlil Seyidov, Əli Səfərov və digərləri kimi teatr rəssamları müvəffəqiyyətlə yerinə yetirmişlər.

1991-ci ildən – müstəqilliyimizin ilk günlərindən başlayaraq Naxşıvam Muxtar Respublikasının mədəni həyatında əsaslı dəyişikliklər baş verdi. Heydər Əliyevin 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi bütün sahələrdə olduğu kimi, teatrın kollektivi qarşısında mühüm və təxirəsalınmaz vəzifələr qoydu. Teatrın yaradıcı heyəti də müstəqillik işığında ciddi sənət axtarışlarına başladı. Naxçıvan teatrı repertuarlarına daxil etdikləri əsərlərə müasirlik mövqeyindən yanaşaraq böyük nailiyyətlər əldə etdilər.

Müstəqillik illərində tetrda fəaliyyət göstərən gənc rejissorlardan Əsgər Əsgərov, Kamran Quliyev, Vaqif Əhmədov, rəssamlardan Əbülfəz Axundov, Hüseynqulu Əliyev, Səyyad Bayramov və Həsən Qurbanov kimi tanınmış sənətkarların yaradıcı fəaliyyətləri nəticəsində 1991-2025-ci illərdə onlarala tamaşaya bədii səhnə tərtibatı vermişdir. .

**İşin aprobasiyası haqqında məlumat**

1. Naxçıvan teatr rəssamlarının yaradıcılığının tədrisinin aktual məsələləri. Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. №3.(çapda)

## Bölmə 11. İncəsənət

## Kafedra: İncəsənət

**Həbib Allahverdiyev**
*Müəllim*
*HabibAllahverdiyev@nmi.edu.az*

# Batal janrının metodiki xüsusiyyətləri

**Tədqiqatın məqsədi:** Elmi-tədqiqat işində təsviri incəsənətin geniş yayılmış növlərindən biri olan batal janrı haqqında və bu janrda çəkilən rəsm əsərlərinin mövzundan və işlənmə texnikalarından söz açılır. Tədqiqat işində tələbələrə batal janrının necə çəkilmə qaydaları, bu janrda hansı təsvirlərin yer alacağı barədə təfsilatlı fikirlər, rəssamların batal janrında çəkdikləri rəsm əsərlərindən nümunələr, onlara bu janrın mənimsədilməsi baxımından dəyərli hesab oluna bilər.

**Aktuallığının əsaslandırılması:** Tədqiqat işində batal janrında çəkilmiş rəngkarlıq əsərlərinin üzərində yaradıcılıq prosesinin xüsusiyyətləri açılır, bu janrın inkişaf tarixində bədii obrazın yaradılmasının müxtəlif ekspressiv imkanlarını təhlil edir, qanunauyğunluqlarını müəyyənləşdirir. Batal janrında çəkilmiş təsvirlərin xüsusiyyətləri nəzərdən keçirilir, bu janrda çəkilmiş portretlər əsas götürülərək, təsvirinlərin üzərində işləmək üçün elmi əsaslandırılmış metodiki tövsiyələr verilir.

Batalis rəssamların yaratdıqları əsərlərin yaddaqalan olması məhz onun məğzini, ideyasını, həllinin düzgün tapılmasında, dolğun çatdırılmasındadır. Mövzu və süjetin dolğun həllinin tapılması, ifadə vasitələrindən – kompozisiya, perspektiva, işıq-kölgə, həcm, rəng və sairlərin düzgün həllinə əsaslanır. Bu kimi ifadə vasitələrindən düzgün istifadə edilməsi tələbələrin, gənc rəssamların gələcək yaradıcılıq perspektivlərinə açılacaq yolun ilkin tələbidir. Batal janrının tədrisi prinsiplərinin, ifadə vasitələrindən düzgün istifadə edilməsi metodikasının tədqiqi mövzunun aktuallığına əsaslanır.

**Tədqiqatın metod və üsulları:** Tədqiqat elmi ümumiləşdirmə, sistematik üsullar, ədəbiyyat və fotoşəkillərə əsalanan əyanilik üsulları ilə işləmişdir. Batal janrının nəzəri və praktiki üsullarının qarşılıqlı əlaqəsi tədqiqatın elmi nəzəri əsasını təşkil edir. Bu yanaşma çərçivəsində həm nəzəri müddəalar, həm də təcrübəyə əsaslanan prinsiplər ön plana çəkilir ki, bu da araşdırmanın metodoloji bazasının elmi mahiyyətini daha da möhkəmləndirir. Tədqiqatın metodoloji yanaşması, əsasən sözügedən janrın yaradıcılıq xüsusiyyətlərinin elmi-nəzəri təhlilinə istiqamətlənmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Araşdırmada çəkilən təsvirlərin metodikası, müxtəlif texnika və üslublar konkretləşdirilmiş və yaradılan rəngkarlıq əsərlərinin mərhələləri, təsvirlərinin estetik prinsipləri əsas götürülüb

**Tədqiqatın praktiki əhəmiyyəti:** Azərbaycan, Naxçıvan təsviri incəsənəti sahəsində aparılan tədqiqat işlərində, mühazirə, seminar kurslarının, məşğələlərin aparılmasında, metodik vəsaitlərin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqat işində əldə olunan nəticələri ümumiləşdirərək aşağıdakı şəkildə ifadə etmək olar:** İncəsənət əsərinin ərsəyə gəlməsi xüsusi prosesdir, bu əsərlərin müəllifi estetik qanunları bilməli, bədii və əlbəttə ki, texniki üsullara yiyələnməlidir. İncəsənət həyatımızın gözəlləşdirilməsi, bədiiləşdirilməsi hələ qədim dövrlərdən insanları düşündürən cəhətlərdən biri olmuşdur. Elə buna görə də tarixə nəzər salsaq görərik ki, insanlar incəsənəti öz həyatlarına daxil etməyi heç vaxt unutmayıblar. Nəticədə zamanla yeni-yeni təsviri incəsənət sahələri meydana gəlib. Bunlardan biri də təsviri incəsənətin bir növü olan batal janrı idi ki, bu janrda dahi rəssamlar maraqlı əsərlər yaratdılar. Əsərlərin böyük bir hissəsini isə müharibə səhnələri təşkil edirdi.

--Tarixi vərəqlədikcə görərik ki, dövlətlərarası daima müharibələr, savaşlar baş vermiş, qəhrəmanlar, igidlər həmişə öz adlarını tarixə yazdırmışlar. Bu hadisələrin tablolarda əksi rənglərlə

ifadə olunurdu ki, sonda batal janrında bir birindən gözəl tablolar ortaya çıxırdı. Bu tablolarda igitliklə vuruşan, şəhid olan əsgərlərin simasını görürük. Rəssamların ərsəyə gətirdiyi bu kimi tablolarda olan kompozisiya, perespektiva, rəng həlli, işıq və kölgə böyük ustalıqla verilmişdir. Gənc rəssamların, tələbələrin bu tablolara baxıb yararlanması, öz əsərlərində o ştrixləri tətbiq etmələri onların gələcək yaradıcıqlarına müsbət təsir edə bilər.

-- Təsviri incəsənətin batal janrı ümumi tədris zamanı onun işlənmə texnikaları və bu janrın təşəkkül tapdığı zamanadək keçdiyi tarixi yol, inkişaf xüsusiyyətləri öyrədilməli, tədris prinsipləri nümunələr əsasında nəzəri və praktiki yollarla öyrədilməlidir.

**İşin aprobasiyası haqqında məlumat**

1. “Qərbi Azərbaycan təsviri incəsənətin batal janrında” məqalə. AMEA nın Naxçıvan bölməsi. 2025.

## Bölmə 11. İncəsənət

## Kafedra: İncəsənət

**Rübabə İmanlı**
*Fəlsəfə doktoru hazırlığı üzrə doktorant*
*Müəllim*
*Rubabeimanli@nmi.edu.az*

# Dekorativ-tətbiqi sənətlərin bədii üslub xüsusiyyətləri

**Mövzunun aktuallığı.** Dekorativ tətbiqi sənətlərin bədii üslub xüsusiyyətlərinin öyrənilməsi bir neçə kritik səbəbə görə yüksək müasir aktuallığa malikdir. Dekorativ – tətbiqi sənətin obyektləri mədəni irsin maddi ifadəsidir. Ənənəvi toxuculuq nümunələrindən tutmuş xüsusi keramika şüşələmə üsullarına qədər onların unikal üslub xüsusiyyətlərini təhlil etmək qloballaşmanın homojenləşdirici qüvvələrinə qarşı milli və regional bədii kimlikləri qorumaq üçün çox vacibdir. Üslubun başa düşülməsi effektiv konservasiya və dəqiq tarixi sənədlər üçün ilkin şərtdir. Müasir dizaynerlər, memarlar və sənətkarlar davamlı olaraq tarixi Dekorativ tətbiqi sənətin üslublarından ilham alırlar. Art Nouveau və ya Art Deco kimi hərəkətlər tərəfindən qurulan formal prinsiplər müasir estetik meyllər üçün əsas olaraq qalır. Bu tədqiqat müasir maddi mədəniyyətdə innovasiyaları məlumatlandırmaq və sürətləndirmək üçün mühüm tarixi obyektiv təqdim edir. Qlobal bazar sifarişli, yüksək keyfiyyətli və stilistik cəhətdən fərqli əl işi olan əşyaları getdikcə daha çox qiymətləndirir. Bu tədqiqatın təqdim etdiyi stilistik təhlil dekorativ tətbiqə xas olan estetik dəyəri və texniki çətinliyi təsdiq edir və bununla da ənənəvi sənətkarlıqların iqtisadi səmərəliliyini dəstəkləyir və davamlı, maddi şüurlu istehsal üsullarına təşviq edir. Dekorativ tətbiqi sənət sənət tarixi, materialşünaslıq və sosial tarix arasında unikal bir yer tutur. Onun üslubunun dərin təhlili fənlərarası dialoqu asanlaşdırır, texnoloji irəliləyişlərin estetik seçimlərə və mədəni mənimsəməyə birbaşa təsirini aşkar edir. Kütləvi istehsal məhsulları ilə doymuş bir mühitdə tətbiqi sənətin düşünülmüş dizayn seçimlərini və əsas estetik prinsiplərini başa düşmək estetik savadlılığı artırır və istehlakçıları sənətkarlıq, forma və gündəlik həyatda istifadə olunan obyektlərin daha dərin kommunikativ gücünü qiymətləndirməyə təşviq edir.

**Tədqiqatın məqsədi.** Bu tədqiqatın əsas məqsədi seçilmiş tarixi dövrlər və mədəni mühitlər üzrə Dekorativ Tətbiqi Sənəti xarakterizə edən fundamental bədii və üslub xüsusiyyətlərini sistematik şəkildə təhlil etmək, təsnif etmək və şərh etmək, bununla da funksional zərurət, maddi məhdudiyyətlər və estetik ifadə arasında aydın əlaqə yaratmaqdır. Dekorativ Tətbiqi Sənət üslubunun əsas komponentlərini müəyyən etmək və fərqləndirmək, xüsusilə ornamentasiya, kompozisiya və maddilik roluna diqqət yetirmək. Əsas fəlsəfi və texnoloji dəyişikliklərin fərqli stilistik nəticələrlə necə nəticələndiyini vurğulamaq üçün ən azı üç fərqli tarixi sənət hərəkətinin müqayisəli tədqiqini həyata keçirmək. Obyektin nəzərdə tutulan funksiyasının onun estetik formasını və dekorativ işlənməsini necə diktə etdiyini və ya təsir etdiyini göstərən keramika, toxuculuq və mebel kimi mediada xüsusi nümunələri araşdırmaq. Həm qərb, həm də qeyri-qərb ənənələrindən (məsələn, İslam həndəsəsi və ya Yapon sadəliyi) nümunələrdən istifadə edərək regional, dini və sosial-iqtisadi amillərin üslub üstünlüklərini necə formalaşdırdığını araşdırmaq. Nəticələri hər hansı Dekorativ Tətbiqi İncəsənət obyektinin bədii üslubunu qiymətləndirmək və təsnif etmək üçün alimlər və müasir dizaynerlər tərəfindən istifadə edilə bilən aydın təməl prinsiplər toplusunu sintez etmək.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti keramika, toxuculuq, metal emalı, mebel, şüşə məmulat və zərgərlik məmulatları daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, müxtəlif zaman dövrlərində qlobal şəkildə yaradılmış Dekorativ və Tətbiqi Sənət obyektlərinin hərtərəfli məcmusudur. Əsas diqqət faydalılıq və estetika arasındakı boşluğu bağlayan maddi

artefaktlara yönəldilir. Burada əsas obyekt Azərbaycanın və Şərq xalqlarının dekorativ-tətbiqi sənət nümunələridir.

Tədqiqatın predmeti isə həmin sənət nümunələrinin bədii üslub xüsusiyyətləri, kompozisiya quruluşu, ornament sistemi, rəng həlli və nümayiş etdirdiyi bədii üslub xüsusiyyətləridir. Bu, formal, ornamental və ifadəli xüsusiyyətləri, o cümlədən dizayn prinsiplərini, dekorativ motivlərin tətbiqi, obyektin formal kompozisiyasını, material və texnikanın son estetikaya təsirini əhatə edir

**Tədqiqatın metodologiyası.** Tədqiqat tətbiqi sənətin stilistik xüsusiyyətlərinin ciddi və yaxşı dəstəklənən tədqiqini təmin etmək üçün tarixi və analitik metodologiyaları birləşdirərək çoxşaxəli yanaşma tətbiq edir. İlkin və ikinci dərəcəli mənbələrin, o cümlədən tarixi dizayn manifestlərinin, müvafiq dövrlərə aid sənət tənqidinin, emalatxanaların və ayrı-ayrı sənətkarların arxiv qeydlərinin tədqiqini əhatə edir. Bu üsul xüsusi üslubların yaranması və təkamülü üçün mədəni və texnoloji konteksti müəyyən edir. Tədqiqat işində sənətşünaslığın müqayisəli-tarixi, vizual-analitik və üslubi təhlil metodlarından istifadə olunmuşdur. Tədqiqat zamanı həm klassik sənətşünaslıq ədəbiyyatına, həm də muzey eksponatlarının vizual təhlilinə istinad edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat dekorativ tətbiqi sənət üslubunu yalnız xronologiyaya və ya yerə görə deyil, funksiya və dekorasiyanın qarşılıqlı əlaqəsini tənzimləyən əsas dizayn prinsiplərinə görə sistematik şəkildə təsnif edən inteqrasiya olunmuş taksonomiya təklif edir. Bu, sırf təsviri təhlildən kənara çıxaraq üslubun formalaşmasının struktur anlayışına keçir. Tədqiqat işində dekorativ-tətbiqi sənətin üslub xüsusiyyətləri sadəcə təsvir edilmir, həm də onların materialın texnoloji imkanları ilə əlaqəsi elmi şəkildə əsaslandırılır. Tədqiqat vahid formal meyarlar dəsti altında Art Nouveau-nun üzvi asimmetriyası və İslam incəsənətinin ciddi həndəsəsi kimi bir-birindən fərqli görünən stilistik ifadələri təhlil etməyə qadir olan möhkəm müqayisəli çərçivə hazırlayır. Bu, mədəni baxımdan xüsusi ifadələr altında işdə universal dizayn prinsiplərini ortaya qoyur. Tədqiqatda bu sənətin prinsiplərinin davamlı aktuallığını ifadə etməklə, tədqiqat müasir məhsul dizaynı və sənətkarlıq təhsili üçün yeni nəzəri zəmin yaradır və tarixi stilistik müdrikliyin praktiki olaraq müasir funksional obyektlərə tətbiq oluna biləcəyini təsdiqləyir.

**Nəticə.** Bu tədqiqatda dekorativ və tətbiqi sənətə xas olan bədii üslub xüsusiyyətlərinin sistematik təhlil edilmişdir. Araşdırma təsdiq edir ki, dekorativ tətbiqi sənətdə üslub ixtiyari bəzək deyil, obyektin faydalılığı onun estetik forması üçün əsas rol oynadığı dərin sintezdir. Nəticə olaraq, bu tədqiqat tətbiqi sənətin dərin mədəni və estetik əhəmiyyətini bir daha təsdiqləyir. Dekorativ tətbiqi sənətin obyektləri sadəcə tarixi əsərlər deyil; onlar insanın yaradıcılığının, texnoloji imkanlarının və inkişaf edən zövqünün mürəkkəb sənədləridir. Onların üslub xüsusiyyətlərini diqqətlə təhlil edərək, biz sənətkar, material və gündəlik istifadəçi arasında tarixi dialoqu daha dərindən qiymətləndirə bilərik. Bu araşdırma sənətşünaslıq ixtisasının tələbələri, dizaynerlər, rəssamlar və mədəniyyət sahəsində çalışan mütəxəssislər üçün faydalı ola bilər.